**Ziyadxan Nəbibəyli**

# SULTAN BƏY VƏ XOSROV BƏY QARDAŞLARI

**NURLAR**
BAKI–2011

**Redaktor və rəyçilər:** **İlham Məmmədli,**
filologiya üzrə fəlsəfə doktoru

**Tamxil Ziyəddinoğlu,**
“Bütöv Azərbaycan” qəzetinin
təsisçisi və baş redaktoru

**Ziyadxan Nəbibəyli. Sultan bəy və Xosrov bəy qardaşları.**
Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 224 s., şəkilli

Bu kitab XX əsrin 20-ci illərində Zəngəzur – Qarabağ bölgəsində xarici havadarlarının fəal hərbi-siyasi dəstəyi ilə xalqımıza qarşı tarixdə misli görünməmiş amansızlıqla soyqırım, etnik təmizləmə həyata keçirmiş erməni-daşnak hərbi dəstələrinə qarşı ümümxalq mücadiləsinin başında duran Xalq qəhrəmanı Sultan bəyin anadan olmasının 140 illiyi münasibəti ilə “Zəngəzur” Cəmiyyətləri Birliyinin elan etdiyi müsabiqənin şərtlərinə uyğun olaraq müsabiqəyə təqdim edilən ən yaxşı elmi-tarixi əsər hesab edilərək nəşr olunur.

Kitabda Azərbaycanın qədim torpaqlarından olan Zəngəzur mahalının Hacısamlı bölgəsinin bəyi Sultan bəy, qardaşı – Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hərbi naziri, Gəncə və Qarabağın general-qubernatoru Xosrov bəy və atası Paşa bəydən, onların təmsil olunduqları Qarabağ – Zəngəzurun və onun Laçın bölgəsinin etnomənəvi dəyərlər tarixindən bəhs edilir.

© Ziyadxan Nəbibəyli, 2011

# MÜƏLLİFİN KEÇDİYİ YOLDAN...



Ziyadxan Nəbibəyli zəngin həyat təcrübəsinə malik ziyalılarımızdan olmaqla müxtəlif sahələrdə çalışmışdır. O, Azərbaycan Respublikası Nazirlər Kabinetində Fövqəladə Hallar şöbəsinin, onunla yanaşı Qaçqınlarla İş şöbəsinin müdiri və Hökumətdə üç Komissiyanın sədri vəzifələrində, Komitə Sədrinin müavini, nazirlikdə şöbə müdiri, kollegiya katibi, Elmi-Tədqiqat İnstitutunda direktor müavini, Milli Elmlər Akademiyasında baş elmi işçi, laboratoriya müdiri və s. vəzifələrdə işləmişdir.

Z.Nəbibəyli elmi işlə yanaşı publisistika və jurnalistliklə də tutduğu vəzifələrdən asılı olmayaraq müntəzəm məşğul olmuşdur. O, Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür, "Hüquq" qəzetinin Baş redaktorudur. Elmin müxtəlif sahələrinə, etnoqrafiyaya, tarixi-sənədli mövzulara həsr edilmiş bir çox kitabların, ixtiraların müəllifidir. O, üç xarici Akademiyanın üzvü, t.e.d., professordur, bir çox sahələrə aid elmi yazıların, kitabların və iki təcrübi qurğunun müəllifidir.

Əmək veteranı və Qarabağ müharibəsi veteranıdır, Hökumətin, komsomolun MK-nın, Həmkarlar İttifaqının, digər ictimai təşkilatlatların, İran İslam Respublikasının və s. mükafatlarını, fəxri fərmanlarını almaqla yanaşı, "Qızıl Qələm", "Xalqının Nüfuzlu Ziyalısı", "Şərəf" və s. mükafatlarını da almışdır.

*Kitab xalq qəhrəmanı Sultan bəyin anadan olmasının 140-illiyinə, onun və qardaşı – Qarabağın cəsur general-qubernatoru, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müdafiə Naziri Xosrov bəyin ruhlarına bir xatirədir.*

***Ziyadxan Nəbibəyli***

# ÖN SÖZ ƏVƏZİ

İllər, əsrlər bir-birini əvəz edir, siyasətlər dəyişir, yeni dövlətlər yaranır, köhnələr dağılır, lakin ötən illər, keçmişdə qalan zamanlar, süqut edən dövlətlər, dünyadan köçən sərkərdələr yenidən yad edilir, yer üzərində onların izləri, həyat və fəaliyyətləri araşdırılır, qiymətləndirilir, çünki gələcək bütün böyüklüyü və gözlənilməzliyi ilə keçmişinin sarsılmaz özülü üzərində dayanır.

Bu baxımdan "Sultan bəy və Xosrov bəy qardaşları" kitabı elmi araşdırmalar nəticəsi olmaqla, çoxlu sayda tarixi mənbələr əsasında ərsəyə gəlmiş, Azərbaycanın qədim torpaqlarından olan Qarabağın, Zəngəzurun tarixinə, onun yetişdirmələri olan Sultan bəyin və qardaşı – Qarabağın general-qubernatoru, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müdafiə Naziri Xosrov bəyə həsr olunmuşdur.

Oxuculara təqdim edilən bu elmi əsərin yazarı t.e.d., professor Ziyadxan Nəbibəyli görkəmli elm xadimi olaraq elmi sahədə fəaliyyəti ilə yanaşı, zəngin həyat təcrübəsinə malik ziyalı kimi, adına, andına sadiq, əslinə, kökünə minnətdar bir insan kimi, "Əsli olan unudarmı nəslini" kəlamını əsas tutaraq, Qarabağ və Zəngəzur onun Laçın bölgəsinin tarixi və etnoqrafiyası sahəsində elmi araşdırmalar aparmış, ömrünün bir hissəsini bu işə bağladığı üçün onun hər məqaləsi, kitabı oxucular arasında, ədəbi mühitdə ayrıca bir maraqla qarşılanır. Kitabda incələnən, öyrənilən, tutuş-

durulan materialların, mənbələrin coğrafi və tarixi hüdudları çox genişdir.

Əsərdə ilkin olaraq Qarabağ – Zəngəzur və onun Laçın bölgəsinin etnomənəvi tarixi sahəsində araşdırmalar aparmış, bölgənin insan yaşayışının dünyada ən qədim məskənləri olmaqla, həm də etnosunun ən qədim mənəvi dəyərlərə mənsub olan bir məkan olduğunu, əzəli Azərbaycanın torpaqları olduğunu tarixi mənbələr və dəlillərlə təsbit etmişdir. Zəngəzurun qısa tarixinin xronoligiyası haqqında məlumat verərək, "Zəngəzur" toponimi sahəsində araşdırmalar aparması, Zəngəzurun qədim və zəngin tarixinin yenidən öyrənilməsində, bir çox ziddiyyətli və qaranlıq məsələlərə aydınlıq gətirmişdir.

Kitabda xalq qəhrəmanı Sultan bəy və qardaşı – Qarabağın cəsur general-qubernatoru, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müdafiə Naziri Xosrov bəyin haqqında müfəssəl məlumat verilmiş, Sultan bəyin Azərbaycanın ən qəddar düşmənlərindən biri, ermənilərin isə çox böyük önəm verdiyi Andranik üzərindəki qələbəsi, Sultan bəylə, Xosrov bəyin 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub etməsi, Laçına basqının qarşısının alınması, hərb tariximizin çox şərəfli səhifələrindən biri olduğu qeyd edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti zamanı bölgədəki ictimai-siyasi vəziyyət araşdırılmış, işğalın – 1920-ci ildən sonrakı dövrlərində Azərbaycana, – xüsusən Zəngəzura, Yuxarı Qarabağa və Qərbi Azərbaycana çox ağır itkilər gətirməsi və Zəngəzurun Sovet Ermənistanına qeydsiz-şərtsiz hədiyyə edilmə səbəbləri təhlil edilmişdir.

Kitabın ən önəmli cəhətlərindən və müəllifin uğurlarından biri də ondadır ki, Sultan bəy, Xosrov bəy və ataları, müdrik el ağsaqqalı Paşa bəyin həyatı, şəxsiyyəti, erməni işğalçı quldurlarına qarşı mücadiləsi barədə oxucuda əyani təsəvvür yarada bilmişdir.

***Zahir Abbas***

*Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair*

# QARABAĞ – ZƏNGƏZURUN VƏ ONUN LAÇIN BÖLGƏSİNİN ETNOMƏNƏVİ TARİXİNDƏN

Paşa bəyin, Sultan bəyin, Xosrov bəyin yaşadıqları tarixi Azərbaycan torpaqları Qarabağ – Zəngəzur və onun Laçın bölgəsi insan yaşayışının dünyada ən qədim məskənləri olmaqla, həm də etnosu ən qədim mənəvi dəyərlərə mənsub olan bir məkandır.

Rus imperiyası Azərbaycanın torpaqlarını istila etməklə kifayətlənməyib, onun milli sosial quruluşunu zorakı üsullarla məhv edilməsi, milli addan və tarixi yaddaşdan məhrum edilməsi, onun mənəvi bütövlüyünün parçalanması və milli xarakterin itirilməsi yolunu bizlərə təlqin etdi. Rusların bizlərə qarşı bu cür ardıcıl siyasəti nəticəsində Azərbaycan insanlarında bir-birlərindən uzaq düşmə, bir-birlərini ayırıcı hisslər formalaşmağa başladı və cəmiyyətimizdə bugünkü vəziyyət yarandı. Təcavüzkar, təcavüz edən ermənilərdə isə, birləşdirici (konyuktiv) hisslər daha da üstünlük təşkil etməyə başladı və bu da ruslar tərəfindən istiqamətləndirilmiş bir siyasətin nəticəsi oldu. Rusların uzaq illərə hesablanmış və insanlarımıza açıqlanması verilməyən bu siyasət Azərbaycan insanının etnopsixologiyasını öz doğma etnopsixologiyasından xeyli dərəcədə uzaqlaşdırdı. Bunun nəticəsi olaraq, hətta Azərbaycan, Azərbaycanın tarixi bizlərə etnik – milli mədəniyyət tarixi kimi deyil, coğrafi anlayış kimi şərh edilmişdir. Biz bilməliyik ki, bir çox amillərlə yanaşı milli mədəniyyətin inkişafının kökündə mənəvi dəyərlər durmalıdır. Əks təqdirdə nə təsərrüfat, nə siyasət, nə də sosial münasibətlər öz aparıcılığını icra edə bilməz, hətta iqtisadiyyat milli mənəviyyatın ardınca gəlməlidir.

Etnomənəvi dəyərlər xeyli insani dəyərlərin cəmindən öz təşəkkülünü formalaşdırır. Buraya dil, adət-ənənə, inam, etiqad,

dini mənəviyyat, elm, incəsənət, xalq yaradıcılığının hər bir sahəsi, ideya, siyasi baxışlar, mənlik dərrakəsi, tarixi yaddaş, əxlaq, milli ruh və s. aid edilə bilər.

Tədqiqatlar göstərir ki, Şərqi Afrika, Aralıq dənizi sahilləri, Qafqaz və onun Kür–Araz çayları arasındakı ərazilərdə insanın keçmiş əcdadı, onun inkişaf etmə yolunda sosial-mənəvi varlıq kimi özünü biruzə vermişdir. Tarixə Quruçay mədəniyyəti kimi daxil olan Kür–Araz çayları arasındakı torpaqlarda yaranan mədəniyyət yalnız respublikamızda deyil, Yaxın Şərqdə və Qafqazda əsas mədəniyyət mərkəzi olaraq qəbul edilir. Quruçay abidələrindən, Azıx mağarasından tapılmış əmək alətləri və digər əşyalar bu torpaqlarda insanlığın ilk əmək fəaliyyətindən, daha şüurlu, hərtərəfli fəaliyyətə keçməklə yüksək mənəvi düşüncəyə, zəkaya, ağıla sahib olmağın ardıcıl inkişaf yolu keçməsi ilə nəticələndiyini göstərir.

İnsanın düşünülməmiş əməkdən şüurlu əməyə keçidlə, birgəyaşayış qaydalarının tədricən mənəvi qaydalarla tənzimlənməsi ardıcıllığı başlayır. Bunun sayəsində insanlığın mənəvi dünyası, ibtidai inam və etiqadları, tənzimləyici adət və ənənələri formalaşır. Azıx mağarasının araşdırılan müxtəlif təbəqələrində ocaq yerləri də aşkarlanmışdır ki, bu prosesdə oddan istifadə insanlığın yaxşıya doğru inkişafına böyük təkan vermişdir. Od həm də, insanlığın iqlimdən asılılığını xeyli yaxşılaşdırmış və soyuqdan, vəhşi heyvanlardan xilasını bir növ təmin etmişdir. Bunun sayəsində insanların qidalanma mənbələri çoxalmış, əmək alətlərinin hazırlanması yüngülləşmişdir. Odun xeyrini qavrayan insan, onun mühafizəsinə keçmişdir.

Azıx mağarasından tapılmış və mağaranın bir küncündə qoyulmuş üç ayı kəlləsi üzərindəki xətlər mağara sakinlərinin ibtidai say hesablarına malik olduqlarını göstərməklə yanaşı, dini etiqadların yaranmasına da bir işarədir.

Alimlər bu cür çərtmələri insanın öz fikirlərini təsvir etmə, qeydə almanın ilkin cəhdlərinin, xüsusilə əvvəllər məlum olmayan ünsiyyət üsulu kimi ilkin qrafikanın yaranmasının təsdiqi hesab edirlər.

Azıx mağarasında aparılmış bu və ya digər istiqamətli araşdırmalar göstərir ki, bu ardıcıllıqla inkişaf edən müxtəlif cür “işarələr” digər cismlər üzərində də qeydə alınmışdır. Bir qrup tədqiqatçılara görə Azərbaycanda təşəkkül tapmaqda olan nitqin qrafik cəhətdən qeydə alınmasını, yazıdan öncəki tarixi mərhələ ilə müəyyən əlaqəsi olan ilkin təcrübələrin göz qarşısında olduğuna inamı artırır.

Cəfərov Ə. “Azərbaycanın ilk sakinləri”. Bakı – 2004-cü il və Səlimov – Şağani T.Q. “Saylar və biz”. Bakı 2004-cü il əsərlərində Azıx mağarasında aşkar olunmuş ayı kəlləsinin üzərindəki yeddi paralel xətlərin mahiyyətini şərh edirlər. Onlara görə bir çox xalqlarda 7 rəqəmi tarixən müqəddəs hesab edilmişdir. Çox-çox qədimlərdə Şərqdə yeddi rəqəmi insanların zaman, məkan və səma haqqında təsəvvürlərindən xəbər verir. Qədim türklərdən olan Şumerlərdə yeddi rəqəmi bir növ müqəddəs hesab edilən bir məfhum olmuşdur. Bütün bunlarla yanaşı əminliklə qeyd etməliyik ki, yeddi rəqəminə tarixdə ilk dəfə Azərbaycanın aşel qatında, aşel mədəniyyətində təsadüf olunmuşdur.

Bu işarələr həm də, o dövrün insanlarının ilkin incəsənəti, ümumi təfəkkürü haqqında müasir insanda daha şüurlu təsəvvür yaradır.

Digər qrup alimlər isə Azıx mağarasından tapılmış ayı kəlləsinin gizlədilməsini, heyvana sitayişin bariz nümunəsi kimi qiymətləndirirlər. Həmin dövrün dəfn adətlərinin də bir növ müəyyən bir “biliyə” söykəndiyini bildirir. Deyilən dövrün insanları təkcə öz tələbatlarını ödəmək deyil, təbiət varlıqlarından yaratdıqları alət və vasitələrlə yaşadıqları təbiət üzərində diktə etmək düşüncələri ilə də yaşamışlar. Bu isə mənəvi varlığın başlanğıcı hesab edilə bilər.

Artıq sübuta yetirilmişdir ki, Qarabağ, onun bir parçası olan Azıx və Tağlar düşərgələri dünyanın ilk mədəniyyət ocaqlarından olmaqla, onların xeyli ətraflara mənəvi təsirləri çox güclü olmuşdur.

Bu növ mənəvi dəyərlərin inkişafı nəticəsi olaraq, insanlar mağaralardan çıxaraq, özlərinin yaratdığı daxmalarda, daha geniş ərazilərdə yaşamaqları ilə nəticələnmişdir.

Fikrimizcə, dil qədər insanlığın, mədəniyyətin inkişafına təsir göstərəcək başqa bir vasitə tapmaq çətindir. Canlılardan ancaq insan özündə heç nə ilə müqayisə olunmayacaq mənəvi – yaradıcı güc mənbəyi tapmışdır. Dil ilə, insan özünün təbii zəkası ilə yanaşı bir çox enerjilərdən, təbiətdən, təbiətdə olanlardan şüurlu istifadə etməklə uzun illər ərzində formalaşa biləcək hər hansı bir məqamı çox qısa bir müddətə həyata keçirə bilmişdir. Odur ki, insan dilin mənalı bir aləminə baş vurma vəziyyətində fəaliyyət göstərir, hərəkət edir, işləyir, yaradır, düşünür, düşündürür və müəyyən şüurlu davranışlar həyata keçirir. İnsan sözü nəinki onun davranışına, əxlaqına təsir edir, eyni zamanda insan orqanizmində gedən fizioloji amillərə, onun qanının kimyəvi tərkibinin dəyişməsinə və başqa amillərin yaranmasına səbəb olur.

İstifadə etdiyimiz dilin təşəkkülü və inkişafı insanların yeni-yeni əmək alətlərinin ixtirasına, vəhşi heyvanların əhliləşdirilməsinə, bitkilərin əkilib-becərilməsinə, onun üçün yeni-yeni ərazilərin kəşfinə və bu məkanlarda yaşayışın başlamasına səbəb olmuşdur.

Bu proseslər əsasən hazırda bizə məlum Yer kürəsinin Şimali Afrika, Ön Asiya və Azərbaycan da daxil olmaqla Cənubi Qafqaza aiddir.

Paşa bəy, Sultan bəy, Xosrov bəy də bu torpağın formalaşdırdığı, yetişdirdiyi, əcdadları çox-çox qədimdən burada yaşamış Azərbaycan türklərinin övladlarıdırlar.

Alimlərin tədqiqatlarına görə prototürk dil bölgəsində bozqurd totemi və onunla bağlı inam və etiqadlar, yaradıcı, tənzimləyici mənəvi sistem insan həyatına gəlmişdir. Bu inkişafın mərkəzində bozqurdla insan əcdadının təmasları haqqında ən qədim məlumat Azərbaycanın Azıx abidəsinə aiddir.

Qarabağın bozqurdla bağlı xeyli toponim və folklor nümunələri də burada totemizmin mövcudluğunu qəbul etməyə əsas vermişdir. Beləliklə, bu əyalətlərdə yaşayan qəbilə və tayfaların daimi yaşayış yerlərində və yeni məskunlaşdıqları ərazilərdə yaratdıqları yeni-yeni məhəlli xüsusiyyətlər, mədəniyyətlər gələcək etnik mədəniyyətlərin əsasını, tarixi etnoqrafik əyalətləri formalaşdırıl-

dı. Üst paleolitin sonu, meziolit dövründə Kür və Araz çayları arası, Azərbaycan və Xəzərətrafı əyalətlər eyni etnik mədəniyyət kimi formalaşır, onun daxilində Şimali və Cənubi Azərbaycanın mədəni özünəməxsusluğu formalaşmışdır.

Qeyd etməliyik ki, Azərbaycan çərçivəsində ən güclü etnomədəni inkişaf Qarabağa məxsusdur. Bunun da sayəsində insan zəkasının məhsulu kimi maddiləşən yeni kəşflər zəminində təkmil əmək alətləri yaranır, məhsuldarlıq yüksəlir, istehsalın yeni-yeni sahələri formalaşıb. Öz növbəsində cəmiyyətin sosial – mənəvi həyatı da yeni inkişaf mərhələsinə qədəm atmalı olur. Azərbaycanın bu inkişaf ardıcıllığı tədricən Yunanıstana, Makedoniyaya və Balkanlara doğru irəliləmişdir.

Yer kürəsinin bir çox vilayətlərindən fərqli olaraq, Azərbaycanda onun etnomənəvi əyalətlərindən biri Qarabağda qədim daş dövründən başlanan etnomənəvi inkişaf ardıcıl davam etmişdir.

Ona görə də Azərbaycan insanının səviyyəsi misi kəşf etməyə şərait yaratmışdır. Azərbaycan tarixinin bu mərhələsi eniolit – yəni daş – mis dövrü adlanır və bu dövrdə insanlarımızın mədəni–mənəvi inkişafı xeyli sürətli olmuşdur. Bu dövrdə Azərbaycanda dulus çarxı kəşf edilmiş, mislə bərabər, daş, sümük, ağac və s. əmək alətləri təkmilləşmiş, xeylisi isə yeni yaranmışdır.

F. İsmayılov (İsmayılov F. "Ziqmund Freyd". B.1994), Hüseynov. M.M., İsmayılov Q.S., Quliyev İ.M. və s. alimlərimizin axtarışlarına görə eniolit dövrünə aid Zaqafqaziyada aşkarlanmış 150 əkinçilik "ocağından" əksəriyyəti Azərbaycanda və xüsusən də Mil Qarabağ bölgəsinin payına düşür.

Yaxud, atın, dəvənin və s. heyvanların əhliləşdirilməsi Avropa və Asiya dövlətləri sırasında birinci olaraq Azərbaycanda baş vermişdir. Bunu eyni ilə saxsı məmulatlarının hazırlanmasına da aid etmək gərəkdir. Odur ki, eniolit mədəniyyətinin nəticəsi kimi meydana çıxan, yeni eradan əvvəl IV minilliyin sonu, III minillik Azərbaycan mədəniyyəti elmdə Kür–Araz mədəniyyəti kimi tarixə düşmüşdür.

İstənilən xalqın mədəniyyətində dil qədər etnos üçün birləşdirici, hərəkətverici, inkişafetdirici ikinci bir amil yoxdur.

Deyilən mədəniyyət dövrü (Kür–Araz) Azərbaycanda yaşayan bütün qəbilə və tayfaların vahid maddi və mənəvi mədəniyyətə malik olması, onun dilçilik qanunları bu dövrdə Azərbaycan türkcəsinin bütün tayfalar üçün ümumi ünsiyyət vasitəsi olduğunu göstərir. Bu mənada dilin yaranması ilə Azərbaycan etnosu digərlərindən daha da üstün inkişaf yoluna qədəm qoymuşdur. Həmin dövrdə Qafqazın ən sıx əhaliyə malik bölgəsi Quruçay – Köndələnçay vadisi – Qarabağ olmuşdur. Qarabağın sərhədləri isə Cənub–Şərqdən Kür–Araz çayları qovşağı, cənubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Köşbək, Salvartı və Ərikli dağları ilə Göyçə gölünə qədər uzanmış, şimaldan Goran – Kür çayı ilə sərhədlənmişdir.

Qarabağ, yaxud Kür–Araz mədəniyyəti dövründə Azərbaycanı əhatə edən sosial təbəqələşmə və mədəni inkişaf tunc dövründə ibtidai dövlət ünsürlərinin yaranmasına gətirib çıxarmışdır.

Yaşadığımız eradan əvvəl 2-ci minilliyin sonu və 1-ci minilliyin ilk dövrlərini əhatə edən dövrdə bütün Azərbaycan ərazisində olduğu kimi, Quruçay və Köndələnçay vadilərində də ibtidai–icma quruluşu sona yaxınlaşmışdı. Mülkü təbəqələşmə daha sürətlə inkişaf etmiş və bu tayfalar söz sahibi olmuşlar. Digər tərəfdən bu dövr Qafqazın digər yerləri ilə müqayisədə daha çox araşdırılmışdır.

Bir çox tədqiqatçılara görə, etnomədəni təkamülün bu dövründə eradan əvvəl 1-ci minilliyin ortalarında Şimali Azərbaycanda Alban dövləti təşəkkül tapmışdır. Alban tarixçisi M. Kalankatyuklu qeyd edir ki, "Alban çarı öz hakimiyyətini Şimal tayfaları üzərində bərqərar edəndə, yanına Şimal düzənliklərində və Qafqaz dağları ətəklərində, dağlarda, cənubdakı dərələrdə, çöllərdə və düzənlik başlanan yerlərdə yaşayan vəhşi qəbilə başçılarını çağırıb, onlara qarətlərdən, qətllərdən əl çəkib, çarın vergilərinin itaətlə ödənilməsini əmr edir. Çarın göstərişi ilə qəbilələr üzərinə hakim və canişinlər təyin edilir. Yafəs nəslindən, Sisakan (Sünik) soyundan olan Aran onların hakimi olur.

Aran Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdı.

Onlar öz ölkələrinə Ağvan (Alban) adını ona görə vermişdilər ki, Aranın özünü, yumşaq xasiyyətinə görə “ağu” (mehriban) deyə çağırırdılar. Aranın nəslindən olan məşhur və cəsur ərlərin çoxunu çar Vologez özü hakim təyin etmişdi. Yti, Girdman, Tsovd və Qarqar knyazlıqlarında yaşayan xalqlar da Aranın nəslindəndir”.

Sonrakı dövrdə Aranın hakim təyin edilməsi bu torpaqların Aran adlanması ilə nəticələnmiş və günümüzdə də bu adı daşıyır.

Artıq elmə məlumdur ki, qədim və orta əsr yazılarında Aran və Alban sözlərini əsasən sinonim kimi işlətmişlər. İstənilən halda bu mədəniyyətin başlanğıcı da sonu da Qarabağdır.

M.Kalankatyukluya görə alban xalqı həm də qədim yazıya malik bir xalqdır. Ona görə: “Yazıya malik olan xalqlar yəhudilər, romalılar, yunanlar, midiyalılar (midiyalılar da türklərdir), ispanlar və albanlar”dır. Azərbaycan tarixi (1994-cü il) göstərilir ki, eradan əvvəl 1-ci əsr antik müəlliflərin əsərlərində Alban çarı Oroysun Roma sərkərdələri ilə yazışmaları haqqında məlumatlar mövcuddur.

K. Əliyev göstərir ki, (Алиев К. “Античные источники по истории Азербайджана”. Б.1986 г) Strabon yazır: “Alban kişiləri ucaboylu və məğrur görünüşləri ilə seçilirlər, sadə qəlblidirlər, xırdaçı deyillər”.

SP.Zelinski (Зелинский С.П. “Племенной состав, религия и происхождение государственных крестьян”. SMİGBQKZK. T.2. Tiflis, 1887 г) yazır: “Alban və gürcü əlifbasının erməni Mesrop Maştos tərəfindən IV əsrdə yaradılması “Albaniya tarixi”ni erməni dilinə tərcümə edənlərin və digər erməni ideoloqlarının uydurulmalarından başqa bir şey deyildir”.

Tədqiqatlara görə Qarabağ Albaniyanın etnomədəni mərkəzi Qəbələ şəhəri isə bu ölkənin ilk paytaxtı olmuşdur. Qarabağın aparıcı şəhərlərindən biri olan Bərdə şəhəri isə 5-ci əsrin ortalarından Albaniya dövlətinin paytaxtı olmuşdur.

Haqverdiyev Ə.(“Orta əsr Bərdə şəhəri”.B.,1997-il), Əhmədov Q.(“Qədim Beyləqan”. B., 1997-il), Mahmudlu Y.(“Azərbaycan tarixi intibah dövrü”.B., 1996-il) və s müəlliflər göstərirlər ki, Alban çarı 3-cü Vaçaqan (433-510) əhalinin ibtidai, mifik təfəkkürdən,

yadelli ideoloji təsirlərdən qorumaq, vergi, idarəçilik, təhsil və s. məsələləri qaydaya salmaq üçün sərəncamlar vermişdir. Həyata keçirilən bu qanunlar kimsə məclisində qəbul edildiyindən bu qanun hətta öz dövründə "Alban kilsə (kimsə) qanunları" adını almışdır. Bu məsələni M. Kalankatyuklu belə yazır: "Çar Vaçaqan əmr etdi ki, cadugər, sehrbaz, bütpərəst kahinlər, barmaqkəsənlər və ağı verənlərin uşaqlarını yığıb məktəblərə versinlər və orada ilahi imana və xaçpərəst həyat tərzinə öyrədib, onları müqəddəs Üç Uqnuma etiqad etdirib, dinsizləri Allaha sitayiş yoluna yönəltsinlər"

Kalankatyuklu M. – "Albaniya tarixi". B., 1993-cü il əsərində yazır: "… böyük knyaz Cavanşir dağ mahalına gedib ilin bayram günlərini şadlıqlarda və mahir xalq mahnıları ustalarının arasında keçirmək istəyirdi". Elə bu səbəbdəndir ki, Şuşanı XIX əsrin sonlarında Azərbaycanın konservatoriyası adlandırmışlar.

Albaniyada xristian dini özünə tərəfdaşlar tapsa da ölkə əhalisinin çox az hissəsi xristian idi, bütpərəstlər üstünlük təşkil edirdi, müəyyən hissə isə atəşpərəst idi.

Ərəbistanda islam böyük sürətlə yayıldı, 636-cı ildə Bizans, 642-ci ildə Sasani imperiyaları ərəblərə tabe oldu, Albaniya da ərəb xilafətinin əlinə keçdi. Lakin, islam təkallahlıq kitab əhlini islamı qəbul etməyə məcbur etmirdi. Qarabağı, ondan xeyli ətrafları əhatə edən Albaniya islamı qəbul etməklə bütöv bir xalq kimi təşəkkül tapdı. Həm də Albaniyada islam məscidləri ilə yanaşı kilsələr də fəaliyyətdə qaldılar. Məkkəni dini mərkəz olaraq meydana çıxmasından sonra Qüds iudizmin, xristianlığın və müsəlmanların müqəddəs ocağı hesab edildi. Xristianlığın ideoloji mərkəzləri isə Bizans və Roma oldu. İslam xilafəti tək Allahı qəbul edənləri təqib etmirdi. Lakin, Bizansla istənilən əlaqəni də qəbul etmirdi. Xilafətə casusluq edən və Bizans amilindən bəhrələnən haylar (ermənilər) Alban kilsəsini ələ almağa başladılar. Erməni katalikosu İlya yalan olaraq xəlifə Əbdül Məlikə (685-705) yazırdı: "Alban katalikosu Yunan imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun və onun himayəsini qəbul etsin".

Bunun müqabilində xəlifə Əbdül Məlik silah gücünə Alban katalikosluğunun 705-ci ildə erməni kilsəsinə tabe etdirdi. Ermənilər tərəfindən günümüzdə olduğu kimi kələyə əl atıldı və Alban dini kitabları məhv edildi, Alban kilsələri qriqoryanlaşdırıldı.

Qeyd etməliyik ki, Alban katalikosluğu bir cərəyan olaraq monofizit təriqətinə, haylar isə qriqorizmə xidmət edirdilər. Eyni zamanda 705-ci ildə Xilafətin təsiri ilə Qarabağın Artsax, Sünik (sisakan), Uti, Sakasena, Paytarakan və Girdiman da daxil olmaqla Albaniyanın Kiçik Qafqaz ərazilərinin Arran adlanan bir inzibati ərazi kimi birləşdirilməsi ilə bütöv bir Qarabağın formalaşması baş verdi.

Azərbaycanda islam dininin çoxluq tərəfindən qəbulu ilə onun əhalisinin mənəvi dəyərləri islam dini təsiri əsasında daha da cəmləşdi və türkçülük daha da inkişaf etdi. Bölgənin bütün əhalisi ilə eyni mənşəyə, dilə, adət-ənənəyə, mənəvi dəyərlərə malik xristianlıqda qalan dağlıq hissə əhalisi xristian dinində qaldığından buradakı insanların digərləri ilə birliyi qoşa addımlamadı. Əlbəttə, Qarabağda xristian albanların erməni və başqa xristianlarla birbaşa heç bir əlaqəsi mümkün deyildi. Onların da daxil olduğu türk mədəniyyəti, siyasi hakimiyyəti və hətta islamın təsiri əsas sayılırdı. Deyilən dövrdə Kiçik Asiyada yaşayan ermənilər çox azlıq təşkil edirdi və xilafətdə də hərbi-siyasi hakimiyyət türklərdə idi. Bu dövrdə artıq Qarabağ Orta və yaxın Şərqin etnomədəni siyasi mərkəzlərindən birinə çevrilmişdi.

Voroşil Q. ("Qafqaz Albaniyası." B., 1993-cü il), Məmmədov M.M. ("Кавказская Албания".B.,1993) və s. alimlərin fikrincə, türk dilinin imkanları alban ziyalılarının dünya mədəniyyətinə bələdliyi arami və yəhudi dillərindəki "Tövrat", yunan dilində Homerin "İliada", Vergilinin "Eneida" və s. əsərlərinin alban türkcəsinə tərcümə edilib, insanlar arasında yayılmasına şərait yaratmışdır.

Həmin dövrdə türk-islam mədəniyyəti Albaniya və onun paytaxtı Bərdədə mədəni yüksəlişə, Bərdənin isə islam dünyasının mədəni mərkəzlərindən birinə yüksəltmişdir.

Türk səyyahı (XVII əsr) E. Çələbi yazır: "Azərbaycanda üç Qarabağ vardır ki, onların hər biri behişt gülüstanını, bağını xatır-

ladır. Biri Naxçıvanın Qarabağlar şəhəri, digəri Azərbaycanın kiçik şəhərlərindən olan Qarabağ şəhəridir, Təbriz əyaləti də ayrıca sultanlıqdır. Üçüncü Qarabağ isə "kiçik Azərbaycan"dır ki, onun-Qarabağın coğrafi vəziyyəti, əhalisinin adət-ənənəsi, inamı, etiqadı, tamlıqda mədəni dəyərləri, doğrudan da "kiçik Azərbaycan" olsa da, bütün Azərbaycanı özündə cəmləyə bilmişdir.

Azərbaycanın böyük oğlu Şah İsmayıl Xətai dövləti çərçivəsində yaradılan bölğüdə mərkəzi Gəncə şəhəri olmaqla Qarabağ bəylərbəyliyi yaradıldı. Qarabağ o dərəcədə şöhrətli olmuşdur ki, Qarabağ bəylərbəyisi Hüseyinxan Ziyadoğlunun "Qarabağ" soyadına layiq görülməsi haqqında 1-ci şah Abbas sərəncam imzalanmışdır.

Yuxarıda dediklərimiz Paşa bəy, Sultan bəy və Xosrov bəyin təmsil olunduqları Yuxarı Qarabağın bütün çalarlarının qısa da olsa necə formalaşdığını və onların da belə bir torpağın məhsulu olaraq dosta dost, düşmənə düşmən hər bir vətən oğlunun necə cavab verməli olduqlarını insanlarımıza tövsiyə etməkdir.

Təbii ki, fikrimizin əsas qayəsi erməni daşnaklarının xalqımıza hansı zillətləri verdiklərini, onlara qarşı aparılmış nümunəvi mübarizəni xalqımızın beyninə və onun tarixinə həkk etməkdir. Qabarıq, gözəçarpan dərəcədə erməni məsələsi XVIII əsrdən Avropa və ABŞ imperialist qüvvələri üçün Qafqaz, Asiya torpaqlarının, əsasən də türk və islam xalqlarını köləyə çevirmək, türk xalqlarını bir-birindən ayırmaq, islamın inkişafının qarşısını almaq məqsədi ilə ortaya atılmış bir məsələdir.

Tarixən müxtəlif ölkələrdən gələrək, müxtəlif yerlərdə seyrək də olsa məskunlaşan haylar qriqorian təriqəti köməkliyi ilə fəallıq göstərsələr də Alban dövləti və kilsəsi tərəfindən dəfələrlə rədd edilmişdir.

Ərəb xilafəti hiss edirdi ki, Alban türkcəsində Bibliyanın mövcudluğu nə Albaniyanın özündə, nə də digər türk torpaqlarında islamın qələbəsini təmin edə bilməyəcəklər. Azərbaycan-türk Alban kimsəsini ermənilərə təslim edib, onun vasitəsi ilə Alban türkcəsində olan bütün xristian yazılı mənbələrini məhv etdi və həm də onun başqa türk xalqları arasında yayılmasının qarşısını aldı.

Qarabağın xristianlığı davam etdirən dağlıq Laçın bölgəsində heç bir hay qriqorian yazısı yaranmadı, yayılmadı. Alban kilsəsinin hay kilsəsinə tabe edildiyi 705-ci ildən 977-ci ilə qədərki müddətində Qarabağda cəmi üç hay dini epiqrafik sadə və kiçik formalı abidəsi mövcud olmuşdur. Səbəbi isə, əlbəttə Qarabağda müsəlman-türk etnomədəni və siyasi-iqtisadi mühitinin hökmran olması idi.

Lakin, Xilafətin ideoloji təsirləri yeni eranın X əsrində xeyli zəifləməsi ilə Qarabağda xristian icmasında nisbətən fəallaşma baş vermişdi. Bununla yanaşı xristian albanlar belə, islamın güclü təsiri altında xristanlıqdan xeyli uzaqlaşmışdılar.

Alban xristianlığının dini-mənəvi əsərlərinin çap olunmaması bəzi alban xristianlarının erməni yazılarına müraciət etməsinə sövq edirdi. Ancaq, erməni müəlliflərinin bir çoxu, o cümlədən Kondzakesi K. ("История". B., 1946) yazırlar ki, XIII əsrdə alban din xadimlərinin əksəriyyəti ermənicə heç nə bilmirdi. Kimsələrdiki tədbirlər albanca – yəni azəri türkcəsi ilə keçirilirdi. Qarabağın Ağdərə bölgəsindəki Vəng kəndi yaxınlığında alban katalikosluğunun mərkəzi var. Alban knyazı Həsən Cəlalın göstərişi ilə tikilən Qandzasar məbədi üzərində ermənicə yazıblar: – "Məbəd alban katalikosunun əmri ilə Şah Həsən Cəlal tərəfindən albanlar üçün tikilmişdir". Professor Məmmədova Fəridə xanımın "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası " (B.,1993-il) kitabından götürülmüş bu ifadələr XIII əsrdə Alban kilsələrində din xadimlərinin hamısının erməni dilini bilməməsi, Qandzasar monastrının məhz albanlar üçün tikilməsi məlumatı Qarabağda xristian əhali ilə ermənilərin etnomədəni, dini-mənəvi məsələlərin müqayisəsi və onun səviyyəsi haqqında dəyərli mənbələrdən biridir.

İstənilən bir dil insanlar tərəfindən o zaman qəbul edilir ki, gündəlik tələbata, zəruri ünsiyyət vasitəsinə çevrilə bilsin. Tarixən təkcə Azərbaycanda deyil, bütün Qafqazda Azərbaycan türkcəsi ünsiyyət vasitəsi olaraq mövcud olmuşdur.

Rus imperiyası və Avropanın aparıcı dövlətləri hay satqınlarından istifadə etməklə Qafqazı və Asiyanı türk xalqlarını tarix səhnəsindən silmək, işğal etmək, qərarına gəlmişlər.

Rus Sovet tarixçiləri türk adlı bir xalqın mövcudluğunu belə, qəbul etməmişlər. Bizləri bizi tarixi köklərimizdən ayırmaq üçün Manna, Midiya və Albaniya dövlətləri torpaqlarında ləzgidilli insanların yaşadıqlarını qələmə almışlar. Sonralar isə onlara məlum olmuşdur ki, dağıstandillilər də qədim uqrofin türk tayfalarının övladlarıdırlar.

Başqa bir məqam isə Albanların erməni (hay) köklü olmasını yazıya almaq olmuşdur. Təbii ki, bu fikir hayları qane edir, Qafqazda məskunlaşmanın əsasını yaradırdı. Lakin, tarixi mənbələr başqa dəlil və sübutlar ortaya qoyur. Belə ki, 1724-ci ildə Osmanlı imperiyasının Gəncə-Qarabağ bəylərbəyliyini tutduğu zaman 1725-1727-ci ildə tərtib olunan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, yaxud, 1822-ci ildə Qarabağ xanlığının rus imperiyası tərəfindən ləğv edilərək, Qarabağ əyaləti yaradıb və 1823-cü ildə Qafqaz qoşunlarının baş rəisi-general Yermolovun tapşırığı ilə onun müşaviri Mogilevski və polkovnik Yermolovun qeydə aldığı "Qarabağ əyalətinin təsviri" tarixi sənədi də bu əyalətdə Azərbaycan türklərinin qədim tarixlərdən burada yaşamalarına əyani sübutdur.

Bu sənədlərdə alban dilinin (Alban dövlətin adıdır) leksik, qrammatik, fonetik və s. cəhətdən Qarabağda, o cümlədən bütün Azərbaycanda türk dilində olduğu ilə eyniyyət təşkil edir, daha doğrusu Azərbaycan türkcəsidir. Bununla yanaşı istər Qarabağda və istərsə də Bütöv Azərbaycanda bütün toponimlərin, hidronimlərin və sairənin də hamılıqda türk adlı olduğu bu sənədlərdə öz əksini tapmışdır.

Ermənilərin, rusların, avropalıların, xristian aləminin iddialarının əksinə olaraq, eramızın 5-ci əsrində Kiçik Asiyanı Armeniya (Ərməniyə) (bu ad hələ hayların erməni olmasına əsas vermir) adlanan ərazisində yazılı dilə çevrilən qrabar dilini də erməni dili hesab edənlər var.

Bitkov P.Q. (материалы новой истории Кавказа с 1722г по 1803г Ч.3.1869г), Seyidov.M (Azərbaycan-erməni ədəbi əlaqələri B.,1976-il) və erməni dilçi alimi N.Acaryan yazırlar ki, erməni

dialektləri içərisində minlərcə müasir Azərbaycan türkcəsində işlənməyən qədim türk (arxaik) sözləri müəyyən etmişlər.

N.Acaryana görə: – “ Qrabar tamamilə Avropa dillərinə uyğundur, məsələn, fransız dilinin quruluşuna bənzəyir və qrabar müasir erməni dilinin quruluşunun əksinədir. Müasir erməni dilinin quruluşu türk dillərinin quruluşuna uyğundur”. Yəni, ermənilər istənilən cəhətdən özlərini qədim xalq, qədim tarixli xalq hesab etsələr də, yalandan istədiklərini yazsalar da, tarixi araşdırmalar bütün sahələrdə hayların yalanlarını ifşa edir. N.Acaryana görə türk dilinin təsiri ilə erməni dilinin quruluşundakı dəyişikliyi 7-ci əsrə aid edir.

Q.Voroşil isə erməni və gürcü dilini mükəmməl bilən bir tədqiqatçı kimi bildirir ki, “Erməni və gürcü dilləri eramızın 5-ci əsrin ilk rübündən etibarən yazısı olan dillərdəndir. Bununla belə, onların təsir dairəsi heç də Azərbaycan dilinin təsir dairəsi səviyyəsində olmayıb.” (Voroşil Q.. – “Qafqaz Albaniyası”.B.,1993-il)

XIX əsrin sonlarında yaşamış Mordtman yazır: “...ermənilər Hind-Avropa mənşəli (qaraçı.Z.N.) xalqdır, amma onların dili Turan dilinin güclü təsirinə məruz qalmışdır...”

Məlumdur ki, istər Osmanlı imperiyası, istəsə də Rus imperiyası Qarabağda, ümumiyyətlə Azərbaycanda tərtib etdikləri sənədlərdə türk əhali sadəcə müsəlman kimi qeydə alınmışdır, etnik mənsubiyyət göstərilməmişdir. XVIII əsrdə tərtib edilən bu sənədlərdə yalnız Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrindəki 25 kənd “erməni kəndi” kimi göstərilib. Bu ermənilərin də xaricdən köçüb gəldiklərini Qriboedov A.S., Xanaqov A.E., Çavçavadze İ.Q., Kanakerski Z. Və s. erməni-xristian yazarları yazmışlar.

Səfəvi-Osmanlı münaqişələri zamanı şiə dini təriqətinə mənsub Azərbaycan türkləri sünni təriqətinə mənsub Osmanlı hakimiyyətini qəbul etməyib, Cənubi Azərbaycana köçmüşlər. Türkiyədə Osmanlı hakimiyyətini qəbul edən ermənilər bu kəndlərə köçürülmüşlər. Bu 25 kəndin hamısının adı türkcə olmuşdur. Yəni, ermənilər Azərbaycan türklərinin tərk etdikləri kəndlərdə yerləşdirilmişlər.

Bütövlükdə Qarabağ albanları dil, inam, etiqad, mənəviyyat, mədəniyyət, adət-ənənə, bütün etnik xüsusiyyətilə Azərbaycanın türk etnonimi ilə yaşamış toplum olmaqla, eyni mənəvi dəyərlərin daşıyıcıları olmuşlar. Bununla yanaşı xristianlıq albanların ideoloji-siyasi baxışına xristian yönümü vermişdir. Rusların işğalçılıq siyasətinin kökündə isə bu amildən istifadə etməklə xristianları guya müsəlman zülmündən xilas etmə bəhanəsi dayanırdı. XVIII əsrin əvvəllərindən Rusiya, İngiltərə, Fransa, Avstriya, Yunanıstan və s. ölkələr deyilən yalançı, süni fikri şərq məsələsi, ermənilərisə erməni məsələsi adı verməklə dünya siyasi səhnəsinə çıxarmışlar. Qarabağda xristian əhalini cəm edən və türklərə, türk-müsəlmanlara qarşı qaldıran, ruslara dayaq olmaq arzusunu casus İvan Karapet hazırlamışdı.

Ə.Cəfərovun ("İnsanlığın səhəri".B., 1994-il) və "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Bakı 2000-il) tarixi sənədlərinin məlumatlarına görə, Səfəvilərin məğlubiyyətindən sonra, 1723-cü il avqustun 23-də 1-ci Pyotrun qoşunları Dərbənd şəhərini tutub Xəzər sahili ilə Azərbaycanın mərkəzinə doğru irəlilədi. Bunu bilən Osmanlılar Gürcüstanı tutub qərbdən Azərbaycana daxil oldular. Azərbaycanda mərkəzi hakimiyyətin süqutu Gəncə-Qarabağ bəylərbəyliyinin Osmanlılara hərbi müqavimətinə imkan vermədi. Bu bölgənin əhalisi, xüsusən də Gəncə əhalisi şəhəri – vətənlərini tərk edib başqa yerlərə, Cənub Azərbaycana köç etdilər. Qarabağın xristian albanları Osmanlıya itaət etdilər, onunla da yaşadıqları yerlərdə qaldılar və xeyli boş qalmış vəzifələri də tutdular. Ayrı-ayrı ölkələrdən Qarabağa yığılmış ermənilər isə Rus qoşunlarının gəlişi ilə müsəlman türklərin qoyub getdikləri kəndlərdə və Gəncə şəhərində hazır mülklərə sahib oldular. Elə bu səbəbdən də ermənilər məskunlaşan, türk adını daşıyan bu etnonimlər əvvəlki adları ilə qaldılar. Qarabağın xristian albanları və gəlmə ermənilər bu vəziyyətdən çox bəhrələndilər.

Səfəvilərin siyasi səhnədən uzaqlaşmasından sonra Azərbaycan dövlətçiliyini bərpa etməyə Nadir Şah başladı. Təəssüflər olsun ki, Nadir şahı başa düşməyən Gəncə-Qarabağ bəylərbəyisi Ziyadoğlu,

Qarabağın Kəbirli və Cavanşir tayfa başçıları onu şah kimi tanımaq istəmədilər. Bunların əksinə olaraq Qarabağın xristian-türk albanları və ermənilər Nadir şaha özləri yaxınlaşdılar. Nadir şah, onu qəbul etmək istəməyənləri Xorasana sürgün etdirdi. Xristianların ən çox fəallıq göstərənlərinə Nadir şah məlik vəzifəsi və torpaq verməyə başladı.

Mirzə Adıgözəl bəy "Qarabağnamədə yazır: – "Qarabağın "xəmsə" adı ilə məşhur olan beş mahalın hər birinin ayrı-ayrı adı vardır. Bu mahalların sayı beş olduğundan, onlara Xəmsə adı verirlər, çünki ərəb dilində beş ədədinə xəmsə deyilir.

Həmin mahalların biri – Dizaqdır. Məlikləri Məlik Yeqan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmri ilə məliklik taxtında oturub.

İkincisi – Vərəndədir. Məlikləri Şahnəzərlilər Göyçə əsilzadələrindəndir... Oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşdur.

Üçüncüsü – Xaçındır. Məlikləri Həsən Cəlal övladlarıdır.

Dördüncüsü – Çiləbyurd mahalıdır. Məlikləri Məlik Allahquludur. Əsilləri mağavizdən gəlmədi... Nadir şahla Osmanlı sərkərdəsi Köpürlü oğlu Abdulla paşa arasında olan müharibədə, Məlik Allahqulu çox şücaət və igidlik göstərdi. Nadir şah da məliklik xələtini onun qabiliyyətli vücuduna layiq görmədi, ona sultanlıq rütbəsi və xələt verdi...

Beşinci – Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir. (Mirzə Adıgözəl bəy – Qarabağnamə. Qarabağnamələr. 1-ci kitab. B., 1989-il) Təbii ki, bu və istənilən tarixdə erməni məlikliyi və ya "Xəmsə"si olmayıb.

Yeri gəlmişkən deməliyik ki, Avropa xristian dövlətləri, xüsusən də ruslar Azərbaycan türklərinə müxtəlif adlar vermiş, xoşagəlməz fikirlər söyləmiş və bunların hamısını heç nəyə söykənmədən özləri bir növ uydurmuşlar. Bunlardan biri də 1823-ci ildə tərtib olunan "Qarabağ əyalətinin təsviri"dir. Sənəddə Azərbaycanda həyata keçiriləcək total milli, dini-ideoloji siyasətin yolları öz əksini tapmışdır. Döyüşkən, ölümün gözünə düz ba-

xan bir xalq, şərq mədəniyyətinə xeyli tövhələr verən müsəlman və xristian türk millətinin varlığı danılırdı. Xristian alban türklər erməni, müsəlman türklər isə Rusiyada mənfi xüsusiyyətləri yaradılmış "tatar" kimi göstərilirdi.

Beləliklə, 1823-cü ildə tərtib olunan "Qarabağ əyalətinin təsviri" adlı sənəddə Qarabağda əhalinin etnik mənsubiyyəti tatar və erməni kimi göstərildi.

Nadir şaha sui-qəsd edildi. Bununla da Nadir şah Əfşar imperiyası çökdü və bu imperiyanın yerində ayrı-ayrı xanlıqlar yaranmağa başladı. Xanlıqların birləşmə istəyənlərinə də ruslar imkan vermədi. Elə bunun da sayəsində Gəncə-Qarabağ bəylərbəyliyi torpaqlarında Gəncə və Qarabağ xanlıqları formalaşdı.

V.N Leviatov yazır ki, Qarabağın xristian və müsəlman əhalisi eyni mənşəli, vahid xalq olduğunu dərk edirdi. Bu səbəbdən əvvəl-əvvəl Qarabağ xanlığının yaranması və rus dövlətinin hakimiyyət uğrunda mübarizəsini dini mübarizəyə çevirmək istəyi alınmadı. Qarabağ albanları doğma türk mühitində yaşadığından, onlarda milli şüur, dini şüurdan güclü idi. Bu səbəblərdən də dini şüurun təsiri altında özlərini Qarabağ türklərindən ayırıb onlara qarşı qoymurdular. 1826-cı il müharibəsində xristian albanlar Qarabağın müsəlman türkləri ilə birlikdə Mehdiqulu xanın ətrafında birləşib, rus-erməni işğalına qarşı vuruşurdular.

Tədqiqatlar göstərir ki, Qafqazda erməni dövləti yaratmaq ermənilərdən çox rusların planı olub.

N.N Şavrov yazır: "... 1826-1828-ci illər Qacarlar monarxiyası ilə Rus imperiyası arasındakı müharibəyə qədər Yelizavetapol quberniyasında və İrəvanda ermənilər sayca cüzi olub, heç bir əhəmiyyət kəsb etmirdi". 10 fevral 1828-ci il Türkmənçay müqaviləsilə ruslar Şimali Azərbaycanın işğalını hüquqi müstəvidə özününküləşdirdi və bununla da Qacarlar dövlətindən 18 min bir, 82 min erməni ailələrini Şimali Azərbaycana, əsasən də Qarabağa planlı qaydada köçürdü, onlara gözlədiklərindən də yaxşı şərait yaratdı. Bununla da məsələ bitmədi. Rusiyanın İrandakı nümayəndəsi oradan Şimali Azərbaycana daha 40 min erməni

köçürdə bildi. Rusiya ilə Osmanlı arasında bağlanan Ədrinapol müqaviləsindən sonra 1828-1830-cu illər arasında Osmanlıdan bizim torpaqlara əvvəlcə 84600 nəfər, sonra 124 min nəfər və ən nəhayət bu ermənilərin sayı 200 min nəfərə çatdırıldı və ən yaxşı torpaqlarda məskunlaşdırıldı. Qafqaz qoşunlarının baş komandanı Sisanov 1-ci Nikolaya yazırdı: "...Qarabağ nəinki Azərbaycanın, bütün qacarlar monarxiyasının qapısıdır. Biz hökmən burada möhkəmlənməli və ermənilərin üstünlüyünü yaratmalıyıq."

Bütün deyilənlərlə kifayətlənməyən ermənilər, vaxtı ilə Hindistandan qul kimi pulla alınaraq Dəclə-Fərat çayları sahillərinə aparıldıqları bölgədən Qara dəniz – Xəzər dənizi sahillərinə qədər böyük bir ərazidə "Böyük Ermənistan" yaratmaq uğrunda fəallıqlarını get-gedə artırırdılar. İndinin özündə haylar həmin torpaqlardan erməniləri planlı şəkildə Qarabağa gətirirlər.

Həmin vaxtdan günümüzə qədər (yəqin ki bundan sonrada) haylar Qafqazın qədimdən erməni torpağı olduğunu sübut etmək üçün alban və gürcü yazılarını kilsələrin üzərindən çıxarıb, onun əvəzində erməni dilində yazılmış daşları qoymaqda davam edirlər.

Ruslar 1836-cı ildə Alban patriarxlığını ləgv edib, onun tabeliyində olan vilayət və qəzalarda Eçimiədzin katalikosluğuna tabe iki yepiskopluq və bir vərəsəliklə keçən yeparxiya yaratmış və bunu heç bir kəsə bildirməmişlər.

Milliyyətcə erməni olan A.E. Xan-Aqov yazır: "Cavanşir qəzasının əhalisi başlıca olaraq tatarlardır (türklərdir), ermənilər bu rayona başqa yerlərdən gəlmişlər, İrandan gəlmə ermənilər, yerli Qarabağ ermənilərindən (xristian albanlardan) dilləri, hətta geyimləri ilə də fərqlənirlər. İran erməniləri yerli ermənilərin (albanların) dilini başa düşmürlər. Lakin, gəlmələr tezliklə yerlilərin dilini unutdurdular". (Xan-Aqov A.E. – "Экономический выт государственных крестъян Джаванщирского уезда Елизаветполъского губернии. МИЭБГКЗК. Т.6, Тифлис, 1887г) Yaxud, digər erməni A.S. Vatepetov yazır: – "Erməni katalikosluğu və naxararlığının mənafeyi hər dəfə tələb etdikdə, erməni kilsəsi həmişə yadelli işğalçıların köməyinə əl atır, "Xaç bayrağı

ilə öz yolu üzərində tarixi Albaniya və onun bir hissəsi olan Qarabağ (Artsax) xalqlarını" yox edirdi.

Ermənilər Qafqazda ardıcıl olaraq yerləşdirilirdi. 1877-1879-ci illər Rus-Türk müharibəsi zamanı buraya əlavə 85 min erməni köçürüldü və N.N. Şavrovun yazdığı kimi ermənilərin sayı bir milyon 300 min nəfərə çatdırıldı.

Etnoqraf alimlərin fikrincə etnos-qəbilə, tayfa, xalq, millət məskun olub formalaşdığı ərazinin təbii-coğrafi şəraitinə uyğun etnososial təbəqələr yaradır. Hər bir etnosun inkişafının mənbəyi onun mənəvi gücü, milli ruhu və daxili birlik qüvvəsidir. Mənəvi cəhətdən zəngin və bütöv etnoslar hərbi-siyasi cəhətdən zəngin və bütöv etnoslar hərbi-siyasi cəhətdən də qüvvətli olurlar. Bir neçə əsr rus-erməni zülmünə dözən Qarabağ əhalisi, Azərbaycan türkləri hələ də etnosdan tələb olunan xüsusiyyətlərini tam itirməmişlər. Qarabağı azad etmək üçün bu etnosun həm də etnogenetik vücudunu saxlamış bir sərkərdəyə də ehtiyacı vardır. Birdəfəlik bilməliyik ki, etnosun mənəvi məğlubiyyəti, mənəvi xarakterinin korlanması onun tənəzzülü və süqutu deməkdir. Etnosun mənəviyyatının qorunması onun iqtisadi durumundan da vacibdir.

Ruslar Azərbaycan türklərini bütün sahələrdə sıxışdırıb məhv etmək istəsələr də XX əsrin əvvəlinə burada mənəviyyat məsələləri hələ də bir çox ölkələrdən çox-çox üstün idi. Bunu ruslar ozləri etiraf etmişlər. P.Vostrikov(Музыка и песпия у азербайджанских татар. СМОМП. Тифлис, 1912, вып. 42. отдел II) yazır: "Azərbaycanlılar öz vətənlərini, tarixi keçmişlərini çox sevirlər. Onlar sözlərinə düz, diqqətli, həm də başqasının dərdinə qalandırlar". Digər tərəfdən, Qarabağ, onun bütün bölgələri tarixən, həqiqətən də mədəni əyalətlərimizdən biri olmuşdur.

N.V.Smirnovun dili ilə desək Qarabağı onun Şuşa şəhəri "Balaca Paris", Qafqazın İtaliyasıdır. Bütün bunlara baxmayaraq Rusiya hər vəchlə Azərbaycan türklərini yox etmək, burada xristian Ermənistan yaratmaq iddiasından əl çəkməmiş və indi də bu niyyətdədirlər. Milliyətcə fransız olan Edmond Hippo yazır: "Rus imperiyası Qafqazı işğal etdikdən sonra Azərbaycan adını Qaf-

qazdan sildi. Rusiya öz yeni qurbanlarının adlarını dəyişib, onlara "Qafqaz tatarları", yaxud Qafqaz müsəlmanları" adını verdi. ("Edmond Hippo Azərbaycan haqqında" – Hamlet Qoca –"Fransızlar yurdum haqqında" – B., 1990-il).

Ruslar erməniləri dünyanın müxtəlif yerlərindən Azərbaycana toplayaraq, onları silahlandırmış, təlimatlandırmış və yerli türk xalqının üstünə qıcatmışdır. Belə hadisələrin şahidi olmuş və əslən qarabağlı olan Əhmət Ağaoğlu söyləyir: "Möhtərəm Gəncə xalqı, türklərlə ermənilər arasında əmələ gələn son hadisə hamımızı mütəəssir etdi. Nə müsəlmanlıq, nə də insanlıq böylə vəhşətə yol verməz. Yer üzündə Allahın yaratdığı nə qədər vəhşi və yırtıcı heyvan varsa, onlar başqa heyvanları parçalarlar, amma həmcinslərinə əsla toxunmazlar. Nə acıdır ki, vəhşi heyvanların yapmadıqlarını ermənilər yapırlar... tarixdə bu naxoş hadisəyə bənzər heç bir hadisə baş veməmışdır". (N.Şeyxzamanlı –"Azərbaycan istiqlal mücadiləsi xatirələri". B.,1997-il)

Müstəqilliyini elan etmiş Azərbaycan milli şurası üzvləri Azərbaycan türkləri arasından çıxmış, onun mənəvi dəyərlərini özündə cəmləşdirən milli ruhlu rəhbərlər, dövrünün elmi-siyasi cəhətdən yetkin, kamil şəxsiyyətləri, bəy övladları idilər. Onlar düşdükləri ağır vəziyyətlərdən də çəkinmədən, ömürlərinin sonuna kimi öz əqidələrindən dönməmiş, təkcə Azərbaycan xalqına deyil, bütün dünyaya əsl türk kişisinin kimliyini göstərmiş oldular. M.Ə. Rəsulzadəni, F.X. Xoyskini, S. Mehmandarovu, Paşa bəyin oğlu Sultan bəyi, qardaşı Xosrov bəyi kimlə müqayisə etmək olar?!

Gənc Azərbaycan Cümhuriyyətində S.Mehmandarovun rəhbərliyi ilə uğurlu ordu quruculuğu gedirdi. Azərbaycanın bir çox yerlərində ermənilərin törətdikləri vəhşiliklərə, qırğınlara son qoyulsa da, Qərbi Azərbaycanda, Qarabağda, Zəngəzurda erməni qoşunları geri çəkilmək istəmirdi, qırğınlar, yanğınlar, vəhşiliklər davam edirdi. Erməni işğalının qarşısını almaq üçün Azərbaycan Cümhuriyyəti 15 yanvar 1919-cu ildə Zəngəzur, Cəbrayıl, Cavanşir və Şuşa qəzalarını Gəncə quberniyasından ayırıb vahid Qarabağ general-qubernatorluğu yaratdı. Qətiyyətli, ağıllı, çevik

düşünmək və qərar qəbul etmək qabiliyyətinə malik Xosrov bəy Paşa bəy oğlu Sultanov bu qubernatorluğa başçı göndərildi. Elə ilk günlərdən Xosrov bəy erməniləri Azərbaycan hökumətinin qanunlarına, milli iradəsinə tabe olmağa nail oldu.

Xosrov bəyin mərkəzə verdiyi məlumatların birində göstərilir ki, ermənilər Dığ kəndinə üç minə qədər silahlı əsgər, onlarla zabit, top və pulemyot toplamış, Xənəzəyə top gətirmişlər. Həmin ilin mart ayında Gəncədən Qarabağa 1000 nəfərlik silahlı dəstə göndərilmiş və Gəncədə yenidən 5000 nəfərlik qoşun təşkil olunması ilə məşğuldurlar. Çaykənddə 2500-3000-ə qədər erməni silahlısı toplanmış, Dilicandan Zəngəzura 7000 nəfərlik erməni ordusu keçirilmişdir. Ermənilər artıq hərəsi 60 nəfər olan qruplar yaradıb, kütləvi hücum təşkil etmək üçün hərbi kəşfiyyat işləri aparıblar. Martın 20-də Qarabağın hökumət idarəsində işləyən iki erməninin köməyi ilə 25 nəfər erməni silahlısı gizlincə Şuşaya gətirilmiş, martın 22-də onların sayı 200 nəfəri keçmişdi. Ermənilərin hücumunun vaxtı isə 22 mart, gecə saat üçə təyin edilibmiş. Məlum olduğu kimi qiyamın 22-si marta salınması ermənilərin Azərbaycan xalqına sarsıdıcı mənəvi zərbə vurmaq istəyindən meydana gəlirdi və ermənilər zaman-zaman bu tarixdən istifadə etmişlər.

Ermənilər nəzərdə tutduqları kimi 22-si mart, gecə saat 3-də Əsgəran, Xocalı, Tərtər, Xankəndi və Şuşada olan Azərbaycan əsgərlərinin üstünə hücuma keçdilər. Əsgəran istisna olmaqla (Əsgəranda qüvvələr nisbəti zəif idi), Xankəndində, Tərtərdə, Xocalıda məğlub olan ermənilər Şuşa ətrafına doluşdular və şəhərin digər məntəqələrlə əlaqələrini tamam kəsdilər. Böyük nüfuz sahibi olan Xosrov bəy qətiyyəti və təmkinli hərəkətləri, düzgün addımları əhalidə hər hansı çaşqınlığın yaranmasına imkan vermədi. O, ilk olaraq partizanlara əsas mövqeləri tutmağı və qüvvə nümayiş etdirəcək əks zərbələr vurmağı göstəriş verdi. İlk olaraq Ağdamla Əsgəran arasındakı ermənilər məhv edildi və Aran Qarabağın yolu açıldı. Bütün əhali Xosrov bəyin köməyinə gəlir, əsgərləri yeməklə təmin edir, yaralılara yardımlar edirdilər. Ermənilərin martın 24-də Tərtərə hücumunu da partizanlar dəf etdilər. Tərtərdən son-

ra ermənilərin bütün cəhdləri dəf edildi və onlar geri çəkildi, xeyli hissəsi qaçaraq öz canını qurtarmaq istədi. Onun ardınca Cümhuriyyət general-mayoru Həbib bəy Səlimovun rəhbərliyi ilə 26 martda Ağdamda hərbi qərargah yarandı və aprelin 5-də Dəli Qazarı dəstələri ilə birlikdə məhv etməklə Şuşaya üz tutdular.

Deməliyik ki, bu və Sultan bəyin Zəngəzurda, Laçındakı qələbəsi xalqımızın mənəvi birliyinin nəticəsi idi. İndiyə qədərki erməni hücumlarının hamısında onlar ilk növbədə hərbi silah-sursat üstünlüyünə malik olmuşlar və tarixi məqamları ayıqlıqla seçə bilmişlər.

Əgər, Azərbaycan dövləti, Azərbaycan xalqı tarixi məqamlara unutqanlıqla yanaşmasa, insanların, millətin mənəvi dəyərlərini gündəmdə saxlamağa və silahlı qüvvələrə üstünlük verərsə, heç bir erməni ordusu bizə qalib gələ bilməz. Elə bir şərait yaratmağa ehtiyac var ki, tarixən ata-baba yurdunu tərk etmiş ailələrin övladları hamılıqla həmin torpağa qayıtmaq arzusunda olsunlar, bu yolda ölüm-dirim mübarizəsinə hazır olsunlar. Bu isə ancaq və ancaq keçmiş tarixi-mənəvi dəyərlərimizin geri qaytarmaqdan keçir, qədim türklərin qəhrəmanlıq yolundan keçir....

## ZƏNGƏZUR TARİXİNƏ QISA BİR BAXIŞ

Zəngəzur adının özünü müxtəlif yazarlarımız müxtəlif cür də şərh edirlər. Z.Nəbibəyli “Zəngəzurun qısa tarixi və coğrafiyası” (200 il) elmi əsərində çox qədim mənbələrə müraciət etmişlər.

O, yazır: “Azərbaycanın doğma torpağı Zəngəzur, babalarımızın daşlaşmış heykəlləri, əsirlərlə yadellilərə sinə gələn, qara-boz qayaları qılınc, güllə yaralı Zəngəzur!”

İxtiyar babalar sənə “Zəngizar” demişlər. Sənin təbii quruluşunla uyuşan “daşlıq, qayalıq” deməkdir, adının mənası. Min illərin ərzində sinəsinə dağ çəkilən bu torpağın adı çevrilib “Zəngəzur” şəklinə düşmüşdür. Bədxahlar bunu əsas götürüblər ki, guya “Zəngəzur” sözündəki “Zur” ermənicə “dərə” mənasını verir.

Məhz səhv olaraq bu doğma torpağımızın adını “Zəngli dərə” olduğunu iddia edirlər. Hələ bu yazılan azmış deyə Zəngəzur adının onun başçısı Zolsdzor və ya Cofqacorun adından, yaxud da VII əsrdə burada yaşayan skiflərin (Saklar) adı ilə (Sak-zak-Zaksdzor, Zanqezur) bağlı olduğunu da deyirlər. Erməni mənbələrində Zəngəzuru Sünük kimi yazırlar. Doğrudur, Zəngəzurda Cünük knyazlığı olub. Bu isə Alban dövləti ilə bağlıdır və heç də ona şəhadət etmir ki, Zəngəzur ermənilərə mənsubdur.

Ermənilər unudurlar ki, ilkin ərəb, fars mənbələrində Sünük adı xatırlanmır, Zəngəzuru Sisikan və yaxud Sisacan kimi yazırlar.

Uzun illər Zəngəzurun tarixi, coğrafiyası, etnoqrafiyası Azərbaycan mütəxəssisləri tərəfindən öyrənilməyib, unudulub. Xüsusi ilə XX əsrin əvvəllərində Zəngəzurun Ermənistana “pay” verilməsi buranı bizlərə bağlı sahə etmişdir. Bundan istifadə edən saxtakar ermənilər Zəngəzurun abidələrini özlərinə çıxıblar. Kəndlərin,

dağların, çayların, düzlərin tarixən formalaşan həqiqi azəri-türk adlarını dəyişib qondarma adlar qoyublar.

Bu baxımdan Zəngəzurun tarixinə qısa nəzər salmağı özümüzə borc bildik.

Zəngəzur qəzası inzibati-ərazi vahidi kimi 25.02.1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyasının yaranması ilə formalaşıb, ərazisinə indiki Sisyan (Qarakilsə), Gorus, Qafan, Mığrı, Zəngilan, Qubadlı, Laçın bölgələri, həmçinin Kəlbəcərin, Qarabağın xeyli hissəsi daxil idi. Bu doğma torpaqlarımızın çox hissəsi (4.5 min kvadrat kilometr) 30.09.1920-ci ildən Rusiyanın köməkliyi, ermənilərin hiyləsi ilə alınıb Ermənistana verildi. Beləliklə, keçmiş Zəngəzur qəzasından Azərbaycan ərazisində kiçik (2.5 min kvadrat kilometr) bir sahə (Zəngilan, Qubadlı, Laçın) qaldı. Zəngəzur tarixin bütün mərhələlərində azərbaycanlılara, Azərbaycan türklərinə məxsus yaşayış yeri olub. Bunu eramızdan əvvəlki mənbələr və hətta əsatirlərdəki məlumatlara arxalanaraq deməyə haqqımız vardır. Belə ki, əsatirlərin birində deyilir ki, "Səməndər quşu Qaf adlı yanar bir dağda od içərisində yaşayır" Fikrimizcə yanar Qaf dağı, odda yanmayan Səməndər quşu atəşpərəstliyin rəmzidir. Yazılı ədəbiyyatda da antik dövrün dahi şairi Esxilin "Zəncirlənmiş Prometey" əsərində belə bir məlumata rast gəlirik ki, Prometeyin od Allahı Efestdən odu oğurlayıb insanlara verilməsi Allahlar Allahı Zevsi qəzəbləndirir.

Zevs paslı zəncirlərlə Prometeyi yalçın qayalara bağlatdırır. Prometey axırda göy gurultuları və ildırım işıqları içərisində yerə çökür. Atəşi insanlara verdiyindən o, öz həyatını qurban verir. Hər iki tarixi mif (istər səməndər quşu, istərsə də Prometey) atəşpərəstliyin bir təşəkkül tapmasının dəqiqləşdirilməsinə bir köməkdir. Bütün şərq ədəbiyyatında özünə yer tutan yanar Qaf dağının adından götürülmüşdür. Simurq quşu (bu quşa Səməndər, Zümrüd, Ənqa da deyirlər) yaşayan yanar Qaf dağı (Zəngəzurda) Naxçıvanın sərhəddi boyunca uzanan Zəngəzur silsiləsindədir.

Bu dağın hündür yeri 3904 m olan qapıçıq (Qafıcıq) zirvəsidir. Qapıcıq dağının adı türk mənşəlidir. Yəni "balaca qapı" deməkdir.

Bəzi mənbələr səhv olaraq Qafqaz sözünün Qara dəniz sahilindəki "Qaz-qaz" tayfalarının adından götürüldüyünü yazırlar. ("Qələm" qəzeti, 16.12.1994-il ). Bu da onunla əlaqədardır ki, istər e.ə., istərsə də bir və ikinci minilliklərdə yunan, ərəb və Şərq ölkələrinin başqa yerlərindən, İrandan-Cənubi Azərbaycandan gələn səyyah və tacirlər əvvəlcə Ordubad, Gilan (bu şəhərin xarabalıqları indiyə qədər qalır) şəhərlərinə gələr, Gəmiqaya dağından keçib Oxçu çay dərəsinə enər və buradan Qafan, Qarakilsə, Zəngilan və s. ərazilərə bu qısa, yaxın yol ilə gedərmişlər, yəni Qapıcıq dağının ətəyindən keçərdilər. Bu mənada Qapıcıq darvazanı-dəhlizi xatırladaraq çətin və keçilməz olduğundan hər iki tərəfə kiçik qapı rolu oynayan bir məkandır. Bu səbəbdən də keçid "Qapıcıq" adlanmışdır. Zəngəzurda qapıcıq adı ilə səsləşən Qapçıqay yer adı da (meşəsi) mövcuddur. Məna etibarı ilə bu, iki hissəyə – "Qapıcıq" və "ay" hissələrinə bölünür. Birincisi bilavasitə Qapıcığın ən az dəyişilmiş ("ı" səsi düşüb) formasıdır. Qapıcıqla eyniləşən Qapçıqay isə Bəsitçayın yuxarı axınında, İşıqlı dağının şərq yamacındadır. Bunun ikinci hissəsi olan "ay" sözü və yaxınlığındakı dağın adının İşıqlı olması, həmçinin qəbirüstü daşlarda həkk olunan Günəş, aypara şəkilləri haradasa bu yerlərdə yaşayanların Günəşə, Aya sitayiş etmələrinə şəhadət edir. Bu baxımdan Xustun dağındakı məbədə müvafiq İşıqlı dağı ətrafında, yəni Qapçıqay bölgəsində belə məbədgahın olması ehtimalı vardır. Adlar öz növbəsində bu yerlərin Azərbaycan-türk torpağı olması və müsəlman dini qalıqlarının mövcudluğunu da sübut edir. Göründüyü kimi Qapçıqay, Qapıcıq, Qapan (Qafan) sözləri eyni kökdən ("qapı", "qaf") yaranıb. Qafanınsa ayrılıqda Qaf dağı kimi səslənməsi daha düzgündür. Deməli, Səməndər quşunun yaşadığı Qaf dağı, gözümüz qarşısında buludlara baş vuran Zəngəzurdakı Qapıcıq dağıdır. Ərazinin sakinləri bu günün özündə də dağın adını olduğu kimi Qapıcıq deyirlər. Əsatirdə və yazılı ədəbiyyatda isə dağın adı "Qaf" kimi səslənir. Bunun da səbəbi ərəb əlifbasında "P" səsinin olmamasıdır. Şərq ədəbiyyatında "Qaf" kimi yazılan dağ əslində "Qap"dır. Deməli, Qaf dağının yeri də məlumdur, mənası da açılıb.

Arxeoloji tədqiqatlar göstərir ki, Zəngəzur dağları Eosen yaşlıdır və əsasən vulkanagen süxurlardan təşkil olunmuşdur. Görünür uzun müddət ərzində yanar vulkan lavalarının axması bu dağı "yanar Qaf" kimi şöhrətləndirmiş və xalqın yaddaşında əfsanəyə çevirmişdir.

Mirəli Seyidov yazır: "Tarixi dil, tarixi mifik, etnoqrafik materialları yad etmədən" biz Azərbaycan tarixini doğru və düzgün öyrənə bilmərik.

İkinci mifik mənbələrdən biri də Esxilin "Zəncirlənmiş Prometey" əsərindəki Prometeydir. Prometeyi çay allahı İnaxın qızı İoya təsvir edir ki, Qafqaz dağları-dağların sultanıdır. O, bu dağların yamyaşıl olmasından, zirvəsindən qüdrətli çay axmasından, dağların dövrəsində gecə-gündüz Ay dolanmasından, orada olan ərsevən Amazonka qızlarından söz açır. Əlbəttə, tarixi məlumatlardan bəllidir ki, albanların Ay məbədlərinin olması onların Aya sitayiş etmələrinə dəlalət edir. Hələ b.e-nın 24-cü ilində vəfat etmiş Strabon albanların ən müqəddəs Ay məbədinin İberiya (Gürcüstan) yaxınlığında olması barədə xəbər verir. O, qeyd edir ki, "Onlar (yəni albanlar) İberiya yaxınlığında yerləşən Selenaya məbədinə sitayiş edirdilər."

Strabonun vətəni Yunanıstanda Zevs-göy Allahı, Helios-Günəş Allahı, Selenya isə Ay ilahəsidir. Yəqin ki, Strobon albanların Göyə, Günəşə və Aya inandıqlarını nəzərə alaraq, bu adları yunanlar kimi Zevs, Helios və Selena adlandırmışdır. Əsərdə Prometeyin Göy allahı Zevs tərəfindən çarmıxa çəkdirildiyi göstərilir. Maraqlı burasıdır ki, Strabon adını çəkdiyimiz əsərində yazır ki, "Kahin vəzifəsini albanlarda hökmdardan sonra ən hörmətli adam yerinə yetirir. Həmin şəxs böyük və sıx əhalisi olan müqəddəs vilayətə başçılıq edir.Həm də məbədin qullarını işlədir, qullardan biri günah işlədərsə, kahinin əmri ilə onu tutub müqəddəs zəncirlə bağlayır, sonra isə İlahiyə qurban verirlər."

Göründüyü kimi, Prometeyin Zevs tərəfindən dözülməz əzablarla cəzalandırılması, onun müqəddəs zəncirlə bağlanması alban adət-ənənəsinə uyğundur və deməli, Prometey Alban

həyatından götürülmüş sürətdir. Buradan belə bir nəticəyə gəlmək olur ki, bütün bu yuxarıda deyilənlər Alban torpağında cərəyan etmişdir.

Tarixi araşdırmalara görə atəşpərəstliyin yaradıcı peyğəmbəri Zərdüşt olmuşdur. Bu peyğəmbərin həyatı haqqında dəqiq məlumat çox olması da, onun çox qədimdə yaşadığı ehtimal olunur. Yunan və Roma müəlliflərinin fikrincə, Zərdüşt e.ə. altı min il, bəlkə də əvvəl yaşamışdır. Müasir tədqiqatçıların çoxu e.ə. 1000-600-cü illər arasında yaşadığını, bəziləri isə Makedoniyalı İsgəndərdən 258 il əvvəl olduğunu hesab edirlər və s.

İqrar Əliyev yazır ki, Zərdüştün vətənini Sibirdən qərbi İrana qədər olan ərazidə, yəni Orta Asiyada, Midiyada (Raqa şəhərində) və Cənubi Azərbaycanda axtarırlar. Ümumiyyətlə, mənbələrdə Zərdüşt adının cürbəcür formalarına rast gəlirik – Zoraastr, Zoroad, Zardüşt, Oraastr, Zoravestr, Zərdüşt (Zəngəzurlu Vəli) və s. Son dövrlərdə onun Azərbaycanda, Sasanilər İranının baş Zərdüşt ziyarətgahında yerləşdiyini və Avesta Kanonun burada formalaşdığı qeyd olunur. Bu, peyğəmbərin din sistemində Ahuramazda (sonralar Oramazd, Hürmüzd) ali Allah hesab edilir.

Şər qüvvələrin başında Anqramanyu, (Ahrumonyu Əhriman) durur. Bunu deməkdə məqsədimiz Zərdüşt dininin təlimi, ideyası haqqında söz açmaq deyil, onun təşəkkül tapdığı yeri dəqiqləşdirməkdir.

Tarixi mənbələrdən göründüyü kimi, Zərdüşt dini atəşpərəstlikdir və bu dinin ideyaları məzdəkilərin və babəklərin (xürrəmidinlərin) ideologiyasına xeyli təsir göstərmişdir.

Səməndər quşunun Qaf dağında yaşaması, Prometeyin qafqazlı olması ehtimalları sübut edir ki, Zərdüşt dini Qafqazda təşəkkül tapmışdır. Alban hökmdarı III Vaçaqan (487-510) zərdüştliyin dərin kök saldığı Albaniyada bütün atəşgahların tikilməyini və itaət etməyi qadağan etmişdir. Bu hökmə məruz qalan atəşpərəstlər ilk müqəddəs atəşgahdan odu başqa yerə köçürməyə məcbur olmuşlar. Əl-Məsudinin (e.ə.956) "Mürüc" əsərində bu odun Xosrov hökmdarı I Qubadın (488-510) oğlu Xosrov Ənuşirəvan

(531-579) tərəfindən Əş-Şizəyə köçürülməsi məlum olur. Əş-Şiz Urmiyanın 140 km cənub-şərqində yerləşən, indi xarabalığı qalan Qazaka şəhəridir. Əl-Məsudinin məlumatı bir daha təsdiq edir ki, atəşpərəstliyin təşəkkül tapdığı yer ancaq Arran adlı məkandır.

Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, atəşpərəstlik Zəngəzur mahalının Qafan ərazisində təşəkkül tapmışdır. Bu fikrimizi təsdik edən dəlillərdən biri də ərazidəki Bərgüşad silsiləsindəki Aramazd zirvəsinin (3399m) və Bərguşad adlarının olmasıdır. Əvvəldə deyildiyi kimi atəşpərəstliyin din sistemində ali Allahı Ahura-Mazdadır. Bunu Oramazd və Hürmüzd kimi də yazırlar. Belə olduğu halda atəşpərəstliyin ali Allahı olan Oramazd (Ahura-Mazda) ilə Bərgüşad silsiləsinin zirvəsi olan Aramazdım adları arasında demək olar ki, ciddi fərq yoxdur. Oramazd – Aramazd eyni kökdən yaranan adlardır. Elə indinin özündə də yerlilər üzünü zirvəyə tutub "ya Aramaz, mənə kömək eylə" deyirlər.

Qurani-Kərimin 22-ci surəsinin 17-ci ayəsində deyilir: "Zərdüşt həqiqətən peyğəmbər, onun dini isə səmavi din olmuşdur".

Əhura-Məzda qarşısında o müstəqil Tanrı olur. Hətta, II Yəzdkadin andlarından biri belə idi: "İşığı ilə dünyanı işıqlandıran və hərarəti ilə bütün kainatı isindirən Böyük Tanrı Günəşə and olsun."

Xristian ruhanilərindən çoxusu Zərdüşt dinini qəbul edib, Günəşə pərəstiş edərək qurbanlar təqdim etmişlər.

Avestadan məlum olur ki, təbiət ünsürlərinə pərəstiş etməklə Zərdüştlər arasında tamamı ilə yayılmış və ciddi iş olmuşdur. Bu ünsürlərdən tədriclə "Əhura-Məzda"nın övladı da olmuşdur.

Bununla əlaqədar göstərdik ki, Bərgüşadın etimologiyası barədə oxuculara azacıq məlumat verək. Bərgüşad adı əslində üç sözdən ibarətdir – "Bar," "guş", "ad". Diqqətlə araşdıranda görünür ki, hər üç söz ayrı-ayrılıqda mənalanır. Sözün əvvəlində gələn "Bar"(u), yaxud "Bər"(i) sözləri türkcə allah deməkdir. Bu günün özündə azəri türkləri arasında bu ifadə "Bari ilahi, sən özün saxla!", "Bari ilahi, sən özün şahidsən" və s. kəlamlar işlədilir. Sözün ikinci hissəsi "kiş" isə yenə də türkcə "din", "əqidə" deməkdir.

Sonuncu “ad”, “od” isə özlüyündə “od”, “atəş” sözünün özü hesab edilir. Göründüyü kimi “Bərgüşad” sözü əslində “Od allahına inam” və ya “Od allahı məbədi” mənasını verir.

Fikrimizcə, bu ərazidəki Kiş kəndi, Kiş çayı, Kiş məbədi (Şəki-Zəngəzurda), Keşiş dağı (Laçın Hətəmlər kəndi yaxınlığında), Keşiş kəndi (Qafan rayonu), Keşiş ağacı (Nüvədi kəndi, Mığrı rayonu) sözləri də eyni kökdən yaranmışdır və azəri-türk mənşəlidir. (Əslində kilsəyə də kimsə deyilməlidir.)

Deyilənlərdən məlum olur ki, Zəngəzur mahalı, xüsusi ilə Qafan bölgəsində e.ə. minilliklərdə, bəlkə də daha əvvəl Zərdüşt dininə sitayiş edənlər yaşamışlar. Deməli, bu dinə, bu inama söykənənlər başqa xalqlar deyil, indiki Zəngəzur mahalının sakinləri Xürrəmidin dininə sitayiş edən Azərbaycan türkləri olmuşlar.

Bir az dərindən fikirləşdikdə istər türkün Tanrıçılığı olsun, istər yəhudilərin iudistliyi olsun, istər xristianlıq və istərsə də islam dini olsun – gözə görünməyən mifik Allaha ibadətdir, sitayişdir, inam təbliğidir. Ancaq, Zərdüştlükdə Yer kürəsi canlıların hamısının görə biləcəyi sehrli bir Günəş vardır.

Günəş özü-özlüyündə bir növ bütün canlı və cansızların dünyaya gəlmə səbəblərindən biridir. İnsan onsuz mövcud ola bilməz, qida tapmaz, yaşaya bilməz, inkişaf tapa bilməz. Odur ki, Günəşə sitayişi bizcə Zəngəzurlular düzgün tapmışlar və elm nə qədər inkişaf etsə də Günəş öz sirrlərini özündə saxlayacaq və həyat mənbəsi olaraq qalacaqdır. O da məlumdur ki, qalaktikada hər bir qrup planetlərin bir günəşi var və o planetlər öz günəşlərindən bəhrələnirlər. Əgər, hər hansı qrup planetlərin günəşi yoxdursa, deməli orada həyat yoxdur.

Zəngəzur ərazisində məskunlaşmış qədim əhali haqqında e.ə. yaşamış Strabon, Feofan, Skesiyalı Metrodor, Hippokrat və başqaları məlumat vermişlər.

Feofan yazır ki, Skif tayfaları olan Hel və Lehlər-amazonkalar və albanlar arasında yaşayırdılar. Skepsiyalı Metrodor və Qipsikrat isə iddia edirlər ki, amazonkalar Qafqaz dağlarında Geravi adlanan Şimal ətəklərdə qarqarlarla qonşuluqda yaşayırdılar.

Məlumatlarda qeyd olunan tayfa adları Zəngəzurda olan toponimlərdə öz əksini tapmışdır. Məsələn, Zəngəzurun Mığrı ərazisində olan Leh (Lek), Lehvaz kəndləri indi də Leh tayfalarının, Nüvədi kəndinin ərazisində aşkar edilən Qarqar yazıları (daş üzərində), həmçinin Həkəri çayının ətrafındakı Xocahan yaxınlığındakı Hal kəndi məhz Hell tayfalarının adını daşıyır. Yaxud da Şıxovuz (ermənilər dəyişib Şkao deyirlər), Maqovuz kəndlərinin adı (atəşpərəst oğuz) oğuzların adı ilə üst-üstə düşür. Yaxud da Saqqarsu çayı (Şumercə qumlu çay), Sapadərə (Sumercə çoban dərəsi) və s.türk mənşəli toponimlərdir.

Kığı dərəsi boyunca Zeyvə kəndində dərənin sonuna qədər salınan 17-18 kəndlər də azəri türklərinə məxsus məskənlərdir. Bütünlükdə Qarakilsə (Sisyan), Gorus, Mığrı bölgələri ərazilərindəki türk mənşəli dağlar, çaylar, dərələr, təpələr Zəngəzurun ancaq azəri türklərinə mənsub olduğuna bir daha sübutdur.

Eramızın 1-ci minilliyində Zəngəzur mahalında ərəb xilafətinə qarşı Vətən uğrunda vuruşan Xürrəmidinlərin rəşadətli döyüşləri bütün Şərq ölkələrinə səs salmışdı. Xürrəmidinlilərə əvvəlcə Cavidan ibn-Şəhrək, 816-cı ildən sonra isə Babək Xürrəmidin rəhbərlik etmişdir. Xürrəmidinlərə rəhbərlik edən Babək dərin zəkaya, əfsanəvi döyüş qabiliyyətinə malik bir qəhrəman olub. Bu torpaqda boya-başa çatan Babək 816-cı ildən müəllimi Cavidanın vəfatından sonra 837/38-ci illərə qədər öz vətəni və xalqı uğrunda xilafətə qarşı mərdliklə, rəşadətlə vuruşmuş, əsl xalq qəhramanı olmuş, adına onlarca dastanlar yazmışlar.

Aparılan axtarışlardan məlum olur ki, Babəkin xilafət ordularına qarşı vuruşduğu Bəzzeyn qalası indiki Qafan bolgəsinin “Davidbeq” (əvvəlki adl Quşçulu olub) kəndindəki möhtəşəm qaladır.

Quşçulu kəndinin əsl adını ermənilər 1945-ci ildən sonra dəyişdirib Davidberq qoymuşlar. Davidbeq özlüyündə 1722-1728-ci illərdə türklərə qarşı vuruşan ermənilərə başçılıq etmiş bir şəxsdir. O, 1728-ci ildə Alizor qalasında ölmüş və orada basdırılmışdır.

Quşçulu kəndi Xustup və Gözbel dağları arasındakı Oxçu çayının sahilində yerləşir. Kəndin qarşısındakı möhtəşəm, orta əsrlərdə

tikilmiş Babək xürrəmidinə məxsus qalanı da sahibsiz görən hiyləgər ermənilər ona Davidbeqin adını vermişlər. Quşçulu kəndinin başı üstündə də ikinci bir qala var. Bu qala Xustub dağının sıldırım qayaları arasında tikildiyindən insanlar bu qalaya müqəddəs yer kimi ziyarətə gedirdilər. Sakinlərin dediyinə görə hər iki qala arasında vaxtı ilə onları birləşdirən zəncir varmış. Ermənilər bu tarixi məlumatdan da öz məqsədləri üçün sui istifadə edərək "Davidbeq" kinosunu burada çəkmişlər. Guya Davidbeqin döyüşçüləri qaladan-qalaya bu zəncirlə keçirmişlər. Əslində isə hər iki qala Babək Xürrəmidinin Bəzzi qalasıdır. Qalanın ikiliyinə görə ərəblər (eyn) sonluğu qəbul edərək Bəzzi çox məlumatlarda "Bəzzeyn" kimi yazmışlar, yəni iki və ya bir neçə Bəzz. Buraya yaxın olan kəndləri ermənilər uçurub yerində Qacaran şəhərini salıblar. Babəkin sərkərdəsi Cavidanla bağlı Pir Davidan adlı müqəddəs Ziyarətgahı və kəndi dağıdıb yerində mis-molibden mədəni salmışlar. Bu kəndin qəbiristanlığındakı Pir-Davidan məqbərəsi əslində xürrəmidinlərin peyğəmbəri Cavidana məxsusdur. Cavidanın əsl adı isə Davidan olmuşdur.

Ermənilərin saxta ad verdiyi "Davidbeq qalası"nın Bəzzeyn olmasını sübut edən dəlillərdən birisi də Şahi (Şəki) qalasıdır. Bu qala Qarakilsə bölgəsinin Şəki kəndində, Bazarçayın sahilində xarabalığı qalmış Şəki (Şahi) qalasıdır. Şahi qalası Z.Bünyadov tərəfindən araşdırılıb (Azərbaycan VII-IX əsrlərdə – Z.Bünyadov). Qala Vəcnə ibn-Ər-Rəvvad tərəfindən salınmış, IX əsrin əvvəllərində isə ibn-Baisin əlinə keçmişdir. 837-38-ci ildə Babəki xəyanətkarlıqla ərəblərin əlinə verdiyinə görə Şəki vilayəti bütövlüklə erməni Səhl ibn Sunbata verilmişdir. Beləliklə də Şəki qalası bir müddət Səhlin ixtiyarında olmuşdur.

Bəzzeyndən üç klometr aşağıda Oxçuçayın üstündə Darvaza (Dərvaza) adlı dar bir yer vardır. Burada Oxçuçayın üstünə əyilmiş qayada ağzından açar sallanan nəhəng bir ayı heykəli tikilmişdir.

Nəhəng heykəl sanki darvazanı qıfıllayıb, açarını da heç kimə vermək istəmir. Bu bütün tarixi məlumatlarla səsləşən Bəzzeyn qalasının özündən bir qədər uzaqdakı darvazasıdır. Xilafətin ordusu aylarla bu darvazanı sındırıb qalanın yaxınlığına gələ bilməmişlər.

Torpaqlarımızı asanlıqla ələ keçirən ermənilər iddia edirlər ki, Zəngəzurun ilk adı Sünük olmuşdur. Bu səhv fikirlə Zəngəzura dərindən bələd olmayan yazarlarımızın bəziləri də razılaşırlar. Əslində isə Zəngəzur mahalı bütünlüklə deyil, onun yalnız 7 erməni kəndi Sünikgilan adlanıb. Belə ki, IX əsrin 1-ci yarısında bu ərazidə Knyaz Vacaq (Vacaqan da deyirlər) adlı birisi olmuşdur. 828-ci ildə onun ölümündən sonra qızı İbnat al-Kəldanniyə Babəkə ərə getmiş və bu kəndlər də bütövlükdə, əvvəllərdə olduğu kimi Babəkin əlində qalmışdı.

Zəngəzurun tarixi ilə olduqca az və qeyri-səhih məlumatları olan bəzi tədqiqatçılar qibləyə tərəf qoyulmamış qədim qəbirlərin müsəlmanlara deyil, ermənilərə məxsus olması fikrini irəli sürməsi böyük və bağışlanmaz səhvdir. Xatırladaq ki, İslama qədərki dövrlərdə Azərbaycanda ölənlərin qibləyə tərəf dəfn edilmədiyini unutmaq olmaz.

Zəngəzurda xaraba qalmış bütün erməni kəndlərinin qəbiristanlıqlarındakı qəbrlərin hamısında sinə daşı qəbr uzunluğunda bütöv bir daşdan ibarətdir. Müsəlman qəbirlərində hansı tərəfə qoyulmasından asılı olmayaraq özlərinə aid qaydaları, dəfn etmə ənənələri olmuşdur.

Bəzi müəlliflər hətta daş üzərində həkk olunan bütün xaç şəkillərini də səhvən erməni xaçı adlandırırlar. Unutmaq olmaz ki, albanların da qəbir daşlarında xaça oxşar nişanələr olmuşdur. Lakin, bunların erməni xaçlarından xeyli fərqi vardır. Albanlara xas olan qəbirüstü xaçların uc tərəfi ox şəkilli, bir tərəfi isə saya olsa da dörd ox eyni ölçüdədir.

Bütün bunlardan sonra qətiyyətlə deməyə haqqımız var ki, Zəngəzur və bütövlükdə Zəngəzur-Göyçə zonası, indiki Ermənistan Qərbi Azərbaycan torpaqlarıdır.

Həkim, şair-publisist Musa Urud isə özünün "Zəngəzur" kitabında "Zəngəzur" toponimi bu torpaqlarda yaşamış Zəngı türk tayfaları ilə əlaqələndirir. Və bu sözün ərəblərin Azərbaycana gəlişindən sonra formalaşdığını bildirir. Söz-Zəngı tayfa adı ilə ərəblərin "Sur" daş-divar mənasını verən sözün birləşməsindən alındığını güman edir.

Zəngi türk tayfası türk dünyasının müxtəlif bölgələrində öz tarixi ata-baba adları ilə indi də yaşamaqdadırlar və bu tayfanın adı ilə doğurdanda bir çox yerlərdə yer-yurd adları günümüzdə də mövcudluğunu saxlamaqdadır.

Özbəkistan türk respublikasında Zəngi tayfaları öz adları ilə yaşamaqla yanaşı – orada Zəngi, Zəngitəpə, Zəngərik və s. çoxlu miqdarda toponimlər qalmaqdadır. Bu ad elmi mənbələrin bildirdiyi kimi Qazaxıstanda, Əfqanistanda, Cənubi Azərbaycanda, bütün Qafqazda və o cümlədən Şimali Azərbaycan toponimlərində yetərincədir. Onlardan bir neçəsinin adını çəkmək fikirimizcə maraq doğura bilər. Məsələn: Türkiyədə-Ərzincan Gürcüstanda-Zəngişamlı, Zəngənə, Şimali Azərbaycanda-Zəngilan, Sanqalçal, Yardımlı bölgəsində-Zəngəran, Sabirabad bölgəsində-Zəngənə, Ağdam bölgəsində-Zəngişalı, Qobustanda-Zəngidərə çayı, İsmayıllıda-Zəngı çayı, İrəvan mahalında-Zəngibasar, Zəngilər, Zəngilli, Zəngi çayı kimi toponimlər, əlbəttə "Zəngi" sözü əsasında formalaşıblar.

Musa Urud xalq şairimiz Zəlimxan Yaqubun bu mövzudakı şeirindən nümünə gətirməyi də unutmayıb.

Zəngəzur-Zəngin, haray,
Döyüşüm, cəngim, haray.
Yurd həsrəti çəkəndən
Açılmır zəngim, haray

Zəngi türk tayfalarının adları "Kitabi Dədə Qorqud"da, Mahmud Qaşqarinin – "Lüğəti-it-Türk"də, Rəşid əd Dinin "Oğuznamə"sində, Əbdülqazinin – "Səcəreyi-Tərakimə"sində, A.Bakıxanovun yazılarında, xalq qəhramanı Babək haqqında yazılan yazılarda, Ağqoyunlı, Qaraqoyunlu, Əmir Teymur, Səfəvilər və s. haqqında yazılan mənbələrdə də rast gəlinir.

Zəngəzuru tən ortadan Aran Qarabağ və Naxçıvan-İrəvanla birləşdirən şosse yol XX əsirdə tamamlanmış və poçt yolu adını almışdı. Şuşa-Laçın-Gorus, ardınca Naxçıvan-İrəvan yol birləşməsi-

ətrafları sıldırım qayalıqlı dağlar olmaqla, çox gözəl təbiətə malik bir bölgədir.

Sultan bəyin, Xosrov bəyin, Paşa bəyin dünyaya göz açdıqları Zəngəzurun Hacısamlı nahiyəsi də bütün Zəngəzurda olduğu kimi qədim tarixi abidələrilə də çox zəngin bir diyardır. Bu yurd Nuh peyğəmbərin məskunlaşdığı bir yurddur. Zəngəzurun istənilən yaşayış məntəqəsində qədimdən qalan hər hansı bir abidə haqqında yaşlıları sorğu-sual etdikdə deyərdilər: "Nə bilim a bala, buralar hamısı Nuh Nəbidən qalmadı". Yeri gəlmişkən qeyd edək ki, həqiqətən Zəngəzurda Nəbi adı müqəddəs olmaqla, valideyinlər bu adla öz övladlarını daha çox adlandırmışlar.

Bəzi tarixi mənbələrə görə indiki Yuxarı Qarabağda, onun Zəngəzur bölgəsində, ümumilikdə Qərbi Azərbaycanda yeni eradan əvvəl VII əsrdə bu torpaqlarda uti, ud, sod, mar, qar-qar, leq, qel, uz və s. türk tayfaları yaşayırdı və buraya gələn saklar, kimmerlər də bu tayfalarla qaynayıb-qarışdılar, bir çox tarixi keşməkeşdən sonra eradan əvvəl IV əsrdə Alban dövləti yarandı. Onun ərazisi Qərbdə Gürzan (İberiya) və Ərməniyyə ilə, Şimalda dağıstan (Sarmatiya) ilə həmsərhəd olmaqla, paytaxtı əvvəl-əvvəl Qəbələ, sonra isə Bərdə şəhəri oldu. Albaniya dövlətinin böyük bölgələrindən biri də süni, yaxud Sisakan adlanırdı. Bir çox mənbələrə görə Sisikan türk tayfalarının qədim kökləri, hazırki çin dövləti tabeçiliyində olan uyğurların yaşadığı məkanla əlaqədardır, buradakı Syunnu türk tayfalarının törəmələridirlər. Onlar Orta Asiyaya, Qafqaza, Qara dəniz sahillərinə səpələnməklə, hazırki Zəngəzura gəlmiş və yerli türk tayfaları ilə bir məkanda yaşamışlar və elə bu səbəbdən də Sisakan adlanmaqla, qədim sak, iskit, yaxud skif adlanan saqat(saqa) boyuna qohum türk tayfaları olmuşlar.

Bir sözlə tarixi ardıcıllığı izlədikdə-məlum olur ki, Sakların və kimerlərin (Saqat-qəmərlərin) Qafqaza gəlişi yeni eradan əvvəl VII əsrə təsadüf edir.

Zəngəzur da yeni eradan əvvəl 675-550-ci illər arasında Göyçə gölü də daxil olmaqla Kür-Araz ovalığı ilə birlikdə Midiya (Maday) dövləti tərkibində olmuşdur. Sonra, Zəngəzur e.ə. əvvəl 550-

530-cu illər arasında Əhəmənilər dövləti çərçivəsində fəaliyyət göstərmişdir.

Əhəmənilər dövləti-Ərməniyyə (türk dövləti), Şərqi Gürcüstanı, Kür-Araz ovalığını əhatə etməklə 1-ci Daranın vaxtına təsadüf edir.

Daha sonra yeni eradan əvvəl 3-cü əsr və yeni eranın 226-cı ilinədək Qafqazın bir çox əraziləri, o cümlədən, indiki Zəngəzurun ərazisi Partiya dövlətinin tərkibində olmuşdur.

Yeni eranın 226-651-ci illəri arasında Zəngəzur Sasanilər hökmranlığında olmuşdur.

Yaşadığımız eranın 656-889-cü illəri arasında Zəngəzur Ərəb xilafəti tabeçiliyində olmuşdur. Deyilən zaman kəsiyində Qafqazda İslam yayıldı, Qafqaz Albaniyasının bütün bölgələri kimi Sünik də xilafətin tabeçiliyində oldu və Albaniya Aran, Sünik isə Sisəcan (Sisəkan) adlandırıldı.

Zəngəzur (Sünik) IX-XI əsrlərdə Sacilər (889-942-ci illər), Salarilər (941-981-ci illər), Şəddadilər (971-1088-ci illər) dövlətlərinin tabeliyində olmuşdur. Deyilən dövrlərdə Ərməniyyənin böyük bir hissəsi adları çəkilən dövlətlərin tabeliyində fəaliyyət göstərmişdir.

Mağol-tatarlar XII əsrdə Cənubi Azərbaycanı və Qafqazı tutmaqla öz hökmranlıqlarını yaratdılar ki, bu da hülakilər, elxanilər dövrü adlanmaqla, Zəngəzuru da əhatə edirdi.

Zəngəzur 1385-ci ildən Əmir Teymurun Qafqazı işğal etməsi ilə Qafqaz, İranın çox hissəsi, şərqi Anadolu da daxil olmaqla, bir-birini əvəz edən Cəlairlər (1385-1410),Qaraqoyunlular (1410-1467), Ağqoyunlular (1468-1501) hakimiyyətləri daxilində olmuşdur.

Zəngəzurda deyərdilər – "Şər qarışanda yatmazlar. Şər qarışanda qismət paylanır". Bu mənada Zəngəzurun da daxil olduğu 1051-1590-cı illər Səfəvilər dövləti, yaxud Böyük Azərbaycan dövləti yarandı. 1590-1748-ci illərdə Qafqazın, Anadolunun və İranın bir çox əraziləri kimi, Zəngəzur bölgəsi də Osmanlı, Səfəvilər və Nadir Şah türklərinin hakimiyyəti çərçivəsində fəaliyyət göstərməli oldular.

Nadir şahın ölümündən sonra yaranan Qarabağ xanlığı Zəngəzuru da əhatə edirdi. Qarabağ xanlığının yaranmasında Zəngəzura rəhbərlik edən və Zəngəzurun, Qarabağın, Ərdəbilin, Xoyun, Təbri-

zin bəzi yerlərində torpağı, təsərrüfatı, mülkü olan Murtuza bəy Pənahəliyə yaxından yardımçı olmuş və bu münasibətlə Zəngəzur sultanlığının sahəsi Sisyan, Qafan-Tatev, Mığrı, Güney, Çalbayır, Hacısamlı, Kolair mahallarından xeyli kənara çıxaraq indiki Kəlbəcəri keçərək Tər-tərə qədər, indiki Zəngilan, Qubadlı, Laçın, Basarkeçəri, Araz çayının cənub tərəfini, Zəngəzurun qərbindən xeyli torpaqların buraya qatılması ilə nəticələndi.

XIX əsrin əvvəlləri ermənilərin əli ilə Rus imperiyası Şimali Azərbaycanı, onun xanlıqlarını işğal etdi və bu haqda Rusiya ilə İran arasında 1806, 1813 və 1828-ci illərdə Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələri bağlanmaqla Qarabağ, İrəvan və Naxçıvan xanlıqları rus işğalçılarının əlinə keçdi. Əlbətdə Azərbaycan həmin illərdə Dərbənd və Borçalı bölgələrini də itirmişdi.

Rusların idarəçilik qaydalarına uyğun olaraq 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradılmaqla onun tərkibində çox böyük sahəyə malik Zəngəzur qəzası da öz təsdiqini tapdı.

Rusiyada sovetləşmə çox şirin vədlər versə də, işğalın sonrakı – yəni 1920-ci ildən sonrakı dövrləri Azərbaycana – xüsusən Zəngəzura, Yuxarı Qarabağa və Qərbi Azərbaycana çox ağır itkilər gətirdi və Zəngəzur 1920-ci ilin bir dekabrında yeni yaradılan Sovet Ermənistanına qeydsiz-şərtsiz hədiyyə edildi.

Zəngəzurun Laçın bölgəsindən olan Sarı Aşıq demiş:

Bu qala, yaman qala,
Düşmüşəm yaman qala.
Rəvamı, Yaxşı ölə,
Yerində yaman qala?!

Belə olarmı?! Amma olub, bu reallıqdır. Son dövrlər tarixçi alimlərimizlə yanaşı digər yazarlarımız, vətənpərvərlərimiz, publisistlərimiz Zəngəzur, onun tarixi şəxsiyyətləri, bu torpağa borclu qalmayanlarımızı özlərinə məlum səviyyədə mətbuatda işıqlandırırlar. Bu isə çox yaxşıdır. Onların hər birinə diqqət yetirdikdə hansısa bir yeniliyə də rast gəlmək olur. Bu da bizləri sevindirir.

Musa Urud yazır: "Andranik və yerli erməni quldurlarının başçısı Şahnəzərov Zabux-Qaladərəsi istiqamətində hücum etsələr də, Şuşaya daxil ola bilmədilər. Laçınlı Sultan bəyin başçılıq etdiyi, əsasən Haçışamlı əhalisindən təşkil olunmuş azərbaycanlılar Andronikin dəstəsinə sarsıdıcı zərbə vuraraq onu yenidən geriyə – Gorusa qayıtmağa məcbur etmişdir.

Bu fikir "Azərbaycan" qəzetinin 28 oktyabr, 1918-ci il tarixli sayında və "Müxtəsər Xronoloji Ensiklopediya"da da, öz əksini tapmışdır. Ensiklopediyada göstərilir: "14 dekabr 1918-ci il Zəngəzur. Azərbaycan. Gəncə qubernatorunun 1918-ci il 14 dekabr tarixli 70 saylı teleqramında deyilir ki, cəllad Andranik başda olmaqla erməni quldurlar "Kalandərəsi yaxınlığındakı müsəlman kəndlərinə basqın etmiş, müsəlmanları qırmışlar və vəhşiliklər törətmişlər". Tədqiqatçılar da təsdiqləyərlər: "A.Mikoyanın təhriki ilə məhz tayqulaq Andranikin və Hamazaspin daşnak quldur dəstələri Maku və Xoydan başlayaraq, Zəngəzurdan keçib, Qarabağa quldurcasına basqın etmiş, dinc azərbaycanlı əhalini qırmışlar."

Bu dövrdə Zəngəzurda vəziyyət o yerə çatmışdır ki, Andronik Ozanyan Gorusda möhkəmləndikdən sonra burada "Zəngəzur qubernatorluğu" yaratdığını, Gorusu qubernatorluğun paytaxtı, özünü isə qubernator elan etmişdir.

Azərbaycanın vəziyyəti çox ağır idi. Azərbaycanda da sovetləşmə işləri gedirdi. Lakin, Sovet Rusiyasının Xarici İşlər Komissarının Sovet Azərbaycanının Ermənistandakı fövqəlada nümayəndəsi isə erməni Dövlətov idi.

Zəngəzurda möhkəmlənən və vaxtaşırı öz təxribatçı fəaliyyətini davam etdirən, Azərbaycan kəndlərinə basqınlar edən, Gorusda və Qubadlıda yerləşən qəza şuralarını təhlükədə saxlayan daşnaq Njdenin silahlı qüvvələri, onun Tevan və Tarxan kimi əlaltıları İrəvandan hərbi yardım, maddı və siyası təminat aldıqları halda, Azərbaycan hökuməti Zəngəzuru erməni basqınlarından qoruyub saxlayan, insanlar arasında böyük güc və nüfuz sahibi olan Sultanov qardaşlarının imkanlarından istifadə etmədi. Yurdunu və xalqını sevən Sultanov qardaşlarına bir inamsızlıq nümayiş etdirdilər.

1920-ci il 12 mayda Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycan Şura hökümətinə Xosrov bəy Sultanovla əlaqədar göndərdiyi notada "erməni qırğınlarının təşkilatçısı Sultanov qırmızı lent taxaraq yenə də hakimiyyətdədir" – yazırdı.

Təbii ki, Xosrov bəyə hansı hakimiyyətin iş başında olmasının çox da böyük fərqi yox idi. ADR dövründə general-qubernator olanda da, Şuşa İnqilab Komitə sədri olanda da, eyni məsuliyyətlə işinə sədaqətli idi.

Onun mübarizəsi yurd uğrunda idi, torpaq uğrunda idi, vətəninin, dövlətinin bütovlüyü uğrunda idi. Xosrov bəy ermənini taniyırdı. Azərbaycan torpağına göz dikənlər, onu parçalayanlar, insanlarını məhv edənlər onun düşmənləri idilər.

Xosrov bəy də, Sultan bəy də özlərinin müqəddəs mübarizələrini mərdi-mərdana aparmaqda israrlı idilər.

AXC-i dövründə Xosrov bəy Gorusa girmək, Zəngəzuru daşnaklardan təmizləmək üçün icazə istəmişdi. Lakin, Xosrov bəyə heç bir icazə və lazimi köməklik edilməmişdi.

Bütün bunlara baxmayaraq 1920-ci ilin martında X.Sultanov Novruz bayramı ərəfəsi ermənilərin Şuşada qaldırdığı qiyamı dəf edə bildi. Qarabağdakı bütün daşnaq qüvvələri zərərsizləşdirdi, erməni əməkçiləri ilə vətəndaş sülhünün əldə olunmasına nail oldu.

Xosrov bəy qardaşı Sultan bəylə Zəngəzurun azad edilməsi yolunu işləyib hazırladı. Lakin, bu tarixi fürsəti, elə tarixin özü ona imkan vermədi, milli hökümət çökdü, bütün işlər alt-üst oldu.

Həmişə bizi qabaqlayan ermənilər bolşevik hökümətinin Qarabağı, onun bir bölgəsi olan Zəngəzuru və Naxçıvanı Ermənistana birləşdirməyi tələb edirdilər. Onlar utanmadan, çəkinmədən azərbaycan türklərinin qanını içən general Dronu Zəngəzurda erməni Sovet qoşunlarının komandanı təyin etmişdilər. Azərbaycanda isə ermənilər və onların havadarları ruslar tərəfindən ortaya atılmış "Qırmızı Kürdüstan" avantürasını əlində "əsas" kimi tutaraq Xosrov bəyi millətçilikdə günahlandırıb həbs etmiş, Sultan bəyi isə vətənindən qaçaq salmağa məcbur etmişdilər. Həqiqətdə isə Musa Urudun yazdığı kimi kürd əhalisi dövlət qurmaq iqtidarında deyildilər. Kürdlər

Zəngəzura XVII əsrdən sonra gəlmiş və indiki Laçın, Qubadlı və Zəngilan bölgələrinin bir neçə kəndində məskunlaşmışdılar".

O, daha sonra yazır: "Zəngəzur kürdünü dövlət qurmaqdan çox, əmin-amanlıq şəraitində mal-qoyununu otarıb, birtəhər külfətini dolandırmaq düşündürürdü. İkinci bir tərəfdən, kürdlərin Azərbaycandan ayrılmasının nə siyasi-ideoloji, nə də tarixi-coğrafi əsası yox idi. Daşnak Andranik və onun qaniçən davamçıları Azərbaycan türkləri ilə yanaşı, kürdləri də qanına qəltan etmişdi. Digər tərəfdən hələ Anadoluda kürdlərlə ermənilər arasında milli-etnik və dini zəmində başlamış dərin düşmənçilik unudulmamışdı. Eyni zamanda müsəlman kürdlərin öz dindaşlarından ayrılıb xaçpərəst ermənilərə sığınmağı da ağılasığan deyildi".

Əlbətdə, deyilən bu həqiqətlərə onu da əlavə etmək gərəkdir ki, bu məsələ ermənilərin növbəti bir fitnəkarlığından başqa bir şey deyildi.

Sovetlərin Azərbaycanı işğal edərək, onun milli və vətənpərvər insanlarını məhv etməsi, ölkədən uzaqlaşdırılması da Zəngəzurun ermənilərə verilməsinə münbit şərait yaratmışdı.

Bu işdə N.Nərimanov da səhvə yol vermiş və sonradan öz səhvini düzəltməyə nə qədər çalışsa da xeyri olmamışdı, Zəngəzur ermənilərdə qalmış, özü isə aradan götürülmüşdür.

O illərdə N.Nərimanov V.Ə.Leninə yazırdı: "Həmişə Denikini müdafiə edən Ermənistan müstəqillik qazanır və əlavə olaraq da Azərbaycan torpaqlarını alır. Zaqafqaziya respublikaları arasında hamıdan əvvəl özünü Sovet Rusiyasının ağuşuna atan Azərbaycan isə həm müstəqilliyini, həm də ərazisini itirir. Azərbaycanın indiki vəziyyəti elədir ki, Mirzəyanlar heç bir maneəsiz onun taleyini həll edirlər".

M.Urud yazır: "Bəlkə də N.Nərimanov, Ə.Qarayev və M.Hüseynovla birlikdə Ak(b)p MK-nin 1920-ci il 30 noyabr tarixli büro iclasında Q.Oreonikidze, S.Ter-Danelyan, Y.Stasova, Q.Kaminski və başqalarına Zəngəzurun Ermənistana verilməsi barədə qərar qəbul etməyə mane ola bilsəydi və bir gün sonra tarixə bədnam "Nərimanov bəyanatı" kimi daxil olmuş çıxışı etməsəydi, Zəngəzuru bağışlamaqla yanaşı Ermənistana iki yüz milyon manatlıq kredit

ayırmasa idi əksinə Azərbaycan ordusunu, yaxud milisini Sultan bəy Sultanovun köməyinə göndərsə idi, Zəngəzur könüllülərinə silah və patron yardımı etsə idi, referendum keçirilməsi, yaxud başqa bir siyasi manevr edə bilsə idi, indi hər şey tamamı ilə başqa cür ola bilərdi. Lakin, Nərimanov aldandı və gecikdi. Erməni kommunistləri isə gecikmədilər.

Azərbaycanı parçalamaq və bizim torpaqlarımızın hesabına yaratdıqları dövlətlərinin ərazilərini daha da genişləndirmək məqsədi ilə daşnakların başladıqları, lakin müvəffəq ola bilmədikləri işğalı başa çatdırdılar.

1921-ci il iyulun 20-də Ermənistan SSR Xalq Komunissarları Soveti respublikanın ərazi bölgüsünü 9 qəzadan ibarət olmaqla təsdiq etdi. Doqquzuncu qəza indiki Sisyan, Qafan, Gorus rayonları və Mığrı rayonunun bir hissəsinin ərazisindən ibarət olan Zəngəzur qəzası elan olundu.

Zəngəzurun Ermənistana verilməsi prosesi təəssüflər olsun ki, sonrakı illərdə də davam etdirildi. 1927-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın Mığrı-Cəbrayıl qəzasının 27 kəndi, Zəngəzur qəzasının isə 10 min desyatindən çox yaylaq ərazisi Ermənistana peşkəş edildi. 1929-cu il fevralın 18-də isə Zaqafqaziya MİK Rəyasət Heyətinin M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyadzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasının qərarı ilə Zəngilan rayonunun daha 3 kəndi – Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu – Mığrı rayonu təsis edildi”.

Azərbaycan Respublikası öz müstəqilliyini çətin vəziyyətlə bərpa etsə də, keçən 20 il ərəfəsində ölkəmiz bir çox yeniliklərə imza ata bilmişdir. Qarabağın ermənilərin əlində qalması Azərbaycanı bir çox məsələlərdə istədiyi addımı atmağa imkan vermir. Lakin, son müstəqillik illərində kölgədə qalmış bir çox məsələlər araşdırılaraq öz həqiqi qiymətini ala bilmişdir ki, bunlardan biri də XX əsrin əvvəllərində erməni daşnaklarına qarşı qeyrətli mübarizə aparmış Xosrov bəy və Sultan bəy qardaşlarıdır.

Bu yazının müəllifinin Sultanovlar haqqında xeyli yazıları özünün bir neçə kitablarında və mətbuatda uzun illərdir işıqlandırılır.

Xosrov bəyin və Sultan bəyin Azərbaycanda tarixiləşməsi əsasən Zəngəzurla bağlıdır. Bu Zəngəzur qəhrəmanlarının ailə həyatları ilə əlaqəli bəzi məqamları da nəzərdən qaçırmamağı qərara aldıq.

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı Əli Əhmədov "Adları tarixə həkk olunmuş Sultanov qardaşları" adlı yazısında (525-ci qəzet, 24 iyul 2011-il) göstərir: "Azərbaycan Dovlət tarix arxivindən əldə etdiyim sənədlər Əli Paşa bəy, onun qardaşları və övladları haqqında qiymətli məlumatlar verir. Bu sənədlər Əli Paşa bəyə və onun qardaşlarına verilmiş bəylik şəhadətnaməsidir. Bu sənədlərin birində yazılır: "Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur və Nuxa qəzaları ilə ali silkə mənsub olmaq hüquqlarını müəyyən etmək üçün yaradılmış Şuşa bəy komissiyasının 21 dekabr 1827-ci il 374 saylı protokoluna əsasən Əli Paşa bəy Xan Murad bəy oğlu Sultanovun, onun arvadı Bəyim xanımın, oğlu Sultan bəyin, qızı Aftab xanımın bəy nəslinə mənsub olması təsdiq edilir".

Şuşa bəy komissiyasının yuxarıda adı çəkilən qərarı 16 avqust 1877-ci ildə Qafqaz canişini tərəfindən təsdiq edilir. Əli Paşa bəy Sultanov və onun ailə üzvləri Yelizavetpol quberniyasının Zəngəzur qəzasının bəyləri siyahısına daxil edilir və ona 1613 saylı şəhadətnamə verilir. Bu sənədin qiymətli cəhətlərindən biri də burada Əli Paşa bəyin və onun ailə üzvlərinin anadan olma tarixlərinin göstərilməsidir. Sənəddən məlum olur ki, 1872-ci ildə Əli Paşa bəyin 35, Bəyim xanımın 28, Sultan bəyin 1, Aftab xanımın 3 yaşı olmuşdur.

Əldə etdiyim digər sənəd Xan Murad bəyin digər oğlu Mehralı bəy haqqındadır. Şuşa bəy komissiyasının 21 dekabr 1827-ci il 374 saylı protokoluna əsasən 30 yaşlı Mehralı bəy Xan Murad bəy oğlu, onun arvadı 28 yaşlı Tutu xanım, oğlu 7 yaşlı Mərdan Əli bəy, 5 yaşlı Xanlar bəy və 3 yaşlı Həmzə bəy Yelizavetpol quberniyasının Zəngəzur qəzasının bəyləri siyahısına daxil edilmiş

və bu barədə Mehralı bəyə 16 avqust 1877-ci il tarixdə 164 saylı şəhadətnamə verilib.

Üçüncü sənəd Şah Murad bəy Xan Murad bəy oğlu haqqındadır. Şuşa bəy komissiyasının 21 dekabr 1872-ci il 374 saylı protokoluna əsasən 22 yaşlı Şah Murad bəy və onun arvadı, 20 yaşlı Nanə Pəri xanım Yelizavetpol quberniyasının Zəngəzur qəzasının bəyləri siyahısına daxil edilmiş və Şah Murad bəyə 1615 saylı bəylik şəhadətnaməsi verilib.

1949-1954-cü illərdə Azərbaycan SSRİ Ali Sovetinin sədri işləmiş Nəzər Heydərov "Zəngəzur dağlarında" kitabında yazır ki, o dövrdə Qafanın mis mədənlərində çıxarılan mis qatırlarla Şuşaya gətirilir, oradan arabalarla Yevlaxa (Yolaxa) daşınır. Xan Murad da ilk var-dövlətini mis daşımaqla toplayır.

Əvvələr də yazdığımız kimi, M.M.Nəvvab qeyd edir ki, ermənilər 1905-ci ildə rus çarı II Nikolayın və Qafqaz canişini S.Ş.Vorontsov-Daşkovun himayəsindən istifadə edərək silahsız dinc türk əhalisinə qarşı qırğına başlayarkən İbrahim bəy Alməmməd bəy oğlu ilə yanaşı Paşa bəy və oğlu Sultan bəy də Laçın igidlərini cəm edərək Şuşanı və sonra da Zəngəzuru, Qarabağı müdafiə işlərində iştirak etmişlər. Ermənilər Şuşanı ələ keçirmək üçün Gəncə və İrəvandan 10 min silahlı toplayıb öz qüvvələri ilə birləşdirmiş, Şuşada olan rus generalı Qoloşşapova 10 min manat rüşvət verərək rus əsgərlərini də ermənilərlə eyni cəbhədə döyüşməsinə razılıq əldə etmişdilər. Yenə də İbrahim bəy 68 yaşlı Paşa bəy 1906-cı ildə şuşalıları bu qırğından qurtarmışlar.

Bəzi mənbələrə görə 1919-cu ilin oktaybr-noyabr aylarında AXC hökməti Qarabağa Cavad bəy Şıxlınskinin rəbərliyi ilə 1-ci piyada diviziyasını asayışı bərpa üçün göndərir. Burada da Xosrov bəyin göstərişi ilə özü ilə yanaşı, çətin də olsa Sultan bəyi də bu döyüşlərə qoşa bilir.

Əli Əhmədov yazır: "31 may 1920-ci ildə XI Qızıl ordu hissələri Zəngəzura yenidən hücuma başlayır. Professor İ. Musayevin verdiyi məlumata görə, 23 iyul 1921-ci ildə Sultan bəyin hərbi dəstələri təkisilah edilir, özü isə İrana qaça bilir.

25 iyul 1921-ci ildə Sultan bəyin evi Ə.Qarayev və Şuşa Qəza İcraiyyə Komitəsinin sədri S.Mahmudbəyov tərəfindən müsadirə olunur".

Professor M. Qasımlı göstərir ki, 1930-cu ildə Azərbaycan hökümətinə daxil olan məlumatda Sultan bəyin Azərbaycanda olan qaçaqalara İran vasitəsi ilə kömək etdiyi xəbərini verirlər.

Azərbaycan təhlükəsizlik təşkilatlarına daxil olan bəzi məlumatlara görə, Cənubi Azərbaycanın Larıcan kəndində Sultan bəyin 250 nəfərlik silahlı dəstəsi sərhəddi keçməyə hazır imiş. Sovet höküməti Sultan bəyin həbs olunması və ya İrandan çıxarılması üçün İran hökümətinə nota verir. Bundan sonra Sultan bəy İranı tərk edərək Türkiyəyə keçməyə məcbur olur.

Paşa bəyin oğlu Xosrov bəy çox vətənpərvər, siyasi savadlı, humanist fikirli bir insan olmuşdur. Əvvəllərdə qeyd etdiyimiz kimi Azərbaycan Cümhuriyyətinin Ensiklopediyasının 2-ci cildində Xosrov bəy haqqında xeyli məlumatlar verilmişdir. Burada onun 1903-cü ildə Novorossiyski Universitetinin Tibb fakültəsini bitirdiyi də qeyd olunur.

Xosrov bəy 28 aprel 1920-ci il işğalından sonra iki həftə Qarabağ hərbi İnqilab Komitəsinin sədri olur. 1920-ci ilin 12 may tarixində XI Qızıl Ordunun Xüsusi Şöbəsinin müdürünün əmri ilə həbs olunur və 1920-ci ilin 9 avqustunda onun şəxsi işi Ali Tribunala verilir. L.Şüküroğluna görə Xosrov bəyin həbsdən azad olunmasına Azərbaycan XKS sədri, tələbə dostu N,Nərimanov və Şuşada onun müavini olmuş Çingiz İldırım olmuşdur. Professor İ.Musayev isə Xosrov bəyin həbsdən azad olunmasını qardaşı Sultan bəylə əlaqələndirir.

Qardaş Türkiyədə özünə sığınacaq tapan Xosrov bəy Vətən uğrundakı mübarizəsini ömrünün son günlərinə qədər davam etdirmişdir. O, qəriblikdə "İttihad" partiyasının sədri seçilmiş, Müsavat başqanı M.Ə.Rəsulzadə ilə Türkiyədə, Almaniyada, Polşada onunla fəaliyyətdə olmuş, bu yazının müəllifinin atası, Sovet hərbiçisi İsrafil bəyin təşkilatçılığı ilə M.Ə.Rəsulzadənin təklifi ilə Türkiyə Tibbi Komissiyasının tərkibinə daxil olmaqla SSRİ

müsəlman əsirlərinin faşist ölümündən azad edilməsində bir həkim kimi fəaliyyət göstərmişdir.

Paşa bəyin oğlu, Xosrov bəy və Sultan bəyin qardaşı Rüstəm bəy haqqında da müxtəlif müəlliflər müxtəlif cür məlumatlar verirlər.

Əli Əhmədov yazır: "Sultanovlar ailəsinin digər üzvü, Sultan bəyin qardaşı Rüstəm bəy Sultanov və onun oğlu İskəndər bəy Sultanov haqqında məlumatları tədqiqatçı-jurnalist L.Şüküroğlunun 2000-ci ildə çap edilmiş "Cümhuriyyət höküməti repressiya məngənəsində" yazısında tapırıq. Bu mənbədən aydın olur ki, Rüstəm bəy Sultanov 1875-ci ildə Zəngəzurun Qurd Qaji (Qurdgəzi) kəndində anadan olub, 1935-ci ildə həbs edilərkən Bakıda neft mühəndisi vəzifəsində işləyib".

Rüstəm bəyin oğlu İskəndər bəy Sultanov haqqında Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyasının 2-ci cildində verilmiş məlumata görə, o, 25 may 1897-ci ildə Zəngəzur qəzasında anadan olub, 1919-cu ildə ADR höküməti tərəfindən Berlin Universitetinə oxumağa göndərilmişdir. İskəndər bəy 1933-cü ildə Bakıya gəlir və 1935-ci ildə "alman casusu" kimi həbs edilir.

Onu da qeyd edək ki, Rüstəm bəy ömrünün xeyli hissəsini Bakı neft mədənlərində mühəndisliyə həsr etmiş, heç bir siyasi fəaliyyətdə olmamışdır. Bu yazının müəllifinin ata babası Sankt-Peterburq Texnologiya İnstitutunu bitirdikdən sonra Bakıya – Rüstəm bəyin yanına gəlmiş və onlar xeyli bir yerdə çalışmışlar.

Cəlil baba Bakı şəraitində yaşaya bilmədiyindən Zəngəzura dönmüş, orada Sultan bəyin Andranikə qarşı mübarizəsinə "baş qoşduğu" üçün və "Musavat" üzvü olduğu üçün Sovetlər dönəmində tutularaq məhv edilmişdir.

Zəngəzur tarixi çox zəngindir, çox qədimdir, araşdırılması vacib olan məqamlar da çoxdur.

## SULTAN BƏYƏ ÖZ DƏYƏRİNİ VERƏK

Sultan bəyin öz xalqı qarşısında gördüyü vətənpərlik işlərinə görə dəyərini 90 il bundan öncə alıb və onu sözün həqiqi mənasında indi də xalq qəhrəmanı hesab edirlər və gələcəkdə də belə olacaqdır. Bununla yanaşı o, dövlət səviyyəsində hələ də layiq olduğunun yolunu gözləyir.

Zəngəzurun, Laçının, Yuxarı Qarabağın və sair bölgələrimizin tarixini araşdıran, xeyli elmi kitabların, müxtəlif yazıların, ermənilərlə bağlı faciələrin araşdırıcısı kimi, mənəvi haqqı olan bir vətəndaş kimi böyük məsuliyyətlə deyə bilərəm ki, Sultan bəy irsinin araşdırılması, onun müasir zamanda bəlkə də hər gün təbliği Azərbaycan üçün çox gərəklidir. Bu isə ən çox tarixi sənət və sübutlara söykənən dəlillərlə, təkcə Azərbaycan xalqına deyil, bütün dünyaya çatdırılmalıdır. Çünki, Azərbaycan xalqının, Azərbaycan dövlətinin, onun dostlarının, geniş ictimaiyyətin buna böyük ehtiyacı vardır.

Sevindirici odur ki, 29 yanvar 2011-ci il tarixdə Prezident Aparatının məsul əməkdaşı Rövşən müəllim və Laçın rayon icra başçısı Ramiz Cəbrayılovun rəhbərliyi ilə laçınlı ziyalıların, mətbuat işçilərinin, digər insanların, Sultan bəyin yaxın qohumlarının iştirakı ilə Sultan bəyin anadan olmasının 140 illiyinə həsr olunmuş ilk yığıncaq keçirildi, insanlar öz fikirlərini bölüşdülər.

Məlum oldu ki, tədbir və gələcəkdə görüləcək digər işlər Respublika rəhbərliyinin siyasi iradəsinin nəticəsidir.

Sultan bəyin əməyinin dəyərləndirilməsi üçün, mənim şəxsi fikrimcə, onun əhatəsi, yaşadığı, mühit və bölgə, keçdiyi yollar, göstərdiyi xidmətlər tarixi sənədlərə söykənən məlumatlar əsasında olmalıdır və bu barədə kifayət qədər sənədlər vardır. Burada bir

məsələni də diqqətdə saxlamaq lazımdır ki, o da onun qardaşı Xosrov bəyin keçdiyi yol, atası Paşa bəyin, İbrahim bəyin, Cəlil bəyin, xanımının qohumları olan dəyərli bəylərin xidmətləri ilə birlikdə aparılan araşdırmalar olmalıdır. Digər vacib məsələ Azərbaycan xalqının 300 illik qatı düşməni, Azərbaycanın əzəli torpaqlarında məskunlaşan, havasını udan, suyunu içən, çörəyini yeyən, bu xalqdan qayğı görən, lakin kürəyimizə arxadan xəncər saplayan, qızlarımızı, gəlinlərimizi zorlayan, döşlərini kəsən, gözünü çıxardan, dərisini soyan, diri-diri quyulara dolduran, məscidlərə yığıb yandıran, çılpaq kürəyə qaynar samavar bağlayan, körpələri nizəyə keçirən, parçalayan və s. insanlığa yad olam əməllər törədən ermənilərin hansı qüvvələrlə Sultan bəy və onun tərəfdarları ilə üzbəüz, gəlməsi məsələləridir.

Sultan bəyin böyüklüyünü təkcə 1918-ci il Zəngəzur hadisələri ilə çərçivələndirmək olmaz. O, müxtəlif illərdə müxtəlif şəhər və kəndlərin, əhalisinin müdafiəsində əvəzsiz xidmətlər göstərmiş şəxsdir.

Tarixi sənədlər, müxtəlif cürə qeydə alınmış hadisələr, real həqiqətlər göstərir ki, ermənilərin istər Cənubi Azərbaycanın şəhər və kəndlərində, istər Şimali Azərbaycan torpaqlarında, Qərbi Azərbaycanda (indiki Ermənistanda), Naxçıvanda, Borçalıda, Dərbənd vilayətində, Zəngəzurda, Kür-Araz və Kars Demokratik Cümhuriyyəti torpaqlarında ermənilərə layiq olduqları cəzaları Sultan bəy səviyyəsində və həcmində heç kim verməmişdir.

Budur Sultan bəy böyüklüyü!

Sultan bəy çox cavan yaşlarında da atası Paşa bəylə, Araflıdan olan İbrahim bəylə Şuşada, Yuxarı Qarabağda, Zəngəzurda, Laçın bölgəsinin həm Qərb və həm də Şərq hissələrində ermənilərlə sərhəd kəndlərində erməni qımdaxlarına qarşı müdafiə işlərində fəallıq göstərmişdir.

1902-1907-ci illər arasında demək olar ki, ermənilər Azərbaycanın hər yerində əhaliyə silahlı basqınlar, qırğınlar, dağıntılar törətmişlər. Ruslar Rusiyanın özündə xüsusi mərkəzlər təşkil etmişlər ki, burada erməni qımdatxanalar qımdax hazırlıqla-

rı keçir, silah-sursatdan və digər vasitələrdən istifadəni öyrənib Azərbaycana göndərilirdi.

Artıq 1904-cü ildə Bakıda, 1905-ci ildə İrəvanda, Naxçıvanda, Təbrizdə, Xorasanda, Şuşada, Şuşa ətrafı kəndlərdə, Tiflisdə, Gəncədə, 1905-ci ilin oktyabr ayında yenidən Bakıda, 1906-cı ildə Qarabağın, Malıbəyli, Xankəndi, Qaybalı, Pirəmikidə, Xələflidə, Paprəvənddə, Əsgəranda, Gülablıda, Abdalda, Qacarda, xüsusən də aşağı Zəngəzurda – onun Qarakimsə (Sisyan), Bağadü, Molla Əhmədlidə, Quşçuda, Fərəcanda, Əliyanlıda, 2-ci Fərəcanda, Qaragöldə, Hacılarda, Güləbirddə, Mığrıda, Mədəndə, Sadınlarda, Cicimlidə, Qarakimsədə, Ağbulaqda, Fərraşda, İrçəndə və s. yaşayış məntəqələrində ermənilər silahlı qırğınlar törədir, kəndləri yandırır, kəndlərin var-dövlətlərini talan edir, ələ keçən insanları insanlığa yaraşmayan üsullarla, yandırmaqla məhv edirdilər. Sultan bəy bu “qaynar qazan”ın içində idi. Bu dövrlərdə yerli hakimiyyətin zəif olmasından, rusların ancaq müsəlmanları günahlandırmağı, silahsız və hətta silahdan istifadəni hamının bilməməsi çox faciəli nəticələrə gətirib çıxarırdı. Zəngəzurun mərkəzi Gorusda isə hakimiyyəti təmsil edən azərbaycanlılar qovulmuş, oradakı müsəlman əhali tam məhv edilmişdi. Bu dövrlərdə insanlara ən böyük köməyi Mir Möhsüm Nəvvabın və digərlərinin yazdığına görə Zəngəzurda, Şuşada, Laçında və Qarabağın bir çox yerlərində ermənilərə layiq olduqları cəzanı Laçının Araflı kəndindən olan İbrahim bəy Alməmməd bəy oğlu, Paşa bəy Murad oğlunun sərkərdəliyi ilə özlərinin yaratdığı dəstələr olmuşdur. Təbii ki, bu döyüşlərdə Sultan bəy də arxa cəbhədə fəallıq edir, əlaqələndirici qismində iştirak edirdi. İbrahim bəyin başına isə ermənilər qiymət qoymuşdular.

Ümumilikdə bir çox tarixi məqamlarda Laçın əhalisi arasından çıxmış xeyli sayda xalq qəhrəmanları olmuşdur. Bunlardan biri də Sultan bəyin dostluq etdiyi İbrahim bəydir. 1906-cı ilin iyul ayında Şuşa şəhərində erməni-müsəlman davası zamanı Şuşada şəhərin ermənilər tərəfindən mühafizəsini 1-ci yaran İbrahim bəy olmuşdur. Onun ardınca Sultan bəy şəhərə girmişdir, (Mir Möhsüm Nəvvab).

Bu döyüşdə İbrahim bəy şəhid olaraq böyük hörmətlə xalq qəhrəmanı kimi Gövhər Ağa Məscidi həyətində dəfn edilmişdir. Sultan bəylə Paşa bəy İbrahim bəyin rəhbərlik etdiyi igidləri öz dəstləri arasında yerbəyer edərək Şuşanı erməni qəsbkarlarından azad etmişlər. Paşa bəy bu və ya digər mübarizə meydanlarında vuruşa-vuruşa böyük sərkərdə və xalq qəhrəmanı səviyyəsinə yüksəlmişdir.

Nəvvab qeyd edir ki, "sonralar bu işə Paşa bəy və Sultan bəy də qoşulmuşlar, torpaq uğrunda böyük mübarizlik göstərmişlər (Yəni İbrahim bəy və digər bəylərdən sonra)".

Sultan bəy atası Paşa bəyin və digər insanların söylədiklərindən də məlumatlı idi.

Sultan bəyə yaxşı məlum idi ki, 1877-ci ildə ermənilər üçkilsədə (Eçmiədzində) pul kəsən maşın tapıb, 9 milyon qəlp əskinaz pul kəsdikdə, 48 yaşlı Cəbrayıl bəy (Zəngəzurun Sultanı, Qarabağ qoşunlarının rəhbəri) dövlətə yardımçı olaraq, qəflətən tökülüb həmin pulları və çap maşınını müşadirə etməkdə, pulkəsənləri və kəsdirənləri tutub dövlətə təhvil verməkdə ad çıxarmışdır. Sultan bəy bölgədə gedən və əvvəllər törədilmiş erməni qırğınları, onların havadarları haqqında da məlumatlı idi.

1918-ci il yayın axırı və payızda erməni daşnağı, qulağı kəsik Andranikin qoşunları Cənubi və Şimali Azərbaycanın, Türkiyənin, Gürcüstanın bir çox yerlərində bacardığı qədər faciələr törətdikdən sonra öz qoşunlarını aşağı Zəngəzurda cəmləmişdi. Məqsədi Zəngəzurla Aran Qarabağı birləşdirmək, Şaumyanın məktubuna uyğun olaraq Azərbaycan türklərini bir yolluq məhv etməklə dənizdən-dənizə böyük ermənistan yratmaq planını həyata keçirmək idi. Bu plan çoxdan var idi və erməni kilsəsindən idarə edilir, məsləhətlər verilirdi. Andranik sadə hərbiçi deyildi, Türkiyədə döyüşlərdə iştirak etmişdi, Rusiyada oxumuş və hərbi təcrübə keçmişdi, general-mayor hərbi rütbəsini almışdı, qatı millətçi idi, türkü görməyə gözü yox idi. Qriqoryan kilsəsindən "xeyir-dua" almışdı, o dövrün hərb qaydalarını yaxşı bilirdi. Qeyd edək ki, həmin dövrlərdə tarixən Qarabağ xanlığına, Gəncə, Təbriz

bəylərbəyliyinə daxil olan Zəngəzur parçalanmış, Arazdan cənuba olan torpaqlar Tehrana tabe idi, yuxarı hissə isə iki-üç hissəyə bölünmüşdü və Yuxarı Zəngəzura Hacısamlı dərəsi adı verilmişdi. Qarabağın general-qubernatoru Xosrov bəyin qardaşı Sultan bəy Hacısamlı sahəsinin bəyi idi. 1918-ci ildə bu torpaqlarda ümumi vəziyyət də erməni basqınları səbəbindən acınacaqlı idi. İnsanlar təsərrüfatları ilə məşğul ola bilmir, Aran Qarabağ elatının dağa çıxa bilməmələri ucbatından Qarabağın həm aranında, həm də dağında, ümumilikdə Zəngəzurda, o cümlədən Laçın bölgəsində vəiyyət ağır idi, heç yerdən də kömək yox idi. Orada silah, silahdan istifadə edəcək insanlar yetərincə deyildi. Qarabağla əlaqə kəsilmişdi, Qarabağın qubernatoru ancaq Şuşa, Ağdam, Cəbrayıl və s. yerlərdəki faciələri yoluna qoymaqla məşğul idi və Zəngəzura kömək iqtidarında deyildi, qüvvələr yetərincə deyildi. Zəngəzurda isə tayqulaq Andranikin və digər erməni qruplaşmalarının vəhşiliklərinin həddi-hüdudu yox idi. Sultan bəy də bu işlərin içində idi, bir tərəfi müdafiə edəndə 2-ci tərəfdən ermənilər tam silahlanmış güclü ordu ilə hücuma keçirdilər. İnsanlar da vahimə içərisində yaşayırdılar. Sultan bəy öz dəstəsi ilə Gorus-Abdallar (Laçın)-Şuşa yolunun müdafiəsində olduğundan istifadə edən ermənilər Hacılar, Qaragöl, Minkənd tərəfdən hücuma keçərək bir neçə kəndi viran qoymuş, insanları vəhşiliklə qətlə yetirmiş, girov götürmüş, insanların var-dövlətini, heyvanlarını aparmışdılar.

Sultan bəyin hansı faciələrlə üzbəüz dayandığını dərk etmək üçün Laçının Daşbulaq deyilən hissəsində baş vermiş faciəni misal göstərə bilərik.

Burada ermənilər bir həyətdə əli silahsız dörd kişini ağaca sarımış, cavan əliuşaqlı gəlini növbə ilə zorlamış, sonra suyu qaynayan isti samovarı onun çılpaq kürəyinə sarımış, döşünün birini kəsərək körpənin ağzına tıxamış, gəlinin əllərini sarıyarpaq ayağında sicimlə hörükləmişlər. Gəlin hörükdən xilas ola bilməmiş, qaynayan samovar onu öldürənə qədər çırpınaraq ah-nalə çəkmişdir. Anaya və bu kişilərə verilən cəzalardan biri də, bələkdə olan körpə uşağı onların gözü qarşısında söyə-söyə nizəyə taxmış və nizənin

2-ci tərəfini yerə basdırmaqla, nizəyə taxılmış körpə göydə qalmışdır. Sonra kişilərdən üçünün qolunu, ayaqlarını, başını ayrıca kəsərək bədənlərini ağaca sarınmış saxlamışlar. Dördüncü kişinin isə ayıb yerini kəsərək ağzına tıxamış, gözünün birini çıxarmış, sağ əlinin içinə atəş açmışlar. Sultan bəyin köməyə gələn dəstəsi hadisənin şahidi olmuş, digər məqamları isə can üstə olan kişi başa salmaqla həyatını dəyişmişdir. Hadisə insanları dəhşətə gətirmiş, hətta bəziləri özünü saxlaya bilməyib, hönkürtü ilə ağlamışdır.

Həmin ərəfədə Sultan bəy Araflıda Alməmməd Sultanın (Zəngəzurun sultanı) nəvəsi Mirzə Həmid bəyin evində idi və özünü müdafiə dəstələri düzəltməklə məşğul idi.

Yuxarıda dediyimiz faciəni yaxşı bilən Sultan bəy göstəriş verir ki, gəlinə, uşağa və parçalanmış kişilərə heç nə etmədən, necə var eləcədə gətirsinlər Araflıya (Alaflıya).

Sultan bəy Mirzə Həmid bəyin tövləsinə ermənilərlə döyüşdən yayınan xeyli adam da saldırmışdı. Sultan bəy meyitlərə bir-bir diqqətlə baxdıqdan sonra göstərir ki, fərariləri Mirzə Həmid bəyin xırmanının ətrafına dairəvi şəkildə düzsünlər. Sultan bəylə onun bir neçə dəstə başçısı Əvil bəy, Ədil bəy, Xosrov bəy, Camal bəy və s. fərarilərin qarşısına çıxırlar. Mirzə Həmid bəy də əlində ipək parçaya bükülmüş Quranla birlikdə Sultan bəyin sağında dayanır. Mirzə Həmid bəy həm də Məşədi idi, islamı yaxşı bilirdi, əsl Allah adamı idi.

Sultan bəy fərarilərə müraciət edərək deyir ki, mən sizə heç nə deməyəcəm, heç bir cəza da nə indi, nədə ki, gələcəkdə verməyəcəyəm, inanmasanız Mirzə Həmid bəyin Quranına da and içəcəm. Amma, indi sizlərə bir şey göstərəcəklər, baxıb dağılışarsız evlərinizə. Sultan bəy göstəriş verir ki, o kilimlərlə-cecimləri gətirin qoyun bəyin xırmanın ortasına.

Elə də edirlər. Ətrafdakı insanlar döşü kəsilmiş, kürəyində samovar olan qadını və nizəyə taxılmış bələkdəki uşağı, eybəcər hala salınmış və bir-birinə qarışmış kişi qollarını, başlarını, qılçalarını və s. gördükdən sonra çox pis hala düşürlər və bir-bir Sultan bəyə baş əyərək Mirzə Həmid bəyin əlindəki Qurani-Kərimə əl basaraq

and içirlər ki, bu qan yerdə qalmayacaq, hamı bir nəfər kimi ölənə qədər döyüşəcəklər. Bu hadisə bütün təfərrüatı ilə Hacısamlıya, Yuxarı Zəngəzura yayılır. Hadisədən sonra bir çox insanlar öz xoşları ilə Hacısamlı özünü müdafiə dəstələrinə qoşulurlar.

Sultan bəy üçün çox çətin idi. Silah yox, təcrübəli ordu yox, insanlar silah olanda da ondan istifadəni bacarmır, qardaşı Xosrov bəydən yardım ala bilmir, Cümhuriyyətdən heç bir silah-sursat və əsgəri qüvvə ala bilmir, Zəngəzurun bütün çevrəsi erməni silahları, təlim görmüş ordu ilə əhatələnmişdi. Belə bir şəraitdə bu çevrəni yarıb çıxmaq da sual altında idi. Sultan bəyin yeganə çıxışı Laçın əhalisi və onun qeyrəti idi.

Daşnak Andranikin qoşunlarının kifayət qədər silahları, o cümlədən topları da var idi. İndi olduğu kimi Fransa, İngiltərə, Yunanıstan, Rusiya, ABŞ və s. dövlətlər erməniləri silahla, paltarla, pulla, qida ilə təmin edirdilər və ADR-nın dirçəlməsinə imkan vermək istəmirdilər.

Sultan bəyin Laçın bölgəsinin bir çox kəndlərində apardığı görüşlər, sayəsində, top və dövrün yaxşı silahlarını almaq üçün insanlar Sultan bəyin dəstəsinə kömək etməyə başlayırlar. Qaratel xanım Paşa bəy qızı danışırdı ki, Sultan bəyə bir "ətək" qızıl-gümüş verdik ki, top ala bilsin. Bu yardım sayəsində Sultan bəy bir ədəd top alıb Qaragöl tərəfdə qoymaqla Andranikin qoşunlarını Laçın (Abdallar kəndi) şəhərinin ətəyindəki Zabux çayında məhv edənə qədər Gorus şəhərini nəzarətdə saxlamaqla mümkün olmuşdur. Elə bu top da Andraniki məcbur etmişdir ki, Sultan bəylə danışığa getsin. (Z.N. "Türkəm Tanrıçıyam və ya dön geriyə bax"). Həmin vaxtlarda aşağı Zəngəzurda 1918-ci ilin ancaq yayın axırı və payızda müsəlmanların başlarına gətirilən faciələri isə Azərbaycan Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının Gəncə Quberniyasına aid olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzası üzrə müsəlman kənd və insanlarının ermənilər tərəfindən başlarına gətirilən faciələri araşdıran komissiyanın üzvü Mixaylovun üzdən-üzdən tərtib etdiyi və bütün faciələri tam əks etdirməyən məruzəsində deyilir:

“Hazır ki, məruzədə Sizə Qarabağın Cavanşır, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında baş vermiş faciəli bədbəxt hadisədən məlumat verəcəyik. Deməliyik ki, oktyabr 1918-ci ilə kimi Azərbaycan Respublikasının Bakı, Quba, Şamaxı, Lənkəran və s. qəzalarında ermənilərin yerli müsəlman əhalisinə verdikləri dəhşətli qırğınlar azalsa da Gəncə Quberniyasının dörd qəzasında – yəni Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında bu faciələr hələ də davam etməkdədir. Bu qəzalarda insan təfəkkürünə sığışmayan vəhşilikləri yerli ermənilərlə yanaşı İrəvan quberniyasından gələn ermənilər və silahlı əsgərlər, Türkiyə vilayətlərindən gətirilmiş silahlı, böyük silah-sursata malik Andranikin rəhbərlik etdiyi nizami erməni qoşunları və bu torpaqları, onun insanlarını, Erməni Respublikasına tabe etdirmək istəyən və erməni hökumətinin təşkil etdiyi erməni hərbi birləşmələri törətməkdə davam edirlər. (Mixaylovun məruzəsindən açıqca görünür ki, Sultan bəy hansı erməni qüvvələri ilə üzbəüz idi). Zəngəzur qəzası hazırda dediyimiz dörd qəzadan daha da ağır vəziyyətdə olanıdır. Belə ki, ermənilər Zəngəzuru Cəbrayıl və Şuşadan ayırıblar və hiss edirlər ki, onlar silah-sursatdan, əsgəri qüvvədən müsəlmanlarla müqayisədə çox üstündürlər və bu imkandan bəhrələnərək Zəngəzurun kəndlərini yandırmaq, qarət etmək, insanlarını məhv etməklə torpaqları ələ keçirmək niyyətindədirlər. Bununla yanaşı Andranik, erməni hökuməti ilə birləşərək, Ermənistan hökumətinin imzaladığı direktivi də əsas sənəd kimi müsəlman kəndlərinin boşaldılaraq Ermənistana tabe olmağı tələb edirlər. Savadsız kəndliləri aldadaraq toparlayıb vəhşiliklə məhv edirlər, guya xristianlığı qəbul etdirmək məqsədi ilə məscidlərə yığdıqdan sonra yandırırlar. Onlar müsəlman kəndlərinin bir-biri ilə əlaqəsini kəsdiyindən heç yerlə əlaqələri yoxdur, onları müdafiə edən qüvvələrə malik deyillər, əhalinin özü silahsızdır. Ermənilər öz hökumətlərinin torpaq sahələrini genişləndirmək üçün hətta öz evlərini, malını-mülkünü ataraq qaçanlara da aman vermir, boş evləri belə, tam yandırmadan əl çəkmirlər. Müsəlman kəndlərindən Sisiyan (Qarakimsə) mahalının 1-ci polis sahəsi, 2-ci sahənin əksəriyyəti, 3-cü, 4-cü və 5-ci

polis sahələrinin hamısı tam məhv edilmişdir. Ermənilər tutduqları bu torpaqlarda hətta təcili müəyyən əkin işləri də aparırlar.

Bu kəndlərdən olan əhalinin sayı bizdə 50.000 mindən çox olan və sağ qalmış müsəlmanlardır ki, onlar da Cəbrayıl qəzasının 4-cü sahəsində acınacaqlı vəziyyətdədir, məhv olmuş və adları siyahıya düşmüş müsəlman kəndlərinin sayı 115-dir. (ÜQAOR Azerbay. SSR, f.970, OP.10, d.161,11.1-9)

Mixaylovun yazılarından da görünür ki, Qarabağın dilbər guşələrindən olan Zəngəzur sultanlığı hansı faciələr görmüş və Laçın əhalisi, onun müdafiəçisi Sultan bəy hansı cəsarət sahibi olmuşlar. Sultan bəyin erməni silahlı qüvvələrinə qarşı atdığı addımlar və onların nəticələri onu Azərbaycan tarixində unudulmayan çox böyük bir xalq qəhrəmanı səviyyəsinə yüksəltsə də biz hələ də onun layiq olduğu dəyərini verməmişik. O, çoxdan yüksək səviyyədə təbliğ olunmalı idi. Onun adına bütün bölgələrdə küçələr olmalı idi, onun adı ilə mükafat təsis olunmalı, Sultan bəy ordeni, medalı olmalı idi, istirahət parkları salınmalı idi, yeni tikilən kənd və qəsəbələrə onun adı verilməli idi, mətbuatda, televiziyalarda həmişə ona həsr olunmuş verilişlər verilməli idi, görkəmli bir yerdə əzəmətli heykəli qoyulmalı idi və sairə. Bunun sayəsində də gənc nəsl vətənpərvərlik ruhunda təlim almaqla, Sultan bəy ruhlu olmağı arzu edərdilər. Yeri gəlmişkən təklif olaraq demək istərdim ki, yeni istifadəyə veriləcək avtovağzal, yaxud Dərnəgül metrostansiyalarından birinə Sultan bəyin adının verilməsi onun anadan olmasının 140 illiyinə çox gözəl töhvə olardı. Maraqlı orasındadır ki, Sultan bəyin nəvəsi Elburus bəy uzun illərdir bu metroda məsul vəzifədə çalışır.

Bu yazının müəllifi bir neçə il öncə Sultan bəyin qardaşı-hakim, Zaqafqaziya seyminin, Azərbaycan Parlamentinin üzvü, AXC dövründə ilk hərbi nazir, ikinci hökumətdə əkinçilik naziri, Qarabağın general-qubernatoru, Müsavat hökümətini dəstəkləyən "İttihad" partiyasında başqan müavini, mühaciratda "İttihad"ın sədri – siyasətçi, 2-ci dünya müharibəsində öz qohumu olan Sovet hərbiçisi İsrafil bəyin vasitəçiliyi ilə türk-müsəlmanı alman əsirliyində olan insanların sobalarda yandırılmasının qarşısını alanlardan biri və ən

nəhayət öz əziz canını ancaq vətəninə qurban verən Xosrov bəyi araşdırdıqca, Sultan bəy haqqında insanlarımıza məlum olmayan xeyli məlumatlar ortaya qoymuşdur. Bu məlumatlar da Sultan bəyin 1905-1923-cü illər arasında vətəni uğrunda, Qarabağ, Zəngəzur, Cənubi Azərbaycan, Qərbi Azərbyacan uğrunda ermənilərlə apardığı bir çox mücadilələrlə tanış olmaq imkanı yaradıb. Deyilən bölgələrin hamısında Sultan bəyin dostları, qohumları, həmfikirləri olmuşdur ki, onlar da Vətən savaşında Sultan bəyə yardımçı olmuşlar.

Sultan bəyə, Xosrov bəyin 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub etməsi, hələ də ermənilərin Laçına basqının davam etməsinin qarşısını almaqda böyük dayaq olmuşdur. Azərbaycanın daxilində bolşevik-daşnaq qoşunlarının, Qərbdən isə Ermənistanın şeytan qüvvələrinin bu bölgədən əl çəkmədikləri hər iki qardaşa gün kimi aydın idi.

Sultan bəy mütəmadi Xosrov bəylə-çətin də olsa əlaqə saxlaya bilmişdi. Bu işdə Sultan bəyə Laçının Araflı bəyləri, Arduşdu və Haxnəzər kəndinin insanları yardımçı olurdularsa, Şuşadan Xosrov bəyin müavini, Laçın qəzasının Qubadlı yaşayış məntəqəsindən olan Çingiz bəy (Çingiz İldırım) fəaliyyətdə idi. Bu əlaqələndirmə hər iki qardaşa böyük faydalar vermişdir. Ümumi işin xeyrinə olsun deyə bu işlərə Şuşanın qəza rəisi Camal bəy Sultanov, Cavanşir qəzasının rəisi Bəhram bəy Məlik – Abbasov da öz imkanları ilə hər iki qardaşı qabaqcadan məlumatlandırırdılar.

Sultan bəy və Xosrov bəyə çətinlik yaradan amillərdən biri də ingilislərin indi olduğu kimi ikibaşlı siyasət aparmaları, Andranikin tərəfini saxlamaları, Zəngəzuru və bütövlükdə Dağlıq Qarabağı Erməni Milli Şurasına təhvil vermək istəkləri idi. Digər bir amil isə Sultan bəyin ixtiyaratında qoşunun olmaması və hətta AXC qoşunlarının tabeçiliyinin Xosrov bəyin səlahiyyətində olmaması idi. Xosrov bəy bu məsələ uğrunda da AXC ilə inandırıcı söhbətlər aparmalı idi. Hətta, məsələ o, yerə gəlib çıxmışdır ki, Xosrov bəy istefa vermək məsələsini qaldırmışdı.

Xosrov bəy daha sonra hərbi hissələri Zəngəzura yeritmək, eyni zamanda ermənilərin İrəvandan Azərbaycan torpaqlarına

hərəkətinin qarşısını kəsmək üçün də hökumətdən icazə istəmək məcburiyyətində qalmışdı. Belə bir vəziyyətdə Sultan bəyin ancaq yerli əhalinin gücünə, torpaqları ölənə kimi döyüşməklə saxlamaqdan başqa bir yolu yox idi. Bütün bunlar xalq qəhrəmanından böyük iradə, inadkarlıq və əzimkarlıq tələb edirdi və belə də oldu.O, öz iradəsini axıra kimi saxlaya bildi. Dağlıq Qarabağ ermeniləri ilə Andranik və Ermənistan qoşunları və bu qüvvələrin daşnak-bolşevik S.Saumyan qoşunları ilə birləşməsinin qarşısı alındı. Sultan bəyin, onun müdafiə dəstələrinin hesabına ermənilər məğlub edildi, Qarabağ və Zəngəzurun xeyli hissəsi 1992-ci ilin 18 mayına kimi Azərbaycan Respublikasının tərkibində saxlanıla bildi. İndi isə bir yox, bir neçə Sultan bəy və Xosrov bəy yetişdirmək gərəkdir ki, təkcə Qarabağı, Zəngəzuru yox bütövlükdə Qərbi Azərbaycanı daşnaklardan azad etməklə, Naxçıvan torpaqları ilə qucaqlaşaq, ermənilərin dənizdən-dənizə torpaqlarımızın tutmasına imkan verməyək.

Mixaylovun məruzəsinə əsasən Andranik Zəngəzurda 115 kəndi insanları ilə biryolluq məhv etdiyi (bəzi mənbələrdə bu kəndlərin sayı 164-dür) tarix 1918-ilin yayın axırı – payız aylarına düşürdü.. Onun məqsədi, həm də becərilmiş məhsulların kəndlilərin evlərinə yığması ilə əlaqəli olmuşdur. ABŞ-dan, Fransadan, Rusiyadan və s. gələn qida məhsulları orduya çatmırdı, Ermənistan özü isə ac idi, Andranikə ordusunu yedirmək üçün tam kömək edə bilmirdilər. Ermənilər tarixən kənd məhsulları yetişdirməyə meyilli olmamışlar. Ata-babaları qaraçı olduğundan dilənmək ermənilərin səcərə peşələri olmuşdur və bu xislət indi də davam etməkdədir. Bunu yaxşı bilən Andranik Qarabağa, oradan da Gəncəyə yürüş etmək istədiyindən, Zəngəzuru məhv edərkən, istəyinin biri də əhalinin evlərinə yığdığı məhsulu mənimsəmək, ordunu yaşatmaq idi. (Bu siyasət 1992-ci ildə Laçının işğalı zamanı da ermənilərin karına gəlmişdir.) Xosrov bəyin Qarabağa general-qubernator təyin edilməsini isə dəqiq bilmirdi.

Sultan bəyin isə bu məsələlərdən xəbəri var idi. Bu məqsədlə də Sultan bəy əsasən müdafiə olunmağa üstünlük verməyə məcbur

idi. Xosrov bəyin təyinatı ancaq 15 yanvar 1919-cu ildə baş tutur və quberniyanın mərkəzi olan Şuşaya 12 fevral 1919-cu ildə gəlir, ilk müşavirəsini isə 15 fevral 1919-cu ildə həyata keçirə bilir. Söylənilən tarixi həqiqətlər də bir daha sübut edir ki, Sultan bəy hansı çətin şəraitdə mərdlik, mübarizlik, sərkərdəlik qabiliyyəti göstərməklə xalqına, vətəninə xidmət etməkdən geri çəkilməmiş, Laçın əhalisini tam olaraq öz ətrafında toparlaya bilmişdir.

Bu dövrlərdə bütün Qərbi Azərbaycan (indiki Ermənistan), Naxçıvan, Zəngəzur, Yuxarı Qarabağ qan içində idi. Belə bir mühitin mərkəzində Zəngəzurun bir parçasını müdafiə etmək hər sərkərdəyə nəsib olmur. Sultan bəyə dayaq ola biləcək Xosrov bəy, yalnız 1919-cu ilin avqust ayında Qarabağ ermənilərinin yığıncaq keçirərək Azərbaycan hökümətinə tabe olması qərarını qəbul etdirə bilmişdi. AXC 23 noyabr 1919-cu ildə ABŞ-ın köməyi və vasitəçiliyi ilə erməni-müsəlman münaqişəsinə son qoyulması məqsədilə Azərbaycan höküməti ilə Ermənistan arasında müqavilə bağlanılır. Lakin, bağlanmış müqavilədən az sonra ermənilər Zəngəzurda və Qarabağda azərbaycanlılar yaşayan kəndlərə yenidən hücumlar edirlər. Heç bir qayda-qanunu qəbul etmək istəməyən nə Andranik, nədə ki, Ermənistan ən azı Zəngəzurla Qarabağı birləşdirmək fikrindən çəkinməmişlər. Andranik növbəti kələyinə əl atır və Sultan bəylə əlbir olmaq istəyir, onun yanına elçi adı ilə xəfiyyə nümayəndəsi göndərir. Sultan bəy Andranikin növbəti hiylə işlətdiyini dərk etdiyindən çox əsəbləşir və nümayəndələri məhv etmək istəyir. Lakin, təbiətcə çox sakit, hövsələli olan Paşa bəy, oğlu Sultanı sakitləşdirir və “elçiləri” qayda-qanunla yola salmağa və möhlət istəməyi məsləhət görür, elə də edirlər. Onlardan sonra Paşa bəy oğlu Sultan bəyə müraciətlə bildirir ki, bu işi təkbaşına görmək olmaz. Çünki, sənin gücün bu camaatdadır. Sultan bəy sakitləşir və Paşa bəyin tədbirini gözləməli olur. Paşa bəy münasib bildiyi insanlardan 8 nəfərini Sultan bəyin “aran otağı” adlanan və Şəlvə çayın sahilində Böyük Zəngəzurun rəhbəri, Qarabağ qoşunlarına rəhbərlik etmiş Cəbrayıl bəy Vəli bəy oğlunun mülkü ilə üzbəüz çay axarının solunda olan evinə toplayır. Sultan

bəyin, bir neçə digərlərinin və deyilən 8 nəfərin iştirakı ilə böyük bir məşvərət yığıncağı keçirirlər. Fikirlər haçalaşır, mülahizələr çoxalır, qəti qərar çətinləşir. Paşa bəy sakitlik yaratdıqdan sonra qohumluq əlaqələri olan Alməmməd sultanın qaradaşı nəvəsi, 16 il Bağdadda ali ruhani təhsili almış Odessa Tibb Universitetini bitirmiş, Böyük Zəngəzura rəhbərlik etmiş, Şeyx Şamillə dostluq etmiş, Azərbaycandan Şeyx Şamilə müxtəlif vasitələrlə yardım etmiş Azərbaycandan yeganə şəxs Cəbrayıl bəyin oğlu Cəlil bəyə müraciət edərək, onun da öz fikrini söyləməsini istəmişdir. Cəlil bəy təbiətcə çox sakit adam idi, Sankt-Peterburqda Texniki Universiteti bitirmişdi. Bakıda neft sənayesində çalışmışdı, Paşa bəyin Bakıda neft sənayesində işləyən oğlu Rüstəm bəylə dostluq etmiş, eyni sahədə işləmişdir. Cəlil bəy bir az fərqli düşündüyünü bildirir və məclis əhlinə üzrxahlıq edib öz düşündüklərini açıqlamışdır. (Bu barədə Araflı bəyi Süleyman bəyin "Bəyliyin tarixi" əsərində ətraflı məlumatlar var). O, bildirmişdir ki, ermənilər Sultan bəyə nə təklif edirlərsə növbəti görüşdə onu ikiqat artırmaq və qəbul etmək lazımdır. Ancaq ən böyük şərt Andranikin qoşunlarının silahlarının sökülərək çuvallara yığılıb elə erməni əsgərlərinin öz atlarına yüklənməsini təklif etmək gərəkdir. Qoy hər bir əsgər öz atının cilovundan yapışaraq aparsın. Bizim atmağı yaxşı bacaran adamlarımız isə Zabux dairəsindən Goruş tərəfdə olan Dik qayadan başlamış, Abdalları (indiki Laçın şəhərini) keçməklə Qaladərəsi kəndinə qədər erməni əsgərlərinin sağ-salamat keçməsini öz boynuna götürsün. Bununla yanaşı ən vacib yerlərdə pulemyotçularımız da gizlənmiş halda, marıqda durmalıdırlar. Ermənilər Abdallara (Laçın) çatanda, onların istiqaməti Şuşa tərəfə deyil, bizim tərəfə Pircan tərəfə yönəldilməlidir. Hər yüklü atın yanında erməni əsgəri ilə yanaşı bizim də silahlı adamımız olmalıdır. Ermənilər həqiqəti başa düşənə qədər çox sakitcə, mehribanlıqla bu iş davam etdirilməlidir. Ermənilər tərəfdən təşviş başlandıqda hər bir silahlı adamımız onun əlində olan ermənini məhv etməli və Abdallar poçtundakı pusquda duranımız, çayın o biri tayındakı adamlarımıza işarə olaraq göyə atəş açmalıdırlar. Bu zaman Dikqayada və Ab-

dallar poçtunda yollar bağlanmaqla ermənilər atəşə tutularaq məhv edilməlidirlər.

Təklif Paşa bəyə o dərəcədə xoş gəlir ki, durub Cəlil bəyi qucaqlayaraq öpür və hündürdən deyir: "A kişi dedim axı danış, sən bəksən, (Paşa bəy bir az şirindanışan idi) sən danış, Sultan bək gördün, bax bu başqa məsələ..."

Ümumi razılıqdan sonra Sultan bəy Andranikə xəbər göndərir, yığıncağın yekun qərarı öz qaydası ilə həyata keçirilir.

Andranikə gəldikdə isə əsl həqiqət bu idi ki, o təcrübəli, yol keçmiş hərbiçi idi, üstəlik erməni idi. Andranik əsgərlərini qabaqca yola salır, özü isə qazalaqla-bir dəstə əsgərlərlə hamıdan axırda gəlir. O, hiss etdikdə ki, Zabux yolu kəsilib, atəş gedir-geri dönüb Gorusa tərəf qaçmağa başlayır. Sultan bəyin bir neçə adamları Andranikin ardınca xeyli getsələr də əsas məqsəddən yayınmamaq üçün öz yoldaşlarına köməyə dönməli olurlar.

Əvvəldə qeyd edildiyi kimi, son 300 illik tariximizdə ermənilərə qarşı aparılan döyüşlərin ən effektlisi, ən böyüyü və ermənilərin ən çox əsgər, silah-sürsat itirdikləri döyüş bu döyüş – Sultan bəyin döyüşü olmuşdur. Burada Dikqayadan Abdallara (Laçına) qədər olan uzun bir məsafədə heç bir erməni əsgəri canını Sultan bəyin döyüşçülərinin əlindən qurtara bilməmişdir. Qırğının ən çox olduğu məkan isə Zabux çayından körpüdən keçən yerdə – körpünün hər iki sahilində olmuşdur. Sultan bəyin dəstəsi çox az itki vermişdir. Laçın rayonunun ən uzunömürlü 1-ci katibi, başçısı işləmiş Cabbarov Muradxan söyləyirdi ki, mənim atam Zabux körpüsünün alt tirlərindən yapışmaqla 24 saaata yaxın orada asılı vəziyyətdə qalmışdır. Onu çox çətinliklə oradan xilas edə bilmişlər. Yəni, Zabux dərəsində çox ciddi döyüşlər baş vermişdir. Bununla da ermənilər geri çəkilməyə məcbur olmuşlar. Özündən çox müştəbeh olan Andranik bu heyfi çıxmaq üçün Azərbaycanın digər əlisilahsız bölgələrinə hücum etmək məqsədilə qoşun toplamağa başlamışdır. Məğlubiyyətə uğramış Andranik Ermənistanın yeni rəhbərliyi ilə də "dil" tapa bilməmiş, Şaumyana əli çatmamış və beləliklə Azərbaycanın ayrı-ayrı tor-

paqlarında soyqırım aparan erməni qüvvələri onun kimi tədricən dağılmağa başlamışdır.

Laçınlı Sultan bəyin Azərbaycanın ən qəddar düşmənlərindən biri, ermənilərin isə çox böyük önəm verdiyi Andranik üzərindəki qələbəsi hərb tariximizin çox şərəfli səhifələrindən biridir.

Sultan bəyin və qardaşı Xosrov bəyin xidmətlərindən biri də Zimistan Həsənovun və Məhəmməd Nərimanoğlunun 2001-ci ildə çap etdirdikləri "Kəlbəcər Azərbaycanın qala qapısı" kitabında göstərdikləri-Goycə mahalından ermənilər tərəfindən faciələrlə qovulan və Kəlbəcərlə Basarkeçərin dağ aşırımında kütləvi şəkildə öldürülən məsələlərlə, Basarkeçərin və Kəlbəcərin müdafiəsində gördükləri işlərdir.

Göyçə, Kəlbəcər, Basarkeçər bölgələri ilə bağlı digər bir mənbə "Qəbələ" qəzetinin 13 aprel 2000-il tarixli "Onlara güzəşt oluna bilməzdi" yazısıdır. Kəlbəcərli Müslüm Şahüseynovun bu yazısından məlum olur ki, Göyçədə, Basarkeçərdə və Kəlbəcərdə Andraniklə 2-ci erməni generalı Silikov çox böyük qırğınlar törətmiş, insanları qaçqın salmışlar. Ermənilərin qarşısını almaq, onları cəzalandırmaq üçün gələn Sultan bəy və onun silahlı dəstəsini Zar və Zəyilik əhalisi qarşılamışlar. Sultan bəy bu insanları silahlandırmış və Göyçəyə istiqamət götürmüşdür. Məsələdən xəbər tutan ermənilər Zodda olan Alban kilsəsinə doluşaraq ağ bayraq qaldırırlar. Zodlu ağalar isə qan tökülməsini istəmirlər, ürəyiyumşaqlıq göstərirlər. Ermənilər azad buraxılır, bu bölgələr Sultan bəy tərəfindən azad edilir və o, Laçına qayıdır. Lakin, çox keçmədən Andraniklə Silikovun qoşunları bu bölgələrə dönür və böyük qırğınlar törədirlər, Göyçənin 32 kəndini yandıraraq məhv edirlər Basarkeçərdə isə demək olar ki, əhali qalmır. Sağ qalmış göyçəliləri öz torpaqlarına qaytarmaq üçün Məşədi Cəmil adlı bir mülkədar Sultan bəyə və Xosrov bəyə müraciət etməklə, xeyli silah-sürsat əldə edirlər və erməniləri bu bölgələrdən sıxışdırmaqla erməni generalı Silikovu Basarkeçərin Qumlu bulaq deyilən ərazisində keştəkli döyüşçülər tərəfindən öldürülür.

Deyilənlərə onuda əlavə edək ki, indiki Kəlbəcər bölgəsinin, Basarkeçər və Göyçə torpaqlarının xeyli hissəsi Qarabağ xanlığı

yaranarkən Zəngəzur torpaqlarına qatılmış və əvvəldən də Zəngəzur sultanı olmuş, xanlığın ilk baş sərkərdəsi Murtuza bəyin olmuşdur. Murtuza bəyin oğul-uşaqlarının Araflı ətrafında, Qara göldə, Haçısamlıda 35-dən artıq yaşadıqları yaşayış məskənləri olmuş, bir çox yerlərdə torpaqları olmaqla – heyvandarlıqla, əkinçiliklə, qoyunçuluqla, atçılıqla məşğul olmuşlar.

Bu əhalinin xeyli hissəsi dediyimiz torpaqlara – yaylaqlara çıxmış, xeyli adamlar məskunlaşaraq orada qalmışlar. İndiki, Laçın bölgəsindən getmiş bu insanlar Laçında yaşadıqları kəndlərin adını Kəlbəcərdə məskunlaşdıqları yerlərə vermişlər. Bunlara nümunə kimi Bəylik, Ağcakənd, Qaracanlı, Seyidlər, Alıbəyli, Vəlibəyli, Nəbili və s. kəndləri göstərə bilərik.

Yuxarıda söylənilən Göyçə-Basarkeçər və s. döyüşlərində də fəallıq göstərənlər arasında əslən laçınlı olanlar çoxluq təşkil etmişdir.

Daşnak Andranik heç nə ilə razılaşmır, əli hər yerdən çıxdıqdan sonra bolşevik rusiyası ilə danışıqlar aparır, dəstək alır, yeni silahlı dəstə yaratmaqla Zəngəzuru, Qarabağı və Gəncəni tutmaqla yenidən S.Şaumyan bolşevik-daşnak hərbi hissələri ilə birləşərək Şimali Azərbaycanda erməni hakimiyyətini genəşləndirmək istəyi bu dəfə də Sultan bəy və Xosrov bəy qardaşlarının səyi ilə heçə endirilir.

Məlum olduğu kimi xarici və daxili qüvvələrin basqıları altında AXC höküməti 1920-ildə hakimiyyəti bolşeviklərə verməli oldu. Bununla da Şimali Azərbaycanda ağaların, bəylərin, mülkədarların, islam din xadimlərinin faciəli günləri başladı. Təbii ki, Azərbaycan xalqına çox baha başa gələn bu proses, digər bəylərlə yanaşı Sultan bəy və Xosrov bəydən də yan keçmədi. Ermənilərin məlumatları əsasında bu qardaşlarla yanaşı, ermənilərlə mübarizə aparmış, öz xalqına mərdanəliklə xidmət etmiş insanlar və bu döyüşdə iştirak edən digər insanlar ən yaxşı halda Sibirə, Qazaxıstana və digər yerlərə sürgün edildilər.

Sultan bəyə, Paşa bəyə və əslində öz xalqına, vətəninə xidmət etmiş Cəlil bəy də bolşeviklər tərəfindən tutularaq, millətçi kimi,

müsavatçı kimi Laçın şəhərinin yuxarı hissəsində, Laçındağda üçlük tərəfindən güllələnmişdir.

Sultan bəy bolşeviklərə qarşı da xeyli mübarizə aparmışdır. Hətta, Sultan bəyə öz yaxını, qohumu vasitəsi ilə sui-qəsd də təşkil etmişlər. Bütün bunlara baxmayaraq Sultan bəy vətənini tərk etmək istəmirdi və onun bolşeviklərlə əməl birliyi yaratmaq səyi də baş tutmadı. Ermənilərin şikayəti əsasında tutulan Xosrov bəy Sultan bəyə ölkəni mütləq tərk etməyi vacib bildi, həbsdən çıxdıqdan sonra İrana keçdilər. İranın Azərbaycan türkünə tarixi münasibətini dərk edən qardaşlar, Türkiyəyə keçməli oldular. Xosrov bəy orada siyasi fəaliyyətini davam etdirmiş, Sultan bəy isə təsərrüfatla məşğul olmağa üstünlük verdi və hər iki qardaş ömürlərini qardaş Türkiyədə başa vurmuşlar.

## SULTAN BƏYİN TƏRƏNNÜMÜ

1871–1955-ci illər arası yaşamış xalq qəhrəmanı Sultan bəy nəhayət ki, yada düşdü.

Laçın rayon icra hakimiyyəti "Sultan bəyin anadan olmasının 140 – illik yubileyi"nin qeyd edilməsi haqqında 01 dekabr 2010-cu il tarixli 80 saylı sərəncam imzaladı. Tapşırıq Sultan bəy və Qarabağ general-qubernatoru olmuş Xosrov bəy haqqında mövcud sənədlərə əsaslanmaq şərti ilə tarixi sənədləri əldə etməklə, onların öz xalqları, dövlətləri qarşısında xidmətlərini işıqlandırmağı nəzərdə tutur. Bu münasibətlə 28 yanvar 2011-ci ildə ziyalıların, Sultan bəylərə yaxın insanların Laçın icra hakimiyyətinin təşkilatçılığı ilə görüş keçirilmiş, müzakirələr aparılmışdır. Qeyd edilmişdir ki, Sultan bəyin, Xosrov bəyin adının əbədiləşdirilməsi, qəbrlərinin abadlaşdırılması, hərbi sahədə müvəffəqiyyətlərə görə "Sultan bəy" adına mükafatın təsis edilməsi və s. məsələlər həyata keçirilməsi tövsiyə olunsun.

Sultan bəyin də, Xosrov bəyin də Vətən qarşısında xidmətləri yetərincədir. Lakin, bunlardan ən diqqət çəkənləri 1905–1906 və 1918–1920-ci illər arasındakı erməni qırğınları ilə bağlıdır.

Sovetlərin gəlməsi ilə əlaqədar qardaşlar İrana, oradan da Türkiyəyə keçməli olmuşlar. Onlar fəaliyyətlərini Azərbaycandan kənarda da davam etdirmişlər. Türkiyənin Qars vilayətinin Köçqoy kəndində məskunlaşan Sultan bəy, Zəngəzurdakı kimi şəxsi təsərrüfatla məşğul olmuşdur. Burada əslən Azərbaycanlı türklər üstünlük təşkil edir və Laçın bölgəsindən də insanlar olmuş, onların arasında Sultan bəyə görə gedənlər də var idi. Xosrov bəy isə siyasi fəaliyyətini bir az da genişləndirmiş, Türkiyə ilə yanaşı Avropada da Vətənin müqəddəratı ilə sıx məşğul olmuşdur. Xos-

rov bəy Türkiyənin müxtəlif şəhərlərində, xüsusəndə Trabzonda yaşamışdır.

Azərbaycan zaman-zaman müxtəlif işğallara məruz qalmış, bu torpaqlarda müxtəlif adda dövlətlər yaradılmış, Səfəvilərdən sonra bütöv bir ölkə 20 xanlığa bölünmüşdür. Bütün bunlara baxmayaraq torpaq – torpaqlığında qalmış, sadəcə bir hissəsi – bir, digər hissəsi ikinci bir rəhbərliyə tabe olmuşdur.

Rusiyanın Azərbaycanı parçalayaraq Şimal hissəsinə ata torpağı kimi deyil, düşmən torpağı kimi baxmasından sonra bu vilayətlərdə Azərbaycan türkləri olmazın faciələrlə qarşılaşmış, torpağının xeyli hissəsini itirmişdir. Belə ki, ruslar Qərbi Azərbaycana erməniləri gətirərək məskunlaşdırmış, digər hissəsini gürcülərin səlahiyyətinə, başqa bir hissəsini isə Dağıstana bəxşiş etmişdir. Lakin, zorən Qərbi Azərbaycana yerləşdirilmiş erməniləri ruslar və digər xristian ölkələri silahlandıraraq günümüzdə olduğu kimi xalqımızın üzərinə göndərmişlər. Başqa tərəfdən isə ruslar Azərbaycan insanlarından silahları məcburən almış, bu insanların oxumasına, inkişaf etməsinə əngəllər törətmiş, bir sözlə bu torpaqlarda zaman-zaman baş vermiş soyqırıma rəhbərlik etmiş, əhalinin doğma torpaqlarından, ev-eşiklərindən Qazaxıstana, Sibirə, isti vilayətlərə köçürülməsinə sərəncamlar vermişlər.

XX əsrin əvvəllərində "dişi qana batmış" erməni – qurdlar Azərbaycanın Qərb hissəsində, Qarabağda, xüsusən də Zəngəzurda çox böyük qırğınlar törətmiş, bütün kəndləri yandırmış, insanlarını məhv etmiş, mal-mülklərini talan edib İran ermənilərinə satmış, tarixdə heç bir müqayisəsi olmayan, insanlığa yaraşmayan vəhşiliklər törətmişlər.

Qulağı kəsik Andranik burada digər ermınilərlə müqayisədə daha çox vəhşiliklər müəllifi olmuş, güclü və təcrübəli ordusuna, arxasında dayanan ruslara, fransızlara, ingilislərə, farslara, yunanlara güvənərək Zəngəzurun şimal hissəsindən, hazırda Laçın koridoru adlanan nahiyədən Şuşaya, Qarabağa keçib silahlı Qarabağ erməniləri və daha sonra Gəncə ilə Bakıya nəzarət edən digər daşnak S.Şaumyanla birləşməklə Şimali Azərbaycanı Tiflis qarışıq

işğal etməklə "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq arzusunu reallaşdırmaq istəyirdi.

İstər-istəməz böyük mütəfəkkir – şair Sədi Şirazi demişkən:

"Ermənidir yer üzünün Əhrimanı
İnsanlığın düşmənidir, düşməni"

Burada "Əhriman" – "Şər və zillət mənbəyi" deməkdir.

Arxasını doğma elinə, Laçın bölgə insanlarına, buranın ağsaqqallarına, qəhrəman eloğullarına söykəyən Sultan bəy Andranik qoşunlarını məhv etməklə ermənilərin bu arzularını ürəklərində qoymuşdur. Bu hadisədən sonra xalq qəhrəmanı adını eldən alan Sultan bəy vətənpərvər el oğlu, türk oğlu olmaqla müxtəlif el deyimlərində, şeirlərdə, bayatılarda adı xoş məramla dilə gətirilmişdir. Ona ilk qiyməti verənlər də laçınlılar olmuşlar.

"Paşa bəy ədaləti ilə, Sultan bəy cəsarəti ilə" ifadəsi xalq arasında kəlama çevrilmişdir.

1992-ci il 18 may tarixində, hansı səbəbdənsə Laçın ermənilərin əlinə keçdi, Sultan bəyi unutmayan ermənilər boş qalmış Laçın torpaqlarına üç gün ayaq basmaqdan çəkindilər.

Alicənab insan, etibarlı dost, "Humay" milli mükafatı sahibi Fətulla Fəcri Zəngəzur və Qarabağ haqqında Ziyadxan Nəbibəylinin yazılarının oxucusu olaraq riqqətə gələrək "Vətən" adlı gözəl bir şeir yazmışdır.

Vətən oğlu, demə ki, "Bir quru dağ – daşdı Vətən!"
Üz tutub qürbət elə, köçmə ki, nimdaşdı Vətən.

Üzü gülməz qəribin, cənnət ola qürbət əgər,
Tanrının millətə bəxş etdiyi ağuşdu Vətən

Üz tutub qürbət elə, uyma vətənsiz "vətənə",
Çünki insan nə qədər varsa, ömürdaşdı Vətən.

Qayğı görsə, gül açar, qayğıkeş ərlər yaşasın!
Nimdaş olmaz ki, Vətən, daima çağdaşdı Vətən.

İntizardır, boğulur, dardadı torpaqlarımız,
Yarası qövr eləyən ağrılara tuşdu Vətən

Şadlanıb düşmənimiz qəşş ilə dingildəməsin,
Bir də sellər kimi gördün ki, coşub-daşdı Vətən!

“Zəngəzur getdi necə, bax, Qarabağ da eləcə”!
Vaxtı var hər məqamın, zənn eləmə çaşdı Vətən!

Gün gələr Fəcri özü şahid olar, bir də görər
Bir nəfərtək hamını son döyüşə qoşdu Vətən!

Parçalanmış, yaralanmış, itirdiyimiz yurd yerlərimiz, saf sularımız, alovlanmayan ocaqlarımız, barlı-baratlı ellərimiz yada düşdükcə, el demiş “tüstüm təpəmdəm çıxır”, özün-özünü sakitləşdirə bilmirsən. İstəyirsən ki, təkcə də olsa alçaq hayla döyüşə atılasan, onun “otunu suyunu” verəsən.

İstər-istəməz türkün Türkoğlu şeiri xəyallarda canlanır.

Cocuqlar ağlayır yanğın yerində,
Qadınlar titrəyir yıxıq evində,
Vicdanlar sızlayır, eşit, dərində,
Gənc qızlar eyləyir fəğan Türkoğlu!

Bayrağın qaraya nədən boyandı?
Bu halı görənin ürəyi yandı.
Yetişir, sümüyə bıçaq dayandı,
Sən qurtulacaqsan, inan, Türkoğlu!

Əlbəttə bütün xalqımız bu qurtuluşa inanmaq istərdi, inanaq ya inanmayaq?

Əslən Laçının Kamallı kəndindən olan, ali təhsilli mühəndis, sonralar Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmiş kamançacı Edilxanın oğlu, qarmon ifaçısı, 1964-cü ildə Bərdə şəhərində anadan olmuş Elçin, Laçın haqqında xeyli şeirlərin müəllifidir. O, “Laçının dərdi” şeirində (“Zəngəzur” qəzeti 15 yanvar 2003-cü il, Sultan bəyi belə tərənnüm edir.

Düşmənin bayrağı dalğalanırdı,
Sultan bəy qəzəbdən qan ağlayırdı.
Milləti döyüşə haraylayırdı.
Deyirdi: – qırılıb dizi Laçının.

Vəzifə hərisi: – o nankorları,
Torpaq satanları, yurd satanları,
Qeyrətsiz, şərəfsiz, namussuzları,
Tutacaq çörəyi, duzu Laçının.

Elçinəm, bilirəm zaman gələcək,
Dağlarda çiçəklər, güllər bitəcək
Elimiz Vətəndə bayram edəcək,
Gələcək baharı, yazı Laçının.

Mətbuatda (“Azad Hüquqşünas” qəzeti, 15.05.2010-cu il [1] 03 (28)) Şahin Aydəmirin fizika-riyaziyyat elmləri doktoru, professor Knyaz Məmmədovla müsahibəsindən oxuyuruq: – “Gözümün qabağında olan hadisədir. Laçın poçtunda durmuşduq, gözləyirdik ki, maşın gəlsin kəndə gedək. Bu an bir zirehli maşın gəldi. Üstündə 5-10 hərbi formada, əlisilahlı gənc vardı. Həmin silahlı gənclərin əhatəsində Etibar Məmmədov da yerə düşdü. Onlar Qubadlıdan gəlirdilər.

Camaat onların başına toplaşdı. Şuşanın işğal olunmasını onlara çatdırdılar. Laçınla Şuşanın arasında “Yeddiqat” deyilən yüksəklik var. O yüksəkliyi aşıb sonra Şuşa yoluna çıxırdın. Həmin yüksəkliyi laçınlı gənclər göz bəbəyi kimi qoruyurdular. Onu deyim ki, “Yeddiqat”da oturub erməniləri Laçına buraxmamaq olardı.

E.Məmmədov bildirdi ki, “Yeddiqat”ın başını siz qoruya bilməzsiniz. Oranın mühafizəsini milli ordunun (Rəhim Qazıyevin) əsgərlərinə həvalə etmək lazımdır. (Rəhim Qazıyevlə E. Məmmədov həm də dost idilər. Z.N.)

Nə isə, E. Məmmədovun gətirdiyi silahlı dəstə laçınlı gəncləri “Yeddiqat”ın başından düşürdüb müdaxiləni öz üzərlərinə götürdülər. Təxminən bir saatdan sonra E. Məmmədovun dəstəsi Laçına qayıtdılar. “Dedilər ki, biz Şuşaya qədər getdik, orada heç kim yoxdur, özünüzdən şayiə yaymayın (Laçınla Şuşanın arası 43 km-dir, dağ yoludur və bir saata oraya gedib qayıtmaq mümkün deyil). Bu zaman laçınlı gənclər orda olan maşına doluşub “Yeddiqat”ın başına üz tutdular. Onlar “Yeddiqat”ın altına çatanda görmüşdülər ki, artıq yüksəklikdə ermənilərin qara bayrağı dalğalanır. Hətta, yüksəklikdən bizim uşaqları atəşə tutmuşdular....

Bundan böyük satqınlıq olarmı?

Mən, deməyə çətinlik çəkirəm, bu düşünülmüş hərəkət idi, yoxsa naşılıqdan irəli gəlmişdi”. K.Məmmədov da bir çox laçınlılar kimi doğulduğu vətənə xeyli şeirlər həsr etmişdir.

Kəndimizə, evimizə dönəydim,
Üzümə qapını anam açaydı.
Qucaqlayıb üz-gözündən öpəydim,
Üstümə gün doğub işıq saçaydı

Atam əllərimi bərk-bərk sıxaydı,
Xoş gəldin eyləyib yer göstərəydi.
Anam təbəssümlə bizə baxaydı,
Əvvəlcə ətirli çay gətirəydi.

Eh! Həmən günlərim bir də qayıtmaz,
Çünki nə kəndim var, nə anam, atam
Ürəyim onları heç vaxt unutmaz,
Bəlkə axirətdə onlara çatam.

Əlbətdə, içimizdəki nankorların da qəbahətləri çoxdur. Laçınlılar bu fikirdədirlər ki, ermənilər yüz il bundan sonra da Laçına ayaq basmağa cürət etməzdilər. Onlar yaxşı bilirlər ki, Laçında Sultan bəy kimi, İbrahim bəy kimi, Alməmməd Sultan kimi, Cəbrayıl bəy kimi qorxmaz, igid kişilər yaşayıblar. Qorxmaz insanlar Laçında həmişə olub. Laçının işğalından sonra Kamran bəy oğlu–uşağı ilə Laçından çıxmadı, ölənə kimi ermənilərlə vuruşdu

Sultan bəyin ruhu narahatdı, Laçın qayıtmayınca o, dinclik tapmayacaq, Əfqanın əriklidən olan nənəsi Həsrət xanımın dediyi kimi.

Eləmi, gidi dünya
Namərdi, gidi dünya!
Uyub yağı felinə,
Nahaqqı dedi dünya!

Eləmi, dərdin ağlar,
Dərdlilər dərdin ağlar.
Anasızlar il boyu,
Yurdsuzlar hər gün ağlar!

Laçın bölgəsinin Güləbird kəndindən olan Hilal Salahov Vətən həsrətli bir çox şeirlərin müəllifidir. Vətənpərvər Hilal Salahov da Sultan bəyi öz şeirlərində özünəmənsub təmsil etmişdir. O, "Yada qalarmı?!" şeirində yazır.

Sultan igidləri yığar başına,
Göstəriş verərdi dəstə başına.
Topunu çəkərdi Gorus başına,
Sultanın yurdu da yada qalarmı?!

Əsirlikdə neçə-neçə analar,
Yetim qalan neçə körpə balalar.
Düşmən tapdağında yatan ulular,
Bizdən Sultan bəyə şikayət eylər.

Eşidilmir Sultan bəyin nərəsi,
Atılmır Gorusa topun gülləsi.
Qırx qızın yaylağı, Şəlvə dərəsi,
Qapımın tulası dığaya qaldı.

Sultan bəy xalqımızın gündəlik söhbət mövzusudur. Əslən Laçından olan xanəndə Məhəbbətə sual verən jurnalist ondan soruşur – Məhəbbət bəy ilk dəfə el şənliyində harada olmusan? Yaddaşında hansı təəssüratlar qalıb? O, cavabında deyir: – "El şənliyində ilk dəfə qəhrəman türk oğlu Sultan bəy yurdunda Laçının Şamkəndində olmuşam. Millətimizin – türklərin məğrurluğundan, gözəl xüsusiyyətlərindən danışanda həmin toy məclisi yaddaşımda canlanır... Bir dəstə kənd cavanının sifarişi ilə "Boz at" mahnısını oxuyurdum. Onlar rəqs edə-edə göyə güllə atırdılar. Təsadüfən cavanlardan birinin cibində açılan naqan ayağını yaraladı. Buna baxmayaraq o, ortadan çıxmadı, qanı axa-axa taqətdən düşənədək oynadı ("Təzadlar" qəzeti, 5 – 12.05.1998-ci il)".

Laçının Ağcakənd kəndindən olan el aşığı Əbdülhüseynin oğlu, kəndin ağsaqqalı Bahadurun bacısı oğlu Familin silsilə şeirlərində Sultan bəy, Paşa bəy, İsrafil bəy və digərləri haqqında tərənnüm olunmuş fikir sahiblərindəndir. Onun "Laçın haqqında xatirələr" şeirində deyilir:

Eşidin, dinləyin ay eloğulları,
Xoş günləri orda qaldı Laçının.
Paşa qeyrətlilər, Sultan soylular,
Axır dilə-dişə saldı Laçının.

El–obamızın seçilən qələm sahiblərindən biri, Qubadlı insanlarını təmsil edən Mürvət Qədimoğlu fikirlərini sətiraltı çatdırmağı bacaran yazarlardandır.

Dayansın mərd insana quyu qazan ürəyi,
Bəzən də ağır bəla tapır aslan ürəyi.

Olur ki, ağlamaqla gülür insan ürəyi,
Gözdən ürəyə axan yaşdan qorxuram, dədə

Neçə ağa qaralar sırıma yamaq olub,
Çoxları zəhər bişən qazana qapaq olub.
Bir zırpının çiynində özü balqabaq olub,
Adına baş deyilən "boş"dan qorxuram, dədə

Mürvətəm, neçə dərin, neçə dayaz görmüşəm,
Bəzən "mürvətlilərdə" mürvəti az görmüşəm.
Bülbül ötən budaqda oturan qaz görmüşəm,
Kəhər ata deyilən "toş"dan qorxuram, dədə.

Mübarək Ramazan ayının gündəlik dualarının 3-cü günün duasında deyilir: "İlahi bu gün mənə yaxşı düşünmək və ayıq fikir ver. Məni ağılsız və səfeh işlərdən uzaq et. Bu gün öz səxavətinlə hasil etdiyin hər bir xeyirdən mənə pay ayır. Ey səxavətlilərin səxavətlisi!"

Bu duaya əbəs yerə müraciət etmədik. Yaşadığımız günümüzdə nöqsanımız da çoxdur, günahımız da. Ən başlıcası bir-birimizə qiymət verməkdə çox diqqətsizik. Əgər, kənar xalqlar, dövlətlər bizə yaxşı qiymət verərsə, bəlkə də ayıla bilərik. Yaxud, tarixi bir şəxsiyyətimiz, milli bir kişimiz sağdırsa – biz ona adi gözlə – adi qiymətdə verməyə meyilli olmuruq. O, şəxs ölür, uzun illərdən sonra ayılırıq. Onda da artıq gec olur. Deməli, milliləşməyə hələ də çox ehtiyacımız var. Biz niyə beləyik?! Ona görə də deyilən duaya gəlin diqqətli olaq. Sultan bəyin, Xosrov bəyin keçdiyi yollar, çəkdiyi əziyyətləri dərk etdikcə, fikirləşirsən İlahi bu insanlara nə üçün öz dəyərini lazımınca qiymətləndirə bilməmişik.

Günümüzdə bizimlə qoşa addımlayan kifayət qədər milli düşüncəli, özünü, ailəsini unudaraq xalqın ağrı-acısı ilə yaşayan çox dəyərli ziyalılarımız, yazarlarımız, mütəxəssislərimiz və siyasətçilərimiz var. Amma, bunları "görmürük". Niyə?! Qadınlarımız var, xalq deyimi ilə desək "kişi qeyrətli". Mənsə deyərdim elə "türk qadını qeyrətli". Deyirlər fəlsəfi yol kişi yoludur. Etiraf

edək ki, bu yolla və böyük addımlarla addımlayan qadın qardaşlarımız da var.

Xeyli müddətdir tanıdığımız, özünə, sözünə, sənətinə dəyər verdiyimiz bir xanımın yaradıcılıq gününə, Yazıçılar Birliyinin Natəvan evində toplaşmışdıq. Onun bir neçə kitabı eyni vaxtda təqdim edilirdi. İlk çıxış edən mən oldum (Z.Nəbibəyli). İmkan olsa idi elə özüm axıra kimi təkcə danışardım. Onun "Eyb qeyb olmur" ifadəsi və Qarabağa həsr edilmiş neçə-neçə kitabı bədənimə "qızdırma" salmışdı. Bu xanım Sultan bəy, Xosrov bəy şəcərəsinə aidiyyatı olan Mahirə xanımdı, Mahirə Abdulladı. Hadisələri çox qeyri-adi şərh etmiş, yaradıcılıqda yeni üsul tapmış, Qarabağ faciəsinin ən dərin şüuraltı qatlarını qaldırmış, qana həris, qaniçən, yırtıcı xislətli, amansız, insanlıq sırasının vəhşisi hayların ziyakarlıq üsullarını dərin psixoloji, həm də çox sadə dildə – "Zəngəzur şivə"sində oxucuna təqdim etmişdir.

Adi söhbətdə də digərlərindən "öz xüsusiyyətilə" seçilən Mahirə xanımdan bir neçə kəlmə: – "Yurd ağrısını boylu qadın kimi çəkməli. Çəkib, çəkib, günlərin bir günü ondan azad olmalısan". Sultan bəylər, Xosrov bəylər, Murtuza bəylər, Alməmməd bəylər, İbrahim bəylər, Cəbrayıl bəylər bu ağrıdan öz iradələri ilə vaxtında azad oldular, torpaqlarımızı XX əsrin əvvəllərinə kimi biz övladlarına salamat çatdırdılar. Bəs biz!...

O, deyir "Ayrılıq, həsrət yükünü yerə qoymasan, axırın çatıb....".

Vaxt var idi laçınlılar Qaragöl uğrunda uzun illər mübarizə aparırdılar. Bəziləri də deyirdi "Qaragöl getdi – Laçın getdi...". Lakin, onlara dayaq duran olmadı, sözlərini eşitmək istəmədilər. Sonra dedilər – "Laçın getdi – Qarabağ getdi...". Bu fikirə də biganə qalan çox oldu. Hazırda da deyirik – "Qarabağsız Azərbaycan yoxdur....". Bu doğrudan da belədir.

Mahirə xanım deyir: "...Əsl məhəbbət qərəzsiz, məqsədsizdir, o ki qala könlünün sultanı, başının tacı, döyünən ürəyin, görən gözün, danışan dilin, qeyrətin, namusun, həyatın özü Vətən ola. Vətən dünyadır. Bu Vətənin bir qumu gedəndə çiyinlərin boş qalır, gözlərin kor olur, qolların budanır, qədəmlərin qırılır".

İçimdə kainat boyda yurd ağrısı var. Bir sualdan asılmışam: “Nə üçün? sualının cavabını axtarıram. Sən demə, illərlə bu həsrətə yol gəlirəmmiş”.

İndi “kişilərimiz” zəhmət çəkib Mahirə xanıma cavab tapsınlar...

Kişilərimizin çox gücə düşməməsi üçün Mərkəz Qacarın – Böyük şəcərənin nümayəndəsinin bir fikrini xatırlatmaq yerinə düşər.

Axı əldən gedir qeyrət, arımız.
Şirə qahmar duraq gərək hamımız.
Sükanı hərəmiz bir yana çəksək,
Yüz yerə bölünə bu meşə gərək.

Qarabağla, Zəngəzurla, onun bir parçası olan Laçınla bağlı bütün məlumatları uzun illərdir toplayıram. Təsadüfən mənə qismət olan laçınlı Bənövşə Daşdılının “Səndən aralı” kitabı tam olaraq Laçına, Vətənə həsr olunmuşdur.

Bu yazılar mənim hissimə çox yaxın olsa da, onun ancaq “Qaçqınlara!” şeirini seçdim. Səbəb isə bu işlərlə məşğul olmağım, onların ağrı – acılarını onlarla birlikdə çəkməyim olub. Bu hiss məndə o dərəcədə sehrli olmuşdur ki, Qaçqınlar Komitəsinə sədr göndərilmədən etiraz etmişəm.

Mənə qaçqın söyləmə, bu söz başımın daşı,
Əsir qalan yurdumun, kaş olaydım bir daşı.

Yaxud: Qaçqın düşəndən bəri fikir verən yox yaşa,
Qaçqınlar tez ölürlər, ömrü vurmadan başa .

Sultan bəy torpağının vətəndaşı “qaçqındı”, bu özlüyündə bu torpağa böhtandı.....

Laçında Sultan bəy kimi vətənsevər insanlar tarixən çox olub. Bunlardan biri də həkim, tibb elmləri namizədi, çox yaxın dost Məmmədov Polad Ələsgər oğlu olmuşdu. Biz özümüz tanış olmuş-

duq və məlum olmuşdur ki, ailələrimizdə bir-birlərilə yaxındırlar. Bəxti üzünə gülməyən, öz dərdi ilə bütün eli qəmləndirən Polad həkimin həm də yaxşı şeir yazmaq qabiliyyəti var idi, Laçını çox sevərdi. 1970-ci illərin əvvəlləri idi. O, Moskvada xəstəxanada yatırdı. Dostları arasında mən ilk olaraq ona baş çəkməyə getmişdim. Polad mənə üzürxahlıq etdi, onu bağışlamağımı istədi və hər ikimiz kövrəldik. İşin mahiyyəti isə onun mənim sözümə biganəliyi olmuşdu. Onu bu xəstəxanaya yıxan bir nəfər erməni olmuşdu. Mən ona erməni xislətini açıqlamışdım. O, isə buna əhəmiyyət verməmişdi. Polad sonralar Laçında Ermənistan televiziyasına baxmağa maraq göstərirdi. Elə buna görə də hamıdan əvvəl ermənilərin sərhəddə nəsə törədəcəklərini birinci söyləyənlərdən olmuşdu və həqiqətən də onun dedikləri çox qısa zamanda özünü göstərdi. Amma, biganəlik həmin vaxtlarda da yetərincə idi....

Xəyalında Polad dağları andı,
Həsrət tonqalında qovruldu yandı.
Əcəb gözəl dövran, gözəl zamandı.
Heyif dustaq edib bu dövran məni....

Sovetlər birliyi dövründə bəylərin, ağaların, mülkədarların, din xadimlərinin adını çəkmək, onun haqqında yazılar yazmaq, nəğmələr qoşmaq müşkül məsələ idi. Amma, laçınlılar arasında belə işləri ürəklərinin tələbi ilə yazıya alanlar tapılırdı. Bunlardan biri də Laçının Şəlvədərəsi adlanan torpaqlarından olan Kərəm Arxuddur. Aşağıda Sultan bəyə aid hissəsini verəcəyim şeir “Laçınım mənim” adlanır.

Əfsanə deyilmiş bilin nağıllar,
Tarixən tökülmüş çox nahaq qanlar.
Soltan qeyrətlidir səndə oğullar
Qeyrətdən qalasan Laçınım mənim,
Səni var olasan Laçınım mənim.

Tarixə düşübdür Soltanın adı,
Sönməyib alovu, sönməyib odu.
Həmin vaxt gəlib çatırıb budu
Səni var olasan Laçınım mənim
Qeyrətdən qalasan Laçınım mənim.

Əslən Qubadlı bölgəsindən olan Rəhim müəllim texniki elmlər namizədi, dossentdir, Texniki Universitetin müəllimidir, xeyli şeirin və müxtəlif səpkili yazıların müəllifidir. Onun vətən həsrətli, Sultan bəy qeyrətli insanlara həsr etdiyi əsərlərdən birini "Çeşmə harayı"nı təqdim edirik.

Billur çeşmə, çəmən xalı, qovun getsin buludları,
Yorulmuşuq bu qovğadan, qoy dincələk bir az barı.
Nə dincəlmək, vətən oğlu, dincəlməyin vaxtıdırmı?
Yağı düşmən torpağında arxayınca at oynadır.
Ağdam onun torpağıdır? Şuşa onun taxtıdırmı?

Natəvanın, Üzeyirin ruhu gəzir bu yerlərdə,
Qaçaq Nəbi, Sultanbəylər düşmənləri salmış dərdə.
Cəbrayılın, Füzulinin çöhrəsində qara pərdə,
Aman Allah, bu fəryada, haqsızlığa dözməz Nər də!
Həkəri də, Bərgüşad da əsirlərin göz yaşıdır.

Çaylar, Xocalı harayı, Qubadlının sirdaşıdır.
Suyu çilə üstümüzə, oyat-oyat çeşmə bizi!
Biganəlik girdabında mürgüləyən qəlbimizi,
Daş ürəkli insanların ürəyinə ax ey çeşmə!
Did, parçala, sən onları qıyma-qıyma, eşmə-eşmə!

Bəlkə onda bu daş qəlbli insanları oyadasan,
Manqurtları, satqınları sən al – qana boyadasan.
Yağı düşmən qarşısında çaşıb qalıb bu el gücü
Satqınları məhv edəcək səndə olan o sel gücü,
Məcranızı dəyişin siz, dəli Kürüm, xan Arazım!

Ayağa qalx Sarı aşıq, qoy dillənsin telli sazım!
Nərəni çək, Qoç Koroğlum, Dəli Həsən, Xan Eyvazım!
Yeriyin düşmən üstünə, qəlbdə qalmasın murazım,
Ulu Göyçəm, Zəngəzurum, Qarabağım əsir düşüb,
Ayağa qalx, intiqam al, vətən oğlu vaxt yetişib!

Şərahil adlı bir şəxs (yeri, şəxsiyyəti bizə məlum deyil) "Sultan bəy" adlı şeirini yazıb ("Təzadlar" qəzeti, 17 aprel 1993-cü il), həm də yanıqlı yazıb.

Laçında sarlar gəzir,
Bu nə büsatdı, Sultan bəy?
Zalım dövran yaxşı bizi
Yaman ağlatdı, Sultan bəy.

Qan – yaş axıtma, Həkərim,
Mövlam böyük, Xudam kərim.
Kimlər bu avand təkəri
Tərsə fırlatdı, Sultan bəy?

Daha nə döyüm döşümə,
Aləm qarışıb işimə.
Nə əlim çatıb Şuşama,
Nə ünüm yetdi, Sultan bəy.

Qarğıma məni, qarğıma,
Qatır saldım qoruğuma
Tayqulaqlar marığıma
Yamanca yatdı, Sultan bəy.

Ta nə oğul, nə övladıq,
Getdi Şəlvə, getdi Zabux?!
Nə papaq o, nə bığ o bığ,
Nə at o atdı, Sultan bəy.

Elə dəyişdi vaxt, vədə,
Nizam pozulub, ay dədə.
Bu nə bəydi, bu nə dədə,
Bu necə zatdı, Sultan bəy.

Di dikəl, hayla ordunu,
Yandır qaralan ordunu!
Bu "kəs"lər sənin yurdunu
Yağıya satdı, Sultan bəy.

Əbdül Fərəc deyir: "Ağıllı adam başqa bir ağıllı adamla həmişə razılaşır, axmaq isə adəti üzrə nə ağıllıyla nə də ağılsızla razılaşır". Bu erməni, yaxud hay dediklərimizdə belədir. Erməni tanıdığımız halda, onunla ağıllı adamla danışmaq fərqindəyik. Yaqub Dadaşoğlu da öz fikrini belə çatdırır.

Torpaq altda Sultan bəyin yurd yeri,
Balımıza qatılıbdır zəhəri,
Bulanıqdı, lillənibdi Həkəri,
Laçınımız keçib ələ, a millət.
Çoxmu, çoxmu çəkəcəkdi bu zillət?!

Bir olaraq, bir ayağa durmalı,
Birləşərək bir hədəfə vurmalı,
Vahid ölkə, Azərbaycan qurmalı,
Göz yaşını silə-silə, a millət
Çoxmu, çoxmu çəkəcəkdi bu zillət?!

"O tay", "bu tay" kəlmələrin ataq biz
Zəngəzuru Borçalıya qataq biz,
Yaqub deyir, arzulara çataq biz,
Keçmişini bilə-bilə, a millət
Çoxmu, çoxmu çəkəcəkdi bu zillət?!

Göte deyibdi: “İnsan yalnız öz borcunu yerinə yetirməyə çalışanda dəyəri bilinir”. Öz borcunu Laçında döyüşməkdə görən laçınlı əsgər Daşqın Paşayev özünün “Dağlar” şeirini Sultan bəyin “aran” otağının yanında mənə (Z.N.) oxumuşdu. O, şeirinin bir yerində belə demişdi:

Qiymət qoydular ağalar sənə,
Sultan bəy ağlayır ağılar sənə,
İndi yiyə durub yağılar sənə,
Fələyin gözləri, kordumu dağlar?

Soltan Laçın isə bayatı deməyi xoşlardı.

Əzizim, Laçınım yox,
Şuşam yox, Laçınım yox,
Yaman dərdə düşmüşəm,
Bir çarə açanım yox!

Laçının Qarakimsə (Qarakeçdi) kəndindən olan ağsaqqal Saday Axundovun “Mənim Laçınımı qaytar özümə” kitabını vərəqləyirəm. Onun bütün şeirləri Laçına, onun dağına – dərəsinə, laçınlıların mübarizliyinə, köçkün olub pis günlərə düşdüklərinə, vətənə – torpağa həsrət qaldıqlarına həsr olunmuşdur. Vətən dərdi laçınlıları şair olmağa məcbur etmişdir, mübarizə yolunu burada görür, özləri-özlərinə təskinlik verirlər. O, “Vətənə” şeirində yazır:

Fikrim çox dolanır dağı, aranı
Görürsənmi sinəmdəki yaranı.

“Gedirəm” şeirində isə söyləyir:

Xudam kəsdi üstümüzdən sayasın,
Aldı üzümüzün nurun, həyasın.

Yaxud, "Ağladı" adlı şeirində bildirir:

Sultanın sızıltısın, sazın naləsin,
Dağların vədəsiz solan laləsin,
Kim tərk edər Laçın təki qalasın,
Girov qadınlarda saç da ağladı.

Fətulla Fəcri isə daha qətiyyətlidi:

Zəngəzurum, Qarabağım ermənininin dustağı,
Göyçəm, Şuşam millətimə göz dağıdır, göz dağı!
Tanrı bizi bağışlamaz, lənət ilə qəhr elər,
Yağılardan arıtmasaq zəbt olunmuş torpağı!

F. Ruzvelt yazır: "Siyasətdə heç nə təsadüfən baş vermir. Əgər bir hadisə olarsa, əmin ola bilərsiniz ki, bu, əvvəlcədən planlaşdırıldığı üçün baş verir". Bunu bilməyən insan millətə atalıq iddiasında olmasın. Uzun illərdir Azərbaycana qarşı ermənininin, rusun, ingilisin, fransızın, farsın, yunanın, ABŞ-ın və s. mövqeləri bəllidir. Belə olduğu halda, məyər əl-qolumuzu yanımıza salıb nəyisə gözləməliyik? Əlbətdə yox! Artıq, Azərbaycan axırıncı fitvanın qurbanı ola bilər, bizi nə vaxt gözləyir, nə də ki, hansısa ümid.

Əli ibn Əbutalib demiş: "İnsanlar öz zamanlarına ata-babalarından daha çox oxşayırlar". Amma lazımdır ki, zamandan çox ata-babalarımıza oxşuyaq, Sultan bəylərə oxşayaq.

Azərbaycan torpağı Borçalının türk oğlu türk Abbas Abdulla vətən üçün, türk dünyası üçün, Urum Kırım arası üçün yazıb yaradan, yanıb yaxılan "Vay halına" şeirində yazır:

Türkə düşman olanların
Vay halına, vay halına.
Sonra peşman olanların
Vay halına, vay halına

Yağmura əyilənin,
Əcnəbiyə gəl deyənin,
Gəvəzənin, hər gələnin
Vay halına, vay halına.

Qarabağda, Zəngəzurda, Laçında millətini, dövlətini, xalqını sevən tarixən çox insan olmuşdu. Bunlardan biri də Qarabağ xanlığının yaranmasında böyük işlər görmüş Murtuza bəyin nəticəsi Cəbrayıl bəy olmuşdur. O, Tatef və Zəngəzur bölgəsinə rəhbərliyi zamanı özünü milli bir şəxsiyyət kimi göstərmişdir. Azərbaycandan yeganə şəxsdir ki, çox gənc yaşında Şimali Qafqaza gedərək Şeyx Şamillə görüşmüş ona yardım etmişdir. Şeyx Şamil (1798 – 1877) çox dindar olmuşdur, Cəbrayıl bəy də digər təhsillə yanaşı dini təhsil də almışdı. Bu torpaq Sultan bəylə, Xosrov bəylə yanaşı belə kişilərdə Vətənə ərmağan etmişdi.

Şeyx Şamil bu günkü gəncliyə, idarə etmə masalarının sahiblərinə bir örnəkdir. Şamil Şimali Qafqazın yarım əsrlik şanlı mübarizə tarixinin qəhrəmanıdır. Qafqazın ecazkar rəhbərinin həyat və fəaliyyətinə həsr olunmuş əsərlərinin sayına görə Napalyon Bonaportdan sonra dünyada ikinci yerdə durur.

Şeyx Şamil hər şeydən əvvəl otuz il Rusiya imperiyasına dağıdıcı zərbə vuran güclü dövlətin İmamətinin başçısı idi. Onun ilk və son sözləri "la ilahə illallah" olan fəallarının azad diyarını susdurmaq imperiyaya uzun illər, hədsiz qanlar hesabına başa gəlmişdi. Qafqaz müharibəsinin qurtarması xəbəri Peterburqa çatanda, o vaxtkı müdafiə naziri A.İ. Çernişev demişdi: "Allaha şükür, daha Qafqaz ildə 25 min rus əsgərini udmayacaq. Rusiyanı üzüb əldən salan yaralardan biri də qaysaq bağlamağa başlayır".

Odur ki, Sultan bəyin, Xosrov bəyin, Murtuza bəyin, Cəbrayıl bəyin, Şeyx Şamilin keçdiyi mübarizə yollarını təbliğ etməklə Azərbaycan xalqını ayağa qaldırıb torpaqlarımızı azad etmək günümüzün əsas məsələsidir.

Şamilin qələbələrinin əsasını insanların ona inamı idi. Şamilin yaşıl bayrağı altında qırxdan yuxarı xalqı birləşdirən dahi din

mücahidini, hətta onu düşmənləri də yüksək qiymətləndirmişlər. Şimali Qafqazda olmuş rus zabiti V.S. Krivenko yazırdı: "Əgər, Hacı Murada qarşı general Passek və Slensovu qoya bilərdinsə, Şamilə bərabər adam isə bizdə yox idi".

Azərbaycan da bu tarixi məqamlardan yaralanmalıdır. Xalq qəhrəmanlarının nümunəvi xüsusiyyətlərinin təbliği Azərbaycana hava, su kimi lazımdır.

İmam Şamil deyirdi: "Yüksəldikcə ciddi ol, gücləndikcə rəhmli!" Biz belə bir gözəl ifadəni təkcə əsgərlərimizə, polisimizə deyil, məkrəblilərimizə də öyrətməyə borcluyuq.

Qafqazın müstəqilliyi uğrunda görkəmli mübariz Şeyx Şamil bütün müsbət keyfiyyətləri özündə cəmləşdirmişdi. O, İlahiyyatın sirlərinə dərindən yiyələnmiş, fəlsəfə, hüquq, məntiq elmlərinin, Şərq əlbəyaxa döyüş növünün mahir bilicisi idi.

1870-ci ildə Məkkə səfərinə gedən İmam Şamili Türkiyədə – limanda Sultan Abdüləziz əyanları ilə qarşılayır. Onu qarşılamağa çıxmış əhli ətəyini, keçdiyi yolu öpərək ağlayırdı. Bu Şeyx Şamilin öz Vətən mübarizəsi yolunda qazandığı hörmətin nəticəsi idi. Hətta, Sultan Abdüləziz Şeyx Şamilin dünyadakı hörmətindən istifadə edərək, Misirlə Türkiyə arasında müharibə həddinə çatmış ziddiyyəti aradan qaldırmaqda vasitəlik etməyi ondan xahiş edir. Misirlə Türkiyənin münasibətlərini layiqincə bacaran Şamil, hər iki sultan arasında qohumluq əlaqələri yaratmağa da nail olmuşdur.

Uzun illər xalq qəhrəmanlarımızı yada salmamaq bizlərə xələl gətirmişdir. Xalq həmişə tarixi qəhrəmanları ilə nəfəs almalıdı, ona oxşamağa çalışmalıdır. Xalq qəhrəmanları xalqa nümunədir, onu milli köklərə kökləyəndi, insanların fəxarətidir.

Günümüzdə seçilib-sevilən şairlərdən biri də dostumuz Fikrət Sadıqdır, səmimi və təvazökar. Mənə bağışladığı "Dördlüklər" kitabında 557 dördlüklərin bir çoxunda Qarabağ, Şuşa, Laçın, onların işğalı ilə bağlı düşündürücü fikirləri yetərincədir. Özünəməxsusluğu ilə seçilən iki fikri seçdim.

Neçin susub, Bülbül-dilli Qarabağ,
Neçin solub, xari-güllü Qarabağ
Başımıza ələnən kül tökülməz,
Hürr olmasa əgər külli-Qarabağ

Qarabağa girən həyasıza bax!
Bəs deyil, istila etdiyi torpaq.
Utanmır, zəbt edir sözümüzü də,
Bilməyir, qədim, türk sözüdür – “Ərsaq”

Məhəmməd Peyğəmbər (a.s.) buyurmuşdur: “Adi adamlar dirikən ölü kimidirlər, elmlilər isə öldükdən sonra da yaşayırlar”. Peyğəmbərimizin fikrindən çıxış edərək, Fikrət Sadıq və digər ziyalılarımızın, alimlərimizin göstərə biləcəkləri yollardan, fikirlərdən, məsləhətlərdən istifadə etməklə Qarabağımızı, Zəngəzurumuzu, Laçınımızı azad etməliyik. Bizim torpaqlarımızı ancaq özümüz azad etməliyik, kənardan nəyi isə axtarmaq ömründə fayda verməyəcək.

Bu arzumuza şərik çıxan Fətulla Fəcri “Od püskürərək” yazısında bunu çox gözəl cavablandırır.

Yandıqca Vətən qalxır ahım göylərə yerdən,
Başım nə bəla çəkmədi kərtənkələlərdən?!

Xaç ölkələri dal-dala vermiş kürəyində,
Haylar qudurub, qüdrət alır kələlərdən?!

Düşməndə kini, lövğalığı, hikkəni gör sən,
Atəşkəsə atəşlər açan silsilələrdən!

Üçlük oyununda nə oyun getməyir, Allah!
Kim qurtaracaq bizləri sərsəmləmələrdən?!

Xaç hiyləsidir, guya ki, dərman tapacaqlar,
Canım boğaza gəldi gülünc vəlvələlərdən!

Təmsilçilik əhvalı umurlar hələ bizdən,
Az çıxmamışıq biz buna bənzər tələlərdən!

Tənha balığım naqqabalıqdır arasında,
Fışqırtı ilə qan tökülür qəlsəmələrdən!

İslammı yatıb, yoxsa müsəlman yoxa çıxmış?
Dünya da xəbərsizdi məgər zəlzələlərdən?!

Vulkan kimi od püskürəcək düşmənə ordum,
Lavamda bişib məhv olacaq pilpilələrdən!

Əsgər gedərəm mən də, qoca yaşıma baxma,
Ta ki, gətirə Fəcri özü müjdə zəfərdən!

Dost və həmyerli Rauf İlyasoğlu Vətənlə, Qarabağla bağlı xeyli şeirin, yazıların müəllifidir. O, söyləyir: "Özümü heç vaxt öyməmişəm, sadəcə Qarabağla Qarabağı dəyişik salan insanları ayılmağa, torpağı, Vətəni sevməyə çağırmışam". O, "Şeytan erməni" şeirində xalq qəhrəmanını belə xatırladır:

Fəxr edirsən, tək qulaq, qürrələnmə,
Bizim Koroğlumuz, Babəkimiz var.
Sultan bəy ruhundan vahimələnmə,
Əlyar, Alı, Şirin tək igidim var.

Digər bir şeirində Rauf Vətənə öz arzularını belə bildirir.

Füzulimiz, dərd əlindən, alına,
Cəbrayılda nur ocağı, qalana,
Qarabağda, bir Vağzalı çalına,
Elim, obam, Laçınıma, yol sala,
Bayrağımız, Kırs dağında ucala.

Otuz kitab müəllifi Dəmir Gədəbəyli erməni keşişə deyir:

Günlərin bir günündə,
Sultan bəyin önündə,
Özün buladı baban.
Paça altından keçib,
Çəkmə yaladı baban.

Əslində Sultan bəy öz vətəndaşlıq borcunu yerinə yetirmişdir. Xalq isə ona öz dəyərini vermişdir, dövlət isə xalqın fikrini təsdiqləməlidir.

Əli ibn Əbutalib deyib: "Dilini nəyə öyrətsən onu da sənə qaytaracaq".

Uzun illərin kədərindən Zahir Laçınsız yazır:

Laçınsızam, saçlarıma düşüb dən,
Vay o günə dönüb dost ola düşmən,
Görməyən gözünə qurban olum mən,
Gündə salan yoxsa səni get-gələ,
Bu dünyada sən nə görmüsən hələ?

Bu da kitaba Ön Söz yazan Zahir Abbasın çox geniş populyarlıq qazanan yurd yanğılı başqa bir şeiridir.

Allah ömrümüzə gəl ömür cala,
Qoyma ümüdlərim puç olub sola.
Durub təkbaşına düzəlib yola,
Bir gecə yurduma qayıdacağam.

Bu dərdi, kədəri talamaq üçün,
O daşı, torpağı yalamaq üçün.
Sönmüş ocaqları qalamaq üçün,
Bir gecə yurduma qayıdacağam.

Dərdli ürəyimdə dərd çağlasada,
Fikirdən, qayğıdan qəlb dağlansada.
Dağlara uzanan yol bağlansada,
Bir gecə yurduma qayıdacağam.

Bu mövzuda söhbətimi bir sonluqla bitirmək istəyirəm. Kitabın yazılıb nəşr edilməsinin 1 nömrəli təşəbbüskarı olan "Zəngəzur" Cəmiyyətləri Birliyi İdarə Heyətinin sədri Hacı Nərimanoğlu Qubadlıda doğulsa da, ana tərəfi Cijim ocağındandır, Qubadlının Saray kəndində yaşayıb ömür sürən üləma Hacı Fətəli Əfəndi ilə Cicimli qızı Bahar nənənin (Allah hər ikisinə rəhmət eləsin!) nəvəsidir.

Hacı qardaşımın bu şeiri gözəl sənətkarımız Məhəbbət Kazımovun "Laçınım" mahnısından təsirlənərək yazılıb, bu şeir bir çox kitablara salınıb, qəzetlərdə dərc olunub, özü də həzin bir nəğməyə çevrilib.

**Oxu, Məhəbbət**

Şuşa hayqır, Laçın çağır, harayla,
Bu yaranı qoyma qaysaq bağlaya
Bəlkə səsin sinəmizi dağlaya
Bar səsinlə titrət bizi, Məhəbbət,
Oyat bizi, inlət bizi, Məhəbbət!

Yurd, yuvamız yağılara qalıbdı
Ağır ellər gözü yolda qalıbdı,
Dağ, qayalar bu səbrə mat qalıbdı,
Yağılara girov qalan qəbrimiz
Bağışlamaz, oxu, daşsın səbrimiz.

Gör nə vaxtdı qan ağlıyır Həkəri
Perik düşdü bu ellərin ərləri,
Yurd dərdindən yoxdu dərdin betəri

İçimizə yanğı, ağrı, acı təp,
Zəngulə vur, yaramıza sən duz səp.

Yollar bizə yol verərmi dönməyə,
Ağuşunda yer verərmi ölməyə,
Bir umuddu qoymur ömrü sönməyə,
Nəfəsinlə titrət bizi, Məhəbbət
Səksət, oyat, inlət bizi Məhəbbət.

Qərib yetim təki sızlayır vətən
"Laçınım" de, o dağları çağır sən
Bəlkə sənin haray çəkən səsindən
Tüstüləyən ocağımız od ala
Mürgü döyən qeyrətimiz oyana.

**Oxuculardan rica edərdim ki, bu dəyərli yazıçı-jurnalistimizin şəxsi *hacinerimanoglu.azersayt.com* bloqunda toplanmış yazıları oxusunlar.**

# SULTAN BƏYDƏN BƏZİ DƏQİQLƏMƏLƏR

Uzun illərdir qəlblərdə, bir neçə aydır Azərbaycanda, Türkiyədə, xüsusən Azərbaycan mətbuatında tez-tez haqqında yazılar verilən xalq qəhrəmanı Sultan bəy yad edilir, qürur hissləri yaşadılır. Lakin, bu yazıların əksəriyyəti eyni cümləli, eyni sözlüdür. Yəqin ki, bunun da səbəbi Sultan bəy, onun kimliyi, fəaliyyəti, keçmişi haqqında arxiv sənədlərinin azlığı, yaxud az araşdırıldığı və eyni fikirlərin əksər tərəfindən çeynənilməsidir. Burada tarixin özünün də "günah" var desək, fikrimizcə qəbahət etmərik.

Məlumdur ki, Qafqazda Zakfederasiya qurumu dağıldıqdan sonra, Azərbaycan müstəqilliyini elan etsə də bir çox çətinliklərlə, çəkişmələrlə, siyasi oyunlarla, müharibələrlə, torpaq itkiləri ilə üzləşdi. Həmin dövrün öncül təbəqəsini təmsil edən Sultan bəy, Xosrov bəy, Cümhuriyyət öncülləri, eyni ilə bu təbəqənin yaxın silahdaşları və qohumları çox böyük iztirablarla qarşılaşmış oldu. Sultan bəy də bunlardan xali deyildi. O, öz vətənində – doğma Zəngəzurda, İranda və hətta Türkiyədə pünhan yaşamağa məcbur olmuşdu. Odur ki, onun öz dilindən izhar oluna biləcək və onun ermənilərə qarşı fəaliyyəti haqqında istər Azərbaycanda, istərsə də Türkiyədə məlumatlar verilmədi. O, özü də bunu lazım bilmirdi. Çünki, Türkiyədə də ermənilər yetərincə var idilər. Ermənilərin də xislətləri cəmiyyətimizə gün kimi aydın olduğundan, məsələnin xırdalıqlarına getməyə ehtiyac duymuruq.

Söylədiyimiz və söylənilməsini bilmədiyimiz səbəblərdən Sultan bəy haqqındakı məlumatlarda bir çaşqınlıq, qeyri səlistlik, hətta xeyli həqiqətlərə uyğun olmayan fikirlər mətbuata ayaq açmışdır. Həqiqətlərə uyğun gəlməyən, dövlətimizə və dövlətçiliyimizə gərəksiz olan, Sultan bəyin soyuna aid olmayan,

dövrün həqiqətlərini özündə düzgün əks etdirməyən və təbii ki, bizə məlum olan bəzi məqamlara aydınlıq gətirmək istərdik.

Bunlardan biri 2007-ci ildə Bakıda çap edilmiş Azərbaycan toponimlərinin ensiklopediyası 2-cildlik lüğətidir. Onun 1-ci cildində Sultan bəy, onun yaşadığı yurd – onun qısa tarixi, coğrafiyası, iqlimi, əhalisi, iqtisadiyyatı, mədəniyyəti haqqında xeyli məlumatlar verilmişdir. Məsələnin qoyuluşu özü-özlüyündə çox yaxşıdır. Bütövlükdə bu yazıdakı məlumatları alqışlayır və bəzi aydınlıqlar gətirməyi ozümüzə vətəndaşlıq borcu hesab etdik. Deyilən mənbədə Sultan bəyin kəndinin adına yanaşma istiqaməti pis olmasa da, reallığı tam əks etdirmir. Əvvəla onu deyək ki, Sovetlər dönəmində Qurdgəzi kəndinin adı "Kürdhacı" kimi göstərilmişdir. Z.Nəbibəyli özünün "Zəngəzurun altun tacı Laçın kitabında göstərir ki, "... heyvandarlıqla məşğul olan qədim türk tayfaları həm yaylağa gedəndə və həm də yaylaqdan qayıdanda burada müvəqqəti yurd salardılar. Yaylaq yolları üstündə çox əlverişli coğrafi məkanda yerləşdiyindən çalışardılarki Qurdgəziyə 1-ci çatsınlar, heyvanlarını buranın təbii yemi ilə 1-ci yedizdirsinlər, sonra yaylağa çıxsınlar. At yəhərinə oxşar dağlar arasındakı bu alçaq yerin ətəyində məskən salan maldarlar mütləq ocaq çatıb od yandırmalı idilər. Bu yolla onlar qoyun-quzunu özlərindən yuxarıdaki gəzdə məskən salan qurdlardan (canavarlardan) xilas edə bilirdilər. Qaranlıq olsa idi qurdlar heyvanlara hücum edib boğub atardılar. Ocaq yandırmağın əsas mənası bu idi. Təpənin, dağın ortası iki tərəfdən açıq, digər iki tərəfi hündür olan yerlərə gəz deyirlər, ağacı gəzləmək, kotanın boyunduruğunda, onun samısında və digər işlərdə belə gəzləmə əməliyyatı aparardılar. Qurdgəzidə isə dediyimiz kimi qurdlar gəzdən işıq olanda aşağı düşüb ov edə bilmədiklərindən orada ulaşırdılar. Bu səbəbdən də buranı qurdgəzi deyə çağırmışlar. Burada ilk məskunlaşan ailə əslən indiki füzuli bölgəsindən olan türk mənşəlidir, XIX əsrin ortalarında daimi yaşayış yerinə çevrilmişdir. Lakin sonralar buraya Ərikli, Büləvli, Qarasaqqal, Naxçıvan, Qarakilsə (Sisyan) bölgələrindən gələnlər də olmuş və hazırda hamısının adı Qurdgəzili çağrılır."

Sultan bəyin babası çalvadar Murad isə Ərikli kəndində məskunlaşan Cənubi Azərbaycandan gəlmiş bir türk əsilli səcərədəndir. Pənahəli xanla bu nəslin heç bir yaxın ünsiyyəti olmayıb və ayrı-ayrı əsrin insanlarıdırlar. Qurgəzi kəndinin və onun ətraf kəndlərinin əhalisi bu sözü yerli şivəyə uyğun səsləndirmişlər-Qurdqaji.

Təbii ki, Qurdqaji şifahi səslənmə olduğu halda, yazılışda bu söz öz həqiqi adında – Qurdgəzi şəklində olmalıdır.

Ensiklopedik lüğətdə çox düzgün olaraq göstərilir ki, " qədim dövrlərdə türkləri qurd adlandırmışlar. Əbülqasım Firdovsi isə öz dövründə türklərin yaşadığı ölkəni "Qurdlar ölkəsi" adlandırmışdır. Beləliklə, lap qədimdən qurd türk millətinin onqonu sayılmışdır. Türkdilli xalqlar arasında qurd sözü bildiyimiz kimi igid, mərd, qoçaq, ərən mənasında işlənib. Bu söz bizim dilimizdə öz mənasını bu günə qədər də saxlamaqdadır. Bu kəndin adının Qurdqaji (Qurdgəzi) olduğunu sübut edən sənəd Respublika Dövlət tarix arxivində 123-cü fondun 7-saylı işin 155-169-cu səhifələrində özünü qoruyub saxlayır. Bu qeydiyyat 1848-ci ildə qeydə alınmışdır".

Onu da qeyd edək ki, bütün Laçın, Zəngəzur bölgəsində olduğu kimi, Qurdgəzi kəndi ətrafında da Azərbaycanın Alban dövləti dövrünə aid qədim abidələr və kimsələr (kilsələr) mövcud idi. Burada hətta atəşpərəstlik dövrünə, orta əsir mədəniyyətinə aid də abidələr var idi. Sultan bəyin təmsil olunduğu Hacisamlı kəndinin adı isə qədim türk tayfalarından olan samlılarla əlaqəlidir. Sultan bəyin şəxsi mülkü (aran evi) isə Qurdgəzidən bir neçə kilometr aşağı Şəlvəçay axarındadır. Bütün fərqlərə baxmayaraq Sultan bəyin atası Paşa bəyin məzarı Qurdgəzi qəbiristanlığında idi. Sultan bəyin təhsili ilə əlaqədar qeydlərin bəziləri ayrı-ayrı müəlliflər tərəfindən fərqli mülahizələrlə yazılıb və reallıqdan kənarları xeylidir.

Qafan mis mədənləri, Bərguşad çayının axarı boyu inkişaf etmiş kənd təsərrüfatının Sultan bəyə məxsusluğunun da heç bir tarixi kökləri yoxdur. Deyilən təsərrüfatlar başqa-başqa bəylərə, mülkədarlara mənsubdur və bu haqda kifayət qədər tarixi sənədlər mövcuddur.

Bəziləri bəy dedikdə ilk öncə dünyanın ona mənsubluğunu güman edirlər. Sultan bəyin ünvanına qeyri düzgün məlumatlar aid etmək, heç də ona xüsusi qayğının nəticəsi hesab edilməməlidir. Əksinə, ona xələl gətirən fikirlərdir. Yaxud, hansısa yaylaqdakı mülk məsələsi də bu işlərin mahiyyətini, o bölgəni tanımamağın, bilməməyin məhsuludur. Adəti üzrə heç bir yaylaqda mülk salınmır, xüsusəndə kiçik Qafqazda, onun Çalbayır yaylağında.

Bu yaylağında Sultan bəyə mənsubiyyəti yoxdur. Ora ancaq ən çoxu yayın üç isti aylarında heyvanatı təbii yemlə təmin etmək üçündür və maldarlar da alançıqlarda yaşıyardılar. Çünki onlar yaylaqda da bir hissəni otardıqdan sonra, başqa sahəyə köçməli olduqlarından daimi yaşayış mülkləri salmağa ehtiyac qalmır.

Minkənd, Sadınlar, Hacılar, Farmaştəpə bölgəsində ermənilərlə döyüşlər əsasən 1902-1907-ci illəri əhatə edir. O dövrdə Yuxarı Qarabağın, Zəngəzurun, indi Laçın bölgəsi adlanan torpaqların müdafiəsinə rəhbərliyi əsasən Şuşada şəhid olmuş İbrahim bəy etmişdir. Onun ətrafında çox da böyük olmayan, lakin hamısı bəyliyi təmsil edən insanlar olmuşlar. Bu insanlar gündəlik silah gəzdirən olmaqla, silahdan istifadəni gözəl bilirdilər. Bu insanlardan Alı bəy, Məhəmmədhəsən bəy, Ağakişi bəy, Bağır bəy, Cabbar bəy, Həsən bəy, Paşa bəy, Əbdülləzim bəy, Nəbi bəy, Rüstəm bəy, Ağa bəy, Şahverdi bəy, Əbil bəy, Cavad bəy, Əli bəy, Əvil bəy, Mikayıl bəy, Cəfərqulu bəy, və s. döyüşçülərin adı məlumdur.

Laçının qərbində sonralar 1914-1918-ci illər arasında ara-sıra erməni-müsəlman döyüşləri lokanik xarakterli olmuş və yerli əhali ermənilərin cavabını mərdliklə vermışlər. 1918-ci ilin yayın sonu və payızda Cənubi Zəngəzurda çox dəhşətli erməni müsəlman döyüşləri olmuş, bu bölgənin bütün silahı olanlar döyüşə qoşulmuşlar və Naxçıvanda, Qərbi Azərbaycanda, Qarabağ və Yuxarı Qarabağda böyük hünərlər göstərən insanlar olmuşlar. Bu haqda AXC hökməti komisiyasından geniş və dəqiq məlumatlar arxivdə saxlanılır. Sultan bəy isə daha tədbirli el ağsaqqallarının, qardaşı Xosrov bəyin fikirləri ilə uzlaşan siyasət yürütmüş, gücləri nəzərə alaraq özünü müdafiəyə daha çox üstünlük vermişdir.

Bu isə öz bəhrəsini vermiş, kiçik güclə böyük qüvvəyə və böyük məkrə qalib gəlməklə nəticələnmişdir. Burada, artıq Sultan bəy hamıdan qabaqdadır, hamıdan üstündür.

1920-ci ildən sonra Sultan bəy sovet hökümətini təmsil edən adi insanlarla deyil, hətta bəy səcərələri olan və sovetləri təmsil edən insanları ilə də öz hüquqlarını bərpa edə bilməmişdi. Əsas səbəb isə Sultan bəyin bəy olması və sovetlərin məqsədi isə bəyləri, seyidləri, mülkədarları və s. bir sinif kimi məhv etməsi zərurəti olmuşdu. Bolşeviklər Sultan bəyə qohum olan bir nəfəri ələ almaqla onu yaralamışlar. Bəzilərinin yazdığı Hacısamlının "Gorgahat" yox, Göykaha daxilində Sultan bəy üç gün qalmış, sonra onu Laladağda hər kəsin gedə və girə bilməyəcəyi kahaya aparmışlar. O, burada sağalana yaxın uzandığı yerin yanına kahanın daxili damından bir qaya düşdükdən sonra bu sözləri söyləmişdi:

Mən aşiqəm yarğana
Yar sözünü yar qana
Dünyaya sığmaz başım
Sığınıbdır yarğana

Sultan bəy bu hadisədən çox ruhlanmış və demişdir ki, "... Allah mənimlədir, mənə daha ölüm yoxdur, hazırlaşın – biz burdan getməliyik." Bu ifadəni onu yola salan və Arazdan keçirən, əslən Haxnəzərdən olan Sultan bəyin dostunun oğlu söyləmişdir.

Sultan bəyin məhvinin əsas təşkilatçıları ermənilər idi. Ermənilər bu işi Moskvadan təşkil edir və Moskva Bakıya göstəriş deyil, öz əmrlərini qətiyyətlə bildirirdilər.

Başqa bir məqam isə digər qeyd barəsindədir. Yazırlar ki, "Sultan bəy vətəndən, doğma yurddan ayrılarkən Qurdgəzi kəndinin ərazisində ən uca zirvə, "Qarapalçıq" adlanan dağın zirvəsinə qalxır, oradan Qırxqız yaylaqlarını, dağları son dəfə seyr edir və bir neçə bayatı çağırır.

Qeyd edək ki, deyilənlər həqiqətə uyğun deyil və mümkün də deyildir. Sultan bəy Aran otağında yaralanandan sonra bir daha bu-

raya dönməmişdir. Burada deyilən dağın adı düz deyil və oradan da Qırxqız yaylaqları görünmür. Bayatıya gəldikdə isə o, həqiqətən bayatı demişdir. Lakin, o, aşağıdakı bayatını Araz çayını keçərkən arxa tərəfə göz gəzdirib demiş və Arazı keçmişdi.

Mən aşiq dolan gözüm,
Dol gözüm, dolan gözüm.
Gedərsən qayıtmazsan,
Vətəni dolan gözüm.

1923-ci ildə Qars Vilayətinin Köçqoy kəndində Sultan bəyə mülk və malikanə verilməsi də həqiqətləri əks etdirmir. Avropada Xosrov bəylə bir neçə dəfə görüşən və geniş söhbətlər aparan, həm də qohumluq əlaqələri olan İsrafil bəyin dediklərinə görə Sultan bəy Azərbaycanı tərk edərkən özü ilə xeyli qızıl da aparmışdı və Köçqoydakı bütün təsərrüfatları özü almış, kimliyini uzun müddət heç kimə bildirməmişdi.

Bir məsələni də xatırlatmaq gərəklidir. Belə ki, Qars vilayəti və onun Köçqoy kəndi Azərbaycan torpaqlarıdır, tarixin müxtəlif dönəmlərində ya Osmanlı türklərində, yaxud Azərbaycan türkləri dövlətinə tabe olmuşdur. Odur ki, bu yerlərdə Azərbaycanın müxtəlif bölgələrindən, xüsusən də Yuxarı Qarabağdan-Zəngəzurdan olanlar çox idi. Deyilən məsələ də Sultan bəyə məlum idi. Elə bu səbəbdən də Sultan bəy Qarsı seçmişdi.

Həqiqət və ədalət xatirinə deməliyik ki, bəzi yazılarda Sultan bəyin yağ-pendir zavodu tikdirməsini yazırlar. Əlbətdə bu da həqiqətləri əks etdirmir. Sultan bəy bizim günümüzdə dərk etdiyimiz uyğun yağ-pendir zavodunu heç yaxına da buraxmazdı və həmin yağ-pendiri heç kim almazdı. XIX əsrin sonu, XX əsrin əvvəllərində bütün Azərbaycanda, onun Yuxarı Qarabağ bölgəsində islamın təsiri güclü idi və bu cür işlərdə Qarabağın tarixi təcrübəsi də Avropadan çox-çox qədim və həm də yerli şəraitə uyğun idi. Sultan bəy istehsal etdiyi yağı, pendiri heç bir vasitə ilə heç bir yerə aparmırdı. Yuxarı Qarabağda, Zəngəzurda, onun Laçın

bölgəsində, Qərbi Azərbaycanda, Dilican dərəsində, Borçalıda və s. yerlərimizdə belə bir qayda var idi. Aran bölgələrimizdən, ticarət daha çox inkişaf etmiş şəhərlərdən dağ yerlərində insanların tələb etdiyi mal-materialları aparıb satar, qalanlarını isə dost-tanışlarının evlərində qoyardılar. Mallar, materiallar puldan çox yağla, pendirlə, balla, yunla, keçə ilə və s. dəyişdirilərdi. Dağ yerlərindən əldə edilmiş yağ, pendir, bal və s. şəhərlərə, aran bölgələrə gətirilərək, aldıqları qiymətdən baha qiymətə satılar və ikiqat gəlir əldə edərdilər.

Digər bir məsələ isə Paşa bəyin Alıqulu kəndini ermənilərdən azad etməsi məsələsidir. Əvvəla bu kəndin yaranması Alıməmməd bəyin adı ilə bağlıdır. Zəngəzur sultanı Murtuza bəyin nəvəsi olan Alıməmməd bəy bu kəndin yaradıcısıdır, kəndətrafı torpaqların xeylisi onun şəxsi mülkü olmuşdur. Alıməmməd bəy Zəngəzurun müxtəlif yerlərində çoxlu torpaq, mülk, digər təsərrüfat sahibi olmuşdu. Onun özünün Alıqulu kəndi ilə üzbəüz, çox yaxındakı güneydə də mülki var idi. Özünü və ətrafdakı ailələrə yardım məqsədilə özünün iş yeri olan Gorusdan bir nəfər Stepan adında dəmirçi erməni gətirmiş və həmin erməniyə Alının qulu deyərmişlər. Bu səbəbdən də bu yurdun əsl adı Yalyeri olsa da Alıqulu adı formalaşmış və ermənilər burada bir neçə ailə yarada bilmişlər. Alməmməd bəy dünyasını dəyişdikdən sonra Zəngəzurun rəhbərliyinə onun qardaşı oğlu, çox təhsilli, dünyagörüşlü, Şeyx Şamillə dostluq etmiş Cəbrayıl bəy gəlmişdir. Ermənilər adəti üzrə bir neçə nəfər bir yerə toplandıqda çörək verənlərinə qarşı xəyanət əməllərini burada da həyata keçirmək, yerli əhalini, torpaq sahiblərini buradan qovmaq istəmişlər. Xəyanətə dözməyən kənd sahibləri Cəbrayıl bəyin rəhbərliyi ilə erməniləri Alıqulu kəndindən sıxışdırıb çıxarmışlar.

Bəzi müəlliflər isə 1918-ci ildə Sultan bəyin Andronikin silahlı döyüşçülərinin silahlı milis bölmələrinin köməyi ilə məhv etdiyini yazırlar. Bu fikir də səmadan götürülmədi. Əvvəla milis bölmələri ümumiyyətlə yox idi. Olan milislərdə qəza milis rəislərinə tabe idilər. Laçında isə belə bir qurum ayrılıqda yox idi. Sultan bəy sırf laçınlı insanların hesabına Andranikin cavabını verməyə nail olmuşdu.

Sultan bəyin, Xosrov bəyin və digər vətənpərvər insanlarımızın növbəti çətinliyi Rusiya bolşeviklərinin 1920-ci ildə Azərbaycanı işğal etməsi və millətin öncüllərinin məhvi, cürbəcür ittihamların irəli sürülməsi idi.

Həmin günlərdə də N.Nərimanovun sərt mövqeyinə və bəzi məqamlarda dirəniş göstərməsinə baxmayaraq Sovet Rusiyası Xalq Xarici İşlər Komissarlığı tərəfindən müəyyən edilən Azərbaycanın gözdən salınması siyasətinə üstünlük verdi. 1920-ci ilin 20 iyulunda N.Nərimanova göndərdiyi təcili diplomatik teleqramda Çiçerin hikkəli formada yazırdı: “İndiyə qədər nə siz, nə də oradakı kommunistlər bizə izah edə bilirsiniz ki, nə üçün Rusiya qoşunlarının Qarabağı və Zəngəzuru tutmasının əleyhinə siz nə üçün bu ərazilərin Azərbaycana birləşdirilməsini dönmədən tələb edirsiniz. Biz Ermənistanla işlərimizi qaydaya qoymalıyıq. Türkiyə bizə qarşı çevrildiyi təqdirdə hətta daşnaq Ermənistanı belə türk hücumuna qarşı bizim ön istehkamımız, forpostumuz olacaq”.

Göründüyü kimi tarixin istənilən dönəmində ruslar ermənilərin tərəfini saxlamış, onlara üstünlük vermiş və erməniləri Azərbaycana, Türkiyəyə qarşı qoymuşlar, Azərbaycanın adlı-sanlı adamlarına qeyri türk adlarını peyvənd etməyə cəhd göstərmişlər, Azərbaycan türkü adını qəbul etməmişlər.

Sultan bəyi ruslar və ermənilər XX əsrin əvvəllərində bir xalq düşməni türk kimi qələmə verdikləri halda, sonralar tatar, müsəlman və nəhayət kürd deməklə nöqtə qoymuşlar. Bu təbliğata uyan bəzi insanlar isə Sultan bəylə yanaşı, digər, cəmiyyətdə nüfuz sahibi olanları da türk kimi görmək istəməmişlər, baxmayaraq ki, kürdlərin də qədim kökü Qurd türk tayfaları ilə bağlıdır.

Z.Nəbibəyli özünün “Zəngəzurun altun tacı Laçın” kitabında yazır: “Azərbaycanı istəməyən ermənilər və bəzi kürd əsilli lakin tarixi bilməyənlər ermənidən eşitdiyi fikirləri təkrar etmişlər. Bunlardan biri də rəhmətlik Şamil Əsgərovdur ki, Qurdgəzi kəndinin yaxınlığında Sultan bəy Sultanovun mülkü olduğundan onu da kürd kimi başa düşmüşdür. Onun bu fikrinə etirazını bildirən Məcid bəy Bülövlüklü dostluq etdiyi Şamil Əsgərova şeirlə sərt

cavab vermişdir və əslində Sultan bəy əslən Qurdgəzi kəndindən deyil. Həmin şeirdən qısa nümünə:

Zəngəzur qartalı o sultan bəydir,
Sultana kürd demək qəlblərə dəydi.
Səni doğru yoldan söylə, kim əydi?
Vallahi kürd deyil Sultan, ay Şamil,
Çox yaman bəladır böhtan, ay şamil.

Lənət olsun nifaqi ortalığa atana,
Lənət olsun yuxuda igidliyə çatana,
Lənət olsun ortalığa şər atıb, şər qatana,
Lənətə düçar olsun birdə Şeytan, ay Şamil!!

"Yaxşı" eksponatdı, qoy müzeyə qəzeti,
Azərbaycan öyrənsin belə bir "həqiqəti",
Kimdir düşmən eyləyən iki qardaş milləti?
Görmürsənmi dağlarda belə tufan, ay şamil.
Türk dillidir, kürd deyil, bəydi Sultan, ay Şamil.
Sağalmaz bir yaradır açıq böhtan, ay Şamil!"

Bolşeviklərin Azərbaycanı işğalının ilk günlərində ermənilər Zəngəzur əhalisinin əsasən ermənilərdən və bir az da kürdlərdən ibarət olduğunu bəhanə edərək onun Ermənistana birləşdirilməsini tələb edirdilər.

N.Nərimanovun Zəngəzurun və Naxçıvanın Ermənistana verilməsini bəyan edəndən (1923-cü ildə N.Nərimanovun Leninə yazdığı məktubda öz səhvini etiraf etmişdi) iki gün sonra, 1920-ci ilin 2 dekabırında Gümrü müqaviləsinə alternativ kimi imzalanan Rusiya-Ermənistan hərbi-siyasi müqaviləsində Zəngəzur qəzasının Ermənistanın tərkibinə keçdiyi tanınırdı. Hansı ki, inqilab astanasında rusların keçirdiyi əhali sayına görə Zəngəzur qəzasında 123095 nəfər müsəlman (yəni türk), 99257 nəfər erməni yaşayırdı.

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsindən sonra Qarabağ və Zəngəzurun fövqəladə komissarı Şamil Mahmudbəyov 24 dekabrda Nərimanova göndərdiyi və onun tapşırığı ilə surəti Orconikidzeyə (Azəzrbaycanın qatı düşmənlərindən biri) göndərilən məruzəsində yazırdı: "4 sahədən ibarət olan Aşağı Zəngəzurun nümayəndələri mənim yanıma gələrək Azərbaycan Sovet hakimiyyətinin idarəçiliyində qalmaq istədiklərini qəti olaraq bildirirlər. Əgər onların təklifi nəzərə alınmazsa, onlar xahiş edirlər ki, bu əhalinin hara köçürüləcəyi yer müəyyənləşdirilsin"

Şamil Mahmudbəyov 1920-il 30 dekabrda N.Nərimanova və Həmid Sultanova göndərdiyi növbəti məktubunda Zəngəzurda Sultan bəydən, Xosrov bəydən sonra erməni daşnakların dahada fəallaşdıqlarını söyləyir və qeyd edir ki, əgər Mərkəz (Moskva) siyasi mənada bu diyarda hər şeyin uğurlu olacağına əmin olub yüz verstlərlə sahədən orduları çıxarırsa, onda bizim özümüzə icazə versin Qarabağ və Zəngəzuru gözlənilməz hücumlardan qorumaq üçün öz qüvvələrimizi səfərbər edək. O, əlavə edir ki, biz bunu mümkün və zəruri hesab edirik.

1921-ci ilin 15 fevralında Ş.Mahmudbəyov 24 dekabr məruzəsinə əlavə olaraq N.Nərimanov, Həmid Sultanov və Əliheydər Qarayevin adına məlumat göndərir. O, daşnakların daha da azğınlaşdığını yazır, Qarabağın və Zəngəzurun müsəlman əhalisini erməni taranlarından qorumaq üçün Bakıdan yardım istəyirdi. O, təklif edir ki, Qarabağ və Zəngəzurda böyük nüfuzu olan Sultan bəyin imkanlarından istifadə etmək lazımdır. Bunun yeganə yolunu isə o, əvvəl Qarabağ və Zəngəzurun general-qubernatoru olmuş, azərbaycanlı əhalinin erməni qırğınlarından qorunmasında müstəsna rol oynamış, ermənilərin təkidi ilə həbs edilmiş Xosrov bəy Sultanovun həbsdən azad olunmasında görürdü. Hətta, Ş. Mahmudbəyov məlumatın sonuna öz əl yazısı ilə əlavə etmişdir ki, "Xosrov bəy Sultanov azad ediləcəyi təqdirdə onun loyallığı və etibarlığına şəxsən cavabdeh olacaq, onun bütün hərəkətləri üçün məsuliyyəti öz üzərinə götürəcək"

Göründüyü kimi, tarixən ermənilər ruslarla, digər xristianlarla, türk dünyasını istəməyən istənilən qüvvələrlə birləşərək Azərbaycanı məhv etməyi qarşılarına məqsəd qoymuşlar və bu siyasət hazırda da davam etməkdədir. Azərbaycanın çıxışı sıx milli birlik yaratmaqla öz doğma torpaqlarını azad etməyə nail olmaqdır.

Gəlin payız buludları kimi boş-boş guruldamayaq....

## SÜLEYMAN RƏHİMOV SULTAN BƏY HAQQINDA

XX əsrin 60-cı illəri idi. Ali təhsilimin ilk illəri idi. Atam mənə Əli (Alməmmədi) müəllimi görməyi tapşırmışdı. Onların hər ikisinin özləri də ailələri də bolşeviklərdən çox əziyyətlər çəkmişlər. Əli müəllim böyük tarixi şəxsiyyət olsa da, ailəni əsasən rəssamlıqla, fotoqraflıqla dolandırırdı. Atamın tapşırığını heç kim bilməməli idi. O, tapşırmışdı ki, Əli müəllim bacarsa Xosrov bəy Sultanovun şəklini onun üçün tapsın. Atamla Xosrov bəy Almaniyada tapışmışdılar və hər ikisi eyni amal uğrunda mübarizlik etmişdilər. Atamın cavan, Xosrov bəyin isə ağsaqqal vaxtı olub.

Mən, Əli müəllimin Muxtadir küçəsindəki evinə (o, əvvəllər içəri şəhərdə yaşayıb) gəlib həyət qapısını açanda onun özü ilə qarşılaşdım. Görüşdük, istədim atamın tapşırığını söyləyim. Elə bilirdim elə o dəqiqə şəkli alıb gedəcəm. Amma, belə olmadı. Sözün var, soruşdu. Əli müəllim demişdim ki, sözümü kəsdi. Darıxma, gedək bulvara, orda kişilər məni gözləyir, sözünü onlardan sonra deyərsən. Mən isə şəkli tez alıb getmək istəyirdim. Bilirdim ki, Əli müəllimin görüşləri çox olacaq və bütün gün evə dönməyəcək. Bütün şəhər onu tanıyırdı. Çarəsiz qalıb onunla bərabər bulvara yollandıq. Getdiyimiz yol boyu onu tez-tez saxlayır, müxtəlif sözlər soruşur, suallar verir, bəzən də zarafatlar edirdilər. Mənsə səbirsizliklə hər dəfə söhbətlərin sonluğunu gözləməli olurdum. Nəhayət ki, indiki Kukla teatrının yanına çatdıq. Əli müəllim ayaq saxlayıb əlini gözünün üstünə qoyub ətrafı seyr etməyə başladı. Bir müddətdən sonra mən tərəfə dönüb gəl dedi, kişilər gəlir. Kişilərin kimliyini bilmirdim, soruşmamışdım, mənim üçün tez getmək vacib idi. Odur ki, heç nəyə fikir vermirdim.

Birdən, Əli müəllim əl çantasını mənə uzadıb, bunu tut dedi. Özü işə Alman istehsalı olan şəkilçəni qarşı tərəfə tuşladı. Bu məqamda əli arxasında çarpazlaşmış Süleyman Rəhimovu, solunda Alı dayını (Əli Vəliyevi) və Bayram Bayramovu cərgəylə dayandıqlarını gördüm. Əli müəllim onların şəklini çəkdikdən sonra onlarla görüşdü və mənə də onlarla görüşməyə işarə etdi. Əmim nəvəsidir, yaxşı oğlandı, tələbədi, başdı oğlandı – dedi.

Əlbəttə mən bu böyük şəxsiyyətlərin üçünü də tanıyırdım, Süleyman Rəhimovun əsərlərini yaxşı bilirdim, elə Əli Vəliyevin əsərlərin də, Bayram Bayramovu tanısamda əsərləri haqqında müfəssəl məlumatlı deyildim. Süleyman Rəhimov həmin illərdə də çox məşhur idi, onu və əsərlərini tanımayanlar yox idi. Hər yerdə çox hörmətlə qarşılanardı. Zəhmli kişi idi, çox hündür və dolu bədənli insan idi. Çox səliqəli geyimi, səliqəli saçları, heç kiminkinə bənzəməyən bığları var idi.

Heç bir düşünülmüş, razılaşdırılmış mövzulardan söhbət getmirdi, zarafatlarından da qalmırdılar. Şuxluq yaradan bu növ söhbət xeyli çəkdi. Mən isə içimdə çəkirdim. Elə ki, bu görkəmli şəxslərin söhbətləri ciddiləşdi, onların özləridə ciddiləşdi. Hamı gözləyirdi ki, mövzuya münasibəti birinci olaraq Süleyman Rəhimov bildirsin. Həm də Əli Vəliyevlə Bayram Bayramov az danışardılar. Əli müəllim isə onlardan da az danışardı. Bu söhbət tədricən siyasətləşdi, cəmiyyətdə olan əyər-əskikdən getdi, hamısı eyni fikirli oldular, biri-digərini tamamladı. Partiya işçilərinin qeyri-etik davranışından, hədiyyə almalarından, qohumbazlıq-yerlibazlıqdan söhbət düşəndə Əli müəllim söhbətə zarafatyana müdaxilə etdi.

O, dedi: – "Süleyman müəllim mənim işim sizinlədi. Bax, çox görkəmli, təmiz əqidəli, hökumətdə işləmiş, uzun müddət cəmiyyətin əyrilikləri ilə barışmayan bir kommunist olmusunuz və elə də var. İndi isə kommunistlərin əleyhinə danışırsınız, üstəgəl bəyləri – mülkədarları o ki, var tənqid eləmisiniz. Bu Sultan bəyin günahı nə idi ki, onu o günə salmısınız". Süleyman Rəhimov daha da ciddi görkəm alıb, bir addım qabağa çıxdı. Əli elə bilirsən özümü, özümkiləri beynimdən keçirmirəm. Əli – sən öl, sən öl mən

"Şamo"nu yazanda bu günkü vəziyyət olsa idi, ömrümdə heylə bir əsər yarada bilməzdim. Əli biz bu işin dalınca gedəndə elə bilirdik ki, kommunistlər nə deyirlərsə heylədə olacaq. Düzdüyü hamı istəyir, hətta oğrular – əyrilərdə. Düz deyirsən, mən ömrümdə heç bir əyriliklə, pis əməllərlə barışmamışam. Elə indinin özündə də beləyəm, özün bilirsənki. Mən ömrümdə ağlıma gətirə bilməzdim ki, cibində kommunist partiyasının sənədini gəzdirəsən, özündə rüşvət alasan, yaxud ayrı yerdə ikinci arvad saxlayasan, bunları gördükcə dəli oluram. Əli, qaldı ki, Sultan bəyə – onun üçün qəm yemə. Bilirəm sən də bəysən istəmirəm ki, bəylərə toxunulsun. Amma, bil və agah ol. Əli Süleyman Rəhimov Sultan bəyə elə bir əzəmətli heykəl qoymuşdur ki, belə bir heykəli heç kim qoya bilməz. Bir də bil ki, Sultan bəyin bu heykəlini heç kim sökə bilməyəcək, Şamonu yaxşı oxu, bir də oxu! Bil ki, Süleymanın Şamosu dünyanın 60 dilinə tərcümə olunub, sil gözüm bu tarixi necə siləcəksən. Süleymanı çox yaxşı başa düşməyib, dalımca danışıblar. Üzbəüz gələndə isə boğazları quruyub. İki kəlmə sözü bir-birinin ardınca deyə bilməyiblər. Belə adamların arasında Süleymanın boyu hamıdan uzun, üzü hamıdan ağdır. Bax belə işlər əmioğlu....

Əli Vəliyev (Alı dayı) söhbətə müdaxilə etdi. Süleyman, çox düz buyurursan. Sən öl, heç sən deyəni mən fikirləşməmişəm, doğrudan da əzəmətli bir heykəldir. Beləliklə, Bayram Bayramov və Alməmməd bəy də Süleyman Rəhimovun fikirlərini təsdiqlədilər, bəyəndilər və bir daha kommunistlərin "əməlləri" haqqındakı söhbətlərini davam etdirdilər.

Biz birlikdə bulvar boyu indiki Muğam evinə qədər gəldik. Süleyman Rəhimov xeyli müddət Laçında işləmişdi. Gördüklərindən, bildiklərindən, kimin haqlı, kimin qərəzli olduqlarından xeyli danışdı. Amma, heç kim onun sözünü kəsmirdi...

## M.C.BAĞIROV, S.SULTAN BƏY, Ə.MÜSEYİB BƏY VƏ YA KİMDİR GÜNAHKAR?!

Azərbaycan tarixinin müxtəlif dövrlərində müxtəlif cür hadisələr yetərincədir. Təəssüf ki, Azərbaycan dövlətinə, onun dövlətçiliyinə və Azərbaycanın kütlədən ayrılıb qabağa çıxmış insanlarına bu kimi hallar çox baha başa gəlmiş, itkilərimiz heç də az olmamışdır. Belə bir namünasib hadisə Zəngəzur qəzasında da olmuşdu. Belə ki, XX əsrin birinci qərinəsində Zəngəzur qəzasının torpaqları əvvəlki sərhədləri çərçivəsində qalmamış, müəyyən hissə İrana, müəyyən hissə Qarabağın digər bölgələrinin tabeçiliyinə verilməklə, bir hissəsində isə erməni vəhşilikləri tüğyan edirdi. Söyləyəcəyimiz hadisə isə bilavasitə Azərbaycanda Cümhuriyyətin iqtidardan getməsi və Qırmızı imperiyanın Azərbaycanı işğalı ərəfəsinə təsadüf edir. Tarixən Zəngəzurun tabeçiliyi Gəncədə, Şamaxıda, Bərdədə, Beyləqanda, Şuşada olmasından asılı olmayaraq, Zəngəzur bir növ öz “müstəqilliyini” saxlayırdı. Soltanlıq, Mahal, Qəza statusunda fəaliyyət göstərirdi, əsas mərkəzlərindən biri də Goruş yaşayış məntəqəsi olmuşdur. Bəzən Zəngəzur sultanlığı tam müstəqil fəaliyyət göstərsə də, əksərən Qarabağ torpağı olmuş, və Qarabağ Bəylərbəylik, Vilayət, Sancaq, Xanlıq dövrlərində bu dövlətin paytaxtından idarə edilmişdir. Qarabağ xanlarının, Gəncə bəylərinin tarixən Zəngəzurda şəxsi torpaq sahələri və yaylaq yerləri olmuşdur. Zəngəzur sultanlığının ən böyük torpaq sahəsi əsasən XVIII əsrin ortalarında Qarabağ xanlığının yaranmasına təsadüf edir. Qarabağ xanlığından əvvəl Zəngəzurun sultanı Murtuza bəy olmuş, Qarabağ xanlığının yaranmasında müstəsna zəhməti olduğundan, xanlığa tabe olsa da onun səlahiyyətlərinə xeyli torpaq verilmişdir. İran şahının yanından qaçan Pənahəli, bir il Zəngəzurda

başının dəstəsi ilə birgə Murtuza bəyin qonağı qismində yaşamış, bu müddətdə Murtuza sultan silah-sürsat və canlı qüvvə təşkil etməklə müstəqil Qarabağ xanlığını yaratmağa nail olmuşlar. Pənahəli ilə Myrtuza bəyin dostluğu Zəngəzur sultanlığının sərhədlərinin indiki İran dövlətinin Qaradağ, şimalda isə Göyçə mahalına qədər genişləndirməyə imkan vermişdir. Nəbibəylilərin uzun müddət bu sultanlığa rəhbərlik etmələrinin çox dərin kökləri var, amma onların Qızılbaşlardan əvvəl və Pənahəli xanla isti münasibətlərindən sonra da XX əsrin əvvəllərinə kimi hakimiyyətlərini qorumaqda Ziyadoğulları və Qacarlarla yaxın qohumluq əlaqələrinin də əhəmiyyəti az olmamışdır. Böyük Zəngəzur Nəbibəylilərdən sonra parçalanmış, yuxarı hissə Hacısamlı (və ya Hacıxanlı) adı ilə fəaliyyətdə olmuş və onun hər iki hissəsi yenə də Qarabağın tərkibində olmuşdur. Elə həmin illərdə də Yuxarı Qarabağa yox, Yuxarı Zəngəzura siyasi rəhbərliyi Sultan bəy Sultanov etmişdir. Sultan bəyin demək olar ki, Azərbaycandakı ömrü at belində və keşməkeşli olmuşdur. Cümhuriyyət dövründə isə onun qardaşı xosrov bəy Qarabağın genera-qubernatoru olmuş, Zəngəzur isə şimallı-cənublu yenə də Qarabağ tabeçiliyində fəaliyyət göstərirdi. Bu dövrlərdə Nəbibəylilərin Qarabağda, Xankəndində, Gorusda, Qafanda, Ağcabədidə(taxta körpü), Zəngilanda, Təbrizdə, Xoyda, Gəncədə, Ərdəbildə mülkləri, qohum-qardaşları, çoxlu miqdarda torpaqları, mədənləri və s. olsa da, Murtuza bəyin öz övladlarının törəmələri Araflı və onun ətrafında bir-birinə yaxın 35-dən artıq yaşayış məskənlərində, Kəlbəcərin çox hissəsində yaşamaqda davam edirdilər. Bu yaşayış məntəqələrindən biri də Bülövlük kəndi idi. Bülövlük kəndi də XVIII əsrin sonları, XIX əsrin əvvəllərinə yurd yerindən daimi yaşayış məskəninə çevrilmişdir. XX əsrin əvvəllərinə isə bu kənddə yaşayan bəylər, qədim qaydalarına zidd olaraq ətraf kəndlərdən olan Ərikli, Piçənis, Qurdgəzi, Arduşlu, Ağcakənd, Qoşasu, Qaraçanlı, Alpoud, Kəlbəcərin bəzi kəndlərindən olan, amma əsilzadə olmayan insanlarla qohumluq əlaqələri qurmuş, qız verib, qız almışlar. Vəziyyət o yerə çatmışdır ki, bu bəylərdən XX əsrin əvvəlinə əsilzadəliklərini saxlayan, bülövlükdə Bərxudar bəy və

onun xanımı, Alıquluda isə Böyük Zəngəzurun axırıncı sultanı-ixtisasca həkim Cəbrayıl bəyin kiçik oğlu Cəlil bəy və onun xanımı yaratdıqları iki ailə istisnalıq təşkil edirdilər.

Sultan bəyə gəldikdə isə babası çalvadar olmuş, sonralar isə bu kəndlərlə qohumluq yaratmış, bu qohumluqdan istifadə edərək Murtuza bəyin Araflıda yaşayan törəmələrinin köməkliyi ilə bəylik titulu qazanmışlar. Sultanlılar kəndindəki bəylərin kökü isə İrəvanqulu xanının və Nəbibəylilər səcərəsinin (II Alməmməd bəy) bir qolunun törəmələridir. Son fikirlərin mənbəyi Araflıda yaşamış, anası və arvadı Qurdgəzi kəndindən olan yüzbaşı və pristav işləmiş, Nəbibəylilərin səcərə tarixinin 4-cü kitabının bir hissəsini qeydə almış Süleyman bəy Nəbibəylidir. Belə məlumatı ikinci dəfə yazıya alan beynəlxalq əlifbanın müəllifi Əli (4-cü Alməmməd bəy) Nəbibəylidir. Atası gözəl xəttat olub, "Quran" ı ərəb dilindən sətri tərcümə edib, yazılarından Əlyazmalar institutunda saxlanılır. Sultan bəyin atası Paşa bəy savadsız olsa da, çox ağıllı insan olub, oğlu Xosrov bəyi də Cəbrayıl bəy Nəbibəylinin Odessada oxuduğu tibb institutuna da Cəbrayıl bəyin həyat və fəaliyyətindən xoşu gəldiyi üçün göndərmişdir. Xosrov bəy də Paşa bəyin ümidlərini doğrultmuş, nəinki Cəbrayıl bəy kimi Zəngəzurun sultanı və Qarabağ xanlığının baş sərkərdəsi, o, bütövlükdə bütöv Qarabağın general-qubernatoru olmuş, "İttihad" partiyası fraksiyası kimi Müsavat hakimiyyətində təmsil olunmuş, sonralar türkiyədə artıq "İttihad"partiyasının sədri kimi Məmməd Əmin Rəsulzadə ilə sıx təmasda olmuş, Müsavatın Azərbaycanda yenidən hakimiyyətə gələcəyi təqdirdə hakimiyyətdə təmsil olunacağını razılaşdırmışdır. İkinci Dünya Müharibəsinin əvvəllərində Cəbrayıl bəyin nəvəsi İsrafil bəylə Almaniyada bir neçə dəfə görüşmüş, öz tərəfdaşları ilə birlikdə bir çox azərbaycanlıları, Orta Asiya və digər müsəlman SSRİ əsgərlərini Hitler konslagerlərindən azad etmişlər. Bu haqda Milli Təhlükəsizlik Nazirliyinin qəzetində və digər qəzetlərdə məlumatlar verilmişdir. 1915-20-ci illərədə Şuşa şəhər polisində fəaliyyət göstərən Müseyib bəyin ailəsi Laçın bölgəsinin Bülövlük kəndində məskunlaşmışdır və həm də Qurdgəzi kəndi insanları və

Sultan bəylə qohumuqları var idi. Müseyib bəy çox yaraşıqlı, qoçaq, cəngavər, el-obanı istəyən, yeri gələndə əl tutan və sözübütöv olmaqla öz dövrünün məşhurlarından olmuşdur. Yaxşı at, yaxşı silah, xəncər həvəskarı olmuşdur. XX əsrin ilk on illiyində bəylik deyilən törəmədə və Laçın bölgəsində yaşayanlar arasında II Alməmməd Sultan və Cəbrayıl bəydən sobra qızıl alışqan, qızıl qəlyan ancaq Müseyib bəydə olmuşdur. Elə vaxt olurmuş ki, "Aynalı" və "Beşaçılan"ı eyni vaxtda istifadə edə bilirmiş. Əliaçıq, qonaqpərvər, dost yolunda ölümə hazır adam imiş. Həm də, sadəlövh, hər şeyə tez inanan, tez qızışıb-tez də soyuyan adam olmuşdur. Bəzən kasıblar arasında bəy paltarının üstündən köhnə, nümdaş paltarlar geyər, özünü sadə apararmış ki, ətrafdakı insanlar narahatlıq keçirməsinlər. Bəzən də kasıbların tərəfini saxladıqda, onları müdafiə etdikdə "başağrısı" çəkərmiş. Belə bir hadisəyə görə bir dəfə Pircan kəndində "oturan" (o bina sonralar məktəb oldu) pristav nümayəndəliyi onu tutub cəzalandırmaq istəyirmiş. Bu məqəsdlə də Bülövlükdəki evini gecə ikən polislər mühasirəyə alırlar. Müseyib bəy polisləri inandırır ki, özü sərbəst gəlib rəislə danışacaqdır, hər məsələdə xətir-hörmətlə bitəcəkdir. O, elə də edir. O, hamıdan əvvəl Pircana çatır və çox zəhmli və cəld olduğundan onu qarşılayanlar da, rəisin özü də tutulur, ona heç nə deyə bilmirlər. Müseyib bəy rəisə müraciət edir ki, məni görmək istəmirdiniz, mənlik nə qulluğunuz var, buyurun, mən sizin hüzurunuzda. Rəis bu gəlişin və müraciətin o dərəcədə gözlənilməz olduğundan, Müseyib bəyin zəhmindən-ancaq "yox-yox, bəy heç nə, sizin sağlığınız" kəlmələrini dil-dodağı əsə-əsə deyə bilir. Müseib bəy isə sağollaşıb, cəld də otaqdan çıxır. Rəis özünə gələndə Müseyib bəy tək ağac deyilən yeri artıq keçmişdi. Ona nə atılan güllə, nə də at çata bilməzdi. Bu hadisədən sonra Müseyib bəy onunla Gorusda görüşür və dostlaşırlar.

Müseyib bəyin ölümü ilə nəticələnən görüş isə Şuşada baş vermişdir. Bolşeviklər çox böyük bir gizli təbliğata başlamışdılar, onun da mərkəzi Tiflis şəhəri idi. Ən çox Azərbaycan bolşeviklərinə göstəriş oradan gələrdi. Mir Cəfər Bağırov seyid olsa da, qatı bolşevik idi. Kommunist ideyalarına inanırdı, Tiflisdə çoxlu gürcü bol-

şevik dostları da var idi. Çaparidze, Djerjinski, Beriya, Stalin və sairlər də bu sırada idilər və bu şəxslər bolşeviklər arasında böyük nüfuza malik idilər. M.C.Bağırov heç də onlardan geri qalmırdı, bir çox məsələlərdə isə hətta onlardan qabaqda idi. M.C.Bağırov bir dəstə bolşeviklərlə Qarabağın bir çox yerlərində, gizli təşkilatlarla görüşür, tapşırıqlarını verir. Lakin, o, Şuşa şəhərində ələ keçir. Bir müddət Şuşa həbsində yatdıqdan sonra və Qarabağın general-qubernatoru (milliyətcə rus olub) Gəncədə oturduğundan göstərişlə onu qubernatora təhvil vermək zərurəti yaranır. Müseyib bəy haqqında yuxarıda dediyimiz xüsusiyyətləri nəzərə alınaraq, bu işi ona həvalə edirlər və tələb edirlər ki, M.C.Bağırovun cənab qubernatora təhvil verilməsi haqqında, onun imzası ilə sənəd gətirməlisən. Qazalaqlar hazır olur, dörd nəfər də polis əməkdaşları Müseyib bəyin rəhbərliyi ilə Gəncəyə üz tuturlar. Yolda imkan düşən kimi Bağırov Müseyib bəyin qoçaq adam olduğunu, bəy oğlu olduğunu eşidib, xasiyyətindən də xəbərdar idi, proletariatı müdafiə etdiyini də bilirdi. Müseyib bəyi Bağırov inandırır ki, bolşeviklər mütləq qalib gələcək və o halda Müseyb bəyə heç kim heç nə edə bilməyəcək, çünki Müseyib bəy bolşevikləri, Azərbaycan proletarlarını müdafiə etmədə öz əməyi və zəhməti olmuş bir şəxs kimi təqdim edilə bilər və sənədli-sübutlu faktda vardır. Müseyib bəy isə ona bir qamçı çəkərək kəs səsini bolşevik köpək oğlu cavabını verir və sürücüyə Yoluğa (Yevlax) sür əmri verir. Onlar Yevlax dəmir yol məntəqəsinə kimi danışmırlar (Şuşada Müseyib bəyi başa salmışdılar ki, Bağırov çox böyük bolşeviklərdəndir, həm də o da qoçaq adamdır, ehtiyatlı ol yolda qaça bilər). Yevlaxda isə Müseyib bəy ətrafındakı polisləri yeməkxanaya aparıb, onlara çay-çörək alır və qeyd edir ki, çörəklərini rahat-ayxayın yesinlər. O, özü Bağırovun qarovulunda duracaqdır. Müseyib bəy Bağırovun əl-qolunu açır, bəyə layiq onu yedizdirir və Yevlax-Bakı qatarına bilet alıb onu yola salır. Bağırov isə bir kağız parçası taparaq yazır: "Bütün kommunistlərə – Müseyib bəy əsl kommunist, proletariatın dayağıdır, Bağırovun xilaskarıdır. Mir.Cəfər ." Sonra Müseyib bəyə Bağırov bildirir ki, sən bu gündən bolşevik partiyasının üzvüsən,

yerli bolşeviklərlə əlaqə qur, onlara dayaq dur, kim səni incidərsə, sənə verdiyim kağızı ona göstərərsən. Bu həm də sənin partiya biletindir. Onlar ayrıldıqdan sonra Müseyib bəy adamlarını götürərək Gəncəyə üz tutur. Yevlax-Gəncə yolunda böyük bir sahədə biçilmiş taxıl zəmisinə rast gələndə qazalağı saxlatdırır və göstəriş verir ki, iki nəfər küləş toplasın, diğərlər isə zəminin içində bir xəndək qazsınlar. Yığılmış küləşi qazılmış xəndəyə tökdürür və qızıl alışqanı ilə ona od vurur. Sonda küləş külünün üstü torpaqla basdırılır və baş daşı yerinə "burada qatı bir bolşevik əclafı basdırılıb" sözləri yazılmış taxtanı qoyurlar və o ətrafındakı adamlara müraciətlə "gördünüz də, qaçmağa cəhd edən qatı bolşeviki öldürdük, yandırdıq və üstünü də torpaqladıq" deyir. Hamı Müseyib bəyin sözlərini təsdiqləyirlər. O, cibindən xeyli pul çıxarıb onları mükafatlandırır və yollarını davam edirlər. Gəncəyə çatdıqda isə iki nəfər polisi yanında götürərək qubernatorun yanına girir və əhvalatı yuxarıda qeyd edildiyi tərzdə şərh edir, yanındakı polisləri də şahid qismində təqdim edir. Sonra Şuşadan gətirdiyi qubernator "töhvəsini" də ona təqdim edir və xahiş edir ki, ona bir sənəd verilsin ki, həqiqətən M.C.Bağırovu Müseyib bəydən təhvil almışdır. Qubernator Şuşa polis idarə rəisinə öz imzası ilə bir sənəd verir və həm də göstəriş verir ki, Müseyib bəyin yoldakı bu şücaətinə görə onu mükafatlandırsınlar. Bu hadisə M.C.Bağırovla Müseyib bəyi çox yaxınlaşdırır. Yaxınlıq əlaməti olaraq M.C.Bağırov Müseyib bəyə bir qızıl cib saatı və bir ədəd də zərə tutulmuş gümüş qınlı xəncər bağışlayır. Deyilən dövrlərdə Azərbaycan hələ də gürcülər, farslar, ruslar və xüsusən də ermənilərlə ortaq məxrəcə tam gələ bilməmişdilər. Rus bolşeviklərlə erməni daşnak (üzdə bolşevik) qoşunları Azərbaycanı demək olar ki, işğal etmişdilər. Zəngəzurda, Şuşa və Şuşa ətrafı kəndlərdə, Laçının Gorusla, Qara göl, Minkənd, Xankəndi üstü Nərdivandağ erməni kəndləri ilə sərhəd torpaqlarda hələ də atışma davam edirdi. Digər tərəfədən də həm ermənilər və həm də ruslar tərəfindən bolşevikləri Yuxarı Qarabağa buraxmayan Sultan bəyə hər gün bir elçi, bir canlı və yazılı ultimatumlar göndərilirdi. Ermənilərin indiki Laçın şəhərinin aşağı hissəsində Zabux körpü-

sü deyilən yerdə ağır zərbə alması, Andranik silahlı qüvvələrinin məğlubiyyəti Sultan bəyə çox böyük şərəf və şöhrət gətirmişdi. Onu da qeyd edək ki, Azərbaycan insanlarının ermənilərlə döyüşündə ermənilərin bu miqyaslı 2-ci bir məğlubiyyəti olmamışdır. Bunun da səbəbi ermənilərin müəyyən məqamlardan istifadə ertmələri, xaricdən silah-sürsat, canlı qüvvə yardımları ilə bağlıdır. Yəni bizim məğlubiyyətlərimizin heç də ermənilərin döyüşkənliyinə aidiyyatı yoxdur. Andraniklə bu döyüşdə bütün Laçın əhalisi çox böyük birlik və həmrəlyik, vətənpərvərlik, ən başlıcası isə əsl milli qeyrət nümayiş etdirmişlər.Təbii ki, burada Araflı (Alaflı), Yal kəndi, Alıqulu, Bülövük, Sultanlar, Yenqıca, Beşbulaq, Dündül, Bağırbəyli və s. yaşayış məntəqəlrinin bəyləri daha çox öndə gedən olublar, hərəsi bir "əsgər" birliyinin başında dayanırdı. Bunun da səbəbi onların hamısının silah sahibi, imkan sahibi və silahdan yaxşı istifadə etmə qabiliyyətləri olmuşdur. Əhali Sultan bəyə nəyə gümanları gəlirdisə, onunla yardım etmişlər. Andranikə qarşı mübarizədə Paşa bəyin yanında məşvərət qrupunun səkkiz nəfərindən biri olan və hamıdan cavan olan Cəlil bəyin (Peterburqda təhsil almış) xanımı Qaratel xatunun 1958-ci ildə bir məclisdə dediyinə görə, o ailə Sultan bəyə Türkiyədən top almaq üçün bir ətək qızıl-gümüş vermişdir. Yəni, əhali eyni hava ilə nəfəs almış, hamının nəbzi vətən üçün eyni cürə döyünmüşdür. Mən deyərdim ki, Laçında 1988-1992-ci illərdə də həmin ab-hava hökm sürürdü, heyif ki...

Başda rus şovinist bolşevikləri, bolşevik paltarı geymiş daşnak ermənilər və bolşevik ideyasına inanmış siyasi savadsız Azərbaycan insanları birlikdə Yuxarı Qarabağda, Zəngəzurda, onun Laçın bölgəsində Sultan bəyi aradan götürmək qərarını verirlər. Bu, dağlarda, bu eldə asan iş deyildi və Laçının bir neçə adamlarını çıxmaq şərti ilə, digərləri bolşevizm nə olan bir məfkurədir bilmirdilər. Odur ki, həmişə olduğu kimi bizə qarşı hiyləyə əl atdılar. M.C.Bağırov Müseyib bəylə əlaqə saxlayacağına qərar verdi, adam göndərdi, hər cür yardıma və digər məsələləri boynuna çəkdi. Əlbəttə bu vədlərin içində hədə qorxu da var idi. Müseyib bəy seçim qarşısında qalmışdı. Hansı tərəfə üstünlük versəydi nəticəsi

eyni cür alınmalı idi. Onu da xatırlatmaq vacibdir ki, bolşevik qoşun növlərinin tərkibində olan millətlərin, hətta, Azərbaycana olan münasibətindən asılı olmayaraq bolşeviklər artıq işğal qüdrətində idilər. Hər bir bölgəmizə müdaxilə edə bilir, istədiyinə böyük qırğınlar bahasına olsa da, nail olurdu. Bu baxımdan Müseyib bəy ikibaşlı oyun oynamaq istədi və tərəddüdü uzun çəkdi, heç kimlə də məsləhətləşmədi, bir sözlə tək başına qərar verdi. O, fikirləşirdi ki, Sultan bəyi yaralamaqla bolşevikləri neytrallaşdırar. Sultan bəysə ya çıxıb gedər, yaxud ağsaqqal-qarasaqqalla barışıqlıq yaradar. Əlbəttə, bu çətin məsələ idi. Heç kimi güllə atandan sonra səni öldürmək fikrim olmayıb deməyə inam yaratmaq çətindir. Yaxşı olardı ki, Müseyib bəy elə Sultan bəyin özü ilə açıqdan-açığa danışıb,ikilikdə bir qərara gələydilər. Bu baş vermədi, Müseyib bəy Sultan bəyi yaraladı,həm də ağır yaraladı, baxmayaraq o, ürəyində bunu istəmirdi. Dərin yaralanmağın səbəbi isə Sultan bəyin oturduğu yerdə aşağı əyilməsi olmuşdur. O, çox əziyyət çəkdi, dağda, mağarada yaşadı, yaxşı dostların sayəsində müalicə olundu, nə bolşeviklərin və nə də ki, ermənilərin əlinə keçdi. Sultan bəy Müseyib bəyin bu hərəkətini və nə də ki, ermənilərin əlinə keçdi. Sultan bəy Müseyib bəyin bu hərəkətini ona qəsd kimi qiymətləndirdi və tədbirini də gördü. Müseyib bəyin Alıyanlı kəndində yaşayan dostlarını ələ aldı, onun aradan götürülməsinə qərar verdi. Sultan bəy qardaşı Xosrov bəylə artıq İrana keçmişdi, amma hərdənhərdən vətəninə məxvi yollarla gəlirdi, uzaq səfərə-Türkiyəyə gedəcəyindən bir çox işlərini, o cümlədən Müseyib bəy məsələsini də “yoluna” qoymaq istəyirdi və etdi də. Alıyanlıdan olan Müseyib bəyin dostları onun yanına gəlmədilər, ardınca harasa getmədilər, pusqu qurmadılar. Sadə bir məktub yazıb, onun içinə bir Quran ayəsi vərəqi qoyub, Müseyib bəyə bildirdilər ki, sən bu Quran durma tez bizə gəl səninlə bir vacib işimiz var. Əlbəttə, Müseyib bəy nə qədər sadəlöv insan olsa da məktubdan şübhələndi, çox ağıllı, təmkinli xalası oğlu olan Əvil bəylə məsləhətləşdi. Əvil (Evil) bəy o dəqiqə Müseyib bəyə bildirdi ki, səni çağırırlar öldürməyə, baxmayaraq ki, o, Müseyib bəyin Sultan bəyə güllə atdığını bilmirdi.

Müseyib bəy onda Əvil bəyin onunla getməsini istədi. Əvil bəy heç kimin və ya Müseyib bəyin kiminlə getməsinə qəti etiraz etdi. Müseyib bəy onu qorxaq adlandırdı. Əvil bəy isə cavabında bildirdi ki, "ağıllı igid külək əsəndə, ağacın yarpaqlarının xışıltısından da diksinməli, ehtiyat etməlidir..." Müseyib bəy bir neçə nəfərlə məsləhətləşsə də, hamı Əvil bəy dediyi qənaətdə idilər. Bərk əsəbiləşən Müseyib bəyə dəqiq atəş açma məsələsində heç kim çata bilmirdi, çox güclü və cəld idi, bir sözlə özünün gücünə, qüdrətinə özü də inanırdı, istənilən vəziyyətdə qorxu bilməz adam idi. Həm də onun ailəsi Quran oxuyan, oruc tutan, namaz qılan idilər, Allaha yetərincə sitayiş edirdilər. Müseyib bəy öz qüdrətinə inandığı kimi, getməməyi də Qurana hörmətsizlik kimi dəyərləndirirdi. Yəni üzbəüz heç kim Müseyib bəyə əl qaldırmağa cürət edə bilməzdi, heç bacara da bilməzdi. Amma, yolda təsadüf etdiyi köhnə tanışlarından birini Müseyib bəy özü ilə götürə bilir və onu məlumatlandırır, psixoloji hazırlayır. Qardaşlar Müseyib bəyi həmişəkindən daha da yaxşı qarşılayırlar, yeyib-içirlər, yatmaq məqamı gələndə Müseyib bəy yanındakı adamı başa salır ki, mənə bir saat yatmaq gərəkdir, silahımda yanımda olacaq. Bir saat sən yatma, silahın da əlində hazır olsun, bir saatdan sonra sən məni durğuzarsan, mən sənin qarovulunu çəkərəm, mən ayıq olanda heç kimin bizə əl qaldırmağa cürəti çata bilməz. Hərçənd ki, bu belə olmadı, qarovulda duranı yuxu tutdu və bunu izləyən qardaşlar öz adamları ilə birlikdə Müseyib bəyi, onun tanışını yatdıqları yerdə güllələdilər. Sonra gecə ikən meyitləri öz kəndlərindən kənarda – Şuşaya gedən yolun kənarında, hamının görə biləcəyi bir yerə atdılar.

Müseyib bəyin qətlə yetirilməsi çox böyük sürətlə hər yana, hətta Dağıstana, Gürcüstana, İrana, Qarabağa, Zəngəzura, Naxçıvana, İrəvana və s yerlərə yayılmışdı. Hadisəni İranda eşidən Sultan bəy bir az rahatlansa da, vətənindən, ailə üzvlərindən çox böyük nigarançılıqla Türkiyəyə üz tutdu. Sultan bəyin, Müseyib bəyin hər ikisinin vətənləri, ailələri, təsərrüfatları bolşeviklər tərəfindən min bir əzab-əziyyətə düçar oldu. Sultan bəyin nəyi var idisə, hamısı müsadirə olundu, məhv edildi, təhqir olundu. Bolşevizm eyfariyası çox güclü təbliğ edilir, doğma qardaşlar ayrı-ayrı ide-

oloji cəbhələrdə bir-birinə qarşı döyüşür, vuruşurdu. Sultan bəyin də ailə üzvləri hətta öz yaşadıqları yerdə qohumları tərəfindən təhqirlərə məruz qalırdı, ev-eşikləri dağıdılırdı. Sonralar Əvil bəy söyləyirmiş ki, Sultan bəyin Nağdalı deyilən (Sultan bəyin buradakı yaylaq yaşayış məskənləri, "Sves" adlı çoxlu mal-qarası əsasında əvvəlcə "Nağdalı" heyvandarlıq sovxozu yaradılmış, daha sonra isə ona Kirovun adını verməklə-Kirov adına maldarlıq sovxozu demişlər və bu sovxoz sovetlər 1991-ci ildə dağılana qədər fəaliyyətdə olmuşdur.) mülkündə bolşeviklər, hətta onların arasında olan Sultan bəyin nökər-naibləri də burada özlərini yaxşı aparmadığına və əndazələrini ötdüklərinə görə qeyrətim qəbul etmədi, oraya getməli oldum. Baxmayaraq ki, xalam oğlu Müseyib bəyi Sultan bəy öldürtmüşdür. Orada nə görsəm yaxşıdır, dünənki nökər-naiblər xəncərlərini yorğan-döşəyə, yastığa, mütəkkəyə soxaraq cırır və qu-quşunun tükləri aləmi bürümüşdü, ağız deyəni qulaq eşitmirdi, mənə də fikir verən yox idi. Çarəsiz qalıb havaya bir güllə atdım və dedim ki, ay bədbəxtlər, bu yastıqların günahı nədir?! Öz yastıqlarınızın içini samanla doldurursunuz, bundansa, bu yastıqları, yorğan-döşəkləri öz aranızda bölüşdürün. Bu sözdən sonra Sultan bəyin Nağdalıdakı ev əşyalarının üstündə dava-dalaş başlandı. Mən isə buradan uzaqlaşmağa üstünlük verdim.

Müseyib bəyin ölüm əhvalatı M.C.Bağırova çatanda o artıq "ÇK" deyilən qurumun rəhbəri idi. Bağırovun həmin dəqiqələrdə keçirdiyi hissləri başa düşmək çətin olsa da bu məsələ ilə bağlı onun gördüyü tədbirlər nəyi isə dərk etməyə imkan yaradır. Belə ki, Bağırov kifayət edəcək qədər "ÇK" silahlılarını seçdiyi gecələrin birində Alıyanlı kəndi ətrafında düzür. Onlara əmr edir ki, kəndə girənlərə və arvad-uşaqla işiniz olmasın. Amma, gözə görünən və kənddən çıxmaq istəyən hər bir kişi güllələnməlidir. Əmr verildiyi kimi icra edilir, Alıyanlıda xeyli kişi, günahı oldu-olmadı məhv edilir.

Mərkəz qaşısında məsələyə şərh verən Bağırov bəyin əsl bolşevik (biletsiz), əsl kommunist, əsl Leninçi və proletarların müdafiəçisi olduğunu bildirir, onun şəxsində çox böyük bir kommunisti itirdiklərini urək ağrısı ilə söyləyir. O, sözünün sonunda

qeyd edir ki, gərək bu kəndi tam məhv edəydik, lakin, biz dədə-babadan arvad-uşağa əl qaldırmağı özümüzə rəva bilməmişik. Hesab edirəm ki, elə burada oturanlar da mənimlə həmfikirdilər, baxmayaraq ki, Müseyib bəy kimi kommunistə də əl qaldıran, onunla bir süfrədə çörək yeyən, dostluq edən bu kişiləri həmin əl dəymədiyimiz qadınlar bu dünyaya gətirmişlər. Amma, Laçında Müseyib bəylə M.C.Bağırovun bu münasibətlərini demək olar ki, heç kim bilmirdi. Odur ki Müseyib bəyin ailəsi də bütün qohum-övladaları kimi çox pis günə qalmışdı, yaşayış yerləri tam məhv edilmişdi. Hətta sirf əkin-səpinlə, yaxud cüzi mal-qara təsərrüfatı ilə məşğul olan və bəy adını öz soy adının sonunda eşitməkdən, yaxud xeyir-şərə gedəndə, yeganə bəy paltarını əyninə keçirməkdən başqa heç nəyin sahibi olmayan bəylər də hədəfdə idilər. Qaçanlar qaçmış, tutulanlar tutulmuş, öldürülənlər öldürülmüş, digərləri bəyliyini danmış, hansının digər nəsillərlə qohumuqları varsa-oralı olduğunu sorğu-sualda bildirmiş, soy adlarını danmış, bir sözlə nəsl səcərələrindən etiraz etmişlər. Bəzən də torpaqlarını, heyvanlarını, mülklərini könüllü olaraq hökümətə, kolxoza verəndə belə, onları kolxoza götürməmişlər. Bu əziyyətlərə dözməyən Müseyib bəyin xanımı (Sultan bəyin qohumu) Xurşud xanım dünyasını dəyişəndə, iki kiçik yaşlı-Zeynəblə, Kamran kiçik bir daxmada yiyəsiz qalırlar. Müseyib bəyin ata qohumlarından olan Əbdülkərim bəy “ÇK”nın sorğu sualından iflic olub, yorğan döşək xəstəsi olmuşdur. Ona qulluq etməyə bir insanın gücü çatmırdı. Amma, qohum-övladı sağ olsunlar. Gündüz gələ bilməyənlər, gecə gəlib kişiyə baş çəkir, əlindən gələni edirlər. Zeynəblə Kamran da buraya gələr, Allah verəndən dadar, bəzən də elə burada da gecələyərdilər. Belə gecələrin birində uşaqlara yazığı gələn Əbdülkərim bəy və xanımı Əsli xanım arasında Müseyib bəylə Bağırovun əlaqəsindən qorxa-qorxa olsa da, söhbət gedir. Zeynəb böyük uşaq idi, özü də atası kimi qorxu nədi bilməzdi. Səhərisi gün evlərindən 2-3 km aralıda “Kiş pəyələri”adlanan yerdə yaşayan başqa bir qohumugilə gedir və bildirir ki, məni aparın M.C.Bağırovun yanına, mən ona bizim günahsız oldu-

ğumuzu deyəcəyəm. Qohumlar pərişan olsalar da Zeynəbə söz verirlər, havalar işıqkən qardaşının yanına qayıtmağı tövsiyə edirlər. Zeynəbdən sonra burada qərara alınır ki, M.C.Bağırova əhvalat haqda bir məktub yazsınlar və bəlkə də bu məktubu digər qohumlar üçün də xeyri oldu. Elə də edirlər. Araflıda qalan yeganə yazıb-oxumağı bacaran qohumun yanına gələrək Zeynəbin fikrini ona çatdırırlar. Həmin şəxs Zeynəbin adından uşaq xəttinə bənzər xətlə sadə bir məktub yazıb, Bağırovdan kömək istəyirlər və məktubu gecəynən gətirib Şuşadakı poçt məntəqəsinin qapısından asılmış qutuya atırlar. Bir müddətdən sonra Laçın rayon partiya təşlikatının katibi, polisi, icarəyə komitəsinin sədri xeyli ərzaq, pal-paltar və s. ilə gəlirlər. Bülövlük kəndində, kolxozun sədrini, komsomolu da oraya çağıtdırırlar. Yerindəcə uşaqların vəziyyəti ilə tanış olurlar, digər insanlarla söhbət aparırlar. Buradakı adamlar Laçının katibinə bildirirlər ki, bəylikdən heç kim və heç nə qalmayıb, burada qalanları da bir-bir yoxlaya bilərsiz. Yığışmış insanlar bir–bir özlərini təqdim edirlər ki, məsələn mən Piçənis kəndindənən, buraya gəlin gəlmişəm, özüm də yetimdaram, nə ərim qalıb, nə də ki, ərimin digər qohumları. Amma, bizi də bəy kimi tuturlar, incidirlər, heç bir əsas olmadan harasa uzaqlara göndərirlər. Kiçik yaşlı uşağın təşəbbüsü ilə və Bağırovun göstərişinə əsasən bu kənddə xeyli müddət əmin-amanlıq olur. Lakin, bu da uzun çəkmir. Ətraf yaşayış yerindəki insanların siyasi savadsızlığı və ya səviyyəsizliyi ucbatından orda-burda gizlənmiş bəyzadələrin əməyə qayıdışı onlara baha başa gəlir. Biri kolxozda biçin biçdiyi yerdən, digəri xırman döydüyü yerdən, başqa birisi isə gecələdiyi evdən sorğu-sualsız aparılmış, xüsusəndə oxumuşlar və bir daha ev-eşiklərinə dönməmişlər. Onu da deməliyik ki, söylədiyimiz axırıncı hadisədən sonra Laçında Müseyib bəylə Bağırovun münasibətləri hər yerə yayılır və Laçına yeni katib gələndə də Müseyib bəyin oğlu Kamran bəyə və qızı Zeynəb xanıma hər hansı qüsurlarına görə cəza verməkdən çəkinmişlər.

M.C.Bağırovu, Sultan bəyi və Müseyib bəyi ittiham etməyi isə buraxırıq oxucunun və zamanın səlahiyyətinə...

## QARABAĞIN GENERAL-QUBERNATORU

Qarabağ bütövlükdə, xüsusən də dağlıq əraziləri dünyanın möcüzəli bölgələrindən biridir. Cənublu-Şimallı Bütöv Azərbaycanın hər guşəsində olduğu kimi Qarabağda da insan yaşayışının bütün dövrləri yaşanmışdır. Xosrov bəy də belə bir torpağın yetişdirməsidir. Xosrov bəy çox kiçik yaşlarından evlərində-ailələrində gedən söhbətlərdən ən azı Zəngəzurda olan savadlı ailələr, bəylər, mülkədarlar və tanınmış din xadimləri haqqında gedən söhbətləri eşitmişdi. Sonra, təhsil aldı, mütəxəssis oldu, siyasi səhnədə seçilən şəxslərdən birinə çevrildi.

Bir məqamı xatırlatmaq yerinə düşər. XX əsrin əvvəllərində bütün Şərqdən, bir neçə qitələrdən öncə, Şimali Azərbaycanda qurulan Xalq Cümhuriyyətini quran insanlar əsilli-nəsilli insanlar olmaqla yanaşı, həm də yüksək mənəviyyatlı ziyalılar olmuşlar. Bunlardan biri də Xosrov bəy idi. Eyni zamanda Xosrov bəyi bu vətənpərvər insanlardan fərqləndirən cəhətlər də mövcud idi. Çünki o, Zəngəzurlu idi, onun bir guşəsi olan Hacısamlıdan idi. Bu insanlar ermənininin kimliyini, hansı xislətin sahibi olduqlarını yaxşı bilirdilər.

XX əsrin əvvəllərində Zəngəzurda Nəzər Heydərovun yazdığı kimi, həqiqətən də, daha çox tanınan üç Sultan bəy ailələri var idi.

Xosrov bəy Sultanovlar Əsəd Sultanlılar ilə həm qohum olmuşdular, həm də xoş münasibətdə idilər. əslində bu münasibəti Zəngəzurun Araflı bəyləri yaramışdılar. Fikri Araflıdan olan və Qara Murtuzanın törəmələrindən olan Süleyman bəy XIX əsrin sonlarında yazdığı "Bəyliyin tarixi" kitabında və yenə də həmin nəslin nümayəndəsi Alməmməd bəy Nəbibəyli "Dədəm Qorqud" (1991-ci il, 4-cü sayında) və "Azərbaycan" (№13(76), 30 mart

1991-ci il) qəzetlərində çap etdirmişlər. Sonralar Elnaz Xəlil qızı "7 gün" (23(64)), 20iyun 1992-ci il) qəzetində Sultan bəyin qızı Bəyim xanımla müsahibəsində və digər yazılarında bu fikri xatırlatmışdır. Təbii ki, Xosrov bəyin Murtuza bəyin törəmələri ilə də qohumluq əlaqələri olmasını təkcə Almәmməd bəy deyil, digər yazarlar da qələmə almışlar. Bu yazının müəllifi də (Z.N.) dörd kitabında və bir neçə elmi yazılarında Xosrov bəyin, Sultan bəyin, Paşa bəyin haqlarında və nəsl səcərləri haqqında xeyli maraqlı məlumatlar vermişdir.

Xosrov bəy gənc yaşlarında Şuşada, Gəncədə oxuyarkən Qarabağın ayrı-ayrı bölgələri, sərhədləri, adət-ənənələri, onun insanları, tarixi keçmişi ilə mütəmadi maraqlanmışdı. O, tarixçi olmasa da Azərbaycan tarixini, milli xüsusiyyətlərimizi bir çox ziyalılarımızdan daha yaxşı bilən əsl vətəndaş idi.

Xosrov bəy 1879-cu il martın 10-da Zəngəzur qəzasının Hacısamlı bölgəsində işıqlı dünyaya göz açmışdır. Odessada – Cəbrayıl bəyin qurtardığı Tibbi Universitetini Paşa bəyin tövsiyəsi ilə bitirmişdir.

Günümüzdə hamıya bəlli olduğu kimi AXC-nin ilk müdafiə naziri-general, AXC-nin ikinci kabinetində əkinçilik naziri, 1919-cu ilin 15 yanvarından 1920-ci ilin aprelin son günlərinə kimi Şuşada Qarabağın general-qubernatoru olmuşdur.

Xosrov bəyin Zəngəzuru, xüsusəndə Qarabağın ermənilərdən müdafiə edilməsində zəhməti heç də qardaşı Sultan bəydən az olmamışdır.

Belə ki, o, 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub edib. Bu işdə Zəngəzurun Araflı bəyləri ona daha çox yardımçı olmuşlar. 1919-cu ilin iyununda Azərbaycan Elmlər Akademiyasının Xəbərlər jurnalının verdiyi arxiv sənədlərinə görə Şuşaya ermənilərin silah gətirənləri və erməni Milli Şurasının üzvlərini həbs elətdirib. Burada da Xosrov bəyə Zəngəzurun qəza rəisi Camal bəy Sultanov, Laçının Araflı bəyləri, Haxnəzər kəndindən olanlar və müavini Çingiz İldırım etibarlı adamları kimi xeyli yardımçı olmuşlar.

Xosrov bəy, eyni zamanda müstəqilliyimizə, xalqımıza sədaqətli, hər kəsin dəyərini düzgün qiymətləndirməyi sevən bir şəxs olmuşdur.

Bütün çətinliklərə baxmayaraq o, vaxt tapıb, Əhməd Cavad şəxsiyyətinə və yaradıcılığına hörmət əlaməti olaraq şairin şeirlər kitabını da çap etdirmişdir.

Tarixi sənədlərə görə, 1919-cu il yanvarın 15-də Azərbaycan Demokratik Respublikası Hökumətində keçirilən iclasında əsas məsələ Zəngəzur və Qarabağda yaranmış ağır vəziyyət idi. Həm də hər iki bölgənin eyni qubernatorluğunun yaradılması məsələsi gündəmdə dururdu. Əsas səbəb Xosrov bəyin əslən Qarabağın Zəngəzur bölgəsindən olması, bölgələri yaxşı tanıması, ən əsası isə Xosrov bəyə dayaq dura biləcək qardaşı Sultan bəyin yuxarı Zəngəzurun Hacısamlı hissəsinin səlahiyyətli bəyi olması, onun xeyli silahlı dəstəsinin olması və silah-sursat, nizamlı-təcrübəli orduya malik daşnak-erməni generalı Andranikin qarşısında dayana bilməsi idi. İstər Yuxarı Qarabağdakı, istərsə də nisbətən Aşağı Qarabağdakı ermənilər havadarları olan ingilislərin, rusların, fransızların, ABŞ-ın və s. köməkliyi sayəsində azərbaycan hökumətinə tabe olmaq istəmirdilər. Ermənilər istəyirdilər ki, ilk növbədə Zəngəzurla Qarabağı, daha sonra Gəncəni ələ keçirməklə S.Şaumyan qüvvələri ilə birləşib ümumilikdə Şimali Azərbaycanın varlığına son qoymaqla "Dənizdən-dənizə" "Böyük Ermənistan" yaratsınlar. Zəngəzurda isə Zəngəzur qəzası üzrə orada ermənilərin törətdiyi faciələri araşdıran dövlət komisiyanın üzvü Mixaylovun yazdığı kimi Andranikin Türkiyədən, Rusiyadan, Ermənistandan, Zəngəzurdan, İrandan topladığı təcrübəli erməni qoşunları ilə Zəngəzurun 160 kəndini viran qoymuş, insanlara olmazın əzablar vermiş, insanların mal-mülkünü qamarlamışdı. Növbəti hədəf indiki Laçın bölgəsi idi.

AXC-i özünün həm 15, həm də 29 yanvar tarixli yığıncaqlarında Qarabağ general-qubernatorluğunun yaradılmasını və bu vəzifəyə Xosrov bəyin təyin edilməsinə yekdilliklə qərar vermişdir. Bu qərarla Xosrov bəy Sultanov Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl

inzibati ərazisinin rəhbəri, Çingiz İldırım isə onun müavini olmuşdur. Hər iki şəxs 1919-cu il fevralın 12-də quberniyanın mərkəzi olan Şuşa şəhərinə gəlmiş və özlərinin ilk müşavirəsini fevralın 15-də keçirmişlər. Bu yığıncaqda polis təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, qaçqınların öz torpaqlarında məskunlaşdırılması, əkin sahələrinin gücləndirilməsi, təhsil, tibbi işlər, poçt və teleqraf, hərbə çağrış və cari məsələlər diqqət mərkəzində olmuşdur.

Xosrov bəy öz fikrini bildirdikdən sonra müşavirədə Şuşanın qəza rəisi Abış bəy Qalabəyov, Zəngəzurun qəza rəisi Camal bəy Sultanov və Cavanşir qəzasının rəisi Bəhram bəy Məlik Abbasov və digərləri çıxış edərək mövcud vəziyyət, ondan çıxış yolları haqqında öz fikirlərini bildirdilər.

Zəngəzur qəzasının rəisi Camal bəy öz çıxışında qəzada olan ağır vəziyyəti, ABŞ-ın, İngiltərənin, Rusiyanın və sair ölkələrin Andranikə həm hərbi, həm pul, həm də ərzaq yardımlarından danışdı.

Qeyd edək ki, Xosrov bəyin bu vəzifəyə təyinatını ermənilər istəmirdi. Onun qardaşının da ermənilərə qarşı mübarizə etdiyini bilirdilər. Ona görə də erməni mətbuatı və xarici işlər nazirliyi bir çox dövlətlərə müraciət edib öz narahatçılıqlarını bildirirdilər. Hətta, onlar Qarabağ qubernatorluğunun ləğv olunması üçün xarici havadarlarından kömək istəyirdilər. Ermənilər Qarabağda İngilis qubernatorluğunun yaradılmasını xahiş edirdilər. Bununla əlaqədar AXC-nin Xarici Işlər Nazirliyi bir neçə nota vermiş və Qarabağın, Zəngəzur qəzasının qədim Azərbaycan-türk torpağı olduğunu bildirmişlər. Üç aprel 1919-cu il tarixində tarixi həqiqətlər qarşısında aciz qalan ingilis komandanlığı bəyanət verərək Andranikin qoşunlarının buradan çıxarılmalı olduğunu və Xosrov bəyin Qarabağın general-qubernatorluğunu qəbul etdiklərini bildirmişlər. Lakin, ingilislər günümüzdə olduğu kimi az sonra verdikləri bu bəyanatdan üz döndərmiş, erməniləri müdafiə edərək hər vəchlə bölgədə hakimiyyətin Erməni Milli Şurasına verilməsini və Xosrov bəyin vəzifəsindən uzaqlaşdırılmasını istəmişlər. AXC-nin Xarici İşlər Nazirliyi 25 iyun 1919-cu il tarixində Ermənistana Ədilxan

Ziyadxanovun imzası ilə 224 saylı nota vermişdir. Notada deyilir: – “Mən hökumətimiz adından, onun tapşırığı ilə sizə xəbərdarlıq edirəm ki, X.Sultanov Azərbaycan Respublikası hökumətinin 1919-cu il 15 yanvarında Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrail qəzalarının general-qubernatoru təyin edilmiş və o, aprel ayının 3-də rəsmən tanınmışdır. Ermənistan Respublikasının Hökumətinin X.Sultanovun fəaliyyətinə və göstərilən qəzalarda Azərbaycan qoşunlarının yerləşdirilməsinə qarşı etirazları, Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq sayılır. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun apardığı ciddi tədbirlər nəticəsində Şuşada qayda-qanun yaradılmış və həyat qismən normal ahəng almışdır. Xosrov bəyin rəhbərliyi və səlahiyyətində olan Zəngəzur qəzasında isə Andranik öz qoşunları ilə oturmuşdu, 160-dan artıq kəndi xarabazarlığa çevirmişdi, xarici ölkələrdən gətirilən erməniləri bu torpaqda məskunlaşdırırdılar. Həmin dövrdəki prosesləri ermənilər hazırda da eyni qaydalarla təkrarlayırlar. Xosrov bəyin elə bir silahlı qüvvəsi yox idi ki, Andraniki Zəngəzurdan çıxarsın. AXC-nin də belə bir imkanı yox idi ki, Xosrov bəyin tələbələrini yerinə yetirə bilsin. Ölkədə çox acınacaqlı vəziyyət hökm sürürdü. Zəngəzur məsələsində ancaq qardaşı Sultan bəy onun karına gəlirdi.

Xosrov bəy 2 aprel 1919-cu il tarixində və başqa-başqa vaxtlarda Nazirlər Şurasına ünvanladığı məktublarda yazırdı ki, son dərəcə ağır şərait yarandığı bir vaxtda hərbi hissələrin ona tabe olmaması daha ağır nəticələrə gətirib çıxaracaqdır. Səbəb isə zəruri məqamlarda o, hərbi qüvvələrə göstəriş verə bilmir və ya yaranmış vəziyyət barədə nazirlər şurası ilə, eləcə də müdafiə nazirliyi ilə ortaq məxrəcə gələ bilmirdi. Xosrov bəy hökumətdən tələb edirdi ki, ordu üzərində onun səlahiyyətləri olmalıdır və qubernatorluğun ərazisində olan hərbi qüvvələr onun göstərişləri ilə hərəkət etməlidirlər. Xosrov bəy onun tələbələri müsbət həll olunmadığı halda istefa verəcəyini də dilə gətirmişdi. O, “geciksək Zəngəzur və digər qəzaları itirə bilərik, Azərbaycanda hərc-mərclik yaranar” – demişdir.

Xosrov bəy rəhbərlik etdiyi bölgələrdə gedən prosesləri yaxşı dərk edir, ölkənin taleyini ermənilərdən və yadellilərdən xilas etmək üçün bütün mümkün vasitələrə əl atırdı.

Xosrov bəy çalışırdı ki, təxirə salınmadan hərbi hissələr Zəngəzura yeridilsin və İrəvandan Azərbaycan torpaqlarına ermənilərin hərbi yürüşlərinin qarşısı alınsın.

Xosrov bəy istəyirdi ki, Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycan hakimiyyətini tanımaq barədə ultimatum verilsin və onlara altı gün vaxt qoyulsun. Eyni zamanda bütün ermənilərə Azərbaycan bölgələrindən getməyi təklif etmək və ultimatum müddətində onlarla bütün əlaqələrin kəsiləcəyini bildirmək. Ultimatumu yalnız Şuşa şəhəri üçün bir istisna olaraq qəbul etmək nəzərdə tutulurdu. Xosrov bəy tələb edirdi ki, Azərbaycan hökuməti altı gün müddətində ermənilər tərəfindən tanınmazsa, yeddinci gün hərbi əməliyyatlara başlamaq və bunun məsuliyyətinin tam olaraq erməni əhalisi rəhbərlərinin üzərinə düşəcəyini bildirmək gərəkdir.

X.Sultanov general-qubernator kimi fəaliyyətə başlayarkən yaranmış vəziyyətlə əlaqədar bildirmişdir ki, öz həyatını xalqının azadlığına, Azərbaycan torpaqlarının bütövlüyünə qurban verməyə hazır olan bir dövlət adam kimi, ancaq qanun və ədalətə xidmət edəcəkdir. Bu bölgədə olan hakimiyyət Azərbaycana məxsusdur və hər kəs milliyyətindən asılı olmayaraq bərabərdir, qanunlara tabe olmayanları isə ciddi cəza gözləyir.

Xosrov bəyin Baş Nazir N.Yusifbəyliyə göndərdiyi məktubunda yazır: - “.... Ermənilərin hərəkətlərindən görünür ki, onlar hücum üçün hazırdırlar. Ona görə xahiş edirəm hərbi nazirə göstəriş verərsiniz ki, hərbi çağırışdan əvvəl əsgərlərin geyim hazırlığı olsun. Yerli batalyonda ayaqqabı və geyim çatışmamazlığından narazılıqlar olduğundan mən dünən işə qarışmalı oldum, əks halda bu ciddi xarakter alardı. Hələlik qəzaların dördündə də sakitlikdir. Onu da deyim ki, vəd olunmuş patronları da almamışam”. Xosrov bəy öz vəzifəsinə çox ciddi yanaşır, heç nədən geri çəkilmirdi. Şuşa şəhərinin özündə ermənilər atışmadan əl çəkmirdilər. Özləri

də hamılıqla silahlı idilər. General-qubernatorun tapşırığına məhəl qoymayan ermənilər üçün o, demişdir: "...Bundan sonra atışma bir daha təkrar olarsa, erməni Milli Şurasının üzvləri Şuşadan sürgün edilsin, əks təqdirdə zor tətbiq etmək məcburiyyətində olacam" ... Xosrov bəyin bu fikrindən sonra ingilislər erməni Abetisyanı, Tumanyansı və İşxanyanı nəinki Şuşadan, eyni zamanda Azərbaycandan sürgün etdilər. Bu məsələdən sonra da ermənilər Xosrov bəydən beynəlxalq təşkilatlara şikayət etməyə başlayırlar. Xosrov bəyin ciddi cəhdi, Andranikin silahlı qüvvələrinin Sultan bəy tərəfindən Laçın bölgəsinin zabux dərəsində məhvi yuxarı Qarabağda nisbətən sakitlik yaratmağa imkan yaradır və erməni əhalisi Azərbaycan hökumətini tanımağa qərar verməyə məcbur olurlar. Ümumilikdə erməni insanları ancaq güc qarşısında təslim olurlar. 1919-cu ilin avqust ayında Qarabağ erməniləri yığıncaq keçirir və Azərbaycan hökumətinə tabe olurlar. 23 noyabr 1919-cu ildə isə ABŞ nümayəndələrinin təşəbbüsü və vasitəçiliyi ilə münaqişələrə son qoyulmasına dair Azərbaycan və Ermənistan arasında müqavilə imzalanır. Müqavilə bağlamalarına baxmayaraq bu imza mərasimindən az sonra ermənilər Zəngəzurda və Qarabağda azərbaycanlılar yaşayan kəndlərə hücumlar edirlər. Ona görə də Xosrov bəy 1919-cu ilin dekabr ayında bir neçə dəfə Azərbaycan hökumətinə, Azərbaycan Xarici İşlər Nazirliyinə bu barədə məlumat verməklə yanaşı, kömək də istəmişdir. Hətta, böyük qüvvə mümkün olmasa, heç olmasa Zəngəzurda azərbaycanlıları müdafiə üçün onun sərəncamına Qaryagin (Füzuli) bölgəsində yerləşən 600 türk əsgəri ilə birlikdə iki pilamyotla üç nəfər zabit verilsin. Bu müraciət yerinə yetirilmədiyindən Xosrov bəy 1919-cu il dekabrın sonlarında Azərbaycan hökumətindən tutduğu vəzifəsindən azad olunması haqqında xahiş etmişdir.

Xosrov bəy çox böyük vətənsevər olaraq təkcə Qarabağın ona tabe olan torpaqlarında deyil, ermənilərə qarşı başqa bölgələrimizdə də mübarizə aparan insanlarımıza yardımçı olmuşdur. Bunun bariz nümunəsi olaraq Göyçə, Basarkeçər və Kəlbəcərdə eyni zamanda baş verən və bir-biri ilə əlaqəli olan bir erməni vəhşiliyini

misal gətirmək olar. Məlum olduğu kimi ermənilər Birinci Dünya müharibəsi illərində Osmanlı Türkiyəsində və Şimallı-Cənublu bütün Azərbaycanda, xüsusəndə Qərbi Azərbaycanda, Yuxarı Qarabağda, Zəngəzurda daha çox, daha uzunmüddətli və daha çox faciəvi qırğınlar törətmişlər.

Xosrov bəy və Sultan bəy qardaşlarının, Araflı, Alıqulu bəylərinin, ümumiyyətlə Laçın bölgəsi insanlarının ermənilərlə mübarizə tariximizdə Azərbaycan dövləti qarşısındakı xidmətləri misilsizdir.

Məlum olduğu kimi Laçın, Kəlbəcər, Basarkeçər, Göyçə mahalları Qərbi Azərbaycan torpaqlarının bir hissəsi olmaqla bir-birlərinə söykənən vəziyyətdədirlər. Sultan bəy də təkcə Laçının müdafiəsi ilə məşğul deyildi. Adı çəkilən bölgələrə də yardımçı olurdu. Andraniklə yanaşı, digər erməni generalı Silikov Türkiyədə döyüşmüş erməni hərbiçilərdən ibarət çoxsaylı erməni ordusu ilə Göyçəyə, Basarkeçərə, Kəlbəcərə, indiki Laçın bölgəsinin şimal hissəsinə tez-tez basqınlar etməklə Aran Qarabağa girmək istəyirdilər. Sultan bəy də imkanı çərçivəsində bu bölgələrə hərbi yardımlar edirdi. Ermənilərin növbəti basqılarının birində ermənilərin Göyçəni məhv edərək Basarkeçərə üz tutduqlarını Sultan bəyə çatdırırlar. Kəlbəcərli Məşədi Cəmil ilə Sultan bəy yaxın idilər. Məşədi Cəmilin məlumatı əsasında Sultan bəy Kəlbəcəri müdafiə edərək, Basarkeçərə istiqamət götürür. Zimistan Həsənovun, Məhəmməd Nərimanoğlunun və Elburus Şahmarın yazdıqlarına görə 5 aprel 1918-ci il tarixində ermənilərin deyilən bölgələrdəki hücumlarının qarşısını almaq üçün Sultan bəyin bir dəstəsi Hacısamlıdan Kəlbəcərə doğru hərəkətə başladı. Onu da qeyd edək ki, bu tarixdə Xosrov bəy Qarabağa general-qubernator təyin olunmamışdı, Andranik aşağı Zəngəzurda bütün bölgəni məhv etmişdi, Şuşada, Əsgəranda, Füzulidə erməni silahlıları tüğyan edirdilər və Zəngəzurla – Andraniklə birləşmək istəyirdilər. Bütün bunlara baxmayaraq Sultan bəy ilk olaraq Kəlbəcərin Zar-Zəylik kəndinə gələrək yerli əhalini cəm etmiş, onları silah-sursatla təchiz etmişdir. Sonra o, Göyçə tərəfə üz tutur, Basarkeçəri

ermənilərdən təmizləmək istəyir. Sultan bəyin gəlişini ermənilərə xəbər verirlər. Zod kəndində ermənilərin çox olduğunu bilən Sultan bəy onları ilk olaraq məhv etmək istəsə də Zod əhalisinin başbilənləri buna yol verməк istəmirlər, qantökmə tərəfdarları olmurlar. Sultan bəy onları başa salır ki, gələcəkdə basarkeçər erməni quldurlarının hücumuna məruz qala bilər. 4 may 1918-ci ildə bu bölgədəki ermənilər əlavə olaraq Andranikdən yardım almaqla bu bölgənin kəndlərinə eyni zamanda hücum etməklə müdafiəsiz kəndləri yandırır, əhalisini məhv edirlər. Sultan bəy haqlı olur. Bölgənin Kəvər, Bayazut, Gözəldərə, Haçalı, Yarpızlı, Əzizli, Tüsgülü, Yuxarı Zağa, Aşağı Zağa, Kərkibaş, Qanlı, Qırxbulaq, Aşağı Məzrə, Yuxarı Məzrə, Daşkənd, Aşağı Sorca, Yuxarı Sorca, Sarıyaqub, Qayabaşı, Zərkənd, Ağkimsə, Tənbeh, Nərimanlı, Ağyoxuş, Qaraqoyunlu, Göysu, Canəhməd, İnəkdağı, Şişqaya, Sorcasu, Toxluca, Zod və s. qırxa yaxın kəndləri ermənilər darmadağın etdilər, əhalisi eybəcər üsullarla məhv edildi. 1918-ci ilin qışında isə ermənilər Kəlbəcərin şimal hissəsində yerləşən Göycənin 32 kəndinin əhalisini qışın çovğununda öz ev-eşiklərindən qovaraq Kəlbəcər tərəfə istiqamətləndirməklə kəlbəcərliləri də vahiməyə salmaq istədilər. Bu insanların əksəriyyəti sonralar sümüklü dərə adlanan və Dikyurd və Söyüdlü yaylaqlarına yaxın olan bir dərədə məhv edildi. Burada 20 minə yaxın Göyçəli həyatları ilə vidalaşmalı oldular.

Yenidən bu bölgələri müdafiə üçün gələn Sultan bəy xeyli səy göstərsə də qardaşı Xosrov bəyin Məşədi Cəmilə yardımı məsələni bölgə insanlarının xeyrinə həll etdi.

Belə ki, Xosrov bəyə 14 qatır yükü yağ-bal gətirən Məşədi Cəmilə o, xeyli silah-sursat verir və yağla-balın dəyərini isə pulla ödəyərək, bu pulları insanların özlərinə paylamağı tapşırır. Yardım alan Məşədi Cəmil Xosrov bəyin fikirlərinə əməl etməklə və Sultan bəydən aldığı yardımla birləşdirməklə, yerli əhalinin gücünə ermənilərin hücumlarının qarşısını ala bilir.

Sağ qalan göyçəlilərin öz yerlərinə qaytarılması və ermənilərə layiq olduqları cavabı alması yolunda XVIII əsrin ortalarında

Zəngəzurun Sultanı olmuş Qara Murtuza bəyin Laçın bölgəsindən gələrək Kəlbəcərdə məskunlaşan törəmələrinin də zəhməti çox olmuşdur. Onlar Laçında yaşadıqları kəndlərin adlarını da Kəlbəcərdə yaşadıqları yurdlarına vermişlər. Bunlardan Bəylik, Keştək, Qoturlu, Qılınclı, Kiş, Qaraçənli, Bağırbəyli və s. yaşayış məntəqələrini misal göstərə bilərik. Bu insanların vətənpərvərliyi nəticəsində, Xosrov bəyin yardımı sayəsində həmin ildə də ermənilər Göyçənin bütün müsəlman kəndlərindən qovulur və erməni generalı Silikov Basarkeçər bölgəsinin Qumlu bulaq adlanan yerində keştəkli döyüşçüləri tərəfindən öldürülür və sağ qalan göyçəlilər öz kəndlərinə dönürlər.

Xosrov bəyin Vətən qarşısındakı xidmətləri söylənilənlərlə bitmir. O, 1920-ci il 28 aprel bolşevik işğalından sonra da 1923-cü ilə kimi Azərbaycanda yaşamışdır. Xosrov bəy Azərbaycanlı bolşeviklərdən xeylisi ilə tanış olsa da onun Azərbaycanda qalması mümkün olmur, yaxşı ki, bu belə də olur. Ermənilərin təşkilatçılığı ilə Qarabağdan 70 erməni qadını adından mərkəzə şikayət edilərək bildiririk ki, guya Xosrov bəy bu erməni qadınları ilə yaxın olmuşdur.

Təbii ki, Xosrov bəyə başqa bir nöqsan tapa bilmirdilər. Çünki, Xosrov bəy Qarabağın erməni əhalisinə də çox humanistcəsinə yanaşmışdır və erməni qadınlarına salam verməyə nə onun vaxtı, nə həvəsi və nədə ki, mənəvi imkanı yox idi.

Xosrov bəyi həbs edirlər, Bakıya gətirirlər. Onun azad edilməsində qardaşı Sultan bəyin dostları, Xosrov bəyin öz dostları, qardaşı – neftçi Rüstəm bəyin, Rüstəm bəylə birlikdə Bakıda neft sənayesi sayəsində işləmiş, ailənin yaxını və qohumluq əlaqəsi olan Cəlil bəyin böyük zəhməti olmuşdur. Xosrov bəyi Bakıdan müxtəlif yollarla Laçına aparan xeyli insanlar arasında Kişdən olan Mikayıl oğlu Rüstəm bəy onu Bakıdan Hacısamlıya qədər müşayiət edənlərdəndir.

Xosrov bəy ixtisasca həkim olsa da, çox uzaqgörən siyasətçi, vətənpərvər, dövlətini və xalqını sevən bir şəxs olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti yerini bolşeviklərə verəndən sonra bir çox narahatçılıq məqamları olsa da, Sultan bəy vətəni tərk

etmək fikrində olmamışdır. Onun əksinə olaraq Xosrov bəy Bakının Bayıl türməsində yatdığı zaman qardaşı Sultan bəyə xəbər göndərmişdir ki, Azərbaycanı tərk etsin. Sultan bəy isə, əlbəttə istəmiş olsaydı belə, Xosrov bəyi qoyub getməzdi. Belə də oldu. Lakin, Xosrov bəy Laçına gəldikdən sonra getməyin vacib olduğunu hər ikisi dərk etdi. Bununla yanaşı, qardaşların hər ikisi hesab edirdilər ki, bu hakimiyyət möhkəmlənə bilməyəcək və yerini təzədən AXC-nə verəcəkdir. Odur ki, Sultan bəy ailəsini özü ilə aparmadı. Digər tərəfdən o vaxtın psixologiyası belə idi ki, heç kəs arvad-uşağa toxunmaz. Belə işlər kişiliyə sığmaz. Bu fikirlə Xosrov bəy Sultan bəylə Azərbaycanı tərk edərək, böyük bir ürək ağrısı ilə 1923-cü ildə Cənubi Azərbaycana keçdilər. Orada da hiss etdilər ki, qardaşları nə ermənilər, nədə ki, farslar rahat buraxmayacaqlar. Hər iki qardaş İrandan Türkiyəyə getmək məcburiyyəti qarşısında qalırlar. Cümhuriyyət tarixindən məlum olduğu kimi, Xosrov bəy "Itdihad" partiyasının rəhbərliyində ikinci şəxs idi. Xosrov bəy Cümhuriyyətin bərpası yolunda bu partiya vasitəsi ilə siyasi fəaliyyətini İranda, Türkiyədə və Avropanın bir sıra ölkələrində özəklər yaradaraq işini davam etdirməkdə idi.

İkinci Dünya müharibəsi illərində Xosrov bəyin siyasi fəaliyyəti daha da güclü və qələbənin yaxın olması iddiasında idi. Həqiqətən də Almaniyanın Rusiyaya qalib gəlməsi halında bu daha da inandırıcı görünürdü. Almanların qələbələri bütün siyasi mühacirlərdə olduğu kimi, Xosrov bəyə də böyük ilhamlar verirdi və o, fəaliyyətini daha da genişləndirmişdi. Bu fəaliyyətlərdən biri də bu yazının müəllifinin atası İsrafil bəyin Avropada, xüsusən də Almaniyada SSRİ-ni təmsil edərkən Xosrov bəylə tanışlığı və qarşılıqlı fəaliyyətləri olmuşdur. Onu da qeyd edim ki, İsrafil bəyin fəaliyyəti haqqında Dövlət Təhlükəsizlik Nazirliyinin "Sərhəd" qəzetində onun xidmətləri haqqında iki yazı verilmişdir. İsrafil bəyin Xosrov bəylə və M.Ə.Rəsulzadə ilə İkinci Dünya müharibəsi getdiyi dövrdə tanış olmaları barəsində "Son Söz" qəzetində də (3-10 aprel 1999-cu il) yazı verilmişdir. Həmin dərci tam olmasa da burada vermək həm Xosrov bəy və həm də İsrafil

bəy ruhu qarşısında bir borc hesab edirəm. Yazı, sırf danışıq qaydasında danışıldığı tərzdə olduğu kimi qələmə alınmışdır.

Z.Nəbibəylinin "Xosrov bəy həmvətənlərimizin xilaskarı kimi" yazısında Azərbaycan Respublikası öz müstəqilliyini 2-ci dəfə elan etmək ərəfəsində idi. Ermənilər Qazax və Laçın bölgələrində sərhədlərimizi tez-tez pozur, atəş açırdılar. Laçın dəhlizinə rus əsgərləri nəzarət edirdi. Laçında yerli əhali ilə rus əsgərləri arasında narazılıqlar əmələ gəlmiş, yerli özünümüdafiə dəstəsi yaranmış və get-gedə bu dəstə möhkəmlənməkdə idi. Mən də tez-tez Laçınla əlaqə saxlayır, get-gəl edirdim. Laçın əhalisi çox fəallıq göstərirdilərsə də, buna mərkəzdə o qədər də əhəmiyyət vermirdilər. Yerli özünümüdafiə batalyonu inkişaf edərək rus ordusundan qabağa getmişdi. Dəstədə çox böyük ruh yüksəkliyi, vətənpərvərlik, döyüşkənlik, nizam-intizam, səliqə-sahman hökm sürürdü. Amma, bununla yanaşı batalyonun silaha, paltara, bütövlükdə hərbi sursata böyük ehtiyacı var idi.

Belə çətinliklərin hökm sürdüyü günlərin birində Laçın özünümüdafiə batalyonundan Bakıya xəbər gəldi ki, filan-filan şeylərə çox böyük ehtiyac var, Bakıdan kömək gəlməsə Laçında vəziyyət ağırlaşa bilər. Bakıdakı, Sumqayıtdakı əslən Laçınlı ziyalılar və digər vətənpərvər insanlar imkanları daxilində kömək etməyə çalışırdılar. Lakin, bu insanların maliyyə çətinliyi də kifayət qədər idi. Biz əlimizdən gələn hər cür köməkliyi edir, sən-mən, siz-biz söhbəti etmirdik. Kimin əlindən nə gəlirdisə onu da edirdi. Lakin, özünümüdafiə batalyonunun bu dəfəki çağırışına fəallıqla girişib xeyli iş görsək də aldığımız sursatlara pulumuz çatmırdı. Kimin üstündə, evində, dostunda, tanışında nəyi var idisə, hamısını bir yerə yığsaq da yenə də lazım olanı ödəmirdi. Birdən yadıma düşdü ki, atam İsrafil bəyin bir neçə aylıq təqaüdünü qabaqcadan almaq olar. Üz tutdum kişinin yanına, ondan da əvvəl poçtdakı tanışımla onun təqaüdünün verilməsinin mümkünlüyünü razılaşdıq, – bir şərtlə təqaüdü kişi özü qol çəkib almalı idi.

Məsələnin məğzini qısaca da olsa İsrafil bəyə çatdıra bildim. O, cavabında – "ə, bala, nə vaxtdan mən sənin əlinin üstünə əl

qoymuşam?" belə işlərə lazım gələrsə, kişi evini-malınıda satıb ödəməlidir. Mənim o ayaqqabılarımı ver mənə, kömək elə gedək. Kişi nasaz idi, amma dinməz-söyləməz mənimlə getdi və pulu alıb verdi. Bu pulun məbləği bir şey olmasa da, çox karımıza gəldi və lazımi şeyləri alıb Laçına, Arif Paşayevə göndərə bildik.

İşimizdə olduğu kimi, evimizdə də bütün söhbətlər erməni-azərbaycan, rus-azərbaycan, yer-yurd, haqq-nahaq söhbətləri idi.

Evdə adamların az olduğu bir məqamda kişi dedi (mən onu beləcə çağırırdım) – "hə, bu xəmir hələ çox su aparacaqdır, dünya müharibəsi yadıma düşdü, Allah sənə rəhmət eləsin Xosrov". Kişi, Xosrov kimdir, – dedim. Paşa bəyin oğlu Xosrov bəyi deyirəm. Kişi, o haradan sənin xəyalına gəldi. Qardaş (o, məni qardaş, balaca qardaş çağırardı) cavanlığım yardıma düşdü, mən onunla Avropanın ayrı-ayrı ölkələrində, şəhərlərində görüşmüşəm, müharibənin qızğın çağında, almanların fanat vaxtında. Kişi, bu söhbətləri heç mənə deməmisən. Necə deyəydim, ay bala, elə özümdən çox səndən qorxurdum, bir də kişinin ağzı nə qədər möhkəm olsa, bir o qədər yaxşıdır.

Beləcə söhbət uzandı və kişidən bilmədiyim bəzi məsələləri öyrəndim.

Söhbətin qısa məzmunu belə idi ki, İsrafil bəy tez erkən komsomola qəbul olunmuş, komsomol fəalı olduğundan da öz könlü ilə vaxtından əvvəl əsgərliyə getmiş, Leninqradda xidmət etmiş, yaxşı əsgəri xidmətə görə elə oradaca xüsusi təyinatlı məktəbə getmiş, elə kursantlıqdan Rus-Fin müharibəsinə göndərilmiş, orada yaralandıqdan sonra öz oxuduğu məktəbə qaytarılmış, vaxtından əvvəl zabit çini almış və yoldaşlarından xeyli qabağa çıxa bilmişdi. Xüsusi məktəbdə xüsusi dil – alman dili də öyrədirdilər.

Boy-buxunum, bayavoyluğum, yaralanmağım və alman dilini yaxşı öyrənməyim bir növ başıma bəla oldu. Məni xüsusi məktəbin xüsusi institutuna göndərdilər. Yorulmaq bilmirdim, fiziki normaları, silahlardan istifadə və "Avropa qaydası"nı çox dəqiq yerinə yetirə bilirdim. Arada, elə oxuya-oxuya Ukraynaya hərbi təlim təcrübəsinə göndərildim və çox yaxşı zəmanətlə geri qayıtdım. Elə bu da mənim

Avropaya göndərilməmin axırıncı etapı imiş. Xeyli adam idik, əksəriyyəti bir-birini tanımırdı. Elə bir nəqliyyat növü olmadı ki, bizi ona mindirməsinlər, hər bir adamla ayrıca məşğul olur, təlim keçirdilər. Biznən olan söhbətləri heç kimə açmamaq məqsədi ilə "xüsusi formaya" qol çəkmişdim. 25 il müddətində mənimlə olan söhbətləri hər kimə açsaydım, məhkəməyə ehtiyac yox idi, əlli-ayaqlı getməli idim, amma mən 50 ildir susmuşam və təbii ki, bundan sonra da deməRəm. Bir məqamı isə deyəcəm, sən də bilsən yaxşıdır, lazım olar.

O dövrdə Avropada demək olar ki, hamı alman dilində danışırdı, hətta incə dilli fransızlar da.

Kişinin "dili" açılmışdı. Məəttəl qalmışdım. Fikirləşirdim ki, ayə, bu kişi nələrə qadir imiş, deməli "solaxay" İsrafilin solaxaylıq sirri bu imiş / o, çəngəli sol əli ilə tuturdu, məclislərdə isə çalışırdı sağ əlində tutsun, yaxud əli ilə yesin/.

Mənə ayrılmış marşurutların hamısına baş çəkmişdim, işlərim səhmanda idi, fədakarcasına işləyirdim. Xəbər gəldi ki, alman düşərgələrindən, orada olan vəziyyətdən, "satqınlardan" məlumat toplayım. Bu minvalla doğma işimə bir işdə əlavə olundu. Bu gün alman düşərgələri haqqında məlumat dünyada bəllidi. Lakin, elə məqamlar var ki, gərək özün şahidi olasan. Almanlara çox böyük hörmətim olsa da, faşistlər elə doğrudan da faşist idilər, bircə ermənilərdən geri qalırdılar. Düşərgələrdə hər cür əzablar verilsə də, alman səliqə-sahmanı hər yerdə hökm sürürdü, onu pozmaq heç bir almanın ağlına da gəlmirdi. Düşərgələrdə ruslardan çox digər millətlərin oğulları var idi, Orta Asiya, Qafqaz, Ukrayna. Nədənsə, almanlar ukraynalılara nisbətən diqqətli idilər. Amma, əvvəlcə onu sübut etmək gərəkdi. Elə bil bütün türkdilli xalqları Rusiyadan seçib bu düşərgələrə doldurmuşdular. Bu əhalinin əksəriyyəti dil bilmirdi və savadsız idilər, siyasətdən başları çıxmırdı.

Yəhudilər özlərini gizlətməyə çalışsalar da mümkün olmurdu, onları "satırdılar". Satqınlıq əsasən ruslara, ermənilərə aid idi, bəziləri də bilməməzlikdən "satqınlıq" edirdilər.

Hətta, ermənilər erməni olduqlarını sübuta yetirmək üçün Amerikada, Fransada olan məşhur ermənilərin adlarını çəkər, bu

kara gəlməyəndə şalvarlarını açıb sünnətsiz olduqlarını göstərməyə çalışırdılar.

Müsəlman əsgərlər də isə heç bir sübuta çalışqanlıq yox idi. Mənə məlum oldu ki, sünnətlə bağlı azərbaycanlıları və müsəlman əsgərləri yəhudi kimi düşərgələrdən seçib aparıb məhv edirlər. Hətta, əsir düşmüş sovet əsgərlərinin birinin başqasından xoşu gəlməyəndə, xüsusən qarabuğdayı insanları yəhudi kimi – alman zabitlərinə çatdırırdılar. Çoxlu miqdarda əsgərlər yəhudi millətinin nümayəndəsi kimi məhv edilirdi. Məlumatı aidiyyatı məntəqələrə ötürsək də nəticəsi olmamışdı, cavan-cavan insanlar məhv olurdu.

Adətən, Türkiyə ilə bağlı məsələlərdə mən iştirak etmirdim. Səbəbini bildirdim, sadəcə üstümə götürmürdüm, götürməkdə olmazdı. Buna baxmayaraq eşitmişdim ki, almanlar qalib gələrlərsə, Azərbaycana Rəsulzadə adlı bir nəfər rəhbər göndərilməlidi. Onun kimliyini, nəçiliyini aydınlaşdıranda bütün məsələlər gün kimi mənə aydın oldu. Mən onu axtarırdım, görüşməyə də ürək etmirdim.

Növbəti tapşırıqda bizə rəhbərlik edən və təlimat verən, bizlərə oxşayan bir şəxs idi və o, məni onunla qalmağı təklif etdi. Biz bir-birimizlə yaxınlaşdıq. O, ukraynalı idi, səmimi adam olsa da tərsliyi vardı. Mənə əvvəlcədən heç bir məlumat vermədən bir qrup adamla görüşə aparmışdı. Söhbətdən məlum oldu ki, bu adamlar Sovetlərə qulluq edirlər və almanlardan, türklərdən məlumatlar toplayırlar.

Görüşlərin birində bunlardan bir-birilə azərbaycanca danışığın şahidi oldum və ukraynalı söhbəti yazdığından, mən bir də diqqətlə sözlərə fikir verdim. Beləliklə, mən birbaşa bunlarla əlaqə saxladım.

Bir çox məlumatları onlar əvvəlcə mənə verir, saf-çürük etdikdən sonra meydana çıxarırdıq. Bir-birimizə inam yaranmışdı. Mən onlara azərbaycanlıların, müsəlmanların yəhudi adı ilə məhvi məsələsini söylədim. Onlar da çox təlaş keçirdilər. Elə o, gündən də bu yolda fəaliyyətə birgə başladıq. Çox canfəşanlıqdan, çətinlikdən sonra onlara – Məmməd Əmin Rəsulzadəni istiqamət verdim. Bu insanların fikirləri mənimki kimi tamam çevrilmişdi. İndi biz nə olursa-olsun, insanlarımızı xilas etməli idik. Dostlar

bütün Avropanı, Türkiyəni bir-birinə vurduqdan sonra Məmməd Əmin Rəsulzadəni tapıb mənim qoyduğum məsələni ona çatdırmışdılar. Məmməd Əmin Rəsulzadə ilə məni görüşdürmək fikrinə də gəlmiş və ondan razılıq almışdılar. Mən isə razılıq vermədim, zamana ehtiyacı var dedim. Bu səbəbdən də Məmməd əmin Rəsulzadə mənim Azərbaycanın hansı bölgəsindən olmağımı araмış və mənə bəraət qazandırmışdı. Bir müddət keçdikdən sonra həmin əlaqələndiricilər mənə general qohumunu tapmışıq dedilər və bizi görüşdürdülər. Əlbəttə, görüşdük, amma generalı tanımadım. Həmsöhbətim yerd-yurd adlarını, özünün və mənim adlı-sanlı qohumlarımın adını çəkdikdən sonra və gözünün birindəki şəkki gördükdən sonra onu tanıdım. İkimiz də ayağa durub qucaqlaşdıq və Xosrov bəy, sizi xoş gördük, – dedim. Yaşlı görünsə də sifətdən çox təravətli idi. Azərbaycanca təmiz danışa bilmirdi, türk, alman və fransız dillərində yaxşı danışırdı, xalq aforizmlərindən istifadə edirdi. Alman dilini nə gözəl bilirsən, qardaşoğlu, o dağlar hara, alman hara – deyə mənə mürciət etdi. Kənd – kəsəklə, Hacısamlı, Şuşa, Azərbaycan, Sovet quruluşu barədə, xüsusən Stalin, M.Bağırov və ermənilər barəsində olan suallarının ardı-arası kəsilmirdi. Hər görüşdə də bu qəbildən olan suallar təkrar olurdu. Adımı çəkmirdi, “qardaşoğlu” çağırırdı məni.

Mən Almaniyada, onun hüdudlarından kənarda olan azərbaycanlı və Sovet əsirləri haqqında Xosrov bəyə, onun təsəvvür edə bilməyəcəyi məlumatlar verdim. Amma, bütövlükdə birinci məsələ əsirlikdə olan Azərbaycan və islam əsgərlərinin taleyi, onların yəhudi adı ilə məhv olunmalarından xilas olmalarını qoydum. Xosrov bəy Avropanı yaxşı tanısa da, çox dost və tanışları olsa da, ilk vaxtlar heç nə edə bilmirdi, çox əsəbiləşirdi. Mən onun fikrini Məmməd Əmin Rəsulzadəyə yönəltdim, almanlarla türklərin yaxşı münasibətdə olmalarını xatırlatdım. O, yuxudan ayılmış kimi oldu. Çox düz yoldasan, belə olan halda mən getməliyəm. Bu çox yerinə düşdü. Bilirsən, qardaşoğlu, azərbaycanda sənə nazir vəzifəsi məndən. Mən təəccüblənəndə – qardaşoğlu, Məmməd Əmin mənə iki nazir vəzifəsini təklif edib. Deyib seç ya səhiyyə və sosial

təminat naziri, yaxud xarici işlər naziri vəzifəsini. Qəm yemə, gün o gün olsun ki, evlərimizdə üzbəüz oturaq, qalanları düzələr.

M.Rəsulzadənin müdaxiləsi ilə Türkiyə Xarici İşlər Nazirliyi Alman dövləti qarşısında müsəlmanların yəhudi kimi məhv edildiyi məsələsini qaldırdı. Türk və alman nümayəndələrinin iştirakı ilə xüsusi qrup yaradıldı və M.Rəsulzadə Xosrov bəy Sultanovu gələcək Azərbaycan dövlətinin səhiyyə naziri və bir həkim –mütəxəssis kimi bu qrupda iştirakına nail oldu.

İki dövlətin – dövlət nümayəndələri ilə yanaşı Xosrov bəy müsəlman və yəhudi sünnətinin fərqini sübuta yetirdi. Almaniya dövləti Türkiyə dövlətinə bu yardım üçün təşəkkürlərini bildirirlər və Türkiyəyə icazə verdilər ki, öz bayraqlarını asmaqla əsirlərə türkcə müraciət etsinlər, öz millətlərini ölümün pəncəsindən xilas etsinlər. Bu belə də oldu. SSRİ dövləti də bu məsələni dünya səviyyəsində siyasi bir məqam kimi istifadə etməkdə idi. Almanlar da həqiqəti anlamışdılar.

Alman əsirliyində olan minlərlə soydaşlarımız faşist peçlərində yandırılmaqdan azad olsalar da, SSRİ-yə qayıdan kimi güllələndilər, yaxud Sibirə sürülərək məhv oldular.

Xosrov bəylə İsrafil bəyin doğma xalqı qarşısındakı missiyaları öz humanistliyi ilə də qiymətli olsa da tale onların bu missiyanı axıra kimi yerinə yetirməyə imkan vermədi. Xosrov bəy vətən həsrəti ilə qardaş Türkiyə Respublikasının Bursa şəhərində torpağa gömüldü. İsrafil bəysə ali təhsildən, general çini almaq ərəfəsində polkovnik çinindən, sovetlərin qəhrəmanı adından məhrum edilərək, hərbi tərcüməçi "tacı" ilə kifayətlənməli olub, əlli il elə susmalı oldu ki, ailəsinin də bu işlərdən xəbəri olmadı".

İkinci Dünya müharibəsi qurtardıqdan sonra da Xosrov bəy siyasi fəaliyyətindən əl çəkməmişdi. Azərbaycan uğrunda mübarizə aparan Xosrov bəyin fəaliyyəti bir çox vətənsizlər kimi, çox geniş və ruhlu olmuşdur. Tarixi məlumatlarda onun ailə və uşaq sahibi olması haqqında heç bir yazılı mənbəyə təsadüf etməmişim. Amma, şifahi olaraq insanlardan eşitmişəm ki, o, azərbaycanda olarakən bir nəfər qarabağlı xanımı ilə evlənmiş və uşaqları olmadığından

həmin xanım onu tərk etmişdir. Atam, İsrafil bəyin dediyinə görə, Xosrov bəy bir müddət Polşada yaşamış və orada bir polşalı qadınla evlənsə də uşaqları yox idi. Polşanı tərk edib Türkiyəyə qayıdan Xosrov bəy tək qayıtmış və bir daha Polşaya dönməmişdir.

Elburus Şahmarın və digərlərinin yazdıqlarına görə Azərbaycanın Laçın bölgəsini təmsil edən və əslən türk oğlu – türk olan bu qardaşlar Türkiyədə dünyalarını dəyişmişlər. Sultan bəy 1955-ci ildə Türkiyənin Göçgöy kəndində, bəzi mənbələrdə isə sadəcə Ərzurum bölgəsində vəfat etdiyi bildirilir. Azərbaycan türklərinin böyük oğlu Xosrov bəy isə 1956-ci ildə Bursa şəhərində torpağa gömülmüşdür.

Xosrov bəy Azərbaycan türk xalqını təmsil edən bir şəxs kimi özünün şirin canını vətənə həsr edən alicənab fəaliyyəti bu günkü gəncliyə bir örnəkdir. Dərk edilməlidir ki, dağlı-aranlı Qarabağ torpaqlarının 1993-cü ilə kimi Azərbaycan dövlətinin əlində qalması bilavasitə Laçınlı Xosrov bəy və Sultan bəy qardaşlarının fəallığı sayəsində mümkün olmuşdur. Sultan bəyin oğlu-qızı və hazırda da onların törəmələri, davamçıları vardır. Onlardan tələb olunan isə ata və babalarının, əmiləri Xosrov bəyin yolunu davam etdirmək, nəsl səcərəsinə yeni-yeni qəhrəmanlıqlar imzası atmaqdır.

Xosrov bəyin isə övladı qalmamışdır, vətən qarşısında xidmətləri isə yetərincədir. Qalan odur ki, Azərbaycan dövləti, Azərbaycan xalqı onun adını əbədiləşdirsin, layiq olduğu bir məkanda heykəli ucaldılsın, adına küçələr, prospektlər olsun, hansısa bir təşkilata onun adı verilsin, vətənpərvərliyi lazımlı səviyyədə dövlətimiz naminə təbliğ edilsin.

## BƏZİ MƏNBƏLƏR XOSROV BƏY HAQQINDA

Ermənilər istisna olmaqla, Xosrov bəy haqqındakı bizə məlum yazılı və şifahi məlumatlar xoş məramlıdır. Harada hansı vəzifədə, hansı dinə və millətə məxsus olmalarından asılı olmayaraq insanlarla Xosrov bəyin təmasları müsbət və xeyirxah istiqamətlidir. İstər o, İranda, istərsə də Türkiyədə və Avropanın bir çox şəhərlərində yaxınlıq etdiyi bütün insan təbəqələri ilə dil tapa bilmiş, heç kimlə münaqişəyə şərait yaratmamışdır. Onun Almaniyada İsrafil bəylə, M. Ə. Rəsulzadə və s. insanlarla işi haqqında söhbət açdığımızdan burada digər insanların yazıya düşmüş fikirlərinə az da olsa müraciət edəcəyik.

Münhendə çıxan "Azərbaycan" jurnalının 2-ci sayında vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyətinin aparıcı insanlarından biri olmuş Əkbər ağa Şeyxülislamzadə öz xatirələrində Xosrov bəy Sultanov barədə yazır ki, "AXC-nin elan olunma aktına imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur.

1918-ci il may ayının 29-da Fətəlixan Xoyskinin təşkil etdiyi 1-ci hökumətdə Xosrov bəy Sultanov hərbi nazir təyin olunmuş, həmin gün də Nəsib bəy Yusifbəyli (Nəsib bəyi Gəncəli kimi tanısalar da onun Zəngəzur bəylərindən olan Mustafa bəy şəcərəsi ilə qohumluqları var və Zəngəzurda sovetlər gələnə qədər torpaq mülkləri də olmuşdur. Z.N.) və Şəfi bəy Rüstəmbəyli ilə Gəncəyə əmin-amanlıq yaratmağa göndərilmişdir".

Təbii ki, Azərbaycanda Cümhuriyyət tarixini azdan-çoxdan bilənlərə deyilən məsələ çoxdan məlumdur.

Hərbi jurnalist Xanlar Bayramov yazır: "Xosrov bəy Paşa bəy Sultanov 1919-cu il yanvarın 15-də Qarabağın general-qubernatoru təyin edilmiş, həmin ilin mart ayının 21-dən 30-dək olan Əsgəran

döyüşlərində daşnak generalı Dronun quldur dəstələrini darmadağın etmişdir. İyun ayının əvvəllərində gizli yolla Şuşaya silah gətirən erməni milli şurasının üzvlərini həbs edib onların Qarabağ hüdudlarından çıxarılmasına nail olmuşdur.

Xosrov bəy Zaqafqaziya seyminin və Azərbaycan parlamentinin üzvi idi.

1918-1920-ci illərdə daşnakların Qarabağ və Zəngəzurdan təmizlənməsində qardaşı Sultan bəylə birgə misilsiz xidmət göstərmişdir".

Şəmistan Nəzərli – "Cümhuriyyət generalları" kitabında göstərir: "İttihad"ın siyasi lideri Xosrov bəy Sultanov partiyanın xarici ölkələr bürosunu formalaşdırmaq və bütün ittihadçıları bir təşkilat ətrafında cəmləşdirmək istəyirdi.

O, 1926-cı ildə Parisdən İrana gedərək burada "İttihad"ın Tehran Komitəsinə Aşur bəy Yusifbəylini, Təbriz Komitəsinə isə qardaşı İsgəndər bəyi rəhbər təyin etdi. (Burada bir az qeyri dəqiqlik var. İsgəndər bəy 1926-cı ildən xeyli əvvəl öldürülmüşdü. Z.N.)

Xaləddin İbrahimli – "Azərbaycan Siyasi Mühacirat" kitabında yazır: "1936-cı ildə Xosrov bəy Sultanov Türkiyənin Trabzon şəhərinə qısa müddətə dincəlməyə gəlir. Erməni kəşfiyyatı duyuq düşür ki, Qarabağın qubernatoru, Xankəndi ətrafında erməni quldur dəstələrini darmadağın edən Xosrov bəy Sultanov Trabzondadır".

Ermənilər Xosrov bəyi öldürmək istəyirlər. Otel xidmətçisi məsələni Xosrov bəyə çatdırır. Xosrov bəy dostlarının köməyi ilə vaxtsız ölümdən xilas ola bilir. Bunun da dəqiqliyi belədir ki, Xosrov bəyin Trabzonda kifayət qədər yaxınları var idi və onu ermənilərin güddüyünü bilirlər. Xosrov bəyin qaldığı məkanı elan etdikləri ünvandan dəyişirlər. Xosrov bəy Trabzonda ömründə oteldə qalmamışdır. Olsa-olsa, ancaq müəyyən görüşlər, yığıncaqlar ola bilərdə.

İsrafil bəyin dediyinə görə, onlar Almaniyadan başqa Polşada, Fransada və Finlandiyada da görüşmüşlər. Ancaq onlar lazımı yerlərə ayrı-ayrılıqda gedərmişlər. Hər kəsində işi başqa-başqa olarmış. Əlbətdə onları birləşdirən xeyli məsələlər də olmuşdur.

Lakin, İsrafil bəy bu məsələlər haqqında açıqlama verməyi xoşlamazdı. Onların birgə əməliyyatları əsasən SSRİ tərəfindən vuruşaraq əsir düşmüş türk və müsəlman insanlarının fiziki məhvinin qarşısını almaq olmuşdur.

SSRİ-ni təmsil edən İsrafil bəy bu işdə öz rəisindən və Moskva rəhbərlərindən xeyli bəhrələnə bilmişdir. Bu məsələdə SSRİ-nin də marağı olmuşdur. Berlin qurumunun sənədlərinin ermənilər tərəfindən İngiltərəyə və ABŞ-a ötürülməsinə qədər bu işlər çox ciddi aparılmışdır. Erməni satqınlığından sonra Berlin qrupu məhv edilməsə də, Moskva onlara çox da ciddi tapşırıqlar verməmişdir.

Xosrov bəy bir çox dövlət xadimlərindən və siyasətçilərindən fərqli olaraq təmsil olunduğu "İttihad" partiyasına, Azərbaycan Xalq Cümhuriyyətinə, rəhbərlik etdiyi Qarabağ general-qubernatorluğuna öz sədaqətliliyi ilə seçilən insanlardandır.

Azərbaycanda və mühacirətdə olarkən bütün həyatını xalqının azadlığı və səadətinə həsr edən bu görkəmli sərkərdənin və ictimai-siyasi xadimin məşəqqətli, keşməkeşli, çox mürəkkəb, əzablı, lakin şərəfli həyatının hərtərəfli öyrənilməsi və işıqlandırılması bizə qədər geniş tədqiqatını tapmamışdır. Bizim də onun keçdiyi yolun tam işıqlandırılmasına iddiamız yoxdur.

Hamıya məlum olduğu kimi 70 il xalqımızın bu böyük oğlunun və digərlərinin adının çəkilməsinə imkan verilməmişdir.

Maraqlı məlumatlardan biri də Xosrov bəylə N.Nərimanovun yaxın olması məsələsidir. Onların hər ikisi tələbə vaxtından tanış olmuşlar və dostluq etmişlər. Lakin, onların siyasi əqidəsi bir-birlərindən fərqli olmuşdur. Xosrov bəy cümhuriyyətə, N.Nərimanov isə bolşeviklərə sadiq qalmışlar. Hər ikisi vətən yolunda öz canlarını qurban vermişlər.

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Xosrov bəy vətənindən heç yerə getməmişdir. Bolşeviklər cümhuriyyətin seçilən bir şəxsiyyəti kimi Xosrov bəyi həbs edərək Bakıya gətirmişlər. Bununla ürəkləri soyumayan və sifətlərini tez-tez dəyişməyi bacaran ermənilər mərkəzə nə yazsalar da, Xosrov bəyin ermənilərə pis olması haqqında heç bir sənəd əldə edə bilməmişlər. Əlləri hər

yerdən kəsilən ermənilər digər bir alçaqlığa, 70 erməni qadınının adından ərizə yazaraq onların namusuna Xosrov bəyin toxunmasını bildirmişlər. Əlbətdə, bu bayağı ittihama heç kim inanmamışdır. İstənilən halda bolşeviklərin Xosrov bəyi buraxmaq rəyləri olmamışdır. Bunu yaxşı başa düşən N.Nərimanov öz dostunu Bayıl türməsindən qaçırda bilmişdir və bu haqda arxiv sənədləri də Azərbaycanda saxlanmaqdadır.

Diqqəti cəlb edən fikirlərdən biri də Xosrov bəyin öz dövründə "Azərbaycan" qəzetinə verdiyi müsahibədir. İstər-istəməz onun fikirləri ilə tanışlıqdan, onun şəxsiyyəti və kimliyi haqqında oxucuda müəyyən fikir formalaşır.

Xosrov bəy deyir: "----- hər halda belə bir fakt böyük təəssüf doğurur ki, Qarabağda milli qarşılıqlı münasibətlərin düzgün işıqlandırılmaması, Qarabağda məskunlaşmış millətlər arasında yaranmış tamamilə əngəlsiz mehriban qarşılıqlı münasibətlərə nəticələri çox çətinliklə aradan qaldırıla biləcək zərər vura bilər.

Qarabağ əhalisindən ötrü ən çox arzu olunan hakimiyyət elə bir hakimiyyətdir ki, onların ac-susuz və lüt-üryan qalmasına yol verməsin, onların həyat və əmlakları üçün qorxu yaradan təhlükələrdən qorusun.

Fəal siyasi mübarizədə iştirak etməkdən ötrü Qarabağ əhalisi həm milli, həm də sosial xarakterli müxtəlif eksperimentlərdən çoxlu bəlalar çəkmişdir.

Təəssüf ki, özlərini demokrat adlandıran, xalqın demokratiya anlayışları ilə nə ruhən, nə də mənən heç bir əlaqəsi olmayan siyasi partiyaların bəzi nümayəndələri hətta terorizm əməllərindən çəkinmədən öz məqsədlərinə nail olmaqdan ötrü özlərinin düzgün hesab etdikləri yol ilə xalqı dönmədən, durmadan irəliləməyə məcbur etməyə çalışırlar.

Əhali üzərində aparılan eksperimentlərin əsasını ən yaxşı halda partiya xarakterli nəzəri mülahizələr, ən pis halda şəxsi maraq və mənafelər təşkil edir. Son iki ay ərzində ermənilər Qarabağın müsəlmanlar yaşayan bölgələrinə tamamilə təhlükəsiz surətdə gəlirlər. Digər tərəfdən isə biz görürük ki, müsəlmanların erməni

kəndlərinə getmələri heç də təhlükəsiz deyil və müsəlmanlar öz işləri ilə əlaqədar onlara baş çəkməyə çox nadir hallarda risk edirlər. Bunun təqsirini mən xalq kütlələrində deyil, kütləni öz terroru altında saxlayan və onu öz proqramında həyata keçirməyə məcbur edən ayrı-ayrı şəxsiyyətlərdə görürəm.

Qarabağın erməni əhalisi iqtisadi baxımdan müstəsna dərəcədə ağır vəziyyətdədir. Əgər Qarabağın müsəlmanlar yaşayan düzənlik hissəsi erməniləri bolluca taxılla təmin etməsəydi, ermənilərin yaşadığı rayonu aclıq bürüyərdi.

İqtisadi baxımdan bölünməz bir vahid olan Qarabağ, siyasi baxımdan da bölünə bilməz. Bütün Qarabağ bölünməz bir vahiddir, bədəni başdan, başı da bədəndən ayırmaq və bütün vücudun sağ-salamat qalmasını arzulamaq olmaz.

Qarabağın ermənilər yaşayan dağlıq hissəsini müsəlmanlar yaşayan hissəsindən ayırmaq arzusunda olan adamlar ya utopist, ya da öz xalqının düşməni hesab edilə bilər.

Qarabağ haqqında məsələni bütövlükdə iqtisadi və siyasi bir vahid kimi danılmaz bir həqiqət olaraq qəbul etməklə onun bu və ya digər dövlət vahidinə münasibəti barədə məsələni asanlıqla həll etmək olar.

Yevlaxdan başlayaraq biz müsəlman əhalisinin geniş zolağını müşahidə edirik. Dağətəyi zonaya yaxınlaşdıqca həmin zolağı müsəlman və erməni əhalisindən ibarət qarışıq zolaq əvəz edir.

Dağlara qalxdıqca biz demək olar ki, erməni əhalisinə daha çox rast gəlirik. Amma, bu Zəngəzura, Hacısamlıya, Kəlbəcərə və hətta Göyçəyə aid deyildir. Deyilən zolaqlardan sonra isə Naxçıvan müsəlman zolaqları gəlir. Ermənistan dediyimiz yerlərdə də müsəlmanlar əhalinin əksəriyyətini təşkil edir və erməni rayonu müsəlman rayonlarının əhatəsində qalır.

Bundan başqa üç qış ayı ərzində Naxçıvandan Zəngəzura, deməli həm də Naxçıvandan Ermənistana gedən yol tamamilə bağlanır.

Aydın məsələdir ki, Qarabağ rayonlarının belə bir topoqrafik vəziyyətində erməni rayonunu Ermənistana birləşdirmək istəyi

ağılsızlıqdır (Elə bu səbəbdən də ermənilər Zəngəzuru, hazırda isə Qarabağı işğal etdilər. Z.N.).

Müstəqil Qarabağ yaratmaq axınının tərəfdarları ilə mübahisəyə girişməyi isə özüm üçün yüngül xasiyyətlilik hesab edirdim, cünki belə adamlar görünür dövlətçiliyin əsasları haqqında, hətta ən elementar anlayışlardan belə xəbərsizdirlər və öz xalqlarının mənafelərini anlamadıqlarından dağıdıcılıq ruhu ilə həddən artıq zəhərləniblər.

Beləliklə, əhalisinin çox böyük əksəriyyəti müsəlmanlardan ibarət olan və müsəlman rayonları ilə əhatə edilmiş erməni rayonu olan iqtisadi bir vahid kimi Qarabağın heç bir vəchlə Ermənistanla iqtisadi əlaqəsi və onunla ünsiyyətdən ötrü heç bir fiziki imkanı yoxdur.

Digər tərəfdən Qarabağ Azərbaycanla sıx iqtisadi və həm də, necə deyərlər, fizioloji əlaqədədir və onun bu sonuncu ilə (Azərbaycan) birləşməsini Qarabağda məskunlaşmış bu iki xalqın mənafeləri tələb edir.

Burada söhbət yalnız ədalətli və qərəzsiz idarəetmənin qurulmasından gedə bilər, bu müddəaya dövlət quruculuğunun əsasını təşkil edən ciddi qanunçuluğa və hüquq mühafizəsinə dayaqlanan xalq rifahını əldə etməyə çalışan hər hansı bir dövlət tərəfindən riayət olunmalıdır.

Qarabağda aparılmış və aparılan işin əsasları aşağıdakılardan ibarətdir: Dünya siyasətinin əsasını təşkil edən iqtisadi mülahizələr baxımından Qarabağ əhalisi hamının rifahı naminə aparılmaz bir vahid olmalıdır.

Hamıya qarşı, xüsusən kasıblara qarşı eyni bərabərdə qərəzsiz və səmimi bir münasibət olmalıdır.

Gələcək rifahın dinc yanaşı yaşamaq prinsipinə əsaslanacağı bir təqdirdə hərbi xarakterli tədbirlərin görülməsi cinayətkarlıqdır və buna yol verilə bilməz.

Bu kimi təcavüzkar tədbirlərin müəllifləri əgər məsuliyyətli şəxslərdirsə, mütləq Qarabağın hüdudlarından uzaqlaşdırılmalıdır”.

"Azərbaycan" qəzeti 5 aprel 1919-cu il. Göründüyü kimi Xosrov bəy müsahibəsində çox mülayim, insani dəyərlərə uyğun və qəddar düşmənə də xoş məramla yanaşması onun kimliyindən xəbər verir. Düşmən düşmənçiliyindən, pis əməllərindən çəkinmir, biz isə öz alicənablığımızdan.

Hər halda deyilənlər tarixi bir həqiqətdir, amma dünya həqiqətlərlə yaşayırmı?..

İlham Tumas yazır: "Birinci Cümhuriyyətin Qarabağa general-qubernator təyin elədiyi bu adam daşnak və bolşevik qüvvələrinə qarşı qeyri-bərabər döyüşlərdə qalib oldu, erməniyə bir qarış torpaq belə vermədi. Həmin ilin yayında əlinə silah alıb Qarabağ havasına havalanan ermənilər diz çökdürüldü, hamısı bir nəfər kimi Azərbaycan Hökumətini tanımağa məcbur oldular. Onun qətiyyəti və hərbi şücaəti sayəsində Şuşadakı gizli daşnak komitəsinin üzvləri bir nəfər kimi qaçıb dağılmaqdan savayı yol görmədilər.

Ona görə də, əllərindən bir iş gəlməyən daşnaklar bolşevik əhval-ruhiyəli müsəlmanların köməyi ilə şayiə yaymışdılar ki, guya Cümhuriyyətin Hərbiyyə Naziri bu adamı general-qubernatorluqdan geri çağırır. Bu məqsədlə Üzeyir bəy Hacıbəyov "Azərbaycan" qəzetinin 1919-cu il 24 iyun tarixli sayında yazırdı: "Həqiqətən, o, Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücudə malik olan kimi sağlam və salamat politika yerindən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hökuməti başında olmasa idi, burası–Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu".

Unudulmaz Üzeyir bəyin barəsində yazdığı bu qəhrəman insan Qarabağın general-qubernatoru Xosrov bəy Paşa bəy oğlu Sultanov idi....

1923-cü ildən general Xosrov bəy Sultanovun həyatında mühacirət dövrü başlanmışdır. O, Türkiyədə, İranda, daha sonra Fransa və Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdır. Bundan sonra, 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy SultanovTrabzonda məskunlaşmış, 1947-ci ildə vəfat etmişdir. Xosrov bəyin ölüm tarixi 1941-ci, bəzi mənbələrdə isə 1956-cı il kimi göstərilir.

Xosrov bəy adı və qəhrəmanlıqları dillərdə əzbər, Zəngəzurda erməni quldur dəstələrinə qarşı mərdliklə vuruşmuş, xalq arasında "laçınlı Sultan bəy" kimi çağrılan məşhur Sultan bəy Sultanovun kiçik qardaşıdır. Bu qardaşlar ümumi işin xeyrinə hətta illərlə qan düşməni olduqları bəylərin ayağına gedərək, onları bütün gücləri birləşdirməyə, birgə mübarizəyə səsləyiblər. Sultanovlar var-dövlətlərini Türkiyə və İrandan silah-sursat almağa sərf eləmiş, Zəngəzur qazısı Bəhlul Behcət tərəfindən yazılmış Cihad Bəyannaməsi ilə xalqı düşmənə qarşı cihada qaldırmışdılar. Ümumiyyətlə, onların Azərbaycan Xalq Cümhuriyyətinin qorunması yolunda müstəsna xidmətləri var.

Xosrov bəy doğrudan da, Qarabağda həm müsəlman, həm də sadə erməni əhalisi arasında böyük nüfuza malik idi. Əksinə, o dövrün və indinin xəstə milliyətçi erməniləri isə Xosrov bəyi nifrət və hikkəylə, ermənilərin ən qəti düşməni kimi xatırlayırlar. Məsələn, 1919-cu ildə Şuşada erməni qoşununda döyüşmüş Zare Məlik-Şahnəzərov adlı bir erməni əsgərin "Şuşanın süqutu" adlı xatirəsindən oxuyuruq. "Şüşanın süqutundan əvvəl mənim yaddaşıma daha bir hadisə həkk olunub. Mən Müsavatçı qubernatorla təsadüfən üz-üzə gəldim. Ermənilərə düşmən olan bu qəddar adam Xosrov bəy Sultanov idi. Məhz bu adam Qarabağda erməni qırğınları təşkil eləmişdi".

Hər işdə olduğu kimi ermənilər Xosrov bəyə münasibətdə də tarixi faktları təhrif edirlər.

Xosrov bəy Qarabağa general-qubernator təyin olunanda onun vəzifə borclarına "erməni hərəkatı ilə mübarizə və bu hərəkatın tamamilə məhv edilməsi, qayda-qanunun bərpa olunması, məcburi

köçkünlər arasında gəzən epidemiyalarla mübarizə, onlara yardım" kimi məsələlər daxil idi. Sultanovun vətənpərvərliyindən və qətiyyətindən xəbərdar olan Qarabağın erməni milli yığıncağı Xosrov bəyin təyinatına etiraz olaraq tərtib elədikləri məktubda yazılmışdı: "Qarabağın erməni milli yığıncağı Azərbaycan hökuməti tərəfindən təyin olunan general-qubernatorla bağlı bildirir ki, onlar heç vaxt bu faktla barışmayacaqlar".

Ancaq Xosrov bəy də öz hüquqlarını və vəzifə səlahiyyətlərini yaxşı bilirdi. O, da öz növbəsində erməni milli yığıncağından tələb etmişdi ki, nəzarətində olan silahlı dəstələri buraxsın və Qarabağda əmin-amanlığın təmin olunmasına maneçilik törətməsin.

Maraqlıdır ki, həmin illərin arxiv materiallarını və mətbuatı izlədikcə ermənilərin eynən ötən əsrin 80-ci illərin sonlarında tətbiq elədikləri üsullara əl atdıqlarının şahidi oluruq. Məsələn, 1919-cu il fevralın 28-dən martın 4-ə qədər Qarabağ ermənilərinin 8-ci qurultayı adlandırılan qeyri-legitim bir qurum general-qubernatoru Şuşada, Xankəndində və Əsgəranda "günahsız erməniləri" qırmaqda ittiham edirdi.

Ermənilər bu yalançı bəyanatı əlləri çatdıqları yerlərə və dövlətlərə, həmçinin Azərbaycan hökumətinə göndərmişdilər. Həmin ilin martın 8-də isə Azərbaycanın güzəştə getdiyi torpaqlar hesabına dövlət qurmuş Ermənistan Azərbaycan Cümhuriyyət rəhbərliyinə nota göndərir: "Xankəndi və Ağdamda Azərbaycan hərbi hissələri tərəfindən 400-ə yaxın dinc əhali qətlə yetirilmişdir. Ağdam, Şuşa yolu erməni əhalisinin üzünə bağlıdır və bu əhali iqtisadi təcridə məruz qalıb".

Ancaq Fətəli Xan Xoyskinin bu notaya cavabından görürük ki, ermənilər baş vermiş olayları özlərinin əbədi və əzəli xislətlərinə xas şəkildə şərh etmişlər.

Xosrov bəy Sultanov həm də Bakı müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil idi. "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik" adlı bu təşkilatın baş müvəkkillik vəzifəsi isə general-mayor Tamamşevə tapşırılmışdı.

Bu təşkilatların müharibə dövründəki fəaliyyətləri barədə xeyli sənədlər, teleqram və məktublar mövcuddur. Məsələn, general Tamamşevin 4 iyun 1916-cı ildə Xosrov bəy Sultanovun adına göndərdiyi teleqramda deyilirdi: "Rəhbərlik etdiyiniz Cəmiyyətin nəzdində neçə yetimxananın mövcudluğu və onlara nə qədər kimsəsizin yerləşməsi, habelə onların hökumət tərəfindən tam təmin olunması və ya cəmiyyətinizin də köməyinə ehtiyac olması haqqında mənə məlumat verməyinizi xahiş edirəm".

Azərbaycan Sovet hakimiyyəti qurulduqdan sonra general Xosrov bəy Sultanov əvvəlcə Türkiyədə, İranda, sonra Fransa, Almaniyada və Polşada yaşayıb. Türkiyəyə qayıdan Xosrov bəy Sultanov yenidən Trabzonda məskunlaşıb".

Böyük iftixar hissi ilə deməliyik ki, Xosrov bəylə yanaşı Laçın torpağının yetişdirmələri olan general Nurməmməd bəy Şahsuvarov, türk ordusunda orgeneral rütbəsi qazanan Firidun bəy Daryalı da öz sücaətləri ilə təkcə Laçının deyil, bütöv Azərbaycanın fəxri sayılan insanlarıdırlar.

# PAŞA BƏY ZƏNGƏZURUN FƏXR EDƏCƏYİ AĞSAQQALDIR

Azərbaycan Respublikası öz müstəqilliyini elan edəndən sonra, Azərbaycanda unudulmuş, yaxud Sovetlər birliyində araşdırma qadağası qoyulmuş mövzulardan biri də bəy nəsillərinin, onların elinə-obasına fəxarət gətirə biləcək fəaliyyətləri sahəsi olmuşdur.

Müstəqilliyimizin ilk illərində insanlarımızın əsas qayğı və fikirlərinin Qarabağ müsibətləri, erməni vəhşilikləri ilə daha çox çulğalanması bu növ araşdırmaları, müəyyən mənada "kölgə"də qoymuşdu. Müharibə gedişatının "dondurulma"sı, insanlarımızı qəhrəman axtarışına istiqamətləndirdi. Odur ki, son illər Azərbaycanın bütün bölgələrində dövlətinə, millətinə, insanlığa və hətta nəsl səcərəsinə hörmət qoymuş kişilər yad edilir, onlar haqqında hərə öz bacardığını qələmə alır.

Mənim isə hörmətli oxucularıma təqdim edəcəyim mövzu, mənim özüm üçün yeni deyil, illərdir ki, Sultanovlar nəsli ilə əlaqəli hər bir məlumatı, xüsusəndə bir yazılı mənbəyə əsaslananlarını toplamışam. Kiçik vaxtlarımda da bu səcərə ilə bağlı söhbətlər ailəmizdə də, yaşlı nəsl insanlarının bir-birlərinə söhbətlərinə də çox təsadüf etmişəm. Bu mənada XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Zəngəzur qəzasında daha çox sayılıb-seçilən üç Sultanovlardan biri olan Yuxarı Zəngəzurun Hacısamlı bölgəsindən, hazırda Laçın rayon ərazisi kimi tanınan sahəsində yaşamış və el arasında bütün Zəngəzurda, Aran Qarabağda və Qərbi Azərbaycanda ağsaqqal kimi tanınmış Paşa bəydən söhbət açacağam. Əslində onun adı sənədlərdə Əlipaşa kimi gedir. Amma, el arasında hamı onu Paşa bəy kimi çağırırdı.

Paşa bəyin nəsl səcərəsi ilə tanışlıq göstərir ki, bizdə olan mənbələrin hamısı eyniyyət təşkil etmir. Lakin, bununla yanaşı mənbələrin əksəriyyətində bu və ya digər tərzdə uyğun gələn məqamlarda az deyildir. Onlardan bir neçəsini olduğu kimi verməyi daha doğru yol kimi seçdim.

K.Alməmməd – "Sultan bəy kimdir?" yazısında ("Azərbaycan" qəzeti, №13(76), 30 mart 1991-ci il) göstərilir: "Azərbaycan torpağının dünyaya bəlli görkəmli oğulları çoxdur. Babək qeyrətli, Koroğlu cürətli ərənlərdən biri də Sultan bəylər nəslindən olan Sultan bəy Laçınlıdır. Bu nəslə bəylik rütbəsi çar imperatorluğu tərəfindən XVIII əsrin sonu – XIX əsrin əvvəllərində verilmişdir. Azərbaycanın Yelizavetopol quberniyasına daxil olan Zəngəzur mahalı iki sultanlıqdan ibarət idi. Birinci Hacısamlı, ikinci Qaraçorlu sultanlığı adlanırdı. Hacısamlı sultanlığı indiki Laçın və qismən Kəlbəcər rayonunu əhatə edirdi. Burada 1-ci və 2-ci Alməmməd Sultan hakimlik edirdi. Qaraçorlu Sultanlığı isə indiki Gorus, Qafan (Mədən) rayon ərazilərini, qismən Laçın rayonunun qərb hissəsini əhatə edirdi. Orada isə Həmzə Sultan və onun oğlu Əsəd Sultan hakimlik edirdi. Bu iki sultanlıq arasında qohumluq əlaqələri də vardı. O zamanlar Alməmməd Sultanın kiçik oğlu Qara Murtuza bəy hər iki Sultanlığın ordusuna başçılıq edirdi. Onun sərkərdələrindən biri də Sultan bəyin babası Xanmurad olmuşdur. (Əslində isə bu belə deyildi. Z.N.) Xanmurad Əsəd Sultanın qızına elçi göndərib onunla evlənmək istəmiş, Əsəd Sultan isə elçiləri geri qaytarmış, əsilzadə və bəylik rütbəsi olmayan adama qız verməkdən imtina etmişdir. Bunu özünə sığışdıra bilməyən Xanmurad Əsəd Sultanın razılığı olmadan qızı qaçırmış və onunla evlənmişdir. Uzun müddət qəzəblənmiş Əsəd Sultan onunla barışığa razılıq verməmişdir. Minnətə gəlmiş hörmətli el ağsaqqallarına da yox cavabı vermişdi. Xanmuradın Paşa və Əmir adlı iki oğlu olmuşdur. Əsəd Sultanın bu nəvələrini də tanımaması II Alməmməd Sultanı da narahat etmiş, öz sarayında Xanmurada bəylik rütbəsi vermək qərarına gəlmiş, lazım olan sənədləri düzəltdirmişdi. O vaxtın qanunlarına görə xalq arasında xüsusi hörməti olan şəxslərə

üç nəfər köklü (“yazılma” bəy olmazdı) əsilzadənin zəmanəti və əsilzadələrin birinə qohumluq sənədi tələb olunurdu. Bəylik komissiyası Tiflisdə yerləşirdi. II Alməmməd Sultan hazırlanmış sənədləri bəylik komissiyasına təqdim edir və oradan təsdiq üçün Peterburqa-imperatorun sərəncamına göndərir. İmperatorluq sənədlərlə tanış olur, lakin Xanmurada yox, onun – əsilzadə qızından doğulmuş oğlanlarına bəylik rütbəsi verilməsi haqda fərman verir.

II Alməmməd Sultan bir neçə kərə Əsəd Sultanla bu barədə söhbət edir. Sonuncu söhbətlərin birində Əsəd Sultanın sarayında böyük bir məclisdə süfrə arxasında Əsəd Sultanla çəkişir. Şərt də bundan ibarət olur ki, hər kim uduzsa, mərci ödəsin. İki il çəkişmə davam edir, çox qüvvətli hafizəyə malik olan bu iki hakimin heç biri mərci udmağa nail ola bilmir. Bir gün çoxlu qar yağır, yollar kəsilir. Xüsusilə dağ keçidlərindən aşmağa imkan olmur. Bu çovğunlu gündən istifadə edən II Alməmməd Sultan yaxşı bəslənmiş köhlən atına güvənərək Ağoğlan dağ keçidini aşır, Əsəd Sultan yaşayan kəndə yaxınlaşır. Yolunu qəsdən dəyişdirib, yol olmayan yamacla atını sürür və haray çəkir: “borana düşmüşəm”, “kömək edin”, “yolu azmışam”. Uzaqdan səsi eşidib, borana düşmüş atlını görənlər Əsəd Sultana xəbər verirlər, ora kömək üçün adamlar göndərilir. Borana düşmüş adamı xilas edirlər, üzü-gözü sarılmış adam özünü Əsəd Sultana yetirir. Sarıqlar açılarkən bu adamın II Alməmməd Sultan olduğunu bilirlər, çox böyük heyrətlə “a kişi, nə olub”, “bu nə gündür” soruşmağa macal vermədən “bəs bilmirsən başıma nə gəlib?!” deyə atın cilovunu Əsəd Sultana verir. Özünü itirmiş Əsəd Sultan atın cilovunu onun əlindən alır. Alməmməd Sultan hündürdən “apardım” deyir. Məsələ aydın olur, saray adamları hamısı gülüşür, evə daxil olurlar. II Alməmməd Sultan arxayınca Xanmurad və onun uşaqlarına, Əsəd Sultanın nəvələri Paşaya və Əmirə bəylik verilmə sənədlərinə Əsəd Sultana imza etdirir. Fərman imzalanır və barışıq da başa çatır....”

Paşayev Rüstəm Kamal oğlu özünü Paşa bəyin qohumlarından sayır və bu yazının müəllifi ilə görüşündə bildirmişdir ki, “... Paşa

bəyin atasıgil üç qardaş olublar – Xanmurad (Paşa bəyin atası), Şahmurad və Gülmurad Xanmuradın oğlanları Paşa bəy birinci arvaddan, Əmir bəy 2-ci arvaddan olan övladıdır və Əmir bəyin anası Əsəd Sultanın qızıdır. Paşa bəyin 7 oğlu, 3 qızı olub. İkiarvadlı olur. Birinci xanımı Bəyim xanım Qarabağın (hazırda Ağcəvədi rayonu) Pəroğulları bəylərinin qızlarındandır. Bəyim xanımdan olan övladlar – Sultan, İsgəndər, Xosrov, Rüstəm və bacıları Avtabdır. Paşa bəyin ikinci xanımının adı Ağaxanım olub və Seyid Mirəzizin (Qarabağın bütün bölgələrində məşhur olan bütün seyidlər də bu səcərədən olmaqla Cənubi Azərbaycandan Murtuza bəy tərəfindən Laçın bölgəsinə gətirilmiş, özünün Aşağı yurd deyilən torpağında yerləşdirilmiş və sonralar bu yurd "Böyük Seyidlər" adlanmışdır. (Z.Nəbibəyli-"Laçın-85", 2009-cu il, s. 73-84)) qızıdır".

Paşa bəyin Seyid Mirəzizin qızı Ağaxanımdan dünyaya göz açan övladları – Zülfüqar, İsrafil, Bahadur, Ziba və Məhbub olmuşdur.

Z.Nəbibəyli özünün "Laçın-85" kitabında Paşa bəy, Sultan bəy və Xosrov bəy haqqında qısa da olsa məlumat vermişdir. O, yazır: "...Paşa bəy özü çox ağıllı, tədbirli bir el ağsaqqalı olmuşdur. Müəyyən bir məsələni həll edəndə tanınmış insanların ağsaqqallığı və ya, fikirlərini öyrənməklə qərar verərmiş. Ədalət naminə, yeri gəldikdə oğlanlarını da danlayar və ya tutduqları qeyri ciddi mövqedən çəkindirərmiş. Laçında Paşa bəyin adı həmişə yaxşılıqda çəkilən bir insan olmuşdur".

Z.Nəbibəyli "Zəngəzurun qısa tarixi və coğrafiyası" haqqında ilk elmi kitab yazan bir araşdırıcı kimi – Qarabağa, Zəngəzura və onların bir parçası olan Laçın bölgəsinə aid yazdığı elmi yazıların xeyli hissəsində, xüsusən də Xosrov bəyə, Sultan bəyə həsr edilmiş iri həcmli yazılarında Paşa bəy haqqında da yeni-yeni məlumatlar vermişdir.

Laçın rayonu Şamkənd Sovetliyinin Çorman kəndində yaşamış Məhərrəmov Məhərrəm özünü Paşa bəy nəslindən sayır və soy adının əslində Muradov olmalı olduğunu bildirir. Onun söylədiyinə görə Paşabəylər və onun qardaşları Muradov, yaxud Muradlı olma-

lıdır. Məhərrəmə görə Laçının Çorman kəndi Paşa bəyin dədə-baba kəndidir, onların Qurdgəzi (Qurdqajı) kəndinə heç bir aidiyyatı yoxdur. Hazırda 72 yaşı olan Məhərrəm kişi bildirir ki, Paşa bəyin dağ otağı Çorman kəndindən yuxarı, Qırxqız dağının ətəyində Sarımsaqlı ilə üzbəüz Qətl ağacında olmuşdur. Oğlu Sultan bəyin dağ otağı da atası Paşa bəyin evinin qarşı tərəfində – Sarımsaqlıda olmuşdur. Əslində isə bu torpaqlar və yurdlar qabaqlar Qarabağ xanlığının sərkərdəsi Nəbinin olmuşdur.

Paşa bəy aşıq musiqisini çox sevərmiş. Bu mənada Laçının Peçeneq (Piçənis) bölgəsinin Subad yaşayış məntəqəsindən olan Aşıq Abbası tez-tez evinə dəvət edərmiş. Aşıq Abbas həm də çox hazırcavab bir aşıq olmuşdur. Aşıq Abbasın nəvəsi Cənnət Paşa bəyin oğlu Xosrov bəylə yaxın olmuşdur. Bu fikir də Məhərrəmin dediklərindəndir. Məhərrəm kişi onu da qeyd etdi ki, Əmir bəy Paşa bəyin ögey oğludur, Əsəd Sultanın qız nəvəsidir.

"Soy" adlı elmi-kütləvi dərginin Baş Redaktoru Ənvər Çingizoğlunun araşdırmalarına görə Paşa bəyin atası Xanmurad Qasımuşağı obasında doğulmuşdur, onun Əlipaşa, Mehralı, Şahmurad, Əmirmurad adlı oğlanları və Mehriban adlı qızı olmuşdur.

Əlipaşa (Paşa bəy) bəy1837-ci ildə Qasımuşağı obasında dünyaya göz açmışdı, mədrəsə təhsili alıb, əsas məşğuliyyəti maldarlıq olmuşdur.

Bəzi mənbələrə görə isə Qasımuşağı nəslinin babalarının cənubi Azərbaycandan bu yerlərə gəlmələrini göstərir. Bu fikir XIX əsrdə yaşamış, Bağdadda təhsil almış, anası və arvadı Paşa bəyin nəslindən olan, Araflıda yaşamış Süleyman bəy özünün "Bəyliyin tarixi" kitabında vermişdir. Z.Nəbibəyli Süleyman bəyə və Mir Mövsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı kitabına istinadan yazır ki, Laçınlılardan (XX əsrin əvvəllərində) Şuşa, onun kəndlərini, Zəngəzurun bir çox kəndlərini, Laçının özünə mənsub kəndlərini ermənilərdən müdafiə edən, erməniləri cəzalandıran əsasən İbrahim bəy Alməmməd bəy oğlu olmuşdur. Sonralar bu işə Paşa bəy və oğlu Sultan bəy də qoşulmuşlar, torpaq uğrunda böyük mübarizlik göstərmişlər... 1906-cı

ilin iyul ayında Şuşa şəhərində baş vermiş erməni-müsəlman davası zamanı Şuşanın müdafiəsini 1-ci yaran İbrahim bəy olmuşdur. Onun ardınca Sultan bəy şəhərə girmiş, erməni quldurlarına lazımi cavablar vermişlər. Lakin, bu davada İbraim bəy qəhrəmanlıqla həlak olmuşdur.....”

Qurdgəzili Sona xanımın söylədiyinə görə, Paşa bəy keçəl Xanmuradın (el arasında belə deyərdilər) oğludur. Paşa bəyi Muncuqlu çayının ətrafına ova aparırlar və bu dövrdə Paşa bəy hələ bəy adı almamışdı. Paşa bəy Muncuqlu çayının ətrafındakı qayadan qızıl tapır və o, bir az da sərbəstləşir. Paşanın anası öləndə atası keçəl Xanmurada Əsəd Sultanlılardan bir bəyin qızını gəlin gətirirlər və qadının yanında Əmir adlı oğlu olur. Laçının Arduşlu kəndindən olan Paşa bəyin bir dostu ilə Qarabağın mərkəzi şəhəri, quberniyanın mərkəzi olan Gəncəyə təşrif buyuran dostlar Qubernatorun (rus) iki kiçik oğlunun hər birinə bir yüzlük verirlər və Əmir bəyin (Paşa bəyin ögey qardaşı) sənədlərindən istifadə etməklə – bəyalma sənədlərini Qubernatorun vasitəsi ilə Tiflisə göndərərək Paşa bəy bəylik alır.

Sona xanımın dediyinə görə Paşa bəyin anası Hətəmlər kəndindən, atası isə Qurdgəzi kəndindəndirlər. Sona xanımın özü isə Araflı bəyləri səcərəsinin bir qolundan olmaqla, Hətəm bəyin oğlu Paşa bəyin qızıdır. Hətəm bəyin atası 2-ci Bərxudar bəydir, 1-ci Bərxudar bəy isə hazırda dünya şöhrəti tapmış böyük sərkərdə, Qarabağ xanlığını yaradanlardan biri, Zəngəzur mahalının Sultanı Murtuza bəydir. Sonra xanımın ərinin və qaynatasının da anaları bu səcərədəndirlər və Qurdgəzi kəndində yaşamışlar.

Paşa bəyin özü də gəncliyində atası Xanmurad kimi çodarlıq (çarvadarlıq) etmişdir. İstənilən halda, Paşa bəy öz ətrafı arasında – yəni bəylik adı almamışdan əvvəllərdə də və istərsə də bəylik aldıqdan sonra da yüksək hörmət sahibi olmuşdur.

Paşa bəy, oğlu Sultan bəyi evləndirəndə gəlini Aran Qarabağdan gətirəndə göstəriş vermişdir ki, gəlini birinci olaraq Cəbrayıl bəyin qapısına gətirsinlər və bəyin xanımı Qızyetər xanımın xeyirduasını alsınlar. Qızyetər xanım çox cəsarətli, mərd, kişi xasiyyət

bir qadın olmuş, heç nədən çəkinməzmiş. Bununla yanaşı əri Cəbrayıl bəy kimi xeyirxah, əlidüşərli olmuşdur. Böyük Zəngəzur parçalandıqdan sonra ailə Alıqulu kəndindəki mülklərində yaşamışdır. Digər tərəfdən Cəbrayıl bəyin keçdiyi yol, aldığı təhsil Paşa bəy üçün bir örnək idi. Dostluq və qohumluq əlaqələri var idi. Qızyetər xanım gəlini və onu gətirənləri çox yaxşı qarşılayır, bəyə bir kəhər at, gəlinə isə biriliant qaşlı bir qolbağı və el adətinə görə kəlağayi bağışlayır. Bu həyətdə xeyli çal-çağır məclisi keçir, cavanlar isə baş üstə at çapırlar, at kəlləsinə güllə atmaqla şənlənirlər.

Cəbrayıl bəy öz dövrünün çox böyük ziyalısı, dövlət xadimi, sərkərdəsi olmaqla insanlar arasında çox böyük nüfuz sahibi idi. O, Tatef və Zəngəzur mahalının başçısı olarkən kəndləri bir-bir gəzər, kasıb insanlara əl tutar, toxum verər, öküz, cüt verər və tapşırarmış ki, yaxşı çalışsın, çörək üçün heç kimə əl açmasınlar. Kənd ağsaqqallarına və varlılarına isə tapşırarmış ki, gələn payız gələcəm, elə edin ki, kəndinizdə çörəyə möhtac olan adam olmasın. O, 16 il Bağdadda ali dini-ruhani təhsili almış, Odessa Tibb Universitetini bitirmişdi. İnsanların özləri ilə yanaşı, at və öküzlərini də müalicə edərmiş, özünü xalq arasında çox sadə aparamış. Cəbrayıl bəy Azərbaycandan yeganə şəxsdir ki, 25 il ruslara qarşı, vətəninin azadlığı uğrunda çarpışan Şeyx Şamilə silah-sursatla, atla, pulla yardım göstərmişdir. Şeyx Şamillə ikinci görüşündə – təsadüfən qolundan yaralanmışdır. Bu haqda Şeyx Şamilin mirzəsi, “Yeni Musavat” qəzeti, Süleyman bəy Nəbibəyli “Bəyliyin tarixi” kitabında və Dağıstanın bir çox qəzetlərində müxtəlif illərdə yazılar vermişlər.

Zəngəzurun təbiəti, insanları, oranın yaşayış tərzi, tarixi şəxsiyyətləri, bəyləri, ağaları haqqında xeyli elmi və publisistik yazılar yazılmışdır.

Bu sətrlərin müəllifi isə Zəngəzurun keçmiş tarixi və coğrafiyasına aid ilk elmi kitab yazmışdır (Z.N. – “Zəngəzurun qısa tarixi və coğrafiyası”. Bakı – 2000-il).

Paşa bəyin yaşadığı dövr isə XIX əsrin 2-ci yarısı və XX əsrin birinci yarısına təsadüf edir. XX əsrin 1905-1906—ci illərindən başlayaraq Rusiyanı, o cümlədən onun əsarətində olan Azərbaycanı

bolşevik üsyanları çuğlamışdı. Bu dövrün bolşevik yazarları əsasən sovetləri təriflər, onun siyasi tələbinə uyğun yazılar yazar, məlumatlat verərdilər. Çox hallarda da başqa çıxış yolu olmurdu. Belə yazarlardan biri də Nəzər Heydərovdur. O, özünün "Zəngəzur dağlarında" kitabında (əsər rus dilində 1968-ci ildə, 1972-ci ildə isə Azərbaycan türkcəsində Bakıda Azərbaycan Dövlət nəsriyyatında çap edilmişdir) yazır: – "Zəngəzurun ucsuz-bucaqsız yaylaqları çox qədimdən nəinki bu yerlərin aşağı hissəsinin köçəri-maldarlarını, hətta Qaryağın (Füzuli), Şuşa, Salyan və Cavad mahallarının maldarlarını özünə cəzb edirdi. Köçəriləri öz sürüləri ilə indiki Sisyan, Laçın, Qafan və Gorus rayonlarının otu bol olan, sərin dağlarında yaylaqdan yaylağa köçər, üç ay bu yerlərdən qoyun-quzu mələrtisi, çobanların hay-harayı kəsilməzdi. Cənubi Zəngəzurda qışın mülayim keçməsi Bərgüşad, Həkəri dərələrindəki qışlaqlarda, Araz boyu dərələrdə mal-qara və qoyun saxlamağa imkan verirdi. Zəngəzur mahalının əhalisi əsasən azərbaycanlılardan və ermənilərdən (İrandan və Türkiyədən köçürülmələr hesabına) ibarət idi. Burada kürdlər (Qurdlar) və ruslar da yaşayırdı, lakin onlar çox az idi. Azərbaycanlılar və ermənilər əsasən oturaq həyat sürürdülər.

İnqilaba qədər məhsuldar torpağı, yaxşı qışlağı olmayan Laçın rayonunun əhalisinin xeyli hissəsi adətən payızda öz heyvanları ilə Qarabağın aran yerlərinə köçərdilər. Qışlağa köçən kürdlər Şuşaya Zəngəzur (İrəvan) darvazasından girər, şəhərin içərisindən keçərək Gəncə darvazasından çıxardılar. O zaman şəhərin kənarından yol yox idi, yalnız cığırlar var idi. Köçərilər Şuşadan bir-birinin arxasınca ailə-ailə köçərdilər. Görürdün ki, 5-6 nəfərdən ibarət kürd ailəsi şəhərin içərisi ilə gedir. Onlar 4-5 baş qaramalı və 5-6 qoyun-quzunu qabaqlarına qatıb aparırlar. Evin bütün avadanlığı ulağa, öküzə və inəyə yüklənərdi. Ana, körpə uşağını dalına şəllərdi, ondan böyük uşaqları isə yüklü öküzün, ulağın, yaxud da inəyin üstünə mindirərdilər.

Cavan, orta yaşlı yoxsul kürdlər Qarabağda xanların, bəylərin və qolçomaqların qapısında işlərdilər. Əvəzində ağalar onları və ailələrini yedirərdilər.

Laçın və Qubadlı rayonlarında kürdlərin torpaqları olmadığına, zootexnika çox aşağı olduğuna görə, babat yaşamaq üçün, kifayət qədər mal-qara saxlaya bilmirdilər. Kənd təsərrüfatının bu vəziyyətə düşməsinə uzun əsrlərdən bəri davam edən köçərilik səbəb olmuşdu. Bütün bu səbəblərə görə kürdlər oturaq həyata keçmir və əkinçiliklə məşğul olmurdu.

Keçmiş Zəngəzur qəzasında üç Sultanovlar nəsli yaşayırdı.

İndiki Laçın rayonuna daxil olan Qurdgəzi (Qurdqajı) kəndindən olan Sultanovlar nəslən, ata-babadan mülkədar deyildilər. Qarabağın general-qubernatoru Xosrov bəyin babası çarvadar olmuşdu. O zaman xalq arasında deyərdilər: "hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz". Bax, həmin bu qatırçı Murad, Sultanovların babası idi. Murad varlanıb, Əsəd Sultanlı bəyinin qohumunu almışdı. Öz doğma oğlu Paşanı isə Əsəd Sultanlı bəyinin oğlu kimi qələmə vermişdi, güya uşaq yetimdi, dul anası yanınca gətirmişdi.

Sultanovlar çox böyük maldar idilər. Yüzlərlə inəkləri var idi. Bunlar Zəngəzurda və Qarabağda Hacısamlı cinsi adı ilə məşhur damazlıq inəklər idi.

Sultanovlar qiymətli Hacısamlı meşələrini muzdurlara qırdırıb xaricə, Fransaya göndərirdilər. Bu cür onlar varlanıb, bütün qəzaya meydan oxuyur, kəndliləri meşə işində amansızcasına istismar edirdilər.

Sultan bəy Sultanov və Zəngəzurun başqa mülkədarları, yoxsullaşmış bəylərdən seçdikləri yüzbaşılara arxalanaraq, kəndliləri vicdansızcasına və acgözlüklə çapıb talayır, istismar edirdilər. Çar hökuməti dövründə Laçın rayonunda şöhrəti Zəngəzurdan uzaqlara yayılmış, çoxlu mal-qarası və böyük meşə təsərrüfatı olan Sultan bəy müsavat hakimiyyəti dövründə o qədər varlanmışdı ki, (Əslində Sultan bəy müsavata qədər varlı idi. O, müsavatdan heç nə görməyib Z.N) təpədən dırnağadək silahlanmış qoçular saxlamaqla kifayətlənmir, quldur dəstələri saxlayırdı. Zəngəzur qəzasının Azərbaycan hissəsində hamıya yaxşı məlum idi ki, Sultan bəyin sərəncamında həmişə bir neçə yüz atlı quldur var və bu yerlərdə hakimi-mütləq olan bəy onların köməyi ilə kəndliləri həmişə qorxu

altında saxlayır. Hətta, inqilaba (bolşevik inqilabı nəzərdə tutulur) qədər onun ixtiyarında olmayan bir çox kəndlərin sakinləri Sultan bəyin və onun azğınlaşmış qohumlarının haqsız tələblərini sözsüz yerinə yetirməyə məsbur idi".

Əlbətdə, bu fikirlərin əksəriyyəti həqiqətə uyğun deyildir. Bunu tarixi və elmi araşdırmalarımız sübut edir. Yüzbaşıların bəylərdən seçilməsi sırf təhsillə, savadla bağlı olmuşdur. Digər tərəfdən müsavat hökumətinə qədər də Sultan bəy Paşa bəy oğlu varlı idi. Sultan bəy müsavat hökumətinin Zəngəzura, o cümlədən onun Laçın bölgəsinə gəlişinə qədər səlahiyyətinə aid olan kəndlərdən qoçu, quldur deyil, ilk növbədə sırf silahdan istifadə qaydalarını yaxşı bilən və kasıb, varlı olmağından asılı olmayaraq bəyləri cəmləmişdi. Həm də bu bəylər silahdan istifadəni bacarmayan insanlara silahdan istifadəni, döyüşün qaydalarını öyrədirdilər – imkanları çərçivəsində malları, pulları, atları, silahları və canları ilə vətənin daşnaklardan mühafizəsi yolunda Sultan bəyin, sonralar Xosrov bəyin, Paşa bəyin və digər seçilən bəylərin göstərişlərini könüllü olaraq yerinə yetirirdilər. Məlumatlar göstərir ki, bu döyüşlərdə ölənlərin əksəriyyəti bəy səcərəsi olan insanlardır. Buna misal olaraq Andraniklə döyüşlərdə XVIII əsrin ikinci yarısında Zəngəzur Sultanı olmuş Murtuza bəyin 35-dən çox yaşayış məntəqələrində yaşayan nəticə və kötücələrinin Sultan bəylə çiyin-çiyinə döyüşərək şəhid olduqlarını əyani dəlillərlə göstərmək kifayətdir.

Sultan bəyin qohumlarının isə ayrıca təsərrüfatları yox idi, onlar sadəcə onun təsərrüfatlarında icraçı idilər. Vətən qarşısında çox böyük tarixi xidməti olan Xosrov bəyin isə heç bir şəxsi vardövləti olmamışdır. Çəkdiyi xərclər və yaşayışı isə atası Paşa bəyin hesabına idi.

Hətta, "Qızıl Ordunun" 32-ci diviziyası Qarabağda onlara qarşı qiyam qaldırmış xalqı əzdikdən sonra, Laçın bölgəsinə gəlsələr də Sultan bəyin qorxusundan indiki Laçın (Abdallar) şəhərindən Hacısamlıya tərəf getməyə cürət etməmişlər. Bolşeviklər o bolşeviklər idilər ki, ermənilərin xahişini yerinə yetirmək üçün Zəngəzurun Azərbaycan hissəsindən məcburən taxılı alıb ermənilərə – Xınzirək

ermənilərinə göndərirdilər. Bu işlərin təşkilatçılarından biri – adı bolşevik özü isə daşnak olan Şmavon Şahnazaryan idi. Bu o Şahnazaryanlardan idi ki, Qarabağ xanı İbrahimxəlil xan erməni üsyançılarını cəzalandıranda babaları Şahnazaryan (Əslində bu ad Azərbaycan adı olmaqla Şahnəzər olmuşdur) doğma qızını xana bəxşiş gətirməklə özünü və ailəsini xanın cəzasından xilas edə bilmişdi. Xanın qohumu olmaqla, sonralar Qarabağda geniş əl-qol açmış, böyük var dövlət toplamışdı. İbrahimxəlil xanın Şahnəzərin qızından olan oğlunu İran Şahının sarayında xanzadə kimi – bir növ girov qoymuşdu. Lakin, erməni qızından olan xanın oğlu İrandakı ermənilərlə əlbir olmaqla İran şahının ordusunun qabağına düşərək atasının üstünə gətirərək, Qarabağ xanlığının farsların əlinə keçməsinə yardımçı olmuşdur. Odur ki, birdəfəlik bilməliyik – “ilanın ağına da lənət qarasına da”.

Paşa bəyin oğlanları Xosrov bəy Qarabağın general-qubernatoru olaraq, Sultan bəy isə Zəngəzurun Hacısamlı bölgəsinin rəhbəri olaraq bolşevikləri Qarabağa və Zəngəzura buraxmırdılar və bu yolda hər iki qardaş xeyli işlər görmüşlər.

Bu işlərdə də daşnak ermənilər cildlərini dəyişərək rus qoşunlarını bu bölgələrə dəvət etmişlər, ruslarla birlikdə Azərbaycan xalqına qarşı müharibənin ön sıralarında getmişlər.

N.Heydərov yazır: – “İngiltərə və ABŞ tərəfindən qızışdırılan daşnaklar 1920-ci il sentyabrın 24-də Bardiz və Ketekə yaxınlığındakı türk qoşunlarına hücum etdilər. Səfərbərliyi qurtarmış türk qoşunu daşnakların hücumunu dəf edərək, əks hücuma keçdi. Sentyabrın axırında türklər Sarıqamışı, Mərdələki tutdular və indiki Ermənistanın (Qərbi Azərbaycanın) içərilərinə doğru irəliləməyə başladılar.

İngilis-Amerika imperalistlərinin hesabına görə türk ordusu bir qədər də irəliləyib, o zaman Azərbaycanda olan Qızıl Ordu hissələri ilə toqquşmalı idi. Türk qoşunu çətinlik çəkmədən, oktyabrın 20-də Kars qalasını, noyabrın 7-də isə Aleksandropol şəhərini tutdu.

Türk qoşununun indiki Ermənistanı tamam tutacağını görüb, Sovet hökuməti noyabrın 11-də yenidən ermənilərə və Türkiyə hökumətinə öz vasitəçiliyini təklif etdi.

Noyabrın 18-də on günlük sülh müqaviləsi bağlandı".

Bu illərdə Zəngəzurda hələ də bolşeviklər qələbə çalmamışdı və Paşa bəyin oğlanları onlara qarşı mübarizəni davam etdirirdilər. Xosrov bəy Sultanovun müavini artıq bolşeviklər tərəfə işləyirdi, bəziləri də ona qoşulmuşdular.

Özləri üçün müstəqil dövlət yaratmaq fürsəti əllərinə düşən daşnaklar bu imkandan yararlana bildilər. Onlar bolşeviklər tərəfə keçməklə 1920-ci il noyabrın 28-də Dilicanda Ermənistan fəhlə və zəhmətkeş kəndliləri inqilabi komitə yaratdı. Ertəsi gün komitə Ermənistan Sovet Sosialist Respublikası yaradılması haqqında deklarasiya verdi. İki gün sonra, 1920-ci il iki dekabrda, Ermənistan SSR-in suverenliyi haqqında RSFSR ilə Ermənistan SSR arasında müqavilə bağlandı. Beləliklə, Qərbi Azərbaycan Azərbaycanın əlindən yenidən çıxdı.

Lakin, imperialist dövlətlər hələ də daşnaklara bu gün olduğu kimi yardım etməkdə davam edirdi. Xosrov bəy və Sultan bəy qardaşlarının isə heç yerdən yardımları yox idi. Onlarsa əllərindən gələnləri etməkdə israrlı idilər.

M.B.Traskunov "Qafqazskaya Krasnoznamennaya" kitabına arxiv sənədlərinə əsasən yazmışdır: "Daşnak ordusu Amerika çörəyi yeyirdi. Yalnız 1920-ci ilin iyulunda ABŞ Ermənistana 50 min əsgər üçün ərzaq, silah və hərbi sursat göndərmişdi.

ABŞ-ın daşnaqlara belə yaxınlıq etməsi İngiltərəyə, Fransaya, İtaliyaya və digər imperalist hökumətlərə Yaxın Şərqdə və Zaqafqaziyada ərazi zəbt etməyə mane olmurdu. Lloyd-Corc hökuməti daşnak ordusunun döyüş qabiliyyətini yüksəltmək qayğısına qalaraq, 1920-ci ildə ona 40 min əsgər üçün silah və paltar göndərmişdi, Fransa isə 10 min tüfəng və 10 milyon patron vermişdi". General Njde (erməni) və onun ən yaxınları istisna olmaqla bütün daşnak ermənilər bolşeviklərlə birləşərək hər tərəfdən Zəngəzura, Yuxarı Qarabağa və onun bir bölgəsi olan Laçına hücuma keçdilər.

"Böyük Oktyabr Sosialist inqilabı və Ermənistanda Sovet hakimiyyətinin qələbəsi". Sənədlər məcmyəsi. Erevan. Aypetrat, 1957-ci il, səhifə 567-də göstərilir: - "Sovet qoşunları Ermənistan

tərəfdən Zəngəzura üç istiqamətdə gedirdi. Ermənistan Qızıl Ordusunun (daşnakların) 1-ci, 2-ci və 3-cü polku Verdi-Daralagöz-Sisyan tərəfdən; 184-cü, 4-cü süvari polku Naxçıvan-Biçənək-Sisyan tərəfdən; 177-ci və 178-ci polklar Naxçıvan-Ordubad-Mığrı tərəfdən;1-ci Qafqaz korpusu isə Qarabağ tərəfdən Zəngəzur üzərinə hücuma keçdi.

İyulun 2-də 1-ci Qafqaz korpusu Gorusa daxil oldu. Onların arxasınca sisyan tərəfdən gələn hissələr də şəhərə girdi.

Daşnak "hökuməti", başda general Njde olmaqla Qafan dağlarına çəkildi və Mığridən İrana adladı".

Yazılanlardan məlum olduğu kimi Sultan bəyin belə bir qoşunu yox idi ki, bu boyda bolşevik-daşnak ordusunun qarşısında dayansın. Onun yeganə ümid yeri Laçın əhalisi idi. Xosrov bəyin isə yanında bir nəfərdə olsun insan yox idi. Bütün bunlara baxmayaraq qardaşlar 1923-cü ilə kimi bu bölgədə qala bilmişdilər. Hətta, bolşeviklərin həbs etdikləri Xosrov bəy türmədən çıxmağa nail olmuşdu. Xosrov bəylə N.Nərimanov dost idilər, hər ikisi həkim idi. Müxtəlif fikirlər olsa da, əslində Xosrov bəyi Bayil türməsindən N.Nərimanov qaçırda bilmişdir və bu haqda Azərbaycan arxivində sənəd də mövcüddur.

N.Heydərov yazır: – "Keçmiş Hacısamlı mülkədarları Xosrov bəy və Sultan bəy Sultanovlar böyük bir antisovet bandanın fəaliyyətinə başçılıq edirdilər. Digər Sultanovlar Qubadlı sahəsində Lətifin və Kərimin bandasına başçılıq edirdilər. Zəngilan rayonunda, İran sərhəddində Mincivan bəyləri Bəhmən bəyin bandasını təşkil etmişdilər". (N.Heydərov – "Zəngəzur dağlarında" – Bakı – 1972-ci il. səh.131) Həqiqət isə başqadır. Xosrov bəy öz silahdaşları vasitəsi ilə öz adından ayrıca, atası Paşa bəyin adından ayrıca həm yazılı və həm də şifahi olaraq çekanın rəisi işləyən, şəxsən tanıdığı M.C.Bağırova bu insanların dövlət qarşısında günahsız olduqlarını, daşnak-vəhşi ermənilərdən doğma torpaqlarını müdafiə etməsində Sultan bəyin qəhrəmanlıq göstərdiyini nəzərə çatdırmışdır. Xosrov bəyin bu sifarişinə Sultan bəy özünə mənsub münasibət bəsləmiş və bolşeviklərə inanmadığını bildirmişdir.

M.C.Bağırov isə qatı kommunist idi, bəylərə mülkədarlara inanmırdı, ermənilər kimi millətçi də deyildi. Mərkəzi Komitənin də tapşırığı burjua təbəqəsini bir sinif olaraq məhv etmək idi. Digər tərəfdən Azərbaycanda hakimiyyətdə əsasən ermənilər, ruslar, gürcülər və yəhudilər idi. M.C.Bağırov istəsə idi belə, bu mümkün deyildi. Ermənilər isə həmişə olduğu kimi "fürsəti fövtə vermir", Sultan bəy və Xosrov bəyin öldürülməsini təkidlə tələb edirlər. Qarabağ və Zəngəzur ermənilərinin adından cürbəcür tələblər irəli sürürlər. M.C.Bağırov dostluq etdiyi Sultan bəyin qohumu vasitəsi ilə onu öldürməyə qərar verir. Lakin, iki yol ayrıcında qalan Sultan bəyin qohumu onu yaralamaqla bu oyundan yaxasını qurtarmaq istəyir. Nəticəsi isə ona baha başa gəlir. Sultan bəy də elə ona güllə atanı onun dostunun əli ilə aradan götürür.

Bir çox erməni, rus, azərbaycan arxivlərində olan məlumatlar göstərir ki, 1920-1921-ci illərdə Zəngəzur bölgəsində qanlı qırğınlar davam etməkdə idi. Zəngəzurda bu qırğınları törədən təkcə Andranik deyildi. Laçından Qarabağa keçə bilməyən ermənilər 1919-cu ilin ikinci yarısından başlayaraq erməni daşnak hökuməti Zəngəzuru hər vasitə ilə möhkəmləndirirdi. Zəngəzura arası kəsilmədən bir-birinin ardənca silahlı dəstələr göndərməkdə davam etdirməkdə idi. 1919-cu ilin dekabr ayında hərbi nazir Dro özü böyük hərbi hissə ilə Zəngəzura gəlir. Bundan əvvəl Dro Zəngəzura gətirəcəyi qoşununu nəyə qadir olduğunu İrəvanda paradda nümayiş etdirir.

Tarixi məlumatlara görə 1919-cu ilin dekabr ayında, 1920-ci ilin yanvar və mart aylarında Dro və Njde bir-birinin ardınca üç dəfə hərbi yürüş edərək, Zəngəzurun azərbaycanlılar yaşayan kəndlərini talan edib, qoşunlarının bir hissəsi ilə Dağlıq Qarabağa girmişlər. N.Heydərovun yazdığına görə – "Daşnaqlar müsavat qoşunları üzərində qələbədən (Qarabağ nəzərdə tutulur) ruhlanaraq, 1919-cu ilin oktyabr ayında "qardaş ermənilərə kömək" bəhanəsi ilə, əslində isə müsavat hökuməti əleyhinə üsyan hazırlamaq üçün öz emissarları – Arsen Ter-Mikaelyanı (başçı), polkovnik Dəli-Qazarı və potmistr Martirosyanı qabaqcadan Dağlıq Qarabağa göndərmişdilər.

Emissarlara siyasi işçilərdən Artyom Tumanyanı və Astasatur Avetisyanı da qoşmuşdular. Bütün bu dəstə Qarabağa gəldiyi zaman daşnaqlar Zəngəzurda müsavat qoşunlarının hücumunun qarşısını dəf edirdilər və bütün Qarabağı tutmağa hazırlaşırdılar. Müsavat hökuməti də (Xosrov bəyin təşkilatçılığı ilə) öz növbəsində, Zəngəzuru tutmaq üçün Qarabağda hazırlıq işləri görürdü.

Daşnaqlar Zəngəzuru və Qarabağı Kür çayına, Gürcüstanın sərhəddinə qədər sağ sahili tamam tutmaq istəyirdilər. Bu onları nəinki Bakını, hətta Tiflisi də qorxu altında saxlamağa imkan verərdi. Onlar söz yox ki, Amerika imperalistlərinin köməyi ilə, özlərinin çoxdankı planlarının birinci hissəsini – "dənizdən dənizə qədər olan Ermənistan" yaratmaq planlarını bu cür həyata keçirməyə hazırlaşırdılar. Amerikalılar isə Bakının neft sərvətlərinə daşnaqların əli ilə çatmaq istəyirdilər".

Digər mənbə, "SSRİ-də vətəndaş müharibəsi tarixi" cild 3, Moskva, 1957-ci il, səhifə 333-də isə göstərir ki, "...daşnaqlar Zaqafqaziyaya Ermənistandan girməyə başlayan Amerika imperialistlərinin agenti idi. Amerika imperialistləri Ermənistanın Türkiyə, Rusiya və İran hissələrini birləşdirib, Ermənistan üzərində ABŞ-ın "dost" protektoratını qurmaq fikrində idilər. Amerika diplomatlarının hesabına görə, "Böyük Ermənistan" bütün Zaqafqaziyanı tutmaq üçün ABŞ-ın işini asanlaşdırmalı idi".

Ondan yüz ilə yaxın vaxt keçsə də erməni də həmin ermənidir, ABŞ-da həmin ABŞ-dır və digərləri də eyni qayda ilə Azərbaycanın yeganə ümidi Türkiyə və özüdür. Amma, bununla yanaşı ətraf ölkələrlə – xüsusən də türk dövlətləri, gürcülər və farslarla "dil" tapmaq çox gərəklidir.

İndi olduğu kimi, daşnaklar xarici qüvvələrdən dəstək, silah-sursat, pul, siyasi dəstək almaq üçün Ermənistan respublikası olduğu halda belə, Zəngəzurda "Yeni Ermənistan hökuməti", "Dağlıq Ermənistan hökuməti", "Azad syunik hökuməti" adı altında erməni dövlətinin mövcudluğu haqqında cürbəcür bəyanatlar verirdilər. Əslində isə hökumət kimi daşnaklar nə Zəngəzurda, nə də başqa bir yerdə fəaliyyət göstərmirdilər.

Tarixi vərəqlədikcə məlum olar ki, keçmiş SSRİ məkanında, xüsusən də Azərbaycanda guya bir nəfər də olsa yaxşı bəy, mülkədar, din xadimi, ziyalı olmamışdır. Düzdür, Sovet hakimiyyəti bu təbəqələrin insanlarının hamısının bir sinif olaraq ləğv olması, məhv olması haqqında qərar vermişdi. Lakin, istənilən təbəqə insanlarının hamısına eyni damğanın vurulması öz-özlüyündə bu quruluşun nə dərəcədə bəsit, düşüncəsiz və mənəvi dəyərlərə söykənmədiyinə əyani bir sübutdur. Çox qəribədir ki, uzun müddət bu quruluş çərçivəsində formalaşan ziyalılarımızın, tarixçilərimizin, alimlərimizin xeyli hissəsi bolşeviklərin nöqsanlarını bir həqiqət kimi qəbul etmişlər.

N.Heydərov yazır – "Yuxarıda dediyim kimi Hacısamlı bəyləri – Xosrov, Sultan və İsgəndər Sultanovlar bütün camaatı qorxu altında saxlayan ən qəddar istismarçı və ən zalım müstəbidlər idilər. Çar hökuməti zamanı nə nahiyə pristavı, nə qəza rəisi yerli kəndləri onların özbaşınalığından qorumaq belə istəmirdi. Zəngəzurun zəngin təbii sərvətləri – meşə sahələri, yaylaqlar varlı sultanovların əlində idi. Ehtiyatsızlıq edib sultanovların dalınca bircə kəlmə pis danışan adamı Sultan bəy cəzasız qoymazdı". Qeyd edək ki, Sultan bəy Hacısamlı bölgəsinin bəyi idi və bir çox məsələlərdə bölgəyə cavabdeh şəxs idi. Bu mənada onu başa düşmək olar. Lakin, qardaşı Xosrov bəy çox gənc yaşlarından təkcə Hacısamlıdan deyil, bütün Qarabağdan getmişdi və bu bölgəyə ancaq general-qubernator kimi gəlmişdi. Onun da mərkəzi Şuşa idi. Xosrov bəy ancaq Cümhuriyyət məhv olduqdan, bolşeviklər hakimiyyətə gəldikdən sonra, Bakı türməsindən azad olduqdan sonra Laçına gəlmiş, öz ata-baba yurdunda yaşamamış, Hacısamlıda onu heç kim görməmişdir. Çünki o, Sultan və İsgəndər bəy qardaşları ilə birlikdə Cənubi Azərbaycana getməli olmuşdur. İsgəndər bəyə gəldikdə isə o, ancaq və ancaq Sultan bəyin təsərrüfatlarında icraçı bir şəxs olmuşdur. O, dövlət qarşısında məsul şəxs deyildi, heç bir vəzifə sahibi də deyildi. Digər tərəfdən bu bölgədə Sultanovlardan da başqa bəylər var idi. Amma, hakimiyyət sahibi olmayan bu bəylər də, çox kiçik təsərrüfatı olan bəylər, mollalar, heç nəyi olmayan ziyalılar da bolşevik quruluşunun qurbanı olmuşlar.

Erməni daşnakların ardınca bolşeviklər bu və ya digər yollarla Zəngəzurda, Yuxarı Qarabağda, Laçında olan bəyləri ilk növbədə aradan götürməkdə qərarlı idilər. Bu yolda əsasən ermənilər canfəşanlıq edir, bölgənin bolşevik özəklərinin fəallarından istifadə edirdilər. Ermənilər istənilən şəraitdə cildlərini dəyişərək, indidə bolşevik adı ilə Sultan bəyi, Xosrov bəyi, qardaşlarını və digər məlum bəyləri aradan götürmək üçün böyük səylər göstərir, fikir yaradır, bu insanların hətta gizləndikləri yerləri ruslara xəbər verirdilər.

Sultan bəy də heç cürə bolşeviklərə qarşı mübarizəsindən yayınmaq istəmirdi. O, inanırdı ki, Azərbaycan müstəqil olacaq, Azərbaycan Demokratik Cümhuriyyəti yenidən hakimiyyətə gələcək. Hətta, qardaşı Xosrov bəyin onun yolunu tutmasını istəyirdi. Xosrov bəy isə uzun müddət siyasi yol keçmiş bir şəxs kimi həqiqətləri görməkdə daha uzaqgörən idi.

Laçınlı İsmayıl Mirzəyev bolşevik idi. O, inqilabdan əvvəl Bakıya işləməyə getmiş, 1914-cü ildə bolşeviklərin cərgəsinə qatılmış və Rusiyada vətəndaş müharibəsi illərində Saritsin yaxınlığında bolşevik olaraq Çara qarşı döyüşmüşdü. Digər bolşevik Laçınlı Ocaqqulu Musayev 1919-cu ildən bolşevik partiyasının üzvü idi və 1922-ci ildə erməni daşnaqları tərəfindən qətlə yetirilmişdi. Hər iki şəxs, hətta Zəngəzurda məşhur bolşevik idilər. Lakin, onlar Sultan bəyə qarşı heç bir pis əməllərdə iştirak etməmişlər.

Bununla yanaşı Ocaqqulu Musayevin şəxsində Laçının Mollaəhmədli kommunist özəyi xeyli güclü idi. Bundan istifadə edən bolşeviklər buraya, Sultan bəyin və digər bəylərin ələ keçirilməsi məqsədi ilə 1920-ci ilin may ayından Bakıdan bolşevik Abbas Sultanovu Laçına ezam etmişdilər. Əslən Zəngəzurlu olan Abbas da qatı kommunist idi, yazılanlara görə çox cəsarətli adam olmuş, bolşevik ideyasının təbliğlərinə inanmış, özü əsilli ailədən olsa da Çingiz İldırım sayağı “kommunist yükü” daşımışdır. Abbasın Laçına gəlişini Sultan bəyə çatdırdıqda, o, Araflıdan Mirzə Həmid bəy Nəbibəylini və Teymur Qulu oğlu Allahverdiyevi Minkəndə göndərmiş və Abbas Sultanovu öz hüzuruna gətizdirmişdi (Qeyd edək ki, Mirzə Həmid bəyə bolşeviklərin

iddialarının çoxu onun Sultan bəylə birlikdəki fəaliyyəti olmuş və 1935-ci ildə həbs etməklə məhv etmişlər. Araflı Nəbibəylilər əvvəllər də Sultan bəylə bir olmuşlar və qohumluq əlaqələri də var idi). Sultan bəy Abbas Sultanovu yaxşı qarşılamış, birlikdə süfrə arxasında oturub çörək kəsmişlər, hər tərəfli söhbət etmişlər. Sultan bəy Abbası şəxsən tanımasa da kommunist kimi kimliyini və Zəngəzurun Qubadlı bölgəsində məlum nəsldən olma məlumatına malik idi. Onlar ikilikdə çox söhbət etsələr də, biri digərini yola gətirə bilməmişdi. Axırda hər ikisi əsəbi vəziyyətdə bir-birlərinə cavab vermişlər. Sultan bəy daha çox təcrübəli və yaşcada böyük olduğundan, "qonağı" öz evində qarşıladığından özünü nisbətən ələ ala bilirdi. Abbas isə hesab edirdi ki, onun son anlarıdı, Sultan bəy onu sağ-salamat buraxmayacaq, onsuzda ölürəmsə, heç olmazsa bildiyimin hamısını üzünə deyim. Əsl həqiqət isə siyasi düşüncə tərzi idi. Sultan bəy keçdiyi yola, yaşadığı cəmiyyətə istinad edirdisə, Abbas kommunistlərdən eşitdiyinə və onların yazdıqlarını oxuduğu mənbələrə inanırdı. Elə burada da yollar ayrılırdı. Abbas, Sultan bəyə onun var-dövlətinin alınaraq xalqa paylanmasından, ayrı-ayrı kəndlərdə insanları cəzalandırmasından, qohum-qardaşlarının türmələrə salınacağından və sair bir çox olmuş, yaxud olmamış söhbətləri onun üzünə öz evində dedi. Bütün bunlara baxmayaraq Sultan bəyin yekun hərəkəti, onun çox böyük duyğulu insan olmasına əyani sübutdur. Belə ki, Sultan bəy Abbası yaxşı başa düşdüyündən, bütün məqamları yaxşı qiymətləndirə bilməsinə rəğmən onu Seyid Həmidin yola salması ilə sağ-salamat buraxmışdır. Seyid Həmid də dolayısı ilə olsa da Sultan bəyə qohumluğu çatırdı. Həm atası və həm də anası tərəfdən. Seyid Həmid Sultan bəyin bir çox tapşırıqlarını yerinə yetirmiş insan olmaqla, onun xasiyyətini də gözəl bilirdi.

Onun ata tərəfi "Böyük seyidlər" adlanan yaşayış məntəqəsindən olmaqla XVIII əsrin ortalarında Murtuza bəyin Cənubi Azərbaycandan gətirdiyi təhsilli bir ağanın törəmələrindəndir. Adlı-sanlı, nəfəsli nəsldir, Qarabağın ad çıxarmış seyidlərinin hamısı bu nəsldən olmaqla Laçından getmədirlər. Seyid Həmidin ana

tərəfi Murtuza bəyin malikanəsində boya-başa çatmış və Araflıda yaşamış Hüseyinqulu bəyin qızı İpək xanım olmuşdur. Seyid Həmid 1918-ci il erməni-müsəlman müharibəsində dayıları hesab edilən Araflı, Alıqulu, Bülövlü, Yenqıca, Bağırbəyli və s. Bəyləri ilə çiyin-çiyinə fədakarlıq göstərmişdir. Paşa bəyin ikinci xanımı "Böyük seyidlər" kəndindən olan Seyid Mirəzizin qızı Ağaxanım xanım olmuşdur.

Seyid Həmidi Sultan bəylə birləşdirən təkcə dayıları Araflı bəyləri, yaxud Ağaxanım xanım deyildi. Mirzə Həmid bəy Nəbibəylinin də xanımı həmin seyidlərdən idi və Seyid Həmidin atası ilə qohum idilər.

Zəngəzurun Hacısamlı hissəsində təkcə Seyid Həmidlə Sultan bəy deyil, Araflı bəylərinin törəmələrinin 35 bir-birlərinə çox yaxın yaşayış məskənləri, Sultan bəyin özünün yaşadığı məskən və Böyük seyidlər kəndi əhalisi bir-birlərinin çevrələrində məskunlaşmışdılar və bu insanlar bir-birləri ilə qaynayıb qarışmışdılar.

Sultan bəy Hacısamlını tərk edənə qədər Seyid Həmid onunla təmasda olmuşdur. Lakın, bununla yanaşı Seyid Həmid bolşeviklərlə də yaxınlıq etmişdir. Laçında bolşeviklər hakimiyyət başına gəldikdə burada məsul vəzifədə çalışanlardan biri də Seyid Həmid olmuşdur. Sultan bəyin, Araflı bəylərinin, Seyid Həmidin ana babası Hüseyinqulu bəyin, Alıqulu yaşayış məskənində yaşayan Cəbrayıl bəyin, Paşa bəyin, Mikayıl bəyin, Alı bəyin törəmələrinin torpaqlarının, mal-qaralarının əllərindən alınaraq ev-eşiklərindən didərgin edilməsindən sonra hələ də vəzifədə olan Seyid Həmid Böyük seyidlər kəndindən bir neçə seyid ailəsini Alıqulu kəndinə köçürmüşdür. Amma, bunu o, dayılarından icazə almaqla etmişdir. Kəndi ilk saldıran, 100 başı, 1000 başı, Zəngəzurun sultanı olmuş 3-cü Alməmmədin Alıqulu kəndi ilə üzbəüz Yalkənd kəndini tam məhv etmişlər və bəyin sağ qalmış törəmələri Kəlbəcərdəki, Tərtərdəki, Xankəndindəki qohumlarının yanına getməyə məcbur olmuşlar. Bu sətirlərin müəllifinin babasının da Alıquluda yaxşı imarəti və xeyli torpaqları, meşələri, bağları olmuşdur. Bolşeviklər imarəti uçurdurlar, salamat qalmış yeganə tikili Ağ dama (ağdaşdan divarları olan

yeganə tikili olmuşdur) isə Böyük Seyidlərdən köçürülmüş Seyid Əsgərin ailəsi yığışmışdır. Seyid Əsgər kişi bu işləri ürək ağrısı ilə xatırlayardı. Cəbrayıl bəyin Ağ damı 1970-ci illərin əvvəllərinə qədər salamat idi. Seyid Əsgər kişi heç kimə dama toxunmağa icazə verməzdi və həmin damda ömrünün axırınacan yaşadı.

Seyid Həmid bolşeviklərlə axıra kimi əməkdaşlıq edə bilməmiş, onlar Seyid Həmidin əvvəki fəaliyyətindən xəbər tutduqdan sonra onun da yaşamasına xitam vermişlər. Hadisədən sonra Seyid Həmidin xanımı hamilə olaraq öz evində yaşaya bilməmiş, onu müxtəlif yerlərdə gizli saxlamışlar. Seyidlər kəndi, Alıqulu, Araflı gənc xanımı müdafiə edə bilməmişlər (qorxularından). İpək xanım hər gecəni başqa-başqa ailələrdə keçirməli olur. Bu hadisədən xəbər tutan görkəmli şəxsiyyət olmuş Cəbrayıl bəyin özü ilə yaşamış oğlu Cəlil bəyin xanımı Qaratel xanım böyük qardaşı Əbil bəyi öz evinə dəvət edir. Çox qeyrətli xanım olan Qaratel xanım hadisəni qardaşına danışır. Əbil bəy hamilə xanımı bacısının evinə gətirir. Əslində bu insanların hamısı yaşayış üçün yararlı olmayan, heyvanat saxlanılan ayrı-ayrı əlçatmaz yerlərdə gizlənirdilər. Qaratel xanımın da olduğu yer Biləvlidən qərbə meşə içərisində olan Kişpəyələri adlanan heyvanat saxlanan yerdə idi. Bu meşələrdən çay axarına düşdükdə Cəbrayıl bəyin malikanəsi, dəyirmanı və üzbəüz Sultan bəyin qış evi adlanan iki mərtəbəli mülkü qarşıya çıxırdı. Bu insanlar hamısı eyni dərdli idilər. Seyid Həmidin anası bir müddət burada qaldıqdan sonra məsələnin üstü açılır. Əbil bəy Paşa bəy oğlu Hətəmbəyli bacısının tövsiyəsi ilə İpək xanımı əvvəlcə Haxnəzər kəndinə, sonra isə Ağcayazı kəndində yaşayan və Mikayıl adlı birisi ilə evlənmiş Mürvət adlı bacısının evində yerləşdirir. Mikayıl bəy, seyid, molla olmadığından o, nəzarətdə deyildi. Onun ardınca Qaratel xanım və qardaşı Əbil bəy bacıları Mürvət xanıma bacardıqları yardımı etdilər və İpək xanımın körpəsi işıqlı dünyaya göz açdı. Bu körpə oxudu, Sumqayıt şəhərində yaşadı, alim oldu. Bu alim Miriş müəllimdir və hazırda Bakı şəhərində yaşayır.

Abbas Sultanov həqiqətən qatı kommunist olmuş, Bakı bolşevikləri arasında formalaşmışdı. Bolşeviklərə tam varlığı ilə

inanan Abbas, nə bəyin ona yaxşı münasibətinə, nədə ki, bəyin onu məhv edəcəyindən çəkinmədən onun haqqında eşitdiyi və bildiyini birbaşa dilə gətirirdi. O, çalışırdı ki, Gürcüstanda və Ermənistanda da bolşeviklərin qələbə çalacağına bəyi inandırsın, onun tabeçiliyində olan silahlı insanları ətrafından kənarlaşdırsın. Sultan bəy isə hələ də ümidlə yaşayırdı, özünün, müsavatın qələbə çalacağına inanırdı.

Kommunistlər Seyid Həmid vasitəsi ilə Sultan bəyə tezliklə təslim olmağa, Abbasa isə toxunmamağa çağrış etməklə məktub da göndərmişdilər, bəzi yerli kəndlilərin bolşeviklərə şikayətlərini də unutmamışdılar. Məktubun hikkəli yazılışı ilə Abbasın danışıqlarının ümumi tonu uyğun gəlirdi. Kommunistlərin Zəngəzurdakı rəhbəri isə dünənki erməni daşnak Qaragözov idi. O, Sultan bəyə hədə-qorxu gələrək – "Abbas üçün, indi bizdə olan Xosrov bəy başda olmaqla, bütün qohum-əqrabanızla cavab verəcəksiniz!" yazırdı. Armenak Qaragözov sonra Sultan bəyə əslən Bayandur kəndindən olub, Hoçaz kəndində yaşayan Molla Məhəmmədi (o, molla olmayıb, sadəcə təhsilli adam olub) öldürdüyünü, Biləvli Mahmudu tonqalda yandırdığını, 16 yaşlı Novrəstə adlı qızın əhvalatını, Cabbar bəyin, Talıb bəyin öldürülməsini, Qoturlu Firidun bəyin İbraih bəyə ərə getmiş qızının Sultan bəyin qardaşı İsgəndər bəyin almaq istəməsi əhvalatını və sair öz məktubunda xatırlatmaqla onu hədələmiş və Abbası azad etməyi tələb etmişdir.

N.Heydərov isə Sultan bəyə, onun qohumlarına olan bu iradları təsdiqləmiş və belə yazmışdır: – "Burada mən mülkədar Sultan bəyin etdiyi cinayətləri bədii formada təsvir etməyə çalışmıram, baş vermiş hadisələri həqiqətən olduğu kimi danışıram. Partiya arxivində cənab Sultan bəyin bu cür bir çox cinayətləri barədə kürdüstan nümayəndələrinin müfəssəl məlumat verən ərizələri saxlanılır. Bax fond 74, cild I, iş 123, səh. 56 və s."

Qeyd edək ki, Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra, ermənilərin fitvası əsasında mərkəzi Laçın şəhəri olmaqla Kürdüstan qəzası yaradılmışdı. Lakin, üç gündən sonra Azərbaycan KP MK-nə məlum olmuşdur ki, səhvə yol verilmiş-

dir, burada kürdləri barmaqla saymaq olar. Odur ki, bu bölgədə məktəblər, idarələr əvvəllər olduğu kimi türkcə fəaliyyətini davam etdirmiş, qəzalar isə bir müddətdən sonra ayrı-ayrı bölgələrə (rayonlara) ayrılmışdır.

Armenak Qaragözovun bu məktubu və Əliyanlı Ədil bəyin Hacısamlıya gələrək bolşeviklərin 28-ci diviziyasının süvari, piyada və topçu hissələrinin Lısaqoru keçərək Abdallara (Laçına) yaxınlaşdıqlarını Sultan bəyə xəbər verdikdən sonra xeyli mübarizə aparsa da, Hacısamlını tərk etməyə qərar vermişdi. Qalmışdı, vacib saydığı bir neçə işi yoluna qoymaq. Bu isə 1923-cü ilin ortalarına kimi çəkdi...

Paşa bəy – bir bəy, bir ağsaqqal olaraq övladlarının uzun müddətə – uzun müddətli siyasətə sahib olması yolunda da fəaliyyət göstərmişdir. Paşa bəyi, onun övladlarını istəməyənləri də özü neytrallaşdıra bilmiş, övladlarını "yoldan çıxmağa" imkan verməmiş, yeri gələndə lazım bildiklərini cəzalandırmağı da bacarmışdır. Paşa bəy bir çox məsələləri siyasətçi dövlət xadimləri qədər dərin təhlil edib, düzgün nəticə çıxarmağı bacarırdı. Amma, elə olurdu ki, onun bu qabiliyyətini hamı, hətta yaxın qohumları belə tələb olunan səviyyədə dərk edə bilmirdilər. Paşa bəy, lazım gəldikdə el arasında nüfuz sahibi olmayan ayrı-ayrı insanlarla da əlaqə yaradardı. Bu işlərdə onun nə qədər haqlı olduğunu isə zaman – vaxt təsdiq edib, möhürünü vurardı. Paşa bəyin xasiyyətini, qabiliyyətini bilən hər kəs onun sözünü kəsməz, bir sözünü iki etməzdilər. Səbəbi isə ona böyük inamın olması idi. Bütün bu hörmətin bünövrəsində isə Paşa bəyin ədalətin, düzgünlüyün yanında dayanması olmuşdur.

# ZİYALI MƏKTUBU

Xalq qəhrəmanları ona görə yaşayır ki, onları nəsildən-nəsilə ötürən, onun xeyirxah əməllərinin tədqiq edən xalqın özüdür. Belə xalq qəhrəmanlarından biri də Laçın rayonunun Hacı-Sanılı obasında dünyaya göz açmış Sultan bəy Sultanov Paşa bəy oğludur. Onun anadan olmasının 140 illlyinin yad edilməsi, müxtəlif tədbirlərlə keçirilməsi bir Azərbaycan vətəndaşı kimi məni çox sevindirir. Mən nə vaxtsa bu şəxsiyyətin öz layiqli qiymətini alacağına inanırdım. Bu gün həqiqət bərpa olunur. Sultan bəyi xarakterizə etmək olduqca çətindir, həm də şərəflidir. Çətindir ona görə ki, o, özünə xas olan hər tərəfli fitri istedadlı bir şəxsiyyətdir. Şərəflidir ona görə ki, hər bir Türk oğlu ona oxşamağa çalışır, onun həyat yolunu öyrənir, ondan qürurlanır, onu ürəkdən sevir.

Sultan bəy vətənpərvərdir. O, doğulduğu obanı, eli, onun yaylaqlarını, meşələrini, göz oxşayan buz bulaqlarını, bir sözlə flora və faunasını, təbii sərvət deyilən hər bir nemətlərini sevir. Çərçivəli, asılı rus zabiti olmaqdan bəylik qürurunu üstün tutan Sultan bəy Peterburqda ali hərbi təhsilini yarımçıq qoyaraq doğma vətəninə qayıtmışdır. Bundan sonra Laçında dövrünə görə müasir tipli zavodlar tikdirərək əhalini işlə təmin etmiş, bəzi xarici dövlətlərlə ticarət əlaqələrini yaratmışdır.

Ermənilər mütəmadi olaraq 1905, 1906, 1918-1920-ci illərdə Qarabağa, Zəngəzura məkrli planlarla hücum etmişdilər.Bu hücumların dəf edilməsində Sultan bəy Paşa bəy oğlu Laçınlı igidləri öz vəsaiti hesabına silahlandırmaqla erməni-rus birləşmələrini darmadağın etmişdir. İlk dəfə 1906-ci ildə Şuşanın azad edilməsinə nail olmuş, onun dəstəsi 500-dən çox erməni öldürmüş, 300 nəfəri yaralamışdır. Andronikin əsas fikri Laçından keçməklə Qarabağı Ermənistanla birləşdirmək idi. Onun bu planını da puç edən Sultan bəy Sultanovdur.

Tarixdə bu əməliyyat Zabıx əməliyyatı ilə özünə yer almışdır. Bu əməliyyatda ağıllı, istedadlı, igid Türk oğlu Sultan bəyin müharibə taktikası nəticəsində Andranikin qoşunu son nəfərə kimi darmadağın edilir. Sultan bəy Sultanov və Xosrov bəy Sultanov qardaşları doğma obasını, elini, mənsub olduqları Türk soyunu ürəkdən sevmiş, Azərbaycan dövlətinin bütövlüyü-

nü, sərhədlərini qoruyub saxlaya bilmişdir. Bu istək onların amalı olmuşdur. Elinə, obasına, millətinə, xalqına sonsuz xidmət göstərən Paşa bəyin bu cüt oğulları canı, qanı bahasına igidliklə qoruyub saxladığı Azərbaycanın igidlik yuvası sayılan Laçında yaşaya bilmədilər.

Qızıl Ordu Azərbaycanı işğal etdikdən sonra, Paşa bəy oğlanlarının ağır günləri başlandı. Onların sürgün edilməsi, hətta xalq düşmənləri olmaları haqqında məkrli sənədlər hazırlandı. Nəticədə Sultan bəy əvvəl İranda, sonralar Türkiyə dövlətində mühacir həyatı yaşamağa məhkum edilir.

Sultan bəy Türk tarixində böyük qiymətə layiqdir. Ermənilər azərbaycanlıların tarixi düşmənidir-bunu heç bir Türk oğlu yaddan çıxartmamalıdır. Ermənilər tarix boyu ən ağır dərsi Sultan bəydən aldılar.

Sultan bəy Türkiyədə mühacir həyatı yaşayarkən də, öz böyük qürurunu itirməmiş, yeri gəldikcə ətrafında olan Zəngəzurlulara maddı köməklik göstərmiş, ömrünün sonuna qədər onların ağsaqqalı olaraq qalmışdır.

Bu günkü gənclərimiz belə şəxsiyyətlərin ömür yolundan necə yaşamağı və Vətəni necə sevməyi öyrənməlidirlər.

Sultan bəyin Türkiyədə sığınacaq tapmaq məqsədi ilə etdiyi müraciətə Atatürk belə cavab vermişdir: "Ermənilərə verdiyiniz tarixi dərslərə görə Türkiyənin qapıları həmişə üzünüzə açıqdır!"

Hazırda böyük Türk dünyasının qəhrəman oğlanlarının həyat səlnaməsini araşdırılması, göstərdiyi tarixi qəhrəmanlıqların nümunələri biz Türkləri sevindirir. Bu gün bu tarixi zərurətdir. Çünki Azərbaycanımızın ərazi bütövlüyü pozulmuşdur. Tarixi torpağımız olan Dağlıq Qarabağ, Zəngəzur erməni işğalındadır. Gənclərimiz tarixi sima, böyük sərkərdə olan xalq qəhrəmanlarımız Sultan bəy və Xosrov bəy qardaşlarının keçdiyi yoldan ibrət götürərək Qarabağı azad edəcəyimiz haqqında hər gün fikirləşməlidirlər.

Mən Laçın rayonunda doğulub böyümüş, bütün şüurlu həyatını balalarımızın təlim-tərbiyəsinə həsr etmiş bir müəllim olaraq hər bir azərbaycanlının adı ilə qürur duyduğu Sultan bəy və Xosrov bəy qardaşları haqqında kitabın yazılıb işıq üzü görməsini ürəkdən alqışlayıram və bunu çoxdan istəyirdim. Bu kitab, inanıram ki, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində də mühüm rol oynamaqla, həm də nəşləri Anadolu torpaqlarında uyuyan Sultanov qardaşlarının ruhunu da sevindirəcəkdir.

Bu kitabın müəllifinə, nəşrinin təşəbbüskarı olan "Zəngəzur" Cəmiyyətləri Birliyinə və əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm.

***Tapdıq Abbasov, müəllim, Laçın rayonu***



**Laçının füsunkar Bozlu kəndi**







**Bütün zəngəzurlular kimi laçınlılar da qaçqınlığa məruz qaldılar**



**Həkəri çayı Laçın sahəsində**



**Erməni faşizminə qarşı ana fəryadı**



**Laçında Alban daş üzərində iş nümunəsi**



**Laçının Həkəri çayı boyunca bir görünüş (Zeyvə kəndi)**



**Ocaqqulu Musayevin qəbirüstü abidəsi**



**Zeyvə kəndi Soltanbaba türbəsi**



**Laçının Şəlvə kəndi və şəlvə təbiəti**



**Laçın-Şuşa yolundan bir görünüş**



**Zəngəzurun Laçın bölgəsində**
**eradan əvvəl qəbirüstü abidələr**



**Laçının Pircan kəndi ərazisində qədim qəbirüstü abidələr**









**Laçının Zabux kəndi ərazisində orta əsrə aid**
**Sümüklü və Xallanlı qəbiristanlığı (XVI əsr)**





**Laçının Qarıqışlaq kəndində Dəmirovlu pir-məbədi. Atəşpərəstlik dövrü**



Bazarçay üzərində tağlı körpü



Onbeş aşırımlı Xudafərin körpüsü. VII əsr



Sınıq Karvansara



Mığrı bölgəsi




Alban əlifbası (10 sait, 42 samit)



Ağuri qəbirüstü abidəsi



Minkəndi. İkitağlı körpü. XIX əsr



Di gəl ki, yarı gördüm gözü yaşlı, sözü qanlı
Yoxdu bu dərdimə çarə...
**Ağvan nəslindən İftixar. 986-cı il. Urud kəndi**



Laçında Ağoğlan kimsə-məbədi



Laçının Aşağı Fərəcan ərazisində çoxtağlı körpü



**Laçının Cicimli kəndi ərazisində qədim qəbirüstü abidələr (yeni eradan əvvəl)**



**Laçının Abdallar (Bəylik) kəndi ərazisində dəmir dövrünə aid qəbirüstü abidələr**







Laçının Cicimli kəndində məbəd





Laçının Malıbəy kəndi ərazisində eradan əvvəl qəbirüstü abidələr



**Laçının Cicimli kəndində qədim türbə**



**Laçının Hacılar kəndi ərazisində bulaq-abidə**

 

**Laçının Abdallar (Bəylik) kəndi ərazisində dəmir dövrünə aid daş qutu. Qədim qəbiristanlıq**



**Laçının Abdallar (Bəylik) kəndi ərazisində dəmir dövrünə aid daş qutu və qədim qəbiristanlıq**



**Laçının Kişpəyələri kəndində Alban kimsəsi**



**Laçının Güləbird kəndi ərazisində görkəmli bayatı ustadı Sarı Aşığın məzarı (təmirdən əvvəl)**





**Laçının Minkənd çayı üzərində XV əsrə aid ikitağlı körpü-məbəd**



**Laçının Kosalar kəndi ərazisində atəşpərəstlik dövrünə aid qədim qəbiristanlıq**



**Laçının Zeyvə kəndi ərazisində Sultanbaba, Şeyx Əhməd türbələri və Qədim Qəbiristanlıq**





**Laçının Quşçu kəndi ərazisində bulaq-abidə**



**Laçının Varazqun kəndi ərazisində məbəd**



**Laçının Qarasaqqal kəndi ərazisində XVI əsrə aid türbə**





**Laçının Qarıqışlaq kəndində XI əsrə aid Dəmirovlu pir məbədi**



**Laçının Quşçu kəndi ərazisində Uşaq qalası adlı qala (XV əsr)**



**Laçının Sadınlar kəndində qədim abidə**



Laçının Soyuqbulaq kəndi ərazisində bulaq-abidə



Laçının Soltanlar (Hüsülü) kəndi ərazisində eradan əvvələ aid qəbirüstü abidə



Laçının Malxələf kəndi ərazisində ikitağlı Sınıq körpü

Laçının Pircan kəndi ərazisində eradan əvvələ aid məbəd və abidələr









Laçının Şəlvə kəndi ərazisində Atəşpərəstlik dövrünə aid abidə







**Laçının Mirik kəndi ərazisində XV əsrə aid məbəd**



**Laçının Minkənd ərazisində qədim kimsə-məbəd**



**Laçının Cicimli kəndi ərazisində Alban kimsə-məbəd**



Sultan bəyin nəvəsi Elbrus bəy babasının məzarı başında



Sarı Aşığın uyuduğu Laçın torpağı



Laçın şəhərindən bir görünüş





Laçın şəhərində ana və uşaq abidəsi

Laçın şəhərində N.Nərimanovun heykəli



Laçın şəhərindən başqa bir görünüş





Laçının Zeyvə kəndində qədim türk döyüşçüsünün qəbirüstü abidəsi

Az.SSR Ali Sovetinin sədri Q.Xəlilov və Laçının 1-ci katibi M.Cabbarov Sovet İ.Q. Əvəz Verdiyevin heykəli önündə




Laçın şəhərində 2-ci dünya müharibəsi şəhidlərinə ucaldılmış abidə



Laçın şəhəri 1974-cü ildə



Laçın şəhəri 1924-cü ildə





Laçın şəhəri yaxınlığındakı qədim qəbirüstü abidə

Laçın dağı ətəyindən axan Zabux çayı



Laçın şəhəri 1960-cı illər








**Qarakilsə məbədi (VI–VII əsr)**

Bütün Şərq dünyasında
ilk Demokratik Cümhuriyyətin
yaradıcısı M.Ə.Rəsulzadə





Az. KP MK-nin
1-ci katibi işləmiş
M.C.Bağırov



Sərraf, Şiruyə və xalq yazıçısı Əli Vəliyev



**İlk xalq yazıçısı**
**Sosialist əməyi qəhrəmanı**
**Süleyman Rəhimov**
**(Dədə Süleyman)**



**Xalq yazıçıları soldan: İ.Əfəndiyev, B.Bayramov, R.Rza**



Qarabağın general qubernatoru
Xosrov bəy



İkinci Dünya Müharibəsində Avropada
M.Ə.Rəsulzadə və Xosrov bəy Sultanova
yardımçı olmuş Sovet zabiti İsrafil bəy



Əslən Zəngəzurdan olan, Zəngəzur cəmiyyətlər birliyinin bir qrup ziyalıları



**Beynəlxalq əlifbanın müəllifi, ornamentalist, astroloq, sosio-linqvisistik, filoloq IV Alməmməd bəy**




**Alməmməd bəy şah Xətainin təxəllüsünün ilk açılışı müəllifidir**



**Alməmməd bəyin Rəsul Rzanın nəbati ornamentlərindən yaratdığı portreti**




**Alməmməd bəyin yaratdığı qəbirüstü başdaşları**



Sultan bəy Paşa bəy oğlu Sultanov
XX əsrin əvvəlləri



Peterburqda təhsil almış, Bakı Neft Sənayesində Əmir bəylə bir yerdə işləmiş və 1918-ci ildə ermənilərlə mübarizədə Sultan bəyə yardımçı olmuş Cəlil bəy



Türk müsəlman SSRİ əsgərlərinin alman sobalarında yandırılmasının qarşısının alınmasında xüsusi xidmətləri olmuş İsrafil bəy oğlu və gəlini ilə



Laçın dağları yazda



Laçın dağları qışda



Yazıçı-publisist, t.e.d.,
professor Ziyadxan Nəbibəyli
yazıçıların yaradıcılıq evində



Beynəlxalq görüşdə – sağdan Səif Nəfisi (İran), Ə.Dəmirçizadə (Azərbaycan), Əli Məhfuz və onun xanımı (İraq) və arxada Alməmməd bəy (Bakı)



Yollar dağlara aparır



Laçının dağ gözəllərindən biri



Laçına aparan dağ yolları



Laçın Qurtgəzi yolu



Laçının yaylaq yollarından



Laçın meşələrinə payız gəlib



Buradan Zəngəzur yaxşı görünür



Dağlar yağış gözləyir



Laçında yaşayış dağətəyi yerlərdədi



Həkəri çayı (Qubadlı ərazisi)



Qurtgəzidən Ərikliyə gedən el yolu



Zəngəzur sultanı Murtuza bəyin
Araflı kəndi ərazisi



Almәmməd sultanın Alıqulu kəndinin
üst hissəsi



Pircan çayından
Ərdəşəviyə aparan yol



Laçın – Qaragöl gölü



Laçın dağlarının qış mənzərəsi


Laçında adi otlar bitmir


Laçında çoxsaylı təbii kahalardan biri


Laçının Ağanus kənd meşəsi


Laçının Bülövlük kəndində
Cabbar yurdunun üst görünüşü


Laçının Pircan kəndi təbiətindən
bir görünüş


Laçınlı Cəbrayıl bəyin
Sultanbud meşə sahəsi



**Laçının Hacısamlı bölgələrindən biri**



**Laçının Kişpəyləri ərazisindən bir mənzərə**



Laçın Pircan yolu



Bu yol Sizi Ardıclı və Fərrac kəndinə aparır



**Zəngəzuru yarıya bölən Həkəri çayı**



**Bozlu – Minkənd bölgəsi**



**Tavan evi**





Qurtgəzi kəndi ərazisində
Sultan bəyin meşəsi

Alxaslı mənzərələri



Aşağı Zəngəzura aparan yol



Zəngəzurda qəsrə bənzər dağlardan biri



**Laçında eradan əvvəllərə aid qəbirüstü abidələr**



**Laçın şəhəri başqa bir görünüşdə**



**Sultan bəyin bölgəsi Hacısamlıdan bir görünüş**



Minkənd
kəndi



Vağazin
kəndi



Alxaslı
kəndi



Ərdəşəvi
kəndi

# MÜRACİƏT EDİLMİŞ ELMİ-TARİXİ MƏNBƏLƏR

1. M.İsmayılov–Səninulubaban.Bakı,Azərnəşr,1989-il,302s.

2. Q.Ə.Qeybullayev – Azərbaycanlıların etnik tarixinə dair. Bakı, “Elm”, 1994-il, 102 s.

3. Y.N.Qumilyev – Qədim türklər. Bakı, “Gənclik”, 1993-il, 536 s.

4. M.Seyidov – Azərbaycan xalqının soy kökünü düşünərkən. Bakı, “Yazıçı”, 1983, 326 s.

5. F.Sümər – Oğuzlar. Bakı, “Yazıçı”, 1992-il, 432 s.

6. N.Vəlixanlı – IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, “Elm”, 1974-il, 223 s.

7. Qəmərşah Cavadov – Əkinçilik mədəniyyətimizin sorağı ilə. Bakı, Azərnəşr, 1990-il, 167 s.

8. M.Vəlili (Baharlı) – Azərbaycan coğrafi – təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı, Azərnəşr, 1990-il, 167 s

9. A.Fazili – Atropatena (er. əvvəl IV-er. VII əsr). Bakı, “Elm”, 1992-il, 216 s.

10. A.Qren – Qafqaz keçidinin müxtəsər tarixi. 1-ci cild (Büdpərəstlik dövrü)

11. Q.Ə.Qeybullayev – Qarabağın etnik və siyasi tarixinə dair. Bakı, “Elm”, 1990-il

12. Ə.Rüstəmli – Qədim Oğuz yurdu Zəngəzurun türk mənşəli yerd-yurd odları. Bakı, 1998-il.

13. Z.Bünyadov – Azərbaycanın VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336 s.

14. Z.Nəbibəyli – Zəngəzurun qısa tarixi və coğrafiyası. Bakı, “Qanun”, 2000-il, 72 s.

15. Z.Nəbibəyli – Laçın bölgəsinin kənd adları. “yeni Qafqaz” qəzeti, №9 17 may 2005-ci il.

16. Z.Nəbibəyli – Mənən yeniləşməyə ehtiyac var. “Azadlıq fədailəri” qəzeti, №03,21 yanvar, 2008-il

17. Z.Nəbibəyli – Milli münasibətlərdə etnik psixika.“Azadlıq fədailəri” qəzeti, №01,16 yanvar 2008-il

18. Z.Nəbibəyli – “Xalqın ruhu pozularsa tarix səhnəsindən çıxır. “Millətin səsi” qəzeti, №03(11), 18 iyul 1997-il

19. Z.Nəbibəyli – “Üzeyir bəy Həzin xatirələrdə. “Millətin səsi” qəzeti, 1 may 1997-il

20. Z. Nəbibəyli – Bir şey ki, gözəldir onun tərifə ehtiyacı yoxdur – L.N.Qumilyov. “Millətin səsi” qəzeti, №1, 9 yanvar 1998-il

21. Z.Nəbibəyli – Laçın səndə nəyim qaldı. “Zəngəzurun altun tacı Laçın”, “Maarif Soltan” nəşriyyat, Bakı – 2009-il, 270 s.

22. Z.Nəbibəyli – Milyon faciələrimizdən biri. “Türkəm, tanrıçıyam və ya dön geriyə bax”. Bakı, “Araz” nəşriyyat, 2009-il. 136 s.

23. Z.Nəbibəyli – Zəngəzura kürdlərin (Qurdların) gəlişi. “Zəngəzurun altun tacı – Laçın”, Bakı, 2009-il “Maarif Soltan” nəşriyyatı, 270 s.

24. Z.Nəbibəyli – Laçında dini-mənəvi dəyərlər tarixindən. “Laçın - 85”, “Araz” nəşriyyatı Bakı, 2009-il, 150 s.

25. Z.Nəbibəyli – Laçında memarlıq və tarixi maddi-mədəniyyət abidələri. “Laçın–85”, ”Araz” nəşriyyatı, Bakı-2009-il, 150 s.

26. Z.Nəbibəyli – Zəngəzurun altun taçı – Laçın. Bakı, “Marif-Soltan” nəşriyyatı, 2009-il 270 s.

27. Z.Nəbibəyli – Nikolay Birdyayevi xatırlarkən “Millətin səsi” qəzeti.

28. Z.Nəbibəyli – Türkçülüyün Məkkəsi Azərbaycandır. “Bakının səsi” qəzeti.

29. Z.Nəbibəyli – “Kitabi-Dədəm-Qoqud” Türkün müqəddəs dini-mənəvi kitabı kimi. “Türkəm Tanrıçıyam və ya dön geriyə bax”. Bakı “Araz” nəşriyyatı, 2009-il 136 s

30. Z.Nəbibəyli – Azərbaycanda münaqişə çoxluğunu bəzi aspektləri. “Yeni yol” qəzeti, № 54, 55,56,57,58,59, mart-aprel 2008-il.

31. Z.Nəbibəyli – Laçın Ataların yolu ilə

32. Z.Nəbibəyli – Türklər, ermənilər, ruslar və biz.

33. Z.Nəbibəyli – Azərbaycan adı tarixindən. “Zəngəzurun altun tacı”, Bakı, “Marif Soltan” nəşriyyatı, 2009-il. 270 s.

34. Z.Nəbibəyli – Ukraina təsuratları. “Yeni yol” qəzeti, №61, 26 may 2008-il.

35. Z.Nəbibəyli – Üzeyir Hacıbəyli, Məmməd Əmin Rəsulzadə, Ramiz Rövşən və mən. “Yeni yol” qəzeti, №64, 28 iyul 2008-il.

36. Z.Nəbibəyli – Laçın bölgəsində yaşamış və yaşayan əhalinin soy kökü. “Zəngəzurun altun tacı – Laçın”. Bakı. “Maarif Soltan” nəşriyyatı. 270 s.

37. Z.Nəbibəyli – Şumer türkləri haqqında. “Türkəm, Tanrıçıyam və ya dön geriyə bax” Bakı. “Araz” nəşriyyatı, 2009-il, 136 s.

38. Z.Nəbibəyli – Avropadan bizə lazım olanları öyrənək.

39. Z.Nəbibəyli – Badalarımız, yaxşı tanıyırıqmı.

40. Z.Nəbibəyli – Azərbaycan türklərinin xalq feneologiyasından.

41. Məhəmməd Cavad Məşkur – Nəzəri be tarix-e Azərbaycan. Tehran, 1340 il.

42. Q.Ə.Qeybullayev – Azərbaycanlılarda ailə və nigah. Bakı-1994-il.

43. İqrar Əliyev – Dağlıq Qarabağ : tarix, faktlar, hadisələr. Bakı, 1989-il.

44. H.Cəfərov – Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəlində. Bakı 2000-il.

45. A.Lalayan – “Əksinqilabçı “Daşnaksutyun” və 1914-1918-ci illər imperialist müharibəsi”. Az. SSR Elmlər Ak-nın xəbərləri. Tarixi, fəlsəfi və hüquq seriyası, 1989, №4, s. 56.

46. Erməni “Daşnaksutyun ” partiyasının təşkili və fəaliyyəti haqqında məlumat. Az.SSR Elmlər Ak-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №4, s.56.

47. "İ.İ.Vorontsov – Daşkovun Nikolay Romonova" məktublarından ("Qırmızı Arxiv", №+ (26), M., 1928, s. 118-120). Az.SSR Elmlər Ak-nın xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №4, s. 62.

48. H.Sadıqov – "XIX əsrin əvvəllərində rusiyanın xarici siyasətində Qafqaz problemi." Az. SSR Elmər Ak-nın xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1990. №3, s. 28-35.

49. Əlimərdan bəy Topçubaşov – "Azərbaycanın təşəkkülü". Az. SSR Elmlər Ak-nın xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1990, №3, s. 114-135.

50. N.Heydərov – "Zəngəzur dağlarında" Bakı, Az-n Dövlət nəşriyyatı, 1972, 226 s.

51. N.Nərimanov – "Mərkəzi Komitə, Stalin yoldaşa." Az. SSR. Elmər Ak-nın xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1989, №4, s.71-75. Və "Azərbaycan" qəzeti, №14, 21(8) oktyabr, 1918-il.

52. Xəlil İbrahimov – "Qarabağda vəziyyət və həyəycanlı günlər". "Azərbaycan qəzeti"? № 16, 23 (10) oktyabr, 1918: № 20,28(15) oktyabr 1918: №24,01 noyabr (19 oktyabr) 1918:

53. "Daxili İşlər Nazirliyi sənədlərindən çıxarış." (iz delo №80-1918 г. IV otd). Az.SSR Elmər Ak-nın xəbərləri. Tarixi, fəlsəfi, hüquq seriyası, 1918, №4, s. 83-92.

54. "Azərbaycan qəzetində parçalar" – "Azərbaycan" qəzeti, №21, 30 (17) 7 yanvar 1919-il: №23, 01 fevral 1919-il: №29, 8 fevral 1919-il: №30, 9 fevral 1919-il: №32, 12 fevral 1919-il: №42, 25 fevral 1919-il: №52, 9 mart 1919-il: №73, 27 mart 1919-il: №122, 15 iyun 1919-il: №123, 17 iyun 1919-il:№125, 1919-il:№122, 15 iyun 1919-il: 122, 15 iyun 1919-il : №123, 17 iyun 1919-il :№128, 22 iyun 1919-il: "Qruziya", (ЦГАОР. ССР, Ф. 970, он. Д.10, 167, л. 1,2,3 ) №130, 25 iyun 1919-il: ЦГАОР Аз ССР, Ф.970, он. Т.д. 142, л. 56-63: ЦГАОР Az ССР, Ф 894, он. 10, д.104, л.1-3: ЦГФОР Фз ССР, ф. 897, он. 1, д. 112, л.19:

55. Deputat Çandlerin Əlimərdan bəy Topçubaşova məktubu. Az. SSP Elmər Ak-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, №4, s.128-137

56. Z.Nəbibəyli – "Türkəm, Tanrıçıyam və ya dön geriyə bax". Bakı – "Araz" – 2009-il, 136s.

57. Z.Nəbibəyli. İ.Cəlilbəyli – "Beynəlxalq hüquq, idarəçilik və iqtisadiyyat". Bakı, AzTU-nun mərtəbəsi, 2010-il, 300 səh.

58. E.Şahmar – "Böyük Vətənpərvər ", "Torpaq həsrəti" kitabı, Bakı, "Nərgiz" nəş-tı. 2008-il, s. 49-64.

59. "Azərbaycan respublikasının ünvan-təqvimi" Az.SSP Elmlər Ak-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1989, №4, s.137-151.

60. Karibi – "Qırmızı kitabı"ndan hissələr. Az.SSP Elmər Ak-nın xəbərləri. Tarixi, fəlsəfə, hüquq seriyası, 1989, № 4, s. 151-166.

61. Zimistan Həsənov, Məhəmməd Nərimanoğlu – "Kəlbəcər Azərbaycanının qala qapısı". Bakı – 2001-il.

62. Müslüm Şahüseynov – "Onlara güzəşt oluna bilməzdi". "Qəbələ" qəzeti, 13 aptel 2000-il.

63. Z.Bünyadov – "Nə üçün Sumqayıt? Az.SSP Elmər Ak-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, №2, s.115.

64. A.Şepotev – "Öz müqəddəratını təyin etmiş Azərbaycan türklərinə məxsus Qafqazın mübahisəli əraziləri haqqında". Az.SSP Elmlər Ak-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1990-il, №2, səh.42-62.

65. "Ata yurdu" – Azərbaycan xalq cəbhəsi "Zəngəzur" cəmiyyətinin bülleteni, №1

66. Z.Nəbibəyli – "Xosrov bəy əsirlikdəki həmvətənlərimizi necə xilas etdi", "Son söz" qəzeti, №6(56), 3-10 aprel 1999-il.s.4

67. Almәmməd Nəbibəyli – "Xalq qəhrəmanı Sultan bəy" "Dədəm Qorqud" qəzeti, 1991-il, №4.s.7

68. Almәmməd Nəbibəyli – "Sultan bəy kimdir?" "Azərbaycan" qəzeti, №13(76), 30 mart 1991-il, s.2

69. Elnaz Xəlilqızı – "Sultan bəy kimdir?" "7 gün" qəzeti, №23(64), 20 iyun 1992-il s. 2

70. Z.Nəbibəyli – "Qarabağın general-qubernatoru" "Bütöv Azərbaycan " qəzeti, №14(102), 3 may 2011-il.

71. Z.Nəbibəyli – “Sultan bəyə layiq olduğu qiyməti verək” “Bütöv Azərbaycan” qəzeti, № 10(98) 5 aprel 2011-il.

72. Z.Nəbibəyli – Sultan bəy Zəngəzurun xilaskarı kimi “Təzadlar” qəzeti,

73. Z.Nəbibəyli – Sultan bəyə öz dəyərini verək “Milli qəhrəman” qəzeti

74. Z.Nəbibəyli – Sultran bəy Paşa bəy oğlu “Zəngəzurun səsi” qəzeti

75. Z.Nəbibəyli – Sultan bəyin Andranikə verdiyi dərs “Qarabağ” qəzeti

76. Z.Nəbibəyli – Sultan bəyin Andranik üzərindəki qələbəsi hərb tariximizin şərəfli səhifələrindən biridir”. “Ocaq” qəzeti №06 (131), 14 aprel 2011-il.

77. Z.Nəbibəyli – “Xosrov bəyi Sultan bəydən ayırmaq olmaz”. “Milli qəhrəman” qəzeti, №15, 16,17, 12.05.2011-il

78. Musa Urud – Zəngəzur”, Bakı, “Nurlar” nəşriyyatı 2005-il, 504 səh

79. З.И.Ятполъский – Древняя Албания III – 1 вв до н.э Баку, 1962 г.

80. Л.Н.Гумилев – Этногенез и биосфера земли. Москва, 2002 г.

81. С.П.Зелинский – Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветполъской губернии. МИЭБГКЗК – Тифлис, 1866 г,т.ч.

82. И.Ф.Петрущевский – О дохристианских верованиях Нагорного Карабаха. Баку, 1930 г.

83. Л.Н.Гумилев – Тысячелетие вокруг Каспия. Баку – 1991 г.

84. К.Алиев – Античные источники по истории Азербайджана. Баку – 1986 г.

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz əvəzi ..................................................................... 4

I. Qarabağ – Zəngəzurun və onun Laçın bölgəsinin etnomənəvi tarixindən ..................................................................... 6

II. Zəngəzur tarixinə qısa bir baxış ..................................... 27

III. Sultan bəyə öz dəyərini verək ..................................... 49

IV. Sultan bəyin tərənnümü ..................................... 66

V. Sultan bəydən bəzi dəqiqləmələr..................................... 90

VI. Süleyman Rəhimov Sultan bəy haqqında........................... 101

VII. M.C.Bağırov, S.Sultan bəy, Ə.Müseyib bəy və ya kimdir günahkar?! ..................................... 104

VIII. Qarabağın general-qubernatoru .....................................116

IX. Bəzi mənbələr Xosrov bəy haqqında ............................ 134

X. Paşa bəy Zəngəzurun fəxr edəcəyi ağsaqqaldır .................. 144

Ziyalı məktubu..................................... 166

Müraciət edilmiş elmi-tarixi mənbələr..................................... 168




**Laçın bölgəsinin inzibati xəritəsi**

***“Zəngəzur” Cəmiyyətləri Birliyi və müəllifdən:***

***kitabın işıq üzü görməsinə göstərdiyi maddi dəstəyə görə Laçın torpağının dəyərli yetirməsi iqtisad elmləri üzrə fəlsəfə doktoru Mahir Tapdıq oğlu Abbaszadəyə təşəkkürümüzü bildiririk. Allah qorusun!***

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV

Yığılmağa verilmişdir: 03.08.2011
Çapa imzalanmışdır: 18.08.2011
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 14,0
Sifariş: 176/11. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com